# İLHAM ƏLİYEV

# İNKİŞAF– MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİ DOQQUZUNCU KİTAB

## FEVRAL 2008 - APREL 2008

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR ✸ NİTQLƏR

BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✸ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Moskvaya – MDB üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşünə səfəri, Rusiya prezidenti Vladimir Putinlə görüşü və zirvə toplantısında iştirakı, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru adı ilə təltif olunması, həmçinin Polşaya rəsmi səfəri, prezident Lex Kaçinski ilə danışıqları, Polşa Respublikasının «Xidmətlərə görə» Böyük Xaç ordeni ilə mükafatlandırılmasına dair materiallar verilmişdir.

Kitabda həmçinin Bolqarıstan prezidenti Georgi Pırvanovun Azərbaycana işgüzar səfəri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsilə əlaqədar Füzuli, Beyləqan, Biləsuvar rayonlarına səfərləri, görüş və çıxışları, nitqləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri, şirkət rəhbərləri ilə görüşlər, danışıqlar, kütləvi informasiya vasitələrinə və televiziya kanallarına verdiyi müsahibələr də yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

Ə $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2016}}$ **BBK - 32**

© Azərnəşr, 2016

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Çexiya arasındakı dostluq münasibətlərinin, siyasi, iqtisadi əlaqələrimizin və əməkdaşlığımızın hərtərəfli inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Çexiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 fevral 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ – SƏRHƏD XİDMƏTİNİN RƏİSİ, GENERAL VLADİMİR PRONİÇEVİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*20 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Prezident sarayında Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini – sərhəd xidmətinin rəisi, general Vladimir Proniçevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Rusiya əlaqələrinin bütün sahələrdə, o cümlədən sərhəd xidməti sahəsində də uğurla inkişaf etdiyini vurğuladı. Ölkələrimizin ayrı-ayrı strukturları arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev qonağın bu səfərinin sərhəd xidməti sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

*General Vladimir Proniçev Azərbaycana növbəti dəfə səfərindən məmnun olduğunu bildirdi. O, iki ölkənin müvafiq strukturları arasında əməkdaşlığın sıx olduğunu və bu səfərin əlaqələrin daha da genişləndirilməsinə xidmət edəcəyini vurğuladı.*

## ABŞ SENATORU SEM BRAUNBƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Prezident sarayında ABŞ senatoru Sem Braunbəkin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. İki ölkə arasında energetika sahəsində keçən əsrin 90-cı illərinin ortalarından başlanmış səmərəli əməkdaşlığın hazırda da müvəffəqiyyətlə davam etdirildiyini xatırladan prezident İlham Əliyev bunun ikitərəfli əlaqələrin mühüm elementi olduğunu vurğuladı.*

*Ölkəmizdə gedən inkişaf proseslərindən məmnunluqla söhbət açan senator Sem Braunbək Azərbaycanda son illər böyük nailiyyətlər əldə edildiyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji sektorunda münasibətlərin gələcək inkişafı məsələləri müzakirə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ

*Heydər Əliyev Beynəlxalq Aeroportu*

*20 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün fevralın 20-də Rusiya Federasiyasının paytaxtı Moskvaya yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

***

*Fevralın 20-də Azərbaycan prezidenti İlham Əliyev Moskvaya gəlmişdir.*

*Vnukovo–2 hava limanında Azərbaycan dövlətinin başçısını Rusiya Xarici İşlər nazirinin birinci müavini Andrey Denisov və digər rəsmi şəxslər qarşıladılar.*

*Prezident İlham Əliyev onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞÜ

*21 fevral 2008-ci il*

*Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu, ilk növbədə, zirvə görüşündə iştirak etmək üçün Moskvaya gəlməyə imkan tapdığınız üçün Sizə təşəkkür etmək istəyirəm. İqtisadi əməkdaşlıq sahəsində xeyli irəliləyiş var. Keçən il əmtəə dövriyyəsinin artımı əvvəlki ildəki kimi nəzərəçarpan olmasa da, hər halda, dinamika çox yaxşıdır.

Biz Rusiya sərmayədarlarının Azərbaycan iqtisadiyyatına getdikcə daha çox vəsait qoymasını məmnunluqla vurğulayırıq. Rusiya şirkətlərinin işləməsi üçün ölkənizin hökumətinin yaratdığı şəraitə görə Sizə təşəkkür edirik. Mən bu şirkətlərin adlarını sadalamayacağam, onlar yaxşı məlumdur. Bütövlükdə, qarşılıqlı əlaqələr inkişaf edir, əməkdaşlıq möhkəmlənir, o cümlədən də energetika sahəsində. Bəzi məsələlər var və mən onları Sizinlə müzakirə etmək istərdim. Sizi Moskvada görməyimdən çox şadam, xoş gəlmisiniz.

**İlham Əliyev:** Vladimir Vladimiroviç, ilk növbədə, Moskvaya gəlmək barədə dəvətinizə və Sizinlə görüşmək, ikitərəfli əlaqələrimizi müzakirə etmək imkanına görə sağ olun. Mən Sizinlə tamamilə razıyam, bizim münasibətlərimizdə heç bir problem yoxdur. Biz bütün istiqamətlərdə – istər siyasi, istərsə də iqtisadi baxımdan, humanitar əməkdaşlıq məsələlərində inamla irəliləyirik. Ölkələrimiz çox

səmərəli əməkdaşlıq edir və bizim dostluq, mehriban qonşuluq münasibətləri kimi səciyyələndirdiyimiz münasibətlər ümumən möhkəmlənir.

Siz Azərbaycanda yaxşı investisiya mühitinin olmasını vurğuladınız. Rusiya şirkətləri ölkəmizdə özlərini rahat hiss edir, yerli şirkətlər kimi, onlar da eynilə bütün hüquqlardan istifadə edirlər. Biz Rusiya şirkətlərinin Azərbaycanda sərmayələrinin artmasını alqışlayırıq. Onu da deməliyəm ki, hazırda bir çox şirkətlər tikinti, infrastruktur obyektləri ilə bağlı müxtəlif layihələrdə podratçı kimi iştirak edirlər.

Biz biznes strukturları arasında münasibətlərin səviyyəsindən də çox razıyıq. Biznes strukturları da öz işlərində rəhbərliyə istiqamətlənir və düzgün də edirlər. Buna görə də onlar ölkələrimiz arasında belə fəal siyasi qarşılıqlı əlaqələri gördükdə özlərini daha inamlı və rahat hiss edirlər. Azərbaycan şirkətləri də Rusiya bazarında işləyir və onlar da bütün hüquqlardan istifadə edirlər. Bir sözlə, mən münasibətlərimizin bu şəkildə inkişaf etməsindən məmnunluğumu bildirmək istərdim. Bugünkü görüşümüzdə, əlbəttə ki, həm ikitərəfli məsələləri, həm də regional əməkdaşlıq məsələlərini, habelə dünyada baş verən və müzakirəsinə ehtiyac duyulan prosesləri müzakirə etmək istərdim.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADININ VERİLMƏSİ MƏRASİMİ

*21 fevral 2008-ci il*

*M.V.Lomonosov adına Moskva Dövlət Universitetində Azərbaycan prezidenti İlham Əliyevə dünya şöhrətli bu tədris müəssisəsinin Fəxri professoru adı verilməsi münasibətilə universitetin Elmi Şurasının təntənəli iclası olmuşdur.*

*MDU-nun rektoru akademik Viktor Sadovniçi Azərbaycan dövlətinin başçısını, onun xanımı Mehriban Əliyevanı və qızını – Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanı universitetin əsas giriş qapısının yanında səmimiyyətlə qarşıladı.*

*Elmi Şuranın iclasının iştirakçıları salona daxil olan Azərbaycan prezidentini hərarətlə qarşıladılar.*

*Təbrik sözü ilə çıxış edən MDU-nun rektoru Azərbaycan dövlətinin başçısının tərcümeyi-halının və siyasi fəaliyyətinin əsas mərhələləri, onun beynəlxalq aləmdə uğurları barədə məlumat verdi. Viktor Sadovniçi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşləri barədə xatirələrini də söylədi, bu görkəmli siyasi xadimin MDU-ya göstərdiyi diqqət və qayğını vurğuladı.*

*MDU-nun rektoru Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafına, hər iki ölkənin xalqlarının rifahı naminə təhsilin və elmin inkişafına, Azərbaycanın MDU ilə səmərəli əməkdaşlığına verdiyi sanballı töhfələrə görə prezident İlham Əliyevə MDU-nun Fəxri professoru adı verilməsi barədə Elmi Şuranın qərarını oxudu.*

*Sonra Azərbaycan prezidentinə MDU-nun Fəxri professoru diplomu və medalı təqdim edildi. Mərasimdə çıxış edən universitetin kimya fakültəsinin dekanı akademik Valeri Lunin, MDU-nun birləşmiş həmkarlar ittifaqı komitəsinin sədri*

*İqorKotlobovski Azərbaycanın iqtisadi sahədə uğurlarını, ölkənin bütün sahələrdə, o cümlədən təhsil və idman sahələrində dinamik inkişafında prezident İlham Əliyevin xidmətlərini vurğuladılar. Ali riyaziyyat və kibernetika fakültəsinin üçüncü kurs tələbəsi, MDU-nun Azərbaycanlı Gənclər Klubunun sədri Ülfət Əliyev bu nüfuzlu ali məktəbdə təhsil alan 200-dən çox azərbaycanlı tələbə adından prezident İlham Əliyevi yüksək ada layiq görülməsi münasibətilə təbrik etdi və dövlətimizin başçısını əmin etdi ki, azərbaycanlı gənclər Rusiya paytaxtında ölkəmizi ləyaqətlə təmsil edəcəklər.*

*Azərbaycan prezidenti universitetin tələbə və müəllimləri qarşısında mühazirə ilə çıxış etdi. Dövlətimizin başçısı bu şöhrətli ali məktəbin professoru olmaq şərəfinə layiq görüldüyü üçün universitetin Elmi Şurasına təşəkkürünü bildirdi. O, Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksək səviyyədə olmasını vurğulayaraq dedi ki, bu münasibətlər hərtərəfli və müxtəlif səpkilidir, hər iki dövlətin başçıları bunu regionda sülhün, təhlükəsizliyin və davamlı inkişafın təminatı kimi qiymətləndirirlər. Prezident İlham Əliyev xüsusi vurğuladı ki, 2000-ci ildən bəri iki dövlət arasında münasibətlər yeni mərhələyə – strateji tərəfdaşlıq mərhələsinə çatmışdır.*

*Dövlətimizin başçısı humanitar sahədə əməkdaşlıq məsələləri üzərində ətraflı dayanaraq bildirdi ki, Bakıda Slavyan Universiteti, təhsilin rus dilində olduğu məktəblər fəaliyyət göstərir, rus dilində qəzetlər nəşr edilir. Azərbaycan cəmiyyətində beynəlmiləlçilik və tolerantlıq ənənələri çox güclüdür. Bakıda MDU-nun filialının açılması iki ölkə xalqlarının bir-birinə yaxınlaşmasına yönəlmiş daha bir amil olacaqdır.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın büdcəsində müdafiə sahəsindən sonra ikinci ən mühüm sahə təhsildir. 2007–2015-ci illərdə azərbaycanlı tələbələrin xarici ölkələrdə təhsil almaları üçün Dövlət Proqramı qəbul edilmişdir. Son illərdə ölkədə ən müasir kompyuter avadanlıqları ilə təchiz olunmuş 1200 ümumtəhsil məktəbi tikilmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın və Rusiyanın elm və təhsil dairələri arasında əməkdaşlığın fəallaşdırılmasını arzuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNDƏ NİTQİ

Hörmətli Viktor Antonoviç!
Hörmətli Elmi Şura üzvləri!
Əziz dostlar!

Əvvələn, Viktor Antonoviç, sizə və mənə MDU-nun – dünya şöhrətli, mövcud olduğu bütün illər ərzində təhsilin yüksək markasını qoruyub saxlamış ali məktəbin Fəxri professoru kimi yüksək ad verilməsi barədə qərar qəbul etmiş Elmi Şuranın üzvlərinə ürəkdən təşəkkür etmək istərdim.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin, o cümlədən humanitar sahədə münasibətlərin inkişafına verdiyim töhfəyə görə bu adı almağım mənə ikiqat xoşdur. Hazırda bizim münasibətlərimiz, həqiqətən, çox dinamik və səmərəli inkişaf edir. Bu münasibətlər mehriban qonşuluq, qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır. Əgər bu münasibətlərin tarixinə nəzər salsaq görərik ki, 2000-ci illərdən başlayaraq, yeni mərhələyə qədəm qoymuşdur.

Bu mərhələni həm Rusiya prezidenti, həm də mən strateji tərəfdaşlıq mərhələsi kimi səciyyələndiririk. Bu isə mahiyyət etibarilə həm ölkələrimiz arasında münasibətlərin ruhunu və xarakterini, həm də həmin münasibətlərin gələcək inkişafını necə təsəvvür etdiyimizi əks etdirir. Bizim münasibətlərimiz çoxtərəfli, çoxcəhətlidir. Onlar ölkələrimizdə siyasi və iqtisadi islahatları fəal surətdə həyata keçirməyimizə imkan verir. Artıq indi bir çox cəhətdən Qafqaz və Xəzər regionunda vəziyyətə təsir edir. Bu münasibətlər gələcəkdə nə qədər möhkəm olsa, bizim regionda təhlükəsizlik tədbirləri sistemi də bir o qədər möhkəm olacaqdır.

Biz mürəkkəb bir dövrdə və təhdidlərin, risklərin mövcud olduğu mürəkkəb bir regionda yaşayırıq. Ona görə də ölkələrimizi bir-birinə bağlayan məsələlərin bütün spektri üzrə Rusiya ilə Azərbaycanın fəal əməkdaşlığı sülhün, təhlükəsizliyin və sabit inkişafın təminatıdır. Ölkələrimiz çox dinamik inkişaf edir. İqtisadi artım sürətinə görə yaxşı göstəricilərimiz var. Beləliklə, mən şübhə etmirəm ki, həm ölkələrimizin daha da artan nüfuzu, həm müstəqil siyasət yeritmək imkanı, həm də iqtisadi azadlıq təbii ki, gələcəkdə regionda hadisələrin inkişafını əvvəlcədən müəyyənləşdirəcək və artıq dediyim kimi, yalnız müsbət mənada kömək edəcəkdir.

Fəxri professor diplomunda qeyd edilmiş humanitar sahədə əməkdaşlıq da çox vacibdir. Azərbaycanda biz hələ bir ölkədə yaşadığımız dövrdə mövcud olmuş bütün mehriban münasibətləri, əlaqələri, ünsiyyətləri qoruyub saxlamışıq. Hazırda Rusiya ilə Azərbaycan arasında humanitar əməkdaşlıq müxtəlif parametrlərlə və müxtəlif formalarla müəyyən edilir. Təkcə bunu demək kifayətdir ki, Azərbaycanda rus dilində təhsil verən 350-dən artıq məktəb vardır. Azərbaycanın dövlət universitetlərinin üçündə rus dili və ədəbiyyatı fakültələri vardır. Rus dili və ədəbiyyatı məsələləri ilə, həmçinin bütün slavyan ölkələrinin mədəniyyətinin öyrənilməsi ilə məşğul olan Bakı Slavyan Universiteti fəaliyyət göstərir. Azərbaycanın məktəblərində yüz mindən çox insan rus dilində təhsil alır. Milliyyətindən asılı olmayaraq, bizim ölkədə bütün insanların, bütün vətəndaşların dövlət dilində danışması, yüksək keyfiyyətli təhsil alması üçün də hər cür imkan mövcuddur.

Biz bunu çox yüksək qiymətləndiririk. Hesab edirik ki, bu bizim uğurlu inkişafımızın ən mühüm elementlərindən biridir. Ölkənin inkişaf səviyyəsini təkcə iqtisadi göstəricilərlə və ya təbii ehtiyatların olması ilə ölçmək mümkün deyildir.

Ölkənin inkişafı həm intellektual potensial, həm tolerantlığın səviyyəsi, həm də ölkədə millətlərarası, dinlərarası həmrəyliyin səviyyəsi deməkdir. Bu, ölkənin digər millətinə mənsub

insanlarının özlərini nə dərəcədə rahat hiss etməsi deməkdir. İctimai-siyasi formasiyadan asılı olmayaraq, Azərbaycan üçün həmişə səciyyəvi olmuş, hamıya məlum olan müsbət beynəlmiləlçilik ənənələri bütün bu istiqamətlərdə indi də qorunub saxlanmışdır və daha da artırılır. Beləliklə, bu, Azərbaycanın bütün vətəndaşlarına bizim ölkədə özlərini öz evində olduğu kimi, bir ailə kimi hiss etməyə imkan verir və bu da Rusiya ilə bizim ikitərəfli əməkdaşlığımızın mühüm elementidir.

Bəlkə də kiməsə qəribə görünəcək, amma hazırda Azərbaycanda rus dilində nəşr edilən qəzetlərin sayı sovet dövründə olduğundan bir neçə dəfə çoxdur. Bu onu göstərir ki, həmin qəzetlərə tələbat var, Azərbaycanda rus dili yaşayır və yaşayacaqdır. Heç şübhəsiz, Azərbaycanda MDU-nun filialının açılması, burada tamamilə haqlı olaraq deyildiyi kimi, həm siyasi xarakterli addımdır, həm də ikitərəfli münasibətlərin möhkəmlənməsinə yönəlmiş addımdır. Bu həm də bizim nəzərdə tutduğumuz bütün işlər üçün lazımi kadrları daha fəal surətdə və səmərəli şəkildə hazırlaya bilməyimiz üçün ölkəmizdə dünyanın aparıcı ali məktəblərindən birinin filialının yaradılmasına yönəlmiş addımdır.

Burada həm mənim haqqımda, həm də ölkəmiz haqqında çoxlu xoş sözlər deyildi, buna görə mən çox minnətdaram. Bu gün Viktor Antonoviç Heydər Əlirza oğlu Əliyevlə görüşlərini də xatırladı. Burada deyildi ki, onun təşəbbüsü ilə Azərbaycandan hər il minlərlə gənc müsabiqədənkənar şərtlərlə – yəni onlar qəbul imtahanlarını Bakıda verirdilər – SSRİ-nin, o cümlədən Moskvanın aparıcı ali məktəblərinə göndərilirdi. İndi biz müstəqil dövlət olaraq, həmin qərarın nə qədər müdrik olmasını və bizim potensialımızı nə qədər zənginləşdirdiyini hər gün görürük. Moskva ali məktəblərinin məzunları indi Azərbaycanda həm biznesdə, həm dövlət strukturlarında, həm də idarəetmə orqanlarında kifayət qədər möhkəm mövqe tuturlar. Təvazökarlıqdan bir qədər

uzaq səslənsə də, deməliyəm ki, ən ali dövlət vəzifəsində də Moskva ali məktəbinin məzunu işləyir.

İndi biz bütün bunları artıq yeni şərait nəzərə alınmaqla bərpa etmək istəyirik və bərpa edirik. Prezidentin təsdiq etdiyi proqram bizim tələbələrin dünyanın aparıcı ölkələrində təhsil almasına yönəlmişdir və ilk növbədə, həm də Rusiyanın aparıcı ali məktəblərini əhatə edir. Biz gələcəkdə səmərəli əməkdaşlığa ümid edirik. Ümid edirik ki, gənclərimiz bundan sonra da MDU-ya daxil olacaq, burada oxuyacaq və ən yaxın zamanda birlikdə istifadəyə verməyi planlaşdırdığımız filial da ölkəmizdə güclü intellektual baza olacaqdır.

Hər bir ölkənin, hər bir millətin gələcəyini iqtisadiyyat, təbii ehtiyatlar və hər hansı başqa sahələr deyil, təhsil müəyyən edir. Müxtəlif dövrlərdə dövlətlərin inkişafına nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarını müəyyən edən təhsil, bilik, intellekt olmuşdur. Bu gün Rusiyada təhsilə yetirilən diqqət də sizin ölkənizin bir neçə onillikdən sonrakı uğurlarının rəhnidir. Bəli, hamının çətinlikləri olmuşdur, SSRİ dağılandan sonra biz hamımız mürəkkəb dövr yaşamışıq. İqtisadi kollaps, xüsusilə Azərbaycanda kifayət qədər ağır və ağrılı hiss olunmuşdur. Lakin indi, əsas iqtisadi və sosial çətinliklərin artıq geridə qaldığı və maliyyə imkanları yarandığı bir şəraitdə biz Azərbaycanda məhz təhsilə çox böyük sərmayələr qoyuruq.

Deməliyəm ki, son 3-4 ildə Azərbaycanda 1200 ümumtəhsil məktəbi tikilmişdir. Yəqin ki, Rusiya miqyasında bu, böyük göstərici deyil, lakin bizdə cəmi 4500 məktəb olduğunu nəzərə alsaq, bu, ümumiyyətlə, mühüm göstəricidir. Özü də onların hamısı kompyuterləşdirilmişdir, indi hamısı internetə birləşdirilir və şagirdlər lap uşaqlıq dövründən gələcəyə yönəldilir.

Bizim büdcədə təhsil xərcləri ikinci yeri tutur. Ona görə ikinci yeri tutur ki, təəssüflər olsun, biz hələ də müharibə şəraitindəyik və müdafiə xərcləri üstünlük təşkil edir. Lakin

dövlət büdcəsinin 12 milyard dollara bərabər olan xərclərinin 1 milyard dolları təhsilə sərf edilir. Biz gələcəkdə də bu həcmi artıracağıq, çünki bu, gələcəyə qoyulan sərmayədir, xalqımızın uzunmüddətli gələcəyinə sərmayədir.

Rusiya və Azərbaycan enerji ehtiyatları ilə zəngin ölkələrdir və əlbəttə, əhalinin maddi rifahına, iqtisadiyyatın tərəqqisinə və ölkələrimizin siyasi imkanlarına təsir müəyyən dərəcədə bu amillə şərtlənmişdir. Lakin bütün bunlar müvəqqətidir. Təbii ehtiyatlar gec-tez tükənəcək və biz hətta yüz ildən sonra da olsa, bunun baş verəcəyi vaxta hazır olmalıyıq. Biz gələcəyə baxmalıyıq, ölkəmizin 20–30 ildən sonra, 50 ildən sonra necə olacağı barədə indidən düşünməliyik. Bundan ötrü ən başlıcası, intellektual səviyyə və təhsilin səviyyəsidir. İnanın, indi mən bu sözləri yüksək mükafat aldığıma görə və MDU-nun tribunasından çıxış etdiyimə görə demirəm. Mən bunu həmişə deyirəm. Bunu Bakıda da deyirəm, ölkəmizin kəndlərində və qəsəbələrində də, Nazirlər Kabinetinin iclaslarında da deyirəm. Çünki əminəm ki, bu, ölkəmizin inkişafının əsasıdır.

Bu gün bu mükafatı almaq mənə çox xoşdur. Mən 15 il Moskvada olmuşam, ailəmlə birlikdə, ondan əvvəl isə tələbə ikən burada yaşamışam. O dövr yaxşı illər idi, gənclik illəri idi. Mənim burada dostlarım çoxdur, sevdiyim və hörmət etdiyim insanlar çoxdur və hər dəfə Moskvada olmaq məndən ötrü xüsusi bir hadisədir. Azərbaycanın prezidenti kimi, mən ildə bir neçə dəfə Rusiyada, Moskvada oluram və bu səfərlər, görüşlər, əlaqələr sayəsində bizim münasibətlərimiz daha da möhkəmlənir. Bu gün, ölkələrimiz iqtisadi asılılıq və siyasi asılılıq dövrünü müəyyən dərəcədə aradan qaldırdıqdan sonra, necə deyərlər, ayağa qalxandan sonra biz gələcəyə daha böyük nikbinliklə baxırıq. Burada bizim həmyerlimiz, bakılı öz çıxışında Azərbaycanın iqtisadi sahədə qazandığı uğurlardan da danışdı. Bu doğrudan da belədir. Son üç ildə biz iqtisadiyyatın inkişaf sürətinə görə dünyada birinci yeri tuturuq, bu göstərici ildə 20–30 faiz təşkil edir. Dörd ildə –

2004–2007-ci illərdə Azərbaycanda ümumi daxili məhsulun həcmi 96 faiz, deməmk olar, iki dəfə artmışdır. Çox güman ki, bu il də artım göstəricisi təxminən eyni səviyyədə olacaqdır. Sənaye istehsalının həcmi də iki dəfəyə qədər artmışdır. Azərbaycanda 650 min iş yeri yaradılmışdır. Əhalisinin sayı səkkiz milyon yarım olan ölkə üçün bu, mühüm göstəricidir.

Dörd ildə biz yoxsulluğa qarşı mübarizə proqramını uğurla həyata keçiririk. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2008-ci ilin əvvəlində 16 faizə düşmüşdür. Əminəm ki, lap yaxın illərdə biz bu biabırçı vəziyyətə, bütün iqtisadiyyatın kollaps vəziyyətində, ölkənin hərtərəfli – həm siyasi, həm iqtisadi, həm də sosial böhran içində olduğu, istehsalın tənəzzül etdiyi və açığını deyək ki, bütövlükdə ölkəmizin müstəqil dövlət kimi gələcəyi sual altında olduğu 90-cı illərin bu ağır mirasına son qoyacağıq.

Keçən əsrin 90-cı illərinin əvvəli və müstəqillik əldə edildiyi vaxt Azərbaycan üçün son dərəcə ağrılı dövr idi. Biz 1991-ci ildə müstəqillik əldə etdik və 1993-cü ildə onu az qala itirəcəkdik. Ölkədə vətəndaş müharibəsi və Ermənistan tərəfindən təcavüz başlanmışdı və bütün bu amillər, əslində, Azərbaycanın müstəqil dövlət kimi inkişaf edib-etməyəcəyi məsələsini sual altında qoymuşdu.

Ulu öndərimiz Heydər Əliyevin böyüklüyü məhz ondadır ki, 1993-cü ildə hakimiyyətə gəlməklə o, ölkəni bu bəladan xilas etdi, onu inkişaf və sabitlik yoluna çıxartdı. Artıq qeyd etdiyim kimi, indi Azərbaycan iqtisadi artım sürətinə görə dünyada liderdir.

Əlbəttə, hələ problemlər çoxdur, insanların həyatını yaxşılaşdırmaq üçün hələ çox iş görmək lazımdır. İndiyə qədər əldə etdiyimiz nailiyyətlər bizi qane edə bilməz. Hətta iqtisadiyyatın sürətlə inkişaf etməsinə və insanların maddi rifahının yaxşılaşmasına baxmayaraq, sosial problemlər kifayət qədər çoxdur. Keçmiş SSRİ-nin bütün başqa ölkələrində olduğu kimi. Lakin əsas odur ki, həmin məsələlərin həll edilməsi siyasəti var, hansı istiqamətdə hərəkət etdiyi-

mizi və necə inkişaf etməli olduğumuzu nəinki qarşıdakı bir il üçün, hətta onilliklər üçün də əvvəlcədən təsəvvür edirik. Güclü intellektual potensial yaradılır. İndi burada oxuyan gənclər isə, hətta qalıb Moskvada işləsələr belə, yenə də bizim elçilərimiz olacaqlar.

Mən prezident proqramımı həyata keçirməyə başlayanda – deyəsən, bu o qədər də düzgün olmadı, daha doğrusu, Heydər Əliyevin 70-ci illərdə həyata keçirdiyi proqramı indi, yeni şəraitdə bərpa edərək, gəncləri xaricdə təhsil almağa göndərəndə müxtəlif təkliflər daxil olmağa başladı: dövlət onlar üçün pul ödəyəcək, onlar isə Avropaya, Rusiyaya gedəcək və sonra qayıtmayacaqlar. Buna görə də gəlin onlardan nəinki iltizam, lap girov alaq. Qoy onlar sonradan qayıtmaq üçün nəyisə girov qoysunlar. Amma açığını deyim ki, məsələyə bu cür yanaşma məni şoka saldı. Biz gənclərə şərait yaratmaq istəyirik ki, onlar yaxşı təhsil alsınlar. Əgər bugünkü gənc təhsil alandan sonra hesab edərsə ki, təhsil aldığı yerdə qalıb yaşaması və işləməsi daha yaxşı olar, deməli, belə də olmalıdır, onu zorla geriyə çəkmək, onun həyatını qırmaq və planlarını pozmaq yalnız mənfi nəticələrə gətirib çıxarar.

Biz Azərbaycanda elə şərait yaratmalıyıq ki, gənc özü Vətəninə qayıtmaq istəsin. Vətəndə həyat şəraiti, əməkhaqqı, xidmətlərin, infrastrukturun, rahatlığın səviyyəsi xaricdəki kimi olsa, əlbəttə, qayıdacaqlar, çünki bizim gənclərin hamısı kifayət qədər vətənpərvərdir. Hətta kimsə dərhal qayıtmasa belə, nə vaxtsa qayıdacaq, harada yaşamasından asılı olmayaraq, hər halda, öz xalqına, öz ölkəsinə xidmət edəcəkdir. Ola bilsin ki, bu, Azərbaycanı məhz başqa ölkələrdə, o cümlədən Rusiyada yaşayan nümayəndələrimiz hesabına heç də az möhkəmlətməyəcəkdir. Bu, Azərbaycanı möhkəmlədəcək və ona kömək edəcəkdir. Biz xaricdə yaşayan azərbaycanlılara necə kömək ediriksə, onlar da öz fəaliyyətləri ilə bizə o cür kömək edəcəklər. Rusiyada da artıq bir neçə ildir ki, Ümumrusiya Azərbaycan Konqresi

mövcuddur, tələbə klubları var və yəqin ki, gələcəkdə Ümumrusiya Azərbaycan Konqresinin gənclik təşkilatları da inkişaf edəcəkdir.

Beləliklə, bütün bunlar yalnız müsbət işlərə, yalnız xeyirxahlığa xidmət edəcəkdir. Bu, praktiki təhsil sahəsində də belədir, əlaqələr baxımından da. Xalqlarımız arasında əlaqələr qorunub saxlanacaqdır. Axı sirr deyil ki, 16 il ərzində çox şeyi qoruyub saxlaya bilsək də, bəzi şeyləri itirmişik. Yeni nəsil, indi 15–20 yaşı olan gənclər bir ölkədə yaşamayıblar. Deməli, onların MDB-nin başqa ölkələrindəki yaşıdları ilə qarşılıqlı münasibətlərinin səviyyəsi istər-istəməz bizim dövrdəki kimi ola bilməz. Bundan ötrü məhz əlaqələr, birgə təhsil, birgə layihələr, konfranslar, seminarlar olmalıdır. Mən fürsətdən istifadə edib dostlarımızı – həmyerlilərimizi də, başqalarını da Bakıya tez-tez gəlməyə dəvət etmək istəyirəm. Mən bu gün Viktor Antonoviçi də dəvət etmişəm və bu dəvətimi bir daha təsdiqləyirəm. Bu cür əlaqələr nə qədər tez-tez olsa, biz nə qədər çox görüşsək, işlərimiz bir o qədər yaxşı gedəcək, münasibətlərimiz bir o qədər möhkəmlənəcək və hər şey qat-qat səmərəli olacaqdır. Ona görə ki, ölkələr arasında münasibətləri formalaşdıran təkcə prezidentlər deyil, hərçənd, ən böyük məsuliyyət onların üzərinə düşür. Bu münasibətlər həm də vətəndaş cəmiyyəti tərəfindən, professorlar, ziyalılar, cəmiyyətin elitası tərəfindən formalaşır.

Professorlar, müəllimlər hər bir cəmiyyətin elitasıdır, bu insanlar ölkənin inkişafını, onun gələcəyini müəyyən edirlər.

Ona görə də bir daha demək istəyirəm, bu gün burada olmaq mənə çox xoşdur, bu Fəxri diplomu almaq çox böyük şərəfdir. Sizi əmin etmək istəyirəm ki, bu şərəfə layiq görülməyimə əsas verən amillər mənim fəaliyyətimdə həmişə olacaqdır və mən Rusiya ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsi üçün, ölkələrimiz arasında humanitar əməkdaşlığın davam etməsi üçün bundan sonra da səy göstərəcəyəm.

Mənə ünvanlanmış xoş sözlərinizə görə sizə bir daha təşəkkür edirəm və sizin hamınıza ən xoş arzularımı bildirir, firavanlıq və səadət diləyirəm.

***

**V i k t o r  S a d o v n i ç i:** Hörmətli İlham Heydər oğlu, Sizə artıq hörmətli professor deyə müraciət etmək olar. Sizin çıxışınızı, əlbəttə, hamı maraqla dinlədi. Moskva Universitetində bu parlaq, ibrətamiz çıxışınıza görə sağ olun. Mən bilirəm ki, gənclər Sizə suallar vermək istəyirlər, bu belə də olmalıdır, lakin bizdə protokol qaydası var. Hörmətli İlham Heydər oğlu, əgər etiraz etməsəniz, Sizə bir neçə sual verərdilər.

**İ l h a m  Ə l i y e v:** Xeyr, buyursunlar.

**S u a l: Hörmətli İlham Heydər oğlu, Sizin fikrinizcə, qloballaşma prosesi və ona xas olan təhdidlər dünyada sabitlik və təhlükəsizlik üçün qorxuludurmu? Azərbaycan bu təhdidlərin aradan qaldırılmasında və həllində hansı strategiyanı əsas götürür?**

**İ l h a m  Ə l i y e v:** Son vaxtlar bu barədə çox danışılır və mühakimələr çox ziddiyyətlidir. Hər şey bizim qloballaşma anlayışına verdiyimiz mənadan asılıdır. Əgər biz qloballaşma dedikdə daha səmərəli əməkdaşlığı, qarşılıqlı fəaliyyəti, əlaqələri, mədəniyyətlərin bir-birinə təsirini, elm, təhsil, mədəniyyət vasitəsilə qarşılıqlı zənginləşməni nəzərdə tuturuqsa, bütün bunlar müsbət nəticələrə gətirib çıxaracaqdır.

Lakin bəzən olduğu kimi, əgər qloballaşma dedikdə hansısa müdaxilə, təzyiq, o qədər də məqbul olmayan dəyərlərin və məhdudiyyətlərin zorla qəbul etdirilməsi nəzərdə tutulursa, onda, əlbəttə, bunun heç bir yaxşı nəticəsi olmayacaqdır. Biz də bu problemə belə yanaşırıq. Əməkdaşlığa, mehriban qonşuluğa, kooperasiyaya və risklərin minimuma endirilməsinə kömək edən hər şeyi dəstəkləyirik və üstəlik, çox vaxt iri regional layihələrin təşəbbüsçüsü kimi çıxış edirik.

Lakin biz hiss etməyə başlayanda ki, qloballaşma adı ilə müəyyən ənənələrə, həyat tərzinə və dövlətimizin siyasi xəttinə görə Azərbaycan cəmiyyətinin qəbul edə bilməyəcəyi nəyisə bizə zorla qəbul etdirməyə çalışırlar, onda, əlbəttə, biz bunu qəbul edə bilmərik. Onu da deməliyəm ki, Azərbaycan öz ərazisinə və əhalisinə görə böyük ölkələr sırasına aid olmasa da biz xalqımızın mənafelərinə, tərəfdaşlarımız və qonşularımızla əməkdaşlığa əsaslanan müstəqil xarici siyasət xəttini təmin edə bilmişik.

**S u a l: Cənab Prezident, MDU-nun Tələbələr İttifaqının həm Moskvadakı, həm də Azərbaycan Respublikasındakı azərbaycanlı tələbələrlə yaxşı dostluq münasibətləri yaranmışdır. Biz çox ümid edirik ki, MDU-nun Bakıdakı filialının tələbələri də bizim təşkilata qoşulacaqlar. Biz buna çox şad olarıq. Hazırda biz bütün MDB məkanı üçün çoxlu tədbirlər, məsələn, Lomonosov forumu, eləcə də müxtəlif yaradıcılıq festivalları keçiririk. Siz gənclərin bu cür beynəlxalq tədbirlərinin keçirilməsinə necə yanaşırsınız?**

**İ l h a m Ə l i y e v:** Mənim bu gün bu barədə danışdıqlarıma əsasən, siz özünüz bu suala mənim əvəzimdən cavab verə bilərsiniz. Mən buna müsbət yanaşıram və hesab edirəm ki, bu, əməkdaşlığın çox səmərəli formasıdır. MDU-nun Bakı filialında oxuyacaq tələbələrə gəldikdə isə, mən bu diplomu almadan da onlara kömək edirdim, lakin indi onlar sizin həmkarınız kimi, professor kimi, mənə tamamilə bel bağlaya bilərlər.

**S u a l: Salam, hörmətli İlham Heydər oğlu, oktyabr ayında keçirilmiş telekörpü zamanı demişdiniz və bu gün də təkrar etdiniz ki, bütün azərbaycanlı tələbələr haçansa Vətənə qayıdacaqlar. Biz azərbaycanlı tələbələrin iddialı layihələri var. Məsələn, «Formula-1» avtoyürüş trassası tikintisi layihəsi. Siz belə bir layihənin həyata keçirilməsinə və Azərbaycanın onu reallaşdırmaq imkanlarına necə baxırsınız?**

**İ l h a m Ə l i y e v:** Mən bunu dəstəkləyirəm. Bu gün burada deyildi ki, biz idman məsələlərinə böyük əhəmiyyət

veririk. Əlbəttə, hər şey bizim iradəmizdən asılı deyil, bu qəbildən olan yürüşlərin təşkil edilməsi üçün yəqin ki, müəyyən meyarlar və müəyyən normativlər var. Lakin mən düşünürəm ki, əgər təşkilatçılar tərəfindən belə bir arzu olarsa, biz dünya səviyyəsinə uyğun olan bir yenilik yaratmağa həmişə çalışacağıq. Burada düzgün olaraq qeyd edildiyi kimi, Azərbaycanda Olimpiya oyunları keçirmək arzumuz dövlətimizin bərqərar olmasının göstəricisidir. Azərbaycan dövləti təkcə bərqərar olmamışdır, o, dünya səviyyəli oyunların keçirilməsini özünə rəva görmək iqtidarındadır. Axı bu həm təşkilati, həm də maliyyə baxımından böyük məsuliyyət deməkdir və bu gün biz buna hazırıq.

Son dövrdə Azərbaycanda 13 müasir olimpiya kompleksi tikilmişdir və demək olar ki, hamısı da regionlardadır. Hazırda Azərbaycanın bütün regionlarında mehmanxanalar, üzgüçülük hovuzları olacaq, yəni istənilən beynəlxalq yarışların keçirilməsi üçün daha 23 müasir idman-olimpiya kompleksi tikilməkdədir. Bakıda bu səviyyəli tədbirlər nə qədər çox keçirilsə, bizim vətəndaşlar üçün də yaxşı olacaq, bu yolla Azərbaycan daha çox təbliğ ediləcəkdir. Biz müasir dövlət qururuq. Mədəniyyətimizə, ənənələrimizə, həyat tərzimizə əsaslanaraq, ölkəni modernləşdirməyə çalışırıq və bu istiqamətdə müəyyən təşəbbüsləri həyata keçiririk.

Azərbaycanın maliyyə imkanlarına gəldikdə isə, deyə bilərəm ki, Dünya Bankının proqnozlarına görə, neftin bir barrelinin qiyməti 50 dollar olarsa, 2020-ci ilə qədər enerji layihələrinin həyata keçirilməsindən Azərbaycana 200 milyard dollar vəsait daxil olacağı gözlənilir. Bu gün neftin bir barrelinin qiyməti 100 dollara yaxındır, ona görə də bu məbləği cəsarətlə ikiyə vurmaq olar. İstər bu gün, istərsə də gələcəkdə ölkəmizin qarşısında maliyyə problemləri olmayacaqdır. Bizə müasir texnologiyalar lazımdır, müasir infrastruktur lazımdır, insanların gündəlik həyatı ilə əlaqədar olan təhsil, tibb, infrastruktur, nəqliyyat, yollar, ekologiya, içməli su və başqa şeylər

lazımdır ki, Azərbaycanda insanlar həqiqətən, getdikcə daha yaxşı yaşasınlar.

**S u a l: Hörmətli cənab Prezident, Azərbaycan 2016-cı ilin Yay Olimpiya Oyunlarının Bakıda keçirilməsi üçün rəsmi müraciət etmişdir. Biz Moskvada yaşasaq da, Bakının qalib gəlməsini istəyirik. Siz Milli Olimpiya Komitəsinin rəhbərisiniz, Sizcə Bakının qalib gəlmək şansı necədir və Sizin müraciətinizdə tələbələrin rolu nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Tələbələrin və ümumiyyətlə, vətəndaşların rolu, əlbəttə, çox əhəmiyyətli olacaqdır, çünki Beynəlxalq Olimpiya Komitəsi hansı şəhərin seçilməsi barədə qərar qəbul edərkən bu və ya digər şəhərdə yaşayan insanların məsələyə necə münasibət bəsləməsini hökmən nəzərə alır. Deməliyəm ki, bütün başqa namizədlər arasında Azərbaycanı fərqləndirən cəhət ictimai dəstəyin ən yüksək səviyyədə olmasıdır. Əlbəttə, cəmiyyətin əsas fəal hissəsi kimi, tələbələr bu məsələdə çox böyük rol oynayırlar və ümid edirik ki, onlar bundan sonra da bizim təşəbbüslərimizi fəal surətdə dəstəkləyəcəklər.

Şans məsələsinə gəldikdə isə, bu barədə danışmaq çətindir. Hərçənd Olimpiya oyunlarının keçirilməsi tarixindən bilirik ki, ölkə heç vaxt birinci dəfədən belə hüquq qazanmamışdır. Azərbaycan belə müraciəti ilk dəfə etmişdir. Bizim rəqiblərimiz kifayət qədər ciddidir. Söhbət dünyada məşhur olan altı şəhərdən gedir və əlbəttə, rəqabət asan olmayacaqdır. Yəni belə deyək, güclü rəqabət və ilk dəfə müraciət etməyimiz bizim xeyrimizə olmayan amillərdir. Lakin bizim xeyrimizə olan amillər də var. Buraya, ilk növbədə çox əlverişli coğrafi mövqe, ölkənin sahəsinin kiçik olması, artıq bu gün mövcud olan və nəinki bir, hətta bir neçə ən iri dünya birinciliyini keçirməyə imkan verən infrastrukturun olması, dünya çempionatları keçirilməsi sahəsində təcrübəyə malik olmağımız, Olimpiada keçirilməsi ilə bağlı olmadan olimpiya obyektlərinin tikilməsi faktları aiddir. Soçi ilə bağlı da

belə olmuşdu. Axı, hər halda, orada da olimpiya obyektləri tikilmişdi.

Qitələrin növbələşdirilməsi qaydası da namizədin seçilməsinə müəyyən dərəcədə təsir göstərir. İndiki halda Azərbaycanın üstünlüyü bu məsələyə hansı tərəfdən baxmaqdan asılıdır: əgər Şərqdən baxsaq, biz Avropayıq, əgər Qərbdən baxsaq, biz Asiyayıq. Yəni burada Olimpiya oyunlarının keçirilməsi üçün amillər çoxdur: gözəl iqlim şəraiti, ılıq dəniz, təhlükəsizlik. Bakı dünyanın ən təhlükəsiz şəhərlərindən biridir və orada olanlar bilir ki, gündüz də, gecə də rahat gəzmək olar və bizim adamlar elə belə də edirlər.

Beləliklə, müsbət amillər də var, mənfi amillər də, lakin son qərarı, əlbəttə, Beynəlxalq Olimpiya Komitəsinin üzvləri qəbul edəcəklər. Bu ilin ortalarında ilkin qərar qəbul ediləcək, bir neçə şəhər elənəcəkdir. Biz ümid edirik və çalışırıq ki, Bakı elənən şəhərlərin sırasına düşməsin. Bundan sonrasi isə, əlbəttə, bizim hazırlığımızdan və başqa amillərdən asılı olacaqdır.

Lakin sizin sualınıza qayıdaraq, bir daha demək istəyirəm ki, biz öz vətəndaşlarımızın və ilk növbədə, ən fəal tələbələrin, o cümlədən Moskvada yaşayan sizin kimi tələbələrin güclü ictimai dəstəyinə ümid edirik.

**S u a l: Hörmətli İlham Heydər oğlu, Siz Moskvada, MDBMİ-də oxumusunuz. İndi Sizin qızınız, Leyla xanım da MDBMİ-də oxuyur. Sizin fikrinizcə, bu nəsillər – sizin nəsil və bizim nəsil bir-birindən nə ilə fərqlənir? Bir faktı Siz artıq dediniz: biz eyni ölkədə doğulmamışıq. Şəxsi xarakterli daha bir sualım var. Təsəvvür edək ki, zaman maşını var və Siz öz gəncliyinizə, lakin indiki tarixi şəraitdə qayıtmısınız. Siz MDU-nun hansı fakültəsini seçərdiniz?**

**İ l h a m Ə l i y e v:** Mən elə bir mühüm fərq görmürəm. Siz Leylanın adını çəkdiniz, o, artıq böyük qızdır, burada oxuyur. Biz öz aramızda nəsillərin hər hansı fərqini hiss etmirik. Mən ona baxanda özümün tələbəlik illərimi xatırlayıram və bütün bunlar mənə çox tanışdır, tələbəliyin ruhunu heç nə ilə

müqayisə etmək olmaz. Bu yəqin ki, yaxşı illərdir, insanların həyatında ən yaxşı illərdəndir. Sadəcə olaraq, sən gənc və tələbə olanda bəzi şeyləri başa düşmürsən, sənə elə gəlir ki, bu həmişə belə olacaq. Tələbəlik ruhu, dostluq, təhsil, dünyanın aparıcı ali məktəblərində oxumaq, görkəmli professorların mühazirələrini dinləmək imkanı böyük səadətdir. Tələbəlik illərində bundan yaxşı heç nə ola bilməz. Ona görə də mən elə hesab etmirəm ki, indiki nəsil bizim nəsildən necəsə fərqlənir, hərçənd belə düşünənlər var. Lakin bu fikirlər ənənəvidir – yaşlı nəsil həmişə deyir ki, bəs bizim vaxtımızda belə idi, biz daha yaxşı yaşayırdıq, onlar isə belə deyillər. Biz tələbə olanda da eyni vəziyyət idi. İndi də belədir. Lakin zənnimcə burada prinsipial fərq yoxdur. Əgər mən MDU-da oxumalı olsaydım, yəqin ki, birinci dəfə olduğu kimi, bir humanitar sahəni seçərdim, bu mənə daha yaxındır və daha böyük maraq doğurur.

**V i k t o r  S a d o v n i ç i:** Hörmətli İlham Heydər oğlu, bununla mərasimi tamamlamaq olardı, amma biz Sizə bir musiqi hədiyyəsi hazırlamışıq. Lakin onu elan etməzdən əvvəl mən bir ideyaya qayıtmalıyam ki, MDU-da bütün rəhbər vəzifələri Azərbaycandan olan adamlar tuturlar. Bizim akademik xor məşhur kollektivdir. Bu kollektivin rəhbəri ölkəmizdəki bütün mükafatları almış Mirzə Əsgərovdur, sizin həmyerliniz. İlham Heydər oğlu, lakin məsələ bununla da bitmir. İndicə deyəcəyim xəbər yəqin ki, Sizi heyrətləndirəcəkdir. Bizim öz milis bölməmiz var, yəni bizi öz milisimiz qoruyur, tələbələrin rahatlığının, təhlükəsizliyinin keşiyini çəkir. Bu bölmədə 100-dən çox adam var. Lap bu yaxınlarda bizə bir polkovnik təyin ediblər. O da sizin adamdır. Mənə belə gəlir ki, bu, uzaqgörənliklə edilib. Edita Stanislavovna Maqdiç, milis polkovniki. Qalır bircə rektor.

**M i r z ə  Ə s g ə r o v:** Möhtərəm İlham Heydər oğlu, möhtərəm Viktor Antonoviç. Bu gün Sizi MDU-da salamlamaq Moskva Universitetinin qocaman həvəskar kollektivi – akademik xoru üçün böyük şərəfdir. İcazə verin, Sizə

MDU-nun Fəxri professoru kimi yüksək ad verilməsi münasibətilə xor adından Sizi təbrik edim, cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayım. Biz Azərbaycan dilində Sizə və burada iştirak edənlərə məxsusi olaraq bu görüş üçün hazırladığımız mahnını ifa etmək istərdik.

***

*Mirzə Əsgərovun rəhbərlik etdiyi akademik tələbə xorunun ifasında «Almanı atdım xarala» Azərbaycan xalq mahnısı və «Uzun illər» adlı ənənəvi təbrik mahnısı səsləndi.*

**V i k t o r  S a d o v n i ç i:** Hörmətli həmkarlar, bununla da Elmi Şuranın təntənəli iclası bağlı elan edilir. Mən təklif edirəm, korporasiyamızın yeni üzvünü, Fəxri professor, Azərbaycan Respublikasının Prezidentini bir daha təbrik edək.

***

*Prezident İlham Əliyev MDU-nun Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, xatirə şəkli çəkdirdi.*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISI

*22 fevral 2008-ci il*

*Moskvada, Rusiya hökumətinin Qəbullar evində MDB üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev zirvə toplantısının işində iştirak etmişdir.*

*Zirvə toplantısı başlanmazdan əvvəl Rusiya Federasiyasının Prezidenti Vladimir Putin prezident İlham Əliyevi və digər MDB ölkələrinin dövlət başçılarını səmimiyyətlə qarşıladı. Zirvə toplantısının iştirakçıları xatirə şəkli çəkdirdilər.*

*Yüksək səviyyəli görüşü Rusiya prezidenti Vladimir Putin açdı, bu sammitin işində iştirak etdiklərinə görə Birlik dövlətlərinin başçılarına təşəkkürünü bildirdi.*

*Sonra Birliyin sədri, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev çıxış edərək, MDB ölkələrinin hamısı üçün maraq doğuran məsələlərin müzakirə olunmasını təklif etdi.*

*Rusiya prezidenti Vladimir Putin MDB-nin inkişafının vəziyyətinə həsr olunmuş məruzə ilə çıxış etdi. O bildirdi ki, Birlik ölkələri ilə əməkdaşlıq Rusiyanın xarici siyasətinin prioritet istiqamətidir. Rusiya prezidenti vurğuladı ki, MDB-nin gələcək inkişafı konsepsiyasının qəbul edilməsi, iqtisadi və humanitar sahələrdə müştərək layihələrin həyata keçirilməsi Birliyin möhkəmlənməsinə yönəlmiş zəruri amildir.*

*MDB Ölkələri Miqrasiya orqanlarının rəhbərləri Şurasının işinin fəallaşdırılması məsələsinə toxunan prezident Putin Birlik ölkələrindən gələn miqrantlara münasibətdə mövcud olan ksenofobiya və millətçilik faktlarından təəssüfləndiyini bildirdi.*

*Rusiya dövlətinin başçısı humanitar əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayaraq, təhsil sahəsində layihələrə daha çox diqqət yetirməyin zəruri olduğunu söylədi. O, Azərbaycan prezidenti İlham Əliyevin Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması barədə qərarını yüksək qiymətləndirdi. Rusiya prezidenti Vladimir Putin dedi:* «Dünən həmkarımız, dostum Azərbaycan prezidentindən Bakıda Moskva Dövlət Universitetinin filialının açılması barədə razılıq əldə edilməsini eşitmək mənim üçün çox xoş oldu».

*Rusiya 2008-ci ili «Ədəbiyyat və mütaliə ili» elan etmək təşəbbüsü ilə çıxış etdi. İl çərçivəsində milli ədəbiyyatların klassiklərinin, o cümlədən Azərbaycan şairi Mikayıl Müşfiqin yubileyinin keçirilməsi planlaşdırılır.*

*Rusiya dövlətinin başçısı Birlik ölkələri xalqlarının bədii əsərlərinin rus dilinə tərcüməsi prosesini fəallaşdırmağı da təklif etdi. Prezident Vladimir Putin MDB-də sədarət təsisatının konsepsiyasının qəbul edilməsinə tərəfdar olduğunu bildirdi. Onun fikrincə, bu sənəd Birlik strukturlarının işini fəallaşdırmağa imkan verəcəkdir.*

*Rusiya prezidenti MDB çərçivəsində əməkdaşlığa, bu işə müsbət yanaşdıqlarına görə öz həmkarlarına təşəkkür etdi.*

*Rusiya prezidenti vəzifəsində sonuncu zirvə toplantısında iştirak edən Vladimir Putin özünün siyasi varisini MDB ölkələrinin dövlət başçılarına təqdim etdi. O, xüsusi vurğuladı ki, «hökumət sədrinin birinci müavini Dmitri Medvedev prezident seçkilərində qalib gələcəyi təqdirdə Rusiyanın MDB-yə münasibətdə xarici siyasəti dəyişməyəcəkdir».*

*RF hökuməti sədrinin birinci müavini Dmitri Medvedev Birliyin inkişaf perspektivləri barədə məruzə ilə çıxış etdi.*

*Sonra müzakirələr başlandı. Zirvə toplantısının iştirakçıları MDB-nin üzvü olan dövlətlərin iqtisadi və siyasi əməkdaşlığının aktual məsələlərini, sosial və humanitar sahələrdə müştərək layihələrin həyata keçirilməsində onların qarşılıqlı əlaqələrini, MDB-nin gələcək inkişaf konsepsiyasının həyata*

*keçirilməsinə dair tədbirləri, eləcə də Birliyin fəaliyyətinin səmərəsini artırmağın və onun strukturlarının işini optimallaşdırmağın konkret yollarını nəzərdən keçirdilər. Birlik məkanında miqrasiya siyasəti, üzv dövlətlərin nəqliyyat sahəsində qarşılıqlı fəaliyyəti, o cümlədən nəqliyyat infrastrukturunun hərtərəfli inkişafı və modernləşdirilməsi məsələləri də müzakirə edildi. Sonuncu mövzunun aktuallığı ondan irəli gəlir ki, Qazaxıstanın təşəbbüsü ilə 2008-ci il MDB-də «Nəqliyyat ili» elan edilmişdir. Müzakirə olunan digər mühüm mövzular arasında Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümünün bayram edilməsinə hazırlıqla əlaqədar əsas tədbirlər planının layihəsinin işlənib hazırlanması, eləcə də MDB-nin ümumi informasiya məkanının yaradılması üçün «Mir» dövlətlərarası teleradio şirkətinin imkanlarından fəal istifadə edilməsi məsələləri də vardı.*

## Səfər başa çatdı

*Moskvada MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısının işində iştirak etmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşılamışlar.*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Prezident sarayında ABŞ Dövlət Departamentinin Avrasiya Enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivlərinə, enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## MƏŞHUR YAZIÇI ÇİNGİZ AYTMATOVLA GÖRÜŞ

*Prezident sarayı*

*25 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Prezident sarayında məşhur yazıçı Çingiz Aytmatovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı hörmətli qonağı salamlayaraq, onu yenidən Bakıda görməyindən şad olduğunu bildirdi.*

**Çingiz Aytmatov:** Mən isə Sizə öz ehtiramımı bir daha bildirmək üçün yenidən burada olmağıma şadam. Mən Sizin atanızı yaxşı tanıyırdım, onunla Moskvada söhbətlərimiz olubdur.

**İlham Əliyev:** Hörmətli Çingiz Torekuloviç, mən Sizi Azərbaycanın yüksək ordeni ilə təltif etmək istəyirəm. Bu orden «Dostluq» adlanır. Siz həmişə, bütün dövrlərdə Azərbaycanın böyük dostu olmusunuz. Bu, sovet dövründə də belə olub – mən bunu atamın söhbətlərindən bilirəm, sizin onunla münasibətləriniz mənə məlumdur – müstəqillik dövründə də. Siz həmişə bizi dəstəkləmisiniz. Çətin anlarda siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi, öz qətiyyətli sözünüzü demisiniz. İcazə verin, bu mükafatı sizə təqdim edim. Təbrik edirəm.

Burada bir xüsusi məqam var. Bu ordenin qeydiyyat nömrəsi 1-dir. «Dostluq» ordeni yeni ordendir, dövlət təltifidir. Siz bu ordenin təqdim edildiyi birinci şəxssiniz. Bu çox mühümdür, bu – tarixdir.

**QANA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON KOFİ AQİYEKUM KUFUORA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Qana münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 fevral 2008-ci il*

**BOLQARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Bolqarıstanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–Bolqarıstan əməkdaşlığı müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, dövlətlərarası münasibətlərimiz, siyasi, iqtisadi əlaqələrimiz, beynəlxalq qurumlar çərçivəsində birgə işimiz bundan sonra da dost xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 fevral 2008-ci il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Kuba Respublikası Dövlət Şurasının Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Kuba arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Kuba xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 fevral 2008-ci il*

## XOCALI FACİƏSİ QURBANLARININ ANIM MƏRASİMİ

*Bakı, Şəhidlər xiyabanı*

*25 fevral 2008-ci il*

*On altı il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmışdır. Həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, zabit və gizirlərinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçilərinin köməyi ilə Xocalı şəhərini darmadağın etmişlər. Xatın, Liditsa, Oradur soyqırımları kimi, Xocalı faciəsi də insanlıq tarixinin qanlı səhifəsidir.*

*Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoydu. 1275 dinc sakin əsir götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyildir.*

*Erməni cəlladlarının törətdikləri bu vəhşilik və vandalizm aktı bəşəriyyətin əsl soyqırımı kimi tanıdığı faciələrlə eyni səviyyədə qiymətləndirilməlidir. Dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyət bu acı həqiqəti bilməli, insanlığa qarşı törədilən bu cinayət öz hüquqi qiymətini almalıdır.*

*Bu faciə davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi, öz amansızlığına və qəddarlığına görə həm də bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi. Sanki möcüzə sayəsində salamat qalmış sakinlərin, jurnalistlərin, hüquq müdafiəçilərinin yazdıqları*

*materiallar, habelə Heydər Əliyev Fondunun sifarişi ilə buraxılmış nəşrlərdəki onlarca, yüzlərcə fakt bunu təsdiq edir. Ermənilər bu dəhşətli qırğınla Azərbaycan xalqının mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin onların bu niyyətləri baş tutmadı.*

*Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə və dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız tərəfindən ürək ağrısı ilə qeyd olunur.*

*Bu günlər dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir. Aksiyalar zamanı ermənilərin vəhşiliklərini əks etdirən məlumat vərəqələri paylanır, faciəni əks etdirən fotoşəkillər, həmçinin Heydər Əliyev Fondunun təqdim etdiyi materiallar nümayiş etdirilir. Bundan əlavə, dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər hazırlanır. Beynəlxalq ictimaiyyətin məlumatlandırılması və Xocalı hadisələrinə hüquqi-siyasi qiymətin verilməsi məqsədi ilə xarici ölkələrin parlamentlərinə, dövlət qurumlarına, beynəlxalq təşkilatlara, nüfuzlu kütləvi informasiya vasitələrinə müraciət ünvanlanır. Ulu öndər Heydər Əliyev demişdir:* «Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimiz vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, bütövlüyünü təmin etməkdir».

*Xocalı soyqırımının 16-cı ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Azərbaycan paytaxtının minlərlə sakini Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Sonra prezident İlham Əliyevə abidənin ucaldığı parkda aparılmış yenidənqurma işləri haqqında məlumat verildi.*

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, digər dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun təmsilçiləri, habelə Xocalı qırğınından xilas ola bilmiş sakinlər iştirak edirdilər.*

*Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.*

*Allah bütün şəhidlərimizə rəhmət eləsin!*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA RƏSMİ SƏFƏRİ

*Heydər Əliyev Beynəlxalq Aeroportu*

*26 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Polşa Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

***

*Üzərində Azərbaycanın və Polşanın dövlət bayraqları dalğalanan sarayın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə Polşa Respublikasının Prezidenti Lex Kaçinski və xanımı Mariya Kaçinski böyük hörmətlə və mehribanlıqla qarşıladılar.*

*Polşa prezidenti Lex Kaçinski ölkəsinin dövlət və hökumət rəsmilərini Azərbaycan prezidenti İlham Əliyevə, dövlətimizin başçısı ölkəmizin rəsmi nümayəndə heyətinin üzvlərini Polşa rəhbərinə təqdim etdi.*

*Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan prezidenti İlham Əliyev əsgərləri salamladı.*

*Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra prezidentlər xarici ölkələrin Polşada akkreditə olunmuş səfirliklərinin rəhbərləri və nümayəndələri ilə görüşdülər.*

***

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Polşa prezidentinin sarayında Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə Polşa prezidenti Lex Kaçinski və xanımı Mariya Kaçinski arasında görüş oldu.*

*Görüşdə qarşılıqlı hədiyyələr təqdim edildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*26 fevral 2008-ci il*

*Polşa prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi, prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin əhəmiyyəti xüsusi vurğulandı, əməkdaşlığın perspektivləri, ikitərəfli münasibətlər və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*26 fevral 2008-ci il*

*Varşavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa prezidenti Lex Kaçinskinin təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi və enerji sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu bildirildi.*

*Dövlətimizin başçısının indiki rəsmi səfərinin əhəmiyyətinin qeyd olunduğu görüşdə bildirildi ki, bu səfər əlaqələrimizin daha da genişlənməsinə və möhkəmlənməsinə təkan verəcəkdir.*

*Görüşdə ölkələrimiz arasında imzalanan sənədlərin həyata keçirilməsinin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəyi vurğulandı.*

*Həmçinin görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu və Polşa prezidenti Lex Kaçinski bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında həllinə tərəfdar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Polşanın ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*Fevralın 26-da geniş tərkibdə görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyev və Polşa prezidenti Lex Kaçinski bəyanatlarla çıxış etdilər.*

**Polşa prezidenti Lex Kaçinskinin bəyanatı**

Hörmətli Prezident Əliyev!
Hörmətli Azərbaycan nümayəndə heyəti!
Hörmətli xanımlar və cənablar!

Mən əvvəlcə sizi salamlayıram və böyük məmnunluqla bildirmək istəyirəm ki, cənab İlham Əliyev mənim dəvətimi qəbul edib ölkəmizə rəsmi səfərə gəlmişdir. Artıq iki ildən çoxdur ki, biz əməkdaşlıq edirik. Lakin bu səfər ölkələrimiz üçün xüsusi əhəmiyyət daşıyır. Çünki bu səfər elə bir vaxta təsadüf edir ki, ölkələrimiz arasında münasibətlər olduqca sıx, strateji xarakter daşıyır. Azərbaycan Polşanın strateji müttəfiqidir. Polşa öz xarici siyasətində Azərbaycanın Avro-atlantik strukturlara inteqrasiya olunmasına yardım göstərməyi vacib hesab edir.

Eyni zamanda, onu da qeyd etməliyəm ki, cənab prezidentin bu rəsmi səfərini biz səbirsizliklə gözləyirdik. Apardığımız bugünkü danışıqlarımız zamanı cənab İlham Əliyev bildirmişdir ki, Dağlıq Qarabağ problemi dinc yolla həll olunmalıdır. Lakin bu həll yolu xüsusi olaraq, beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Beynəlxalq hüquqa əsasən, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir və biz bu mövqeyi dəstəkləyirik. Baxmayaraq ki, bizim Ermənistanla da münasibətlərimiz var. Bu, birinci məsələ.

İkinci məsələ ondan ibarətdir ki, bizim çox maraqlı müzakirələrimiz oldu və həmin müzakirələr zamanı müxtəlif mövzulara toxunduq. Eyni zamanda, enerji siyasətini nəzərdən keçirdik və prezident bildirdi ki, bir il bundan əvvəlki vəziyyətdən fərqli olaraq, bizim regionda hazırda enerji məsələsinə siyasətdən ayrı baxıla bilməz. Biz dost ölkələrdə olan vəziyyəti də müzakirə etdik. Hansı ki, o ölkələr Polşa üçün təbii maraq doğurur və Polşa üçün dost ölkədir.

Biz risklər və imkanları da müzakirə etdik və problemləri nəzərdən keçirdik. Enerji əməkdaşlığı sahəsində, xüsusən də Krakovdakı konfransdan başlayaraq, indiyədək əldə olunmuş irəliləyişi nəzərdən keçirdik. Biz bilirik ki, Azərbaycanın nəinki xam neft, o cümlədən böyük təbii qaz yataqlarında çox böyük potensialı var və bu mövcuddur. Bu, Polşa üçün olduqca vacibdir və bu sahədə mövzunu cənab prezidentlə daha sonra inkişaf etdirəcəyik. Biz bundan başqa, qarşılıqlı maraq doğuran digər sahələrdə olan əməkdaşlığımızı da müzakirə etdik.

Mən böyük məmnuniyyət hissi ilə cənab prezidentə Polşa Respublikasının ən ali ordenini – «Xidmətlərə görə» Böyük Xaç ordenini təqdim etdim. Cənab Əliyev ölkələrimiz arasında münasibətlərin inkişaf etməsinə göstərdiyi xidmətlərinə görə bu ordenlə təltif edilmişdir. Biz bilirik ki, XX əsrin əvvəlində siz azadlığınıza nail olmusunuz. Azərbaycan xalqı tarixən öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmışdır.

Cənab Prezident, çox sağ olun.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin təşəkkürümü bildirmək istəyirəm.

Mən bu gün məmnunam ki, biz Sizinlə çox səmərəli danışıqlar apardıq, geniş fikir mübadiləsi etdik. Mən böyük məmnuniyyətlə Polşaya yenidən səfər edirəm və Polşa dövlətinin ali ordenini mənə təqdim etdiyinizə görə, sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən bundan sonra da öz fəaliyyətimdə Polşa–Azərbaycan münasibətlərinin inkişafında fəal rol oynayacağam. Çalışacağam ki, bu münasibətlər daha da möhkəmlənsin, dərinləşsin və xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

Biz haqlı olaraq bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi qiymətləndiririk. Bizim aramızda çox güclü siyasi dialoq aparılır. Cənab Prezident, bizim Sizinlə görüşlərimiz mütəmadi xarakter daşıyır. Bakıda, Varşavada, digər şəhərlərdə biz mütəmadi qaydada görüşürük, ikitərəfli və regional məsələləri müzakirə edirik. Müzakirə olunan məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür.

Bizim iqtisadi əlaqələrimizin inkişafı üçün də çox gözəl perspektivlər var. Mən əminəm ki, bu səfər və səfərin nəticələri bu sahədə də əməkdaşlığın dərinləşməsinə gətirib çıxaracaqdır.

Hörmətli cənab Prezident, bu gün biz sizinlə iki ölkə arasında siyasi bəyannaməni imzaladıq. Bu bəyannamədə ikitərəfli münasibətlərin bütün aspektləri öz əksini tapıbdır. Bəyannamə gələcək əməkdaşlıq üçün çox gözəl sənəddir. Xüsusilə bəyannamədə və sizin bugünkü çıxışlarınızda səslənən və Azərbaycanın ərazi bütövlüyünə aid olan məsələlər bizdə xüsusi məmnunluq hissi oyadır.

Polşa bütün dövrlərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun şəkildə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarı olmuşdur. Siz bu mövqeni bu gün də təkrarladınız. Bu, münaqişənin həlli üçün çox əhəmiyyətlidir. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, danışıqlar predmeti olmayıb və olmayacaqdır. Məsələ Azərbaycanın

ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və beynəlxalq dəstək, dünyanın aparıcı ölkələrinin bu barədəki mövqeləri, əlbəttə, məsələnin həlli üçün gözəl şərait yaradır.

Azərbaycanlılar münaqişə zamanı etnik təmizləmə siyasətinə məruz qalmışlar. Bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından zorla çıxarılmışdır. Onu da deyə bilərəm ki, düz 16 il bundan əvvəl – 1992-ci il fevralın 26-da Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparması qeydə alınmışdır. Məhz o gün Azərbaycan şəhəri Xocalı Ermənistanın təcavüzünə məruz qalmışdır və azərbaycanlılara qarşı soyqırımı törədilmişdir. O gecə 600-dən çox dinc insan qətlə yetirilmişdir. Onlardan 63-ü uşaq, 106-sı isə qadın idi. Bu çox böyük cinayətdir. Biz, əlbəttə, danışıqlar zamanı öz prinsipial mövqeyimizdən dönməyəcəyik və çalışacağıq ki, məsələ öz həllini tapsın. Bayaq qeyd etdiyim kimi, ölkələrin ərazi bütövlüyü çərçivəsində.

Hazırda bizim aramızda çox geniş enerji dialoqu aparılır. Sizin təşəbbüsünüzlə keçən ilin may ayında Krakovda keçirilən birinci enerji sammitinin nəticələri çox ümidverici olmuşdur. Ondan sonra biz Litvada görüşdük. Bu il yenə də görüşəcəyik və enerji sahəsində əməkdaşlıq, əlbəttə, həm iki ölkə arasında münasibətlərə çox gözəl təsir göstərir, həm də regional əməkdaşlıq məsələlərində öz müsbət rolunu oynayır.

Biz indi Xəzər dənizi–Qara dəniz–Baltik dənizi əməkdaşlıq çərçivələrini müəyyən edirik və bu istiqamətdə enerji amili, əlbəttə, mühüm rol oynayır. Azərbaycan həm neft, həm də qaz hasil və ixrac edən ölkəyə çevrilmişdir. Bizim zəngin yataqlarımızdakı neft, qaz artıq dünya bazarlarına, o cümlədən Avropa İttifaqı bazarına çatdırılmışdır. Gələcəkdə biz öz hasilatımızı daha da artıracağıq. Bu il Azərbaycanda neftin hasilatı 53 milyon ton, qazın təhvil verilməsi təxminən 18 milyard kubmetr olacaqdır. Amma, əlbəttə, potensial daha da böyükdür və bu sahədə, xüsusilə qaz sahəsində əməkdaşlıqda həm istehsalçılar, həm də istehlakçılar fəal iştirak etməlidir və iki tərəfin maraqları maksimum dərəcədə

müəyyən olunmalıdır. Bu sahədə çox güclü koordinasiya işləri aparılmalıdır. Deyə bilərəm ki, cənab Prezident, sizin təşəbbüsünüzlə Krakov sammitinin əsas mahiyyəti, əsas müsbət cəhətləri məhz onda idi ki, biz, bir neçə ölkənin prezidentləri bir araya gəldik və beləliklə, gələcək inkişaf parametrlərini müəyyən etdik. Növbəti mərhələdə biz artıq praktiki işlərə keçməliyik və mən şübhə etmirəm ki, bu sahədə də əldə ediləcək uğurlar müsbət olacaq və regional əməkdaşlığa çox gözəl təkan verəcəkdir.

Bizim aramızda olan münasibətlər çoxşaxəlidir. Həm iqtisadi, həm energetika, həm siyasi, həm də humanitar sahədə çox gözəl perspektivlərimiz var. Biz dost ölkələrik, strateji tərəfdaşlıq çərçivəsində öz münasibətlərimizi qururuq və bundan sonra da çalışacağıq ki, bu münasibətləri yüksək səviyyədə saxlayaq.

Mən aparılan danışıqlardan çox razıyam. Onlar çox uğurlu olmuşdur. Əminəm ki, bu danışıqlar və gələcək görüşlərimiz ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm vasitə olacaq və Polşa–Azərbaycan dostluğu davam edəcəkdir.

Cənab Prezident, bizə göstərdiyiniz bu qonaqpərvərliyə görə, məni Polşanın yüksək dövlət mükafatı ilə təltif etdiyinizə görə Sizə bir daha minnətdaram.

## POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK İLƏ GÖRÜŞ

*Varşava*

*26 fevral 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 26-da Varşavada Polşanın Baş naziri Donald Tusk ilə görüşmüşdür.*

*Azərbaycan ilə Polşa arasında iqtisadi, enerji və digər sahələrdə əlaqələrin inkişafının xüsusi vurğulandığı görüşdə qeyri-enerji sektorunda da əməkdaşlıq üçün geniş imkanların olduğu bildirildi, perspektivdə bu imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyi diqqətə çatdırıldı.*

*Prezident İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən danışdı.*

*İki ölkənin qarşılıqlı iqtisadi maraqlarının olduğu bildirildi, investisiyaların cəlb edilməsi məsələsi barədə müzakirə aparıldı. Söylənildi ki, bu, perspektivdə qarşıda duran əsas məsələlərdən biridir.*

*Görüşdə humanitar sahədə də geniş bazanın, Azərbaycan və Polşa xalqları arasında tarixən sıx əlaqələrin mövcudluğu, dövlətimizin başçısının bu rəsmi səfərinin əhəmiyyəti vurğulandı. Qeyd olundu ki, bu səfər xüsusilə iqtisadi əlaqələrimizin inkişafı və konkret layihələrin həyata keçirilməsi baxımından çox faydalıdır.*

## POLŞA SENATININ MARŞALI BOQDAN BORUSEVİÇ İLƏ GÖRÜŞ

*Varşava, Polşa Senatı*

*26 fevral 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 26-da Polşa Senatının marşalı Boqdan Boruseviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanın və Polşanın parlamentləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, beynəlxalq məsələlərdə mövqelərimizin yaxın olduğu bildirildi. Parlamentlərarası əlaqələrin ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyi qeyd olundu.*

*Əlaqələrin inkişafında dövlət başçıları səviyyəsində bu cür səfərlərin əhəmiyyəti vurğulandı, iqtisadi və enerji sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Parlament səviyyəsində əməkdaşlığın Avropanın parlament strukturları, eləcə də Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlarla əlaqələrin genişlənməsi işinə xidmət etdiyi bildirildi.*

*Görüşdə əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

*Azərbaycan prezidenti İlham Əliyev Polşa Senatının Xatirə kitabına ürək sözlərini yazdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*Fevralın 26-da Polşa prezidenti Lex Kaçinskinin və xanımı Mariya Kaçinskinin adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir. Dövlət başçıları ziyafətdə nitq söylədilər.*

**Polşa prezidenti Lex Kaçinskinin nitqi**

Çox hörmətli cənab Prezident!

Çox hörmətli xanım Əliyeva!

Mən ilk öncə, böyük məmnunluq hissi ilə bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi prezidentlik səlahiyyətinə başlayandan sonra rəsmi qonağım kimi burada qəbul etdiyimi bildirmək istəyirəm.

Düzdür, mən prezidentliyim dövründə Sizi ilk dəfədir ki, ali qonaq kimi qəbul edirəm. Lakin iftixar hissi ilə onu da qeyd etmək istəyirəm ki, son iki il ərzində biz bir-birimizlə, demək olar, yeddi-səkkiz dəfə görüşmüşük. Bu bizim münasibətlərimizin miqyasını nümayiş etdirir. Bu eyni zamanda, ölkələrimiz arasında daha böyük yaxınlığı əks etdirir. Biz Azərbaycanı özümüzə strateji tərəfdaş kimi qəbul edirik. Biz Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşırıq və ərazi bütövlüyünü dəstəkləyirik. İndi isə ikitərəfli münasibətlərimizin daha da sıxlaşdırılması üçün əlimizdən gələni edirik.

Məncə, heç kim deyə bilməz ki, son iki il ərzində bizim başladığımız hər hansı bir iş uğursuz olub. İlk öncə, bizim Bakıda ikitərəfli, daha sonra isə GUAM ölkələri ilə Polşa arasında görüşlərimiz olub. Bildiyimiz kimi, Azərbaycan GUAM təşkilatında çox önəmli rol oynayır. Mənim Krakovda və Vilnüsdə GUAM təşkilatının iclaslarında çıxış-

larım və görüşlərim olmuşdur. Bütün bunlar ikitərəfli münasibətlərin ümumi inkişafına əlavə təkan verir. Eyni zamanda, çoxtərəfli münasibətləri də inkişaf etdirir. Mən bunu bir daha aydın şəkildə bəyan etmək istəyirəm ki, bu gün Polşa Azərbaycanla ikitərəfli münasibətlərin inkişafı sahəsində daha fəal olmaq istəyir və həmçinin Azərbaycanla dostluq əlaqələrini inkişaf etdirən ölkələrlə də öz əlaqələrini genişləndirmək fikrindədir. Təbii ki, burada Gürcüstan və Ukraynanın əsas rolu nəzərdə tutulur. Biz enerji sahəsində ümumi işlərin, ümumiyyətlə, işbirliyinin qurulmasını arzulayırıq. Eyni zamanda, öz siyasi münasibətlərimizi də möhkəmləndirmək fikrindəyik. Bu, Azərbaycanın Avroatlantik məkana inteqrasiya olunmaq arzusu baxımından çox vacibdir. Bu münasibətlər və maraq sırf enerji məsələsi ilə bağlı deyil. Bu eyni zamanda, uzun əsrlər boyu bizim ölkələrimizi və xalqlarımızı bir-birinə bağlayan zəngin adət-ənənələrdən irəli gəlir.

Cənab Prezident, əminəm ki, Sizin və birinci xanımın Polşa Respublikasına rəsmi səfəri həmin əlaqələrin daha da dərinləşməsinə təkan verəcəkdir. Biz bütün maneələri aradan qaldırmaqda kifayət dərəcədə güclü olmalıyıq. Bu elə maneələrdir ki, biz onların hamısından yaxşı xəbərdarıq. Bunlar bizim qarşımızda böyük maneə kimi dura bilməz, regionumuzun təhlükəsizliyi və sabitliyi yolunda bizə maneə ola bilməz. Bu elə bir region olmalıdır ki, burada dövlətlərin sabitliyi təmin edilsin.

Nitqimi yekunlaşdıraraq onu xatırlatmaq istəyirəm ki, iki dövlət arasında olan münasibətlər sırf siyasətçilər tərəfindən inkişaf etdirilmir. Cənab Prezident, bilmirəm, Siz mənim fikrimlə razılaşarsınız ya yox, lakin bu baxımdan son vaxtlar mənim adi insanlarla keçirdiyim görüşlər ona dəlalət edir ki, bu münasibətlər xalqlar, adi insanlar səviyyəsində də genişlənir.

Mən məhz bu sözlərlə öz badəmi, cənab Prezident, Sizin, birinci xanımın və Azərbaycan xalqının şərəfinə qaldırmaq istəyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Çox hörmətli cənab Prezident!
Çox hörmətli xanım Kaçinski!
Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bizim aramızda müzakirə olunan məsələlər bir daha onu göstərdi ki, bir çox ikitərəfli və regional məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür. Bu da təbiidir, çünki bizim ölkələr və xalqlar bir-birinə çox yaxındır və son illər ərzində çox uğurlu əməkdaşlıq edirlər.

Xalqlarımız arasında əməkdaşlığın çox böyük tarixi vardır. Polşa nümayəndələri müxtəlif dövrlərdə Azərbaycanda çalışmış, yaratmış, Azərbaycanın inkişafına böyük töhfələr vermişlər. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaranında Azərbaycan Milli Ordusunun qərargah rəisi polyak idi. Polyak neft mühəndisləri, memarlar Azərbaycanın inkişafına çox dəyərli töhfələr vermişlər. Eyni zamanda, Azərbaycan nümayəndələri də Polşanın inkişafında öz əməklərini göstərmişlər.

Üç il bundan əvvəl biz Sizinlə bərabər – Siz o vaxt Varşava şəhərinin meri idiniz – Varşava Üsyanı Muzeyinin həyətində azərbaycanlı zabitlərin şərəfinə ucaldılmış memorial abidənin açılışında iştirak etmişdik. Sizin qeyd etdiyiniz kimi, bu gün bizim münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Bu ifadə bütün sahələri əhatə edir, siyasi dialoq çox yüksək səviyyədədir. Biz qısa müddət ərzində Sizinlə dəfələrlə görüşmüşük. İqtisadi əlaqələr genişlənir və humanitar sahədə də əməkdaşlıq çox ümidvericidir.

Cənab Prezident, Sizin təşəbbüsünüzlə keçən ilin may ayında Krakovda enerji zirvə görüşü keçirilmişdir ki, bu da ikitərəfli və çoxtərəfli münasibətlərdə mühüm bir hadisə idi.

Sizin Krakov təşəbbüsünüz artıq bu gün yeni razılaşmaların əldə edilməsinə imkan verir və gələcəkdə energetika sahəsində əməkdaşlığın çox güclü bir dayaq nöqtəsidir. Polşa enerji sahəsində bizim üçün çox dəyərli və vacib tərəfdaşdır. Mən əminəm ki, nəzərdə tutulmuş bütün planlar həyatda öz əksini tapacaqdır.

Azərbaycanın Avroatlantik strukturlara inteqrasiya siyasəti də Polşa rəhbərliyi tərəfindən həmişə dəstəklənmişdir. Azərbaycan hazırda NATO ilə fərdi əməkdaşlıq proqramının icrası ilə məşğuldur, eyni zamanda, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilmişdir və bu iki istiqamətdə biz Polşanın dəstəyini daim hiss edirik. Polşa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində görür və bu mövqe Azərbaycan tərəfindən çox yüksək qiymətləndirilir.

Bizim strateji tərəfdaşlıq münasibətlərimizin bütün əlamətləri bu gün Sizinlə imzaladığımız siyasi bəyannamədə öz əksini tapmışdır. Əminəm ki, mənim səfərimdən sonra bizim münasibətlərimiz yeni yüksək pilləyə qalxacaq, Polşa ilə Azərbaycanın dostluq münasibətləri davam etdiriləcək və bölgədə öz müsbət təsirini göstərməyə davam edəcəkdir.

Mən onu da qeyd etmək istəyirəm və əminəm ki, cənab Prezident, mənimlə razılaşarsınız, bizim aramızda şəxsi münasibətlər də çox yüksək səviyyədədir. Deyə bilərəm ki, bizi dostluq əlaqələri bağlayır və bu da iki ölkə arasında gələcək əməkdaşlıq üçün çox vacib olan bir məsələdir.

Mənim üçün böyük şərəfdir ki, Siz bu gün məni Polşa–Azərbaycan münasibətlərinin inkişafında gördüyüm işlərə görə Polşa dövlətinin yüksək ordeni ilə təltif etmisiniz. Mən buna görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm.

Cənab Prezident, mən bu badələri Sizin şərəfinizə, xanım Kaçinskinin şərəfinə, polyak xalqının xoşbəxtliyi və rifahı şərəfinə qaldırıram.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA RESPUBLİKASININ «XİDMƏTLƏRƏ GÖRƏ» BÖYÜK XAÇ ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR

*Polşa, Prezident sarayı*

*26 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasının «Xidmətlərə görə» Böyük Xaç ordeni ilə təltif edilmişdir.*

*Ordeni Azərbaycan prezidenti İlham Əliyevə fevralın 26-da Varşavada Polşa prezidenti Lex Kaçinski təqdim etmişdir.*

*Bu mükafat dövlətimizin başçısına ölkələrimiz arasında münasibətlərin inkişafındakı xidmətlərinə görə verilmişdir.*

**Lex Kaçinski:** Mənim hörmətli həmkarım!

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri!

Hörmətli xanımlar və cənablar!

Mən Polşa Respublikasının ali ordenini Azərbaycan Respublikasının prezidentinə təqdim etməkdən böyük şərəf hissi duyuram. Təbii ki, ordenin təqdim olunmasının rəsmi hissəsi artıq başa çatmışdır. Bu ali orden məhz Sizin iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsində göstərdiyiniz səylərə görə verilir. Lakin şəxsən mənim fikrimcə, Sizin belə ali mükafatla təltif olunmağınız mənə dost olan ölkənin rəhbərinə, dövlət başçısına göstərdiyim rəğbət və hörmətin əlamətidir.

Siz ölkənizin əbədi və dönməz suverenliyi və müstəqilliyi yolunda xidmətlər göstərmisiniz. Siz ölkələrimiz arasında

ikitərəfli münasibətlərin inkişafındakı xidmətlərə görə bu ali ordenlə təltif edilmisiniz.

Cənab Prezident, xahiş edirəm, bu ordeni məhz belə bir ruhda qəbul edəsiniz. Bu eyni zamanda, o ölkəyə, o millətə verilən ali bir ordendir ki, onilliklər, əsrlər boyu öz müstəqilliyi uğrunda mübarizə aparmışdır. Sizi bir daha təbrik edirəm.

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident, məni Polşa dövlətinin yüksək ordeni ilə təltif etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu mənim üçün çox böyük şərəfdir. Mən Sizi əmin etmək istəyirəm ki, fəaliyyətimdə bundan sonra da Polşa–Azərbaycan münasibətlərinin inkişafında çox fəal rol oynayacağam. Eyni zamanda, mən bu ordeni Sizin Azərbaycan xalqına və suveren Azərbaycan dövlətinə olan hörmətinizin əlaməti kimi qəbul edirəm.

Siz çox düzgün qeyd etdiniz ki, əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır və nəhayət, bu arzuya çatmışdır. Bizim üçün müstəqillik, suverenlik ən böyük nemətdir. Müstəqil ölkə kimi, bizim üçün Polşa ilə münasibətlərimiz xüsusi əhəmiyyət kəsb edir. Bizim aramızda münasibətlərin hərtərəfli inkişafı milli maraqlarımıza cavab verir və mən əminəm ki, əlaqələrimiz bundan sonra da uğurla davam edəcəkdir.

Hörmətli cənab Prezident, bu yüksək mükafata görə Sizə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm.

## Naməlum əsgərin məzarını ziyarət

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.*

*Dövlətimizin başçısı İlham Əliyev Polşanın bütün tarixi ərzində öz azadlığı uğrunda apardığı müharibələr zamanı verdiyi qurbanların xatirəsini ehtiramla yad etdi, abidə önünə əklil qoydu.*

*Sonra dövlətimizin başçısına abidə kompleksi haqqında ətraflı məlumat verildi. Bildirildi ki, abidə kompleksi Polşanın azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş insanların şərəfinə ucaldılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı.*

## QDANSK ŞƏHƏRİNƏ YOLASALMA MƏRASİMİ

*Varşava, «Okençie» Hərbi Hava Limanı*

*27 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Varşavada rəsmi görüşlərini başa çatdırdıqdan sonra fevralın 27-də Qdansk şəhərinə yola düşmüşdür. Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş «Okençie» Hərbi Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Polşanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

***

*Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşanın Qdansk şəhərinə gəlmişdir.*

*Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Lex Valensa adına Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Polşa prezidenti Lex Kaçinski və xanımı Mariya Kaçinski, həmçinin Pomorsk voyevodalığının rəhbəri Roman Zabarovski və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidentinə və xanımına gül dəstələri təqdim olundu.*

*Hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinski arasında qısa görüş oldu.*

*Görüşdən sonra dövlət başçıları Qdansk neft limanına yola düşdülər.*

## QDANSK NEFT LİMANI İLƏ TANIŞLIQ

*Qdansk limanı*

*27 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinski Qdansk neft limanına gəldilər.*

*Dövlət başçıları Azərbaycanın və Polşanın dövlət bayraqları asılmış limanın inzibati binasının yuxarı mərtəbəsindən ümumi mənzərəni seyr etdilər.*

*Sonra prezidentlərin görüşü oldu.*

*Dövlətimizin başçısı İlham Əliyevə məlumat verildi ki, Baltik dənizi sahilində yerləşən və Avropanın ən böyük limanlarından olan bu infrastrukturdan dünyanın bir sıra ölkələrinə neft və neft məhsulları, daş kömür, kimya sənayesi məhsulları və digər yüklər daşınır. 1975-ci ildə tikilən və 50 milyon ton yük qəbul etmək gücünə malik olan limanda neft terminalı da fəaliyyət göstərir. Bu terminal «Sarmatiya» konsorsiumunun həyata keçirəcəyi Odessa–Brodı–Qdansk neft kəməri layihəsinin son məntəqəsidir.*

*Bildirildi ki, Odessa–Brodı–Qdansk kəməri ilə neft bu terminala gələcək və buradan Avropanın digər ölkələrinə daşınacaqdır. Kəmərin buraxılış gücü ildə 9 milyon tondur. Konsorsiumun hazırladığı layihəyə görə, kəmər işlək vəziyyətə gətiriləcək və Brodıdan Qdanska qədər yeni xətt çəkiləcəkdir. Beləliklə, kəmərin nəqletmə gücü 14 milyon tona çatdırılacaqdır.*

*Konsorsiumun əsas planına görə bu kəmər böyük həcmdə Azərbaycan nefti ilə doldurulacaqdır. Gələcəkdə Qazaxıstan neftinin də bu kəmərlə daşınması nəzərdə tutulur. Rəsmi Astana*

*ötən ilin noyabrında Litvada keçirilən enerji sammitində bəyan etmişdir ki, onlar öz neftlərinin müxtəlif marşrutlarla daşınmasına tərəfdardırlar. Odessa–Brodı–Qdansk layihəsi də Qazaxıstanın maraq dairəsindədir.*

*Azərbaycan Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft kəmərini gündə bir milyon barrel neftlə təmin etdikdən sonra, Odessa–Brodı–Qdansk kəmərinin də doldurulmasına çalışacaqdır.*

*«Sarmatiya» konsorsiumunun əsas təşəbbüskarları Ukrayna və Polşadır. Həmin ölkələr layihənin reallaşmasında, ümumiyyətlə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycana ümid bəsləyirlər və ölkəmizin bu məsələdə rolunu yüksək qiymətləndirirlər.*

*Prezident İlham Əliyev və Polşa prezidenti Lex Kaçinski binanın qarşısında qoyulan rəmzi abidə daşının üzərindəki xatirə lövhəsinə baxdılar. Lövhənin üzərinə* «Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xəzər dənizinin enerji daşıyıcılarının Baltik dənizi regionuna çatdırılması təşəbbüsünə hörmət əlaməti olaraq qoyulmuşdur» *sözləri yazılmışdır.*

*Polşa prezidenti Lex Kaçinski böyük dövlət adamı Heydər Əliyevin fəaliyyətini xatırladaraq, görülən bütün işlərin, həyata keçirilən nəhəng layihələrin məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olduğunu bildirdi və bu lövhənin onun şərəfinə qoyulduğunu dedi.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin xatirəsinin Azərbaycanın strateji tərəfdaşı olan Polşada əziz tutulduğuna, xidmətlərinin yüksək qiymətləndirildiyinə və Qdansk limanındakı bu lövhəyə görə təşəkkürünü bildirdi.*

## «Azadlıq yolu» muzeyi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa prezidenti Lex Kaçinski fevralın 27-də Qdansk şəhərindəki «Azadlıq yolu» muzeyi ilə tanış olmuşlar.*

*Məlumat verildi ki, İkinci dünya müharibəsi zamanı bu yeraltı bina insanların gizlənməsi məqsədi ilə tikilmişdir. Ötən əsrin 80-ci illərində gizli fəaliyyət göstərən «Həmrəylik» adlı müstəqil həmkarlar təşkilatının mənzil-qərargahı burada yerləşmişdir.*

*Prezidentlər muzeydə 1944-cü ildən 1989-cu iladək olan dövrə aid eksponatlara baxdılar. Polşanın azadlıq uğrunda mübarizə yolunu əks etdirən filmə tamaşa etdilər. Filmdə Sovet İttifaqının dağılmasına təkan verən və Avropanın keçmiş sosialist respublikalarında, eləcə də Müstəqil Dövlətlər Birliyi ölkələrində kommunist rejiminə qarşı keçirilmiş etiraz aksiyaları və kütləvi nümayişlərdən bəhs olunur.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## «Həlak olmuş tərsanə işçiləri» abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Qdansk şəhərinin mərkəzində ucaldılmış «Həlak olmuş tərsanə işçiləri» abidəsini ziyarət etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Polşa prezidenti Lex Kaçinski ötən əsrin 80-ci illərinin əvvəllərində Polşada geniş vüsət alan etiraz nümayişləri zamanı güllələnən tərsanə işçilərinin şərəfinə ucaldılmış abidə önünə əklil qoydular.*

*Bildirildi ki, Qdansk liman şəhəri olduğu üçün o vaxtkı etiraz aksiyalarının əsas təşəbbüskarları da məhz tərsanə işçiləri olmuşdur.*

## Səfər başa çatdı

***F**evralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycan Respublikasının və Polşa Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Qdansk şəhərinin Lex Valensa*

*adına Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ İLKKA KANERVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın Xarici İşlər naziri İlkka Kanervanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ATƏT əməkdaşlığının müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.*

## XALQ ARTİSTİ ARİF BABAYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 fevral 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Prezident sarayında Xalq artisti, professor Arif Babayevi qəbul etmiş, Azərbaycan muğam sənətinin inkişafındakı böyük xidmətlərinə görə «İstiqlal» ordenini ona təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan «İstiqlal» ordeni ilə təltif etmişəm və istəyirəm bu gün bu ordeni özüm sizə təqdim edim.

**A r i f B a b a y e v** (*Xalq artisti*): Cənab Prezident, çox sağ olun, Sizə minnətdaram. Müstəqil Azərbaycanımızın bu yüksək ordenini mənə verdiyinizə görə Sizə öz adımdan, ailəmin adından və qarabağlıların adından təşəkkürümü bildirirəm.

**İ l h a m Ə l i y e v:** Siz buna layiqsiniz. Azərbaycan xalqı qarşısında böyük xidmətləriniz olmuşdur. Həmişə öz sənətinizlə bütün Azərbaycan xalqını sevindirmisiniz.

*Dövlətimizin başçısı «İstiqlal» ordenini Arif Babayevə təqdim edərək, onu bir daha təbrik etdi.*

**A r i f B a b a y e v:** Cənab Prezident, çox sağ olun, minnətdaram.

Mən çalışacağam ki, bu etimadı doğruldum. Nə qədər ömrüm var, öz sahəmdə əlimdən gələni əsirgəməyəcəyəm. Mən bunu ürəyimlə, varlığımla deyirəm ki, son zamanlar Azərbaycan başdan-başa dəyişir, gözəlləşir, abadlaşır. Hər şeyi xalqımız görür. Qarşıdan seçkilər gəlir. Xalqımız ürəklə, canla-başla Sizə səs verəcəkdir. Siz prezident olduğunuz bu

müddətdə çox böyük, əvəzolunmaz işlər görmüsünüz. Allah ulu öndər Heydər Əliyevə rəhmət eləsin. Siz onun davamçısı kimi, hər sahədə çox böyük işlər görürsünüz. Vallah, bizim rayonlara gedəndə gərək rezin çəkmə geyinəydin. İndi maşallah, ölkəmizin hər bölgəsində, rayonlarda gözəl asfalt çəkilir, evlər tikilir. Hansı rayona gedirsən, hansı bölgəyə gedirsən, hamısı gözəldir, indi o rayonları tanımaq olmur. Bunun hamısı Sizin qayğınızdır. Allah Sizə yar olsun.

Mehriban xanıma da biz öz təşəkkürümüzü bildiririk. Mehriban xanımın bizim muğam sahəsində həyata keçirdiyi layihələri bütün dünya alqışlayır. Bu yaxınlarda müsabiqələr oldu. O müsabiqələrdə telefon zənglərinin ardı-arası kəsilmirdi. Bütün dünyanın hər yerindən azərbaycanlılar zəng edirdilər. Heç vaxt milli musiqimiz bu zirvəyə qalxmamışdı, bu ucalıqda olmamışdı.

**İlham Əliyev:** Əlbəttə, biz elə etməliyik ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Həm regionlarda, həm də Bakıda görülən işlər Azərbaycanı gücləndirir, insanlar üçün daha da yaxşı şərait yaradır. İndi Bakı şəhərini görürsünüz, necə gözəlləşir. Həm rayonlar, həm infrastruktur, həm binalar, həm də yollar – hər şey. O cümlədən bizim mədəniyyətimizə də böyük diqqət göstərilməlidir. Mən həmişə demişəm ki, bizi bir millət kimi assimilyasiyadan qoruyan mədəniyyətimiz, dilimiz, musiqimiz və əsərlərimiz olubdur. Ona görə biz bu sahəyə daim böyük diqqət göstərməliyik. Muğam sənətinə Azərbaycan xalqının qəlbində olan məhəbbəti biz bir daha müsabiqədə gördük. Siz yaxşı bilirsiniz ki, xaricdə yaşayan bütün soydaşlarımız televiziya vasitəsilə baxırdılar və Azərbaycan vətəndaşları da baxırdılar. Hamımız çox sevinirik ki, gənc nəsil yetişir. Yəni bu sənət davam edir və bunun gələcəyi də çox gözəl olacaqdır.

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinə, iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.*

## ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç!

Sizi Rusiya Federasiyasının prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan və Rusiyanı tarixən sıx dostluq, mehriban qonşuluq, əməkdaşlıq və qarşılıqlı dəstək telləri bağlayır.

Bu gün ölkələrimiz arasında ikitərəfli münasibətlər keyfiyyətcə yeni xarakter kəsb etmiş, strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Əminəm ki, bizim birgə səylərimiz xalqlarımızın və ölkələrimizin tərəqqisi naminə, regionda sülh, sabitlik və tərəqqi naminə dövlətlərimiz arasında münasibətlərin bundan sonra da dinamik və yüksələn xətlə inkişafına, Azərbaycanla Rusiya arasında çoxplanlı qarşılıqlı surətdə faydalı əlaqələrin möhkəmlənməsinə və genişlənməsinə yönələcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Rusiya xalqının rifahı naminə dövləti fəaliyyətinizdə böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*3 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Gəncə şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin mərkəzindəki Heydər Əliyev meydanına gələrək, ulu öndərin abidəsini ziyarət etdilər, önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev meydanda aparılacaq yenidənqurma işləri ilə maraqlandı, müvafiq tapşırıq və tövsiyələrini söylədi.*

*Sonra dövlətimizin başçısı Gəncə Şəhər İcra Hakimiyyətinin binasında aparılan təmir işləri ilə maraqlandı, iş otaqlarına və akt salonuna baxdı.*

### Dahi Nizaminin xatirəsinə ehtiram

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Gəncədə dahi Nizaminin məqbərəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısına məqbərədə aparılan abadlıq işləri barədə məlumat verildi. Prezident İlham Əliyev məqbərənin və ətraf ərazinin görünüşünün müasirləşdirilməsi və daha yüksək səviyyəyə çatdırılması ilə bağlı müvafiq tövsiyələrini verdi.*

***

*Sonra dövlətimizin başçısı şəhərin girəcəyindəki yenidən bərpa edilmiş «Gəncə darvazası»na və qala divarına baxdı.*

## «DAŞKƏSƏN FİLİZSAFLAŞDIRMA» ASC-nin GƏNCƏ POLAD KOMPLEKSİNİN VƏ DETAL ALÜMİNİUM ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*Gəncə*

*3 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də «Daşkəsən filizsaflaşdırma» ASC-nin Gəncə polad kompleksinin və Detal alüminium zavodunun təməlqoyma mərasimində iştirak etmişdir. Prezident İlham Əliyev əvvəlcə Gəncə polad kompleksi ərazisinə gəldi. Burada dövlətimizin başçısını böyük hörmətlə qarşıladılar.*

*Azərbaycan prezidenti polad kompleksinin və Detal alüminium zavodunun texniki-iqtisadi göstəriciləri ilə tanış oldu, sənədli filmə baxdı. Filmdə ulu öndərin və prezident İlham Əliyevin ölkəmizdə metallurgiya sənayesinin yaradılması ilə bağlı fikirləri vurğulanır və hər iki müəssisə barədə məlumat verilir.*

*Hər iki layihə Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilir. Dəmir filizindən son məhsula qədər istehsalı özündə birləşdirən polad kompleksi bir neçə zavoddan ibarət olacaqdır. Bu kompleks İtaliyanın «Danielli» və «Tedhink» şirkətlərinin qabaqcıl texnologiyaları əsasında Türkiyənin «Ekom» şirkəti tərəfindən inşa ediləcəkdir. Polad kompleksinin inşasına 800 milyon ABŞ dolları həcmində investisiya qoyulacaqdır. Kompleksin fəaliyyətə başlaması nəticəsində Daşkəsən və Gəncədə 1800 yeni iş yeri açılacaqdır. Burada ildə bir milyon ton polad istehsal olunacaqdır. Polad kompleksinin investisiya müddəti 2008–2011-ci illəri əhatə edir. Bu kompleksdə istehsal ediləcək polad neft hasilatı sənayesində istifadə olunan yüksək keyfiyyətli polad boruların, habelə inşaat materiallarının, o cümlədən armatur və*

*müxtəlif çeşidli metal profillərin istehsalına imkan verəcəkdir. Polad kompleksinin fəaliyyətə başlaması nəticəsində polad məhsullarının ixracına geniş imkanlar yaranacaqdır.*

*İkinci layihə Gəncə şəhərində ildə 100 min ton alüminium istehsal edəcək zavodun inşası ilə bağlıdır.Bu zavodu Çinin «SMEC» şirkəti tikəcək, mühəndislik layihələndirilməsini isə alüminium sənayesində qabaqcıl layihə şirkətlərindən olan «Qammi» şirkəti həyata keçirəcəkdir.*

*Bu zavodun fəaliyyətə başlaması nəticəsində Azərbaycanda alüminium istehsalı ildə 160 min tona çatacaq, beləliklə, həmin məhsulun ixracı daha da artacaqdır. İnvestisiya müddəti 2008-2009-cu illəri əhatə edəcək zavodun tikintisinə 230 milyon ABŞ dolları məbləğində sərmayə qoyulacaqdır. Müəssisənin fəaliyyətə başlaması nəticəsində 500 iş yeri açılacaq, tətbiq olunacaq müasir texnologiya xammaldan və elektrik enerjisindən daha da səmərəli istifadə etməyə imkan verəcəkdir.*

*Məsələn, zavodda bir ton alüminium istehsalına 13,6 min kilovat elektrik enerjisi sərf ediləcək ki, bu da hazırda MDB məkanında fəaliyyət göstərən oxşar müəssisələrlə müqayisədə təxminən 6000 kilovat azdır. Ekologiyanın qorunmasına da xüsusi diqqət yetiriləcəkdir. Müəssisədə quraşdırılacaq müasir avadanlıq istehsal prosesində yaranan zərərli tullantıların təqribən 98 faizinin buraxılmasının qarşısını alacaq ki, bu da dünya standartlarına yüksək səviyyədə cavab verir.*

*Polad kompleksi və alüminium zavodunda çalışacaq işçilərin bu sahədə beynəlxalq təcrübəyə yiyələnməsi məqsədi ilə indidən tədbirlər görülür və gələcəkdə onların xarici ölkələrdə təcrübə keçməsi nəzərdə tutulur. Hər iki layihənin həyata keçirilməsi ölkənin qeyri-neft sektorunun tərəqqisində mühüm rol oynamaqla yanaşı, respublikada metallurgiya sənayesinin sürətli inkişafı, ölkənin ixracat potensialının yüksəldilməsi baxımından da böyük rol oynayacaqdır. O da bildirildi ki, Azərbaycanda yaradılan bu müəssisələr dünya üzrə dördüncüdür, yəni Meksika, Misir, Rusiyadan sonra belə müəssisələr Azərbaycanda yaradılır.*

*Sonra burada prezident İlham Əliyevin iştirakı ilə sənədlər imzalandı. «Noble Group Limited» şirkəti ilə Polad kompleksinin və Detal alüminium zavodunun istehsal edəcəkləri məhsulların satışına dair çərçivə sazişi, «Danielli» şirkəti ilə Polad kompleksinin layihələndirilməsi və texnoloji avadanlıqla təchizatına dair niyyət razılaşması və «BNP Paribas» bankı ilə Polad kompleksinin inşasının maliyyələşdirilməsinə dair razılaşma sənədləri imzalandı.*

*Sənədlərin imzalanmasından sonra müəssisənin tikintisində iştirak edəcək şirkətlərin rəhbərləri dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdilər.*

*Prezident İlham Əliyev Polad kompleksinin bünövrəsinə gilizi qoydu və düyməni basaraq beton qarışığını tökdü.*

*Dövlətimizin başçısı Polad kompleksinin həyatində qoyulmuş xatirə daşına baxdı.Daşın üzərinə* «Daşkəsən filizsaflaşdırma» ASC-nin Gəncə polad kompleksinin təməl daşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qoyulmuşdur. 3 mart 2008-ci il» *sözləri yazılmışdır. Prezident İlham Əliyev xatirə daşının önündə şəkil çəkdirdi.*

*Sonra dövlətimizin başçısı Detal alüminium zavodunun tikildiyi əraziyə gəldi. Buraya toplaşan inşaatçılar, xarici şirkətlərin nümayəndələri prezidenti böyük hörmətlə və alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev gilizi bünövrəyə qoydu və düyməni basaraq beton qarışığını tökdü.*

*Dövlətimizin başçısı yeni müəssisələrin təməlinin qoyulması ilə əlaqədar toplaşanlar qarşısında nitq söylədi.*

## Detal alüminium zavodunun təməlqoyma mərasimində nitq

Əziz dostlar, bu gün ölkəmizin iqtisadi həyatında çox əlamətdar bir gündür, Gəncədə iki böyük zavodun təməli

qoyulmuşdur. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu böyük zavodların tikintisi Azərbaycanda yeni sənayenin yaranması deməkdir. Biz çox istəyirik ki, Azərbaycan iqtisadiyyatı hərtərəfli inkişaf etsin, çoxşaxəli olsun və bu baxımdan, əlbəttə ki, güclü sənaye potensialının yaranması çox böyük əhəmiyyət kəsb edir. Bu iki zavodun timsalında biz bunu görürük. Böyük polad kompleksinin tikintisi nəticəsində Azərbaycan çox böyük iqtisadi imkanlara nail olacaqdır. Buraya çox böyük investisiyalar qoyulacaqdır. Eyni zamanda, alüminium zavodunun tikintisinə də investisiyalar qoyulacaqdır. Bütövlükdə investisiyaların ümumi həcmi 1 milyard dollardan çox olacaqdır. Bu da Azərbaycan sənayesinə, onun qeyri-neft sektoruna qoyulan ən böyük sərmayələrdən biridir. Bu onu göstərir ki, Azərbaycana böyük inam var, Azərbaycanın inkişafına böyük ümidlər var və xarici investorlar, banklar və tikinti şirkətləri Azərbaycanla işləmək üçün səylər göstərirlər.

Bu gün eyni zamanda, bu iki zavodun tikintisi üçün lazım olan bütün razılaşmalar imzalanmışdır. İlk növbədə, kredit razılaşması. Bu da onu göstərir ki, Azərbaycanın artan nüfuzu, iqtisadiyyatın inkişafı və Azərbaycanda hökm sürən sabitlik, əlbəttə ki, xarici investorları və bankları da ruhlandırır. Bir milyard dollardan çox kreditlər ayrılacaqdır. Eyni zamanda, bu gün bu zavodların tikintisi ilə bağlı olan bütün texniki məsələlər də öz həllini tapıbdır. Yəni Azərbaycana gətiriləcək texnologiyalar ən qabaqcıl texnologiyalar olacaqdır. Bu sahədə razılaşma imzalanmışdır. Zavodların tikintisi ilə yanaşı, buraxılacaq məhsulun satışı ilə bağlı da razılaşmalar imzalanmışdır. Bir sözlə, bütün lazım olan sənədlər bu gün imzalandı və əminəm ki, zavodların qısa müddət ərzində tikilib istifadəyə verilməsi nəticəsində Azərbaycanın sənayesinə çox güclü təkan veriləcəkdir. Biz bunu çox istəyirik. Arzulayırıq ki, Azərbaycanın sənayesi ən yüksək

dünya standartlarına çata bilsin. Zavodlarda ildə 1 milyon ton polad və 100 min ton alüminium istehsal olunacaqdır.

Bir daha qeyd etmək istəyirəm ki, bu zavodlar əslində yeni sənaye sahəsinin yaranması deməkdir. Biz Azərbaycanda çox güclü sənayeləşmə siyasətini aparırıq və bildiyiniz kimi, bu sahəyə diqqət günü-gündən artır. Biz həm yerli investorları ruhlandırırıq, həm də xarici sərmayələri alqışlayırıq. Elə etmək istəyirik ki, Azərbaycana qoyulan vəsait ölkəmizdə çox güclü sənaye potensialı yarada bilsin. Əlbəttə ki, bu sahədə biz beynəlxalq maliyyə qurumları ilə, tanınmış şirkətlərlə əməkdaşlığımızı davam etdirəcəyik.

Bu gün təməli qoyulan bu iki böyük kompleksin timsalında biz Azərbaycanda mövcud olan gözəl investisiya mühitini də görürük, investorların Azərbaycana olan inamını da görürük. Bu inamı qazanmaq o qədər də asan məsələ deyildir. Xüsusilə nəzərə alsaq ki, hələ 16 il bundan əvvəl Azərbaycan müstəqil dövlət deyildi və müstəqilliyimizin ilk illəri də bizim üçün çox ağır keçmişdir. Azərbaycana böyük sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədər dəçox deyildi.

Biz keçən əsrin 90-cı illərinin ortalarında neft-qaz sahəsinə böyük investisiyalar cəlb edə bildik və Azərbaycan özünü dünyaya etibarlı tərəfdaş kimi təqdim edə bilmişdir. Ancaq o da sirr deyil ki, adətən, neft-qaz sənayesinə investisiya qoymaq istəyən şirkətlər daha fəal olurlar. Bizim isə əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirməkdir ki, gələcəkdə Azərbaycanın neft amilindən asılılığını maksimum dərəcədə azaldaq. Düzdür, neft-qaz sahəsi Azərbaycanda bundan sonra da uzun illər ərzində aparıcı rol oynayacaqdır. Bu da təbiidir. Çünki bizim çox zəngin neft-qaz yataqlarımız var. Artıq bütün neft kəmərləri istismardadır. Ancaq iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək bizim prioritet məsələmizdir.

Mən bu məsələlərlə bağlı hələ 4 il bundan əvvəl, prezident seçkiləri ərəfəsində öz fikirlərimi bildirmişdim və seçkilərdən sonra öz iqtisadi proqramımı təqdim etmişdim. O proqramda ilk növbədə Azərbaycanın qeyri-neft sektorunun inkişaf

etdirilməsi nəzərdə tutulmuşdur. Bu illər ərzində Azərbaycan sənayesinin inkişafı üçün lazımi tədbirlər görülmüşdür. Azərbaycanda indi yeni sənaye müəssisələri yaradılır, yeni iş yerləri açılır və ölkəmizin qeyri-neft sektoru inkişaf edir. Ancaq bu iki kompleksin yaranması nəticəsində, əlbəttə ki, bu sahədə vəziyyət tam başqa şəkildə olacaqdır. Bu komplekslərin tikintisi həm yeni iş yerlərinin yaranması, həm qeyri-neft sektorunun inkişafı, həm də xarici sərmayənin cəlb edilməsi və beləliklə, ölkəmizin hərtərəfli inkişafı deməkdir. Onların tikintisi, əslində, özündə bizim bütün iqtisadi siyasətimizi cəmləşdirir: yeni iş yerlərinin regionların sosial-iqtisadi inkişafı, qeyri-neft sektorunun inkişafı və xarici investorlarla uğurlu əməkdaşlığımız. Biz bundan sonra da bu siyasətə sadiq olacağıq. Mən əminəm ki, bu iki nəhəng sənaye sahələrinin yaranması, eyni zamanda, digər investorlar üçün yaxşı nümunə olacaqdır. Yəni Azərbaycan etibarlı tərəfdaş kimi özünü dünyaya tam şəkildə təqdim edibdir və ümid edirəm ki, bu gözəl nümunədən sonra başqa şirkətlər də Azərbaycan iqtisadiyyatının digər sahələrinə investisiya qoyacaqlar.

Bu komplekslərin özəlliyi ondan ibarətdir ki, burada bütün istehsal prosesi Azərbaycanla bağlı olacaqdır. Yəni biz burada hansısa xarici xammaldan asılı deyilik. Bir müddət bundan əvvəl Daşkəsəndə başladığımız işlər bu gün polad kompleksinin təməlinin qoyulmasında özünü göstərir. Daşkəsən mədənlərinin işlənilməsi, filizsaflaşdırma səhmdar cəmiyyətinin fəaliyyəti, əlbəttə ki, polad kompleksi üçün gözəl xammal bazası yaradır. Düzdür, biz filizi xammal kimi sata bilərdik. Ancaq şübhəsiz, onu hazır məhsula çevirmək səmərəliliyi bir neçə dəfə artırır. Biz Azərbaycanda olan xammallardan səmərəli istifadə etməliyik, onun son məhsula çevrilməsini təmin etməliyik. Ancaq, əlbəttə ki, bu, böyük səy, düşünülmüş siyasət tələb edir. Həm maliyyə imkanlarımız olmalıdır, iqtisadi sahədə apardığımız liberal siyasət daha da güclənməlidir və həm də bizneslə məşğul olmaq üçün şərait daha da yaxşı olmalı, xarici investisiyalar bundan sonra da

qorunmalıdır. Bütün bu amillər Azərbaycanda var. İnvestisiyaların qorunması işində əldə etdiyimiz uğurlar, əlbəttə ki, bu gün xarici investorları daha da cəsarətli edir. Biz 1994-cü ildən neft müqavilələrinin imzalanması ilə üzərimizə öhdəliklər götürmüşük və o gündən bu günə qədər onları yerinə yetirmişik. Azərbaycanda çox yaxşı investisiya mühiti var. Biz xarici və yerli sərmayənin qorunması üçün lazımi qanunvericilik aktlarını da qəbul etdik, praktiki işlər də yaxşı gedir. Məhz buna görə 1993-cü ildən bu günə qədər Azərbaycan iqtisadiyyatına 46 milyard dollar sərmayə qoyulmuşdur və bu rəqəm ildən-ilə artır. Keçən il, 2007-ci ildə isə artıq daxili investisiyalar xarici investisiyaları üstələmişdir. Bu da çox gözəl nəticədir və onu göstərir ki, yerli şirkətlər güclənir, yerli şirkətlər artıq yeni inkişaf dövrünü yaşayır.

Beləliklə, gələcəkdə Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Mən bunu çox arzulayıram. Bu gün bu iki nəhəng kompleksin təməlinin qoyulması ilə bağlı bütün lazımi tədbirlərin görülməsi üçün göstərişlər vermişdim. Bu gün, bu gözəl gündə deyə bilərəm ki, Azərbaycan sənayesində yeni dövr başlayır. Yeni, nəhəng istehsal müəssisələri yaradılır. Onların potensialı çoxdur, böyük olacaqdır. Burada 2 minə yaxın insan işləyəcək, yüksək maaş alacaqdır. Bu sahələrin inkişafı ilə bağlı kiçik özəl sektor da inkişaf edəcəkdir.

Alüminium zavodunun işə düşməsindən kiçik sahibkarlar da faydalanacaqlar. Çünki son məhsulun buraxılması üçün gözəl şərait yaradılır. Biz elə etməliyik ki, bu komplekslərin işə düşməsindən sonra kiçik sahibkarlığın da bundan faydalana bilməsi üçün bütün lazımi tədbirlər görülsün. İki nəhəng kompleksin tikintisi və bundan sonra bu sahədə görüləcək işlər, şübhə yox ki, bizi əhəmiyyətli dərəcədə gücləndirəcək. Həm iş yerləri, həm də ixrac qabiliyyətli istehsal yaradılır. Bu da çox vacibdir. Biz istəyirik ki, dünyaya qeyri-neft sektorunda yaradılmış məhsulları ixrac edək. İxracla da bağlı heç bir problem olmayacaqdır. Çünki burada istehsal olunacaq məhsullar sərbəst bazarda satılacaqdır. Nəzərə

alsaq ki, bu gün həm də məhsulların satışa çıxarılması ilə bağlı müqavilələr imzalanmışdır, mən bu sahədə də heç bir çətinlik görmürəm. Bəzi hallarda xarici bazara yeni məhsulla daxil olmaq o qədər də asan məsələ olmur. Nəzərə alsaq ki, indi dünyada rəqabət artır, yeni sənaye kompleksləri yaradılır, bu iki kompleksin özəlliyi ondadır ki, onların texnologiyası ən qabaqcıl texnologiyalardır. Dünyada mövcud olan ən qabaqcıl texnologiyalar nədirsə, onlar burada tətbiq olunacaq və beləliklə, Azərbaycanın gözəl ixrac potensialı yaranacaqdır. Bu, ölkə iqtisadiyyatına çox böyük təkan verəcək və əminəm ki, iki kompleksin işə düşməsindən sonra Azərbaycanda investisiya mühiti daha da yaxşılaşacaqdır.

Ancaq bu sahədə hələ çox işlər görmək lazımdır. Bildiyiniz kimi, biz Dövlət İnvestisiya Şirkətini yaratdıq ki, xaricdən investisiyaları daha tez cəlb edək. Düzdür, indi Azərbaycanın öz maliyyə imkanları da kifayət qədər böyükdür. Bizim uğurlu neft strategiyamız, ulu öndər Heydər Əliyevin 1994-cü ildə başladığı Azərbaycanın neft strategiyası bizə çox böyük uğurlar gətiribdir. Ölkəmizin valyuta ehtiyatları 7 milyard dolları ötübdür və əminəm ki, bu il həmin rəqəm ən azı iki dəfə artacaqdır. Yəni biz istənilən sahəyə investisiya qoya bilərik. Ancaq biz istəyirik ki, bu prosesə daha çox biznes strukturları tərəfindən diqqət göstərilsin. O ki qaldı Azərbaycan dövlətinin bu işlərə müdaxiləsinə, biz yalnız və yalnız gözəl investisiya mühitinin yaranmasında iştirak edəcəyik. Azərbaycan Dövlət İnvestisiya Şirkətinin işi də bu məqsədləri güdür. Yəni xaricdən gələn investorlarla bərabər, müxtəlif layihələrdə iştirak etmək.

Ancaq onu da görürük ki, indi Azərbaycana dünyada inam o qədər böyükdür ki, investorlar özləri öz vəsaitlərini buraya qoyurlar. Xarici banklar milyardlarla dollar həcmində kreditlər verirlər. Bizim kredit reytinqimiz də ildən-ilə qalxır. Azərbaycanın dünya iqtisadiyyatında rolu artır. Bu yaxınlarda dünyanın ən qabaqcıl maliyyə qurumları, Davos Beynəlxalq İqtisadi Forumu və digər beynəlxalq reytinq şirkətləri Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 60-cı yerlərə qoyubdur.

Yəni bu, böyük nailiyyətdir. Azərbaycanda 16 il bundan əvvəl özəl sektor yox idi. Özəl sektorun ümumi daxili məhsuldakı çəkisi sıfır idi. Bu gün isə 80 faizdir. 16 il ərzində dünya birliyində rəqabət qabiliyyətlilik sayəsində 60-cı yeri tutmaq çox böyük nailiyyətdir. Azərbaycanda biznes şəraiti liberallaşır. Biznes strukturlarının işinə müdaxilələr azalır. Mən bu barədə dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, dövlət nəzarət orqanları yalnız nəzarət etməlidir, harada ki, qanun pozuntuları var, onları üzə çıxarmalıdır. Biz heç kimə yersiz müdaxilələr etməyə imkan verməyəcəyik. İndi Azərbaycanda biznesə başlamaq üçün 3 gün lazımdır. Əvvəllər 72 gün lazım idi. Deyə bilərəm ki, «bir pəncərə» prinsipinin tətbiqi ilə biz bu sahədə inqilab etmişik və hamı görür ki, bunun yalnız və yalnız müsbət nəticələri var. Yəni özəl sektorun inkişafına biz çox böyük diqqət göstəririk. Mənim bu barədə fikirlərim sizə bəllidir – biz özəl sektoru daha da möhkəmləndirməliyik.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası da uğurla gedir. Bu komplekslərin tikintisində də biz məhz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını görürük. Bu komplekslər başqa yerdə də tikilə bilərdi. Əlbəttə ki, belə böyük, nəhəng komplekslər əvvəllər daha çox paytaxtda tikilirdi. Ancaq bizim siyasətimiz ondan ibarətdir ki, bunlar regionlarda tikilsin. Son 4 il ərzində 600 mindən çox yeni iş yerlərinin yaranması və işsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı düşməsi – bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Bu məsələlərin də hamısı bizim iqtisadi siyasətə bağlıdır. O iqtisadi siyasət aparılmasaydı, bunların heç biri mümkün olmazdı.

Eyni zamanda, Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət var, sabitlik var. Sabitlik olan yerdə inkişaf da var. Ancaq onu da bilirik ki, inkişafsız sabitlik də yaranmır. Çünki insanların sosial problemlərinin həlli, yaşayış səviyyəsinin yaxşılaşması, ölkə iqtisadiyyatında mövcud olan müsbət meyillər ölkədə sabitliyi daha da möhkəmləndirir. Biz yaxın tarixdən görürük ki, inkişaf olmayan yerdə sabitlik pozulur. İnkişaf isə

o deməkdir ki, həm ölkə iqtisadiyyatı artır, həm də insanlar yaxşı yaşamağa başlayırlar. Bizim iqtisadiyyatımız 14 il ərzində 96 faiz artmışdır. Demək olar ki, ümumi daxili məhsulumuzu iki dəfə artırmışıq. Bu, indiyə qədər heç bir başqa ölkədə olmamışdır və inanmıram ki, nə vaxtsa da olsun.

Biz 4 il ərzində büdcə xərclərimizi on dəfə artırmışıq və bu xərclər pensiyalara, maaşlara, sosial ödəmələrə, eyni zamanda, infrastruktur layihələrinə yönəldilibdir. Bu il təkcə dövlət xətti ilə infrastruktur işlərinə 3,5 milyard dollar vəsait qoyacağıq. Bununla bərabər, özəl sektor da vəsait qoyur. Xarici investorlar Azərbaycanla maraqlanırlar və bu gün biz bunun əyani təzahürünü görürük. Yerli iş adamları güclənirlər və dövlətin dəstəyini hiss edərək, daha da fəal olurlar. Xarici tərəfdaşlarla işlərimiz çox normal səviyyədə qurulubdur. Hazırda burada müxtəlif ölkələrin nümayəndələri vardır, mən onlarla görüşmüşəm və bu gün bir beynəlxalq əməkdaşlıq forumudur. Çünki müxtəlif ölkələrdən tanınmış şirkətlər bu komplekslərin yaranmasında iştirak edəcəklər.

Bir sözlə, əziz dostlar, bütün bu amilləri nəzərə alaraq, bir daha böyük inamla demək olar ki, Azərbaycan çox uğurla inkişaf edir, bizim siyasətimiz düzgün siyasətdir. Gələcəkdə, əlbəttə ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının başa çatması və yeni proqramın hazırlanıb həyata keçirilməsi nəticəsində biz yeni böyük uğurlara nail olacağıq.

Mən çox şadam ki, bu gözəl, müasir sənaye komplekslərini biz məhz Gəncədə yaradırıq, Gəncə çox gözəl şəhərdir, Azərbaycanın qədim torpağıdır, burada çox gözəl insanlar yaşayırlar. Gəncənin abadlaşması, gözəlləşməsi hər bir Azərbaycan vətəndaşını sevindirir. Bildiyiniz kimi, Gəncənin inkişafı üçün lazımi tədbirlər görülür, vəsaitlər ayrılır. İnfrastruktur layihələrinin həyata keçirilməsi, abadlıq işləri, şəhərin mədəni həyatının inkişafı üçün lazımi tədbirlər görülür. Bu komplekslərin işə düşməsi nəticəsində Gəncə Azərbaycanın çox böyük və güclü sənaye mərkəzinə çevriləcəkdir. Mən əminəm ki, bundan sonra da yeni müəssisələr, yeni istehsalat,

sənaye sahələri yaranacaq. Biz əslində, bu gün yeni sənaye sahələrinin yaranmasının şahidiyik. Budur Azərbaycanın reallıqları və bu yol Azərbaycanı uğurlara, xoşbəxt gələcəyə aparacaqdır. Ölkəmizdə həm ictimai-siyasi vəziyyət həmişə sabit olacaq, həm də iqtisadi vəziyyət getdikcə yaxşılaşacaq və insanların sosial məsələləri həll ediləcəkdir. Burada işləyəcək işçilərin əməkhaqları da çox yüksək olacaqdır. Mənə verilən arayışda gördüm ki, burada 500 manata qədər, ondan da çox maaş olacaqdır. Azərbaycan xalqı buna layiqdir və insanların həyat səviyyəsi ildən-ilə yaxşılaşmalıdır.

Əziz dostlar, bu nəhəng yeni sənaye müəssisələrinin yaradılması münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik etmək istəyirəm. Bütün xarici qonaqları bir daha salamlamaq, Azərbaycan dövləti adından minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bizimlə birləşib bərabər bu gözəl kompleksləri yaradırlar. Mən burada bu müəssisələrin yaradılmasında iştirak edəcək inşaatçıları görürəm. Onları da salamlamaq istəyirəm və arzum odur ki, bu zavodları keyfiyyətlə tiksinlər. İndi Azərbaycanda çox böyük inşaat şirkətləri yaranmışdır. Bu da bizim zəmanəmizin əlamətidir. Əvvəllər daha çox xaricdən mütəxəssislər gəlirdi, indi yerli şirkətlər güclənibdir. Azərbaycanda o qədər inşaat gedir ki, əlbəttə, inşaat şirkətləri bundan faydalanırlar.

Bütün Azərbaycan xalqını iqtisadiyyatımız üçün, sənayemiz üçün doğrudan da tarixi hadisə münasibətilə təbrik etmək istəyirəm. Sizə uğurlar və cansağlığı arzulayıram. Sağ olun.

## «Gəncə Sənaye Cihaz» müəssisəsində

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Gəncənin Heydər Əliyev prospektində yerləşən «Gəncə Sənaye Cihaz» Açıq Səhmdar Cəmiyyətində olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə üzərində* «Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu müəssisə bərpa-

dan sonra prezident İlham Əliyev tərəfindən 3 mart 2008-ci ildə açılmışdır» *sözləri yazılan lövhəyə baxdı.*

*Prezident İlham Əliyev müəssisənin inzibati binasında ulu öndərin 2000-ci il mayın 25-də burada olmasından bəhs edən, zavodun keçmiş və indiki vəziyyətini əks etdirən filmə baxdı.*

*Dövlətimizin başçısına müəssisənin texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsi ilə «Qalfservis» MMC arasında 2006-cı ildə imzalanmış müqaviləyə əsasən, «Qalfservis» «Gəncə Sənaye Cihaz» Açıq Səhmdar Cəmiyyətinə 3 milyon 500 min avro həcmində investisiya qoyuluşunu öhdəsinə götürmüşdü. 2008-ci ilin fevralına qədər «Qalfservis» müəssisəyə 4 milyon avro sərmayə qoymuşdur. 144 nəfərin işlədiyi zavodda işçilərin orta aylıq əməkhaqqı 500 manatdır. Burada qaz və su sayğaclarının istehsalı nəzərdə tutulmuşdur. Hazırda qaz sayğacları istehsalı sexi fəaliyyətdədir. Quraşdırılmış avadanlıq Fransa, İspaniya, Almaniya və Türkiyədən gətirilmişdir. Müəssisənin illik istehsal gücü adi və smart-qaz tipli qaz sayğacları daxil olmaqla, 240 min ədəd təşkil edir. İlkin mərhələdə sayğaclar «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinə satılır.*

*Müəssisənin rəhbərliyi prezident İlham Əliyevə ölkədə azad sahibkarlığın inkişafına yaratdığı şəraitə görə təşəkkür etdi.*

*Sonra prezident İlham Əliyev cihazların yığılması, rənglənməsi proseslərini izlədi, quraşdırılmış müasir texnoloji avadanlığa baxdı. Dövlətimizin başçısı müəssisənin fəaliyyətini yüksək qiymətləndirdi. Özəl sektorun inkişafına bundan sonra da dəstək veriləcəyini bildirdi və gələcəkdə ölkənin tələbatını ödəməklə yanaşı, cihazların xarici bazarlara çıxarılmasının da zəruriliyini vurğuladı. Prezident İlham Əliyevə xatirə olaraq elektron qaz sayğacı hədiyyə edildi.*

*Sonra dövlətimizin başçısı müəssisənin əhaliyə xidmət mərkəzi ilə tanış oldu. Prezidentə ödənişlərin bankomatlar vasitəsilə həyata keçirildiyi barədə məlumat verildi, bu sistemin çox səmərəli olduğu vurğulandı. Bildirildi ki, hazırda*

*Gəncədə 17,2 min elektron abunəçi vardır və bunlar «Kapital Bank» vasitəsilə ödənişlər aparırlar. Gələcəkdə Gəncədə daha 40 bankomatın quraşdırılması nəzərdə tutulur. Belə olan halda abonentlərin banka getməsinə ehtiyac qalmayacaqdır. Vurğulandı ki, elektron sayğaclar adi sayğaclardan daha əlverişlidir.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi. Yeni sistemin çox səmərəli olduğunu bildirərək dedi ki, insanlar biləcəklər ki, nə qədər pul ödəyiblər. Vətəndaşların qapısını döyməyə ehtiyac olmayacaq, şəffaflıq təmin ediləcəkdir. Bu çox müasir bir sistemdir. Hamı biləcək ki, nə qədər pul ödəyir və kartda nə qədər pul qalır. Abunəçilər elektron sayğaclarla 100 faiz təmin olunmalıdırlar.*

*O da bildirildi ki, hazırda abonentlər arasında elektron sayğaclarda ödəmə depozitlə bərabər 110 faiz təşkil edir. Adi sayğaclar üzrə isə ödəmələr 50 faizdir.*

## Gəncə regional müalicə-diaqnostika mərkəzinin tikintisi ilə tanışlıq

*Martın 3-də Azərbaycan prezidenti İlham Əliyev 2005-ci il oktyabrın 11-də təməlini qoyduğu Gəncə regional müalicə-diaqnostika mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı onu hörmətlə qarşılayan inşaatçılara təşəkkür edərək dedi ki, həm memarlıq, həm də xarici görünüş baxımından gözəl bina yaratmısınız. Burada müasir avadanlıq quraşdırılacaq, yüksək səviyyəli kadrlar işləyəcəklər. Bu bölgədə buna bənzər bina yoxdur.*

*Sonra prezident İlham Əliyev tikinti işlərinin gedişi ilə maraqlandı.Məlumat verildi ki, Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilən müalicə-diaqnostika mərkəzinin dördmərtəbəli binasının ümumi sahəsi 7 min kvadratmetr olacaqdır. Birinci mərtəbədə dializ, rentgen, tomoqrafiya, ilkin tibbi yardım və travmatologiya şöbələri fəaliyyət göstərəcəkdir. İkinci mər-*

*təbədə müvafiq şöbələr üzrə qəbul otaqları, üçüncü mərtəbədə isə 12 palata, yeməkxana, əlavə yardımçı otaqlar olacaqdır. Reanimasiya şöbəsi, dörd əməliyyat otağı isə dördüncü mərtəbədə yerləşəcəkdir. İndi tikintidə 800 işçi çalışır. Müalicə-diaqnostika mərkəzinin bu ilin ortalarına qədər istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev tikintinin keyfiyyətlə aparılması ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAFTALAN ŞƏHƏRİNDƏ

*3 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Gəncədən Naftalan şəhərinə gəlmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə şəhərin mərkəzində yerləşən və ulu öndər Heydər Əliyevin adını daşıyan parkla tanış oldu. Dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ümummilli liderin parkda ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev parkı gəzdi. Burada fəvvarələr quraşdırılmış, sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır. Dövlətimizin başçısı 1967-ci ildə salınmış, 2006-cı ildə tamamilə yenidən qurulmuş parkın daha da müasir formada abadlaşdırılması üçün müvafiq tövsiyələrini söylədi.*

*Sonra prezident İlham Əliyev parkın ərazisində yerləşən Heydər Əliyev muzeyinə gələrək, ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə və eksponatlara baxdı.*

*2006-cı ildə yaradılmış muzeydə 200-dən çox fotoşəkil və eksponat toplanmışdır.Onların arasında 1982-ci ildə ulu öndərin Naftalanın kurort şəhəri kimi inkişaf etdirilməsi ilə bağlı verdiyi qərar da vardır.*

### Naftalan şəhərinin ziyalıları ilə görüş

*Martın 3-də Heydər Əliyev muzeyi ilə tanışlıqdan sonra parkda prezident İlham Əliyevin Naftalan şəhərinin ziyalıları ilə görüşü keçirilmişdir.*

*2 nömrəli orta məktəbin pedaqoqu, respublikanın Əməkdar müəllimi Aidə Talıbova dövlətimizin başçısını şəhər ziyalıları*

*adından salamlayaraq dedi:* Cənab Prezident, bu gün sevincimizin həddi-hüdudu yoxdur. Ulu öndərimizin layiqli davamçısı kimi, Siz bu gün bizimlə görüşə gəlmisiniz. Bu bizdə böyük qürur hissi doğurur və inanırıq ki, Sizin bu gəlişiniz Naftalanın gələcək inkişafına böyük təkan verəcəkdir. Ulu öndərimizin 1982-ci ildə Naftalan kurort şəhərinin daha da inkişaf etdirilməsi barədə qərarından sonra burada 6-dan çox sanatoriya yaradıldı. Şəfa tapmaq üçün buraya dünyanın 100 ölkəsindən xəstələr gəlirdi. Ulu öndər həmişə deyirdi ki, Naftalan nefti xəstələrə şəfa verir. Buradakı xəstələrə elə xidmət göstərməyə çalışmalısınız ki, onlar gedəndə öz ölkələrində Azərbaycanın mədəniyyəti, insanlarının səmimiyyəti barədə xoş sözlər danışsınlar.

Cənab Prezident, qoy bu gəlişiniz uğurlu, qədəmləriniz mübarək olsun. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım da bizim qonağımızdır, əzizimizdir. Leyla xanım da əzizimizdir və gənc kadr kimi, onun fəaliyyətini izləyirik. Çox sevinirik ki, xalqımızın belə gözəl, gənc övladları dövlətimizi təbliğ edirlər. Mehriban xanımın səmərəli fəaliyyəti hamımızın ürəyincədir və o, böyük rəğbət qazanıbdır. Təhsilimizin, mədəniyyətimizin, milli dəyərlərimizin qorunub saxlanılmasında bu gözəl qadının çox böyük xidməti var. Bilirik ki, XXI əsr kompyuter əsridir. Məktəblərin tikintisi, kompyuterlə təmin olunması sahəsindəki fəaliyyəti, xəstə uşaqları, onların valideynlərini sevindirməsi, müalicəyə göndərməsi təqdirə layiqdir.

*Aida Talıbova həyatının 38 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etdiyini, prezident İlham Əliyev tərəfindən «Əməkdar müəllim» adına layiq görüldüyünü xatırladaraq dedi:* Cənab Prezident, bu il prezident seçkiləri keçiriləcəkdir. Bütün naftalanlılar adından qətiyyətlə bildirirəm ki, Siz bizim layiqli və daimi seçilmiş prezidentimizsiniz. Siz hər kəsin prezidentisiniz. Sizi xalqa yaxın edən qəlbinizin təmizliyi, sevimli olmağınızdır. Bunu Siz özünüz zəhmətkeşliyinizlə, səmimiyyətinizlə, həmişə xalqın içində olmağınızla qazan-

mısınız. Siz ölkəmizi iqtisadi baxımdan bütün dünyada zirvəyə qaldırmısınız. Təkcə hərbə ayırdığınız büdcə Ermənistanın ümumi büdcəsinə bərabərdir. Bu, böyük nailiyyətdir. Biz Sizə arxalanırıq. Siz ailənizlə birlikdə xalqın sevimlisisiniz. Bu görüşə görə Sizə bir daha təşəkkür edir, «Xoş gəlmisiniz!» deyir və bildirirəm ki, Siz bizim əbədi prezidentimizsiniz. Sizin başınızın uca olmas ıüçün biz naftalanlılar üzərimizə düşən hər bir vəzifəni uğurla yerinə yetirəcəyik.

*«Möcüzəli Naftalan» sağlamlıq mərkəzinin Baş həkimi Gültəkin Süleymanova xatırlatdı ki, ulu öndərimizin 1982-ci ildə qəbul etdiyi qərar Naftalan kurortunu o vaxt ümumittifaq sanatoriyaları içərisində ön cərgəyə çıxarmışdı. Biz ümid edirik və əminik ki, Sizin gəlişinizdən sonra Naftalan kurortunun inkişafı haqqında qəbul olunacaq qərarlar buranı dünya miqyaslı kurortlar içərisində ön sıralara çıxaracaqdır.*

## Naftalan ziyalıları qarşısında çıxış

Çox sağ olun. Mən də demək istəyirəm ki, Naftalanın inkişafına bundan sonra da diqqət göstəriləcək, vəsait ayrılacaqdır. Mənim buraya gəlməyimin ikinci səbəbi ondan ibarətdir ki, sizinlə görüşüm. Mən prezident seçiləndən sonra ilk dəfədir ki, Naftalandayam. İstəyirdim sizinlə görüşüm, öz fikirlərimi sizə bildirim. Digər tərəfdən, biz gərək Naftalanın keçmiş şöhrətini özünə qaytaraq. Çünki keçmiş Sovet İttifaqında – siz də dediniz – müxtəlif yerlərdə kurortlar var idi. Kurortlar daha çox müalicəvi su çıxan yerlərdə təşkil olunurdu. Naftalanın özəlliyi, xüsusiyyəti ondadır ki, yeganə kurort idi ki, burada insanlar müalicəvi neftlə öz sağlamlıqlarını bərpa edirdilər. Bu nadirlik bu gün də qalır. Yəni dünyada başqa belə bir yer yoxdur ki, insanlara buna bənzər şəfa gətirsin. Ona görə biz Naftalanı müasir kurort şəhərinə çevirməliyik ki, ilk növbədə, Azərbaycan vətəndaşları bu kurortdan səmərəli istifadə etsinlər. Eyni zamanda, xarici ölkələrdən bura gəlsinlər, Azərbaycanla tanış olsunlar.

Beləliklə, Azərbaycanın turizm infrastrukturu da möhkəmlənsin.

Burada yeni sanatoriyalar tikilməlidir. Mən bildiyimə görə, artıq bəzi yerlərdə bərpa işləri gedir. Xarici investorlar da, daxili investorlar da maraq göstərirlər. Dövlət isə öz tərəfindən şəhərin infrastrukturuna, abadlıq, quruculuq işlərinə, yollara vəsait qoymalıdır ki, burada turizmin, kurort sahəsinin inkişafı üçün lazımi şərait yaradılsın.

Naftalanın yerləşdiyi yer də çox gözəldir, coğrafiyası, təbiəti, havası gözəldir. Gözəl ağaclar əkilibdir. Siz qeyd etdiniz ki, 1982-ci ildə ulu öndər şəhərin inkişafı ilə bağlı qərar vermişdi və qısa müddət ərzində sanatoriyalar yaradıldı. Amma ondan sonrakı illərdə, Sovet İttifaqı dağılandan sonra, Azərbaycanda vəziyyət gərginləşəndən sonra, əlbəttə, sanatoriyalar da tələblərə cavab vermirdi. Onların bir hissəsində qaçqınlar məskunlaşıbdır. Bu da təbiidir. Çünki müharibədən əziyyət çəkən soydaşlarımız Azərbaycanda məskunlaşmalı idilər. Ancaq indi bilirsiniz ki, qaçqınların problemlərinin həlli və məşğulluğunun artırılması ilə bağlı sərəncamlar imzalanmışdır. Yəqin ki, biz onları daha münasib yerlərə köçürəcəyik ki, burada həm köhnə sanatoriyalar bərpa olunsun, həm də yeni sanatoriyalar, mehmanxanalar, turizm yerləri tikilsin. Əlbəttə, bu, şəhərin inkişafına təkan verəcək, insanların həyat səviyyəsini yaxşılaşdıracaq, xidmət sahəsində işləyənlərin sayı artacaq və burada işlər daha da yaxşı gedəcəkdir.

O ki qaldı Azərbaycanın ümumi inkişafına, siz qeyd etdiniz, biz çox yüksək zirvəyə çatmışıq. Mən bu gün səhər Gəncədə iki böyük, nəhəng sənaye kompleksinin təməlini qoydum. O müəssisələrə bir milyard dollardan çox vəsait qoyulacaq və iki-üç il ərzində böyük sənaye müəssisələri yaradılacaqdır. Bu həm iqtisadi inkişaf deməkdir, işsizliyin aradan qaldırılması, yoxsulluğun aradan qaldırılması deməkdir və həm də Azərbaycanın hərtərəfli inkişafı deməkdir. İndi bizim iqtisadi inkişafımız elədir ki, istənilən məsələni həll edə

bilərik. Biz xarici kreditlərə də o qədər ehtiyac duymuruq. Bölgələrin abadlaşmasına ayrılan vəsait ildən-ilə artacaqdır. Bir müddət bundan əvvəl Naftalanın inkişafına da vəsait ayrılmışdır. Ancaq hesab edirəm ki, biz bu məsələyə yenidən baxmalıyıq, əlavə vəsait ayrılmalıdır və ondan səmərəli istifadə etməliyik. Burada həm quruculuq-abadlıq işləri, binaların təmiri, yeni infrastrukturun yaradılması, həm də insanların həyat səviyyəsinin yaxşılaşması üçün bütün işlər görülməlidir. Hər yerdə olduğu kimi, şəhər əhalisi də yaxşı yaşamalıdır. Əsas məqsəd ondan ibarətdir ki, insanlar daha da yaxşı yaşasınlar.

Azərbaycanda sosial və iqtisadi sahələrdə gedən işlər bir-birini tamamlayır. Bəzi hallarda bazar iqtisadiyyatı şəraitində yaşayan ölkələrdə sosial məsələlərə o qədər də böyük diqqət göstərilmir. Çünki bazar iqtisadiyyatı prinsipləri bəzən insanlar üçün çox sərt olur. Ancaq biz həm sosial siyasət aparırıq, həm də islahatlar aparırıq. Bəzən iqtisadi islahatlar insanların həyat səviyyəsinə mənfi təsir göstərir. Biz bunun qarşısını almalıyıq. Maaşlar artırılır, pensiyalar keçən il artırılıb və bu il yenidən artırılacaqdır. Əlbəttə, işlə təmin olunmaq üçün şərait olmalıdır və biz bunu yaradırıq.

Sosial məsələlərin həlli üçün iqtisadi inkişaf, sənaye potensialının inkişafı vacibdir və bu, ölkəmizi gücləndirir. Bu gün biz bölgədə aparıcı ölkəyik. Buna biz özümüz nail olmuşuq. Biz öz gücümüzə, Azərbaycan xalqının gücünə arxalanırıq. Bütün siyasət, yəni xarici, daxili, iqtisadi, sosial siyasət – bunların hamısı bir istiqamətə yönəlibdir ki, ölkə güclənsin, insanlar daha da yaxşı, təhlükəsizlik, sabitlik şəraitində yaşasınlar. İndi hamımız görürük ki, Ermənistanda vəziyyət çox gərgindir. Nəyin nəticəsində?! Düşünülməmiş siyasətin, işğalçı siyasətin, özünütəcrid vəziyyətinə salan siyasətçilərin fəaliyyəti nəticəsində ölkə belə çətin vəziyyətə düşübdür. İnkişaf olmayan yerdə sabitlik ola bilməz. Sabitlik olmayan yerdə inkişaf ola bilməz. Azərbaycan həm inkişaf edir, həm vəziyyət sabitdir, həm də xalqla iqtidar arasında

birlik var. Bizim bütün səylərimiz bir məqsədə qulluq edir: ölkəmiz güclənsin, Azərbaycan torpaqları işğalçılardan azad olunsun, soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Biz öz gücümüzü artırmaqla o günü yaxınlaşdırırıq.

Naftalan həm coğrafi baxımdan strateji nöqtədir, həm də iqtisadi baxımdan çox mühüm bir şəhərdir. Burada müasir səviyyənin təşkil olunması mütləq olmalıdır. Mən Bakıya qayıdandan sonra şəhərin inkişafına dair lazımi qərarları verəcəyəm və siz onların nəticələrini görəcəksiniz.

Çox sağ olun.

## Naftalan İstirahət və Sağlamlıq Mərkəzində

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Naftalan İstirahət və Sağlamlıq Mərkəzi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, mərkəz 2005-ci ilin mayında, ulu öndər Heydər Əliyevin doğum günündə istifadəyə verilmişdir. 130 nəfərlik istirahət və sağlamlıq mərkəzi iki korpusdan ibarətdir. Burada 1, 2, 3 nəfərlik rahat otaqlar, müasir müalicə və müayinə kabinetləri, Naftalan nefti və yodlu-bromlu su vannaları, trenajor və müalicə idmanı otaqları, fizioterapiya, funksional diaqnostika kabinetləri, klinik-diaqnostik laboratoriya, biokimyəvi laboratoriya fəaliyyət göstərir. Nadir xüsusiyyətləri olan Naftalan nefti 70-dən artıq xəstəliyin uğurla müalicəsinə imkan yaradır. Sümük-əzələ sistemi xəstəlikləri, periferik sinir və damar, dəri və ginekoloji xəstəliklər müalicə olunur.*

*Xəstələr gündə 3 dəfə yeməklə təmin olunur, onlara 67 tibb işçisi xidmət göstərir.*

*İstirahət günləri respublikanın Gəncə, Şəki və Mingəçevir şəhərlərinə, Hacıkəndə və Göygölə səyahətlər təşkil edilir.*

*Prezident İlham Əliyev müalicə kabinetlərini, laboratoriyaları və digər şöbələri gəzdi, müalicə və müayinə prosesləri, müasir tibbi avadanlıqla tanış oldu və yaradılan şəraitin yüksək səviyyədə olduğunu bildirdi. Dövlətimizin başçısı*

*Polşadan və Moskvadan müalicəyə gələnlərlə söhbət etdi. Onlar bu müalicə mərkəzinə vaxtaşırı gəldiklərini və burada müalicənin və müayinənin dünya standartları səviyyəsində olduğunu, çox gözəl təsir bağışladığını və yaradılan şəraitdən razı qaldıqlarını bildirdilər.*

*Dövlətimizin başçısı həm də gözəl iqlimi olan Naftalanın dünyada neftlə müalicə aparıldığı yeganə kurort olduğunu vurğuladı.*

## «Çinar» sanatoriyasinda əsaslı təmir və bərpa işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Naftalandakı «Çinar» sanatoriyasında aparılan əsaslı təmir və bərpa işləri ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, təmir-bərpa işlərinə 2007-ci ilin sentyabrında başlanılıbdır. 19 hektar sahədə yerləşən altımərtəbəli sağlamlıq mərkəzi «Azinterbiznes» MMC-yə məxsusdur. Burada gələcəkdə xəstələrə 62 nəfərlik tibbi heyət xidmət göstərəcəkdir. Müalicə, müayinə otaqlarından əlavə, 368 yerlik yeməkxana, 30 vanna otağı da olacaqdır.*

*Prezident İlham Əliyev «Çinar» sanatoriyasının müasir vəziyyətini əks etdirən fotoşəkillərə baxdı, təmir-bərpa işlərinin baş planı ilə tanış oldu, ərazini gəzdi və müvafiq tövsiyələrini verdi.*

## SAMUX RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

*3 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Naftalan şəhərindən Samux rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Samux rayonunun mərkəzində Heydər Əliyev muzeyi ilə tanış olmuşdur.*

*2007-ci ildə istifadəyə verilmiş və sahəsi 160 kvadratmetr olan muzey ekspozisiya və konfrans salonlarından, üç xidməti otaqdan ibarətdir. Ekspozisiya salonunda Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillər toplanmış, kompyuter avadanlığı qoyulmuşdur.*

*Binanın arxasında 700 kvadratmetr sahədə xiyaban salınmışdır.*

### «Samux şəhidləri» abidə-kompleksini və Heydər Əliyev abidəsini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Samux rayonunda Heydər Əliyev parkına gələrək, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş samuxluların xatirəsinə tikilmiş «Samux şəhidləri» abidə-kompleksinin önünə gül dəstəsi qoydu. Əbədi məşəlin alovlandığı kompleksdə qara mərmər üzərində 106 şəhidin adı həkk olunmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*5,3 hektar sahəsi olan parkda 200-dən çox müxtəlif növ ağac, gül kollarıəkilmişdir. Parkın ən görkəmli yerində ulu ön-*

*dərin əzəmətli, 8,5 metr hündürlükdə qranit abidəsi qoyulmuşdur.*

*Parkın mərkəzində müasir üslubda fəvvarə quraşdırılmışdır. İstirahət guşəsində Gənclik mərkəzi yaradılmışdır.*

*Prezident İlham Əliyev muzeydə ulu öndərin həyat və fəaliyyəti ilə bağlı filmə baxdı, Xatirə kitabına ürək sözlərini yazdı.*

*Dövlətimizin başçısı rayonun dünənini və bu gününü əks etdirən fotostendlə, eləcə də Samuxun qaz təchizatının sxemi və rayon ərazisindən keçən Şəmkir maşın kanalının Baş planı ilə tanış oldu.*

*Prezidentə məlumat verildi ki, artıq rayona qaz verilir və əhalinin bu sarıdan ciddi problemi yoxdur.*

## İctimaiyyətin nümayəndələri ilə görüş

*Martın 3-də prezident İlham Əliyev parkla tanışlıqdan sonra burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb səmimi söhbət etmişdir.*

*Nəbiağalı qəsəbə orta məktəbinin müəllimi Qərib Məmmədov prezident İlham Əliyevi rayona gəlişi münasibətilə salamladı.*

**Q ə r i b  M ə m m ə d o v:** Cənab Prezident, Samux rayonuna xoş gəlmisiniz! Samux camaatının Sizə böyük inamı var! Biz inanırıq ki, Siz bütün məsələləri – həm siyasi, həm iqtisadi, həm də sosial məsələləri həll edəcəksiniz. İnşallah, o gün olsun ki, biz Qarabağı da azad edək, Sizinlə bir yerdə qələbəni bayram edək. Sizə daha böyük uğurlar arzulayıram.Bütün Samux camaatının, ictimaiyyətinin xoş arzularını Sizə çatdırıram.

Mehriban xanım, siz də xoş gəlmisiniz!

İcazə verin, sizi qarşıdan gələn 8 Mart qadınlar günü münasibətilə ağsaqqal müəllim kimi, ürəkdən təbrik edim.

**İ l h a m Ə l i y e v :** Sağ olun, mən də sizi ürəkdən salamlayıram. Bu gün buraya gəlmişəm ki, görüm işlər necə gedir, uğurlar necədir, hansı məsələlər həll olunmalıdır. Bütövlükdə, Azərbaycanın bütün bölgələrində işlər yaxşı gedir. O cümlədən də Samux rayonunda. Mənə məlumat verildi ki, burada işıq problemi həll olunubdur. Təbii qazın verilməsi məsələsi həll edilir. Yeni kəmər çəkilibdir. İş yerləri açılır, yeni müəssisələr, zavodlar, fabriklər – bütün bunlar həm rayonu, həm də ki, Azərbaycanı inkişaf etdirir. Bizim regionlarımızda çox böyük potensial, böyük imkanlar var. Biz gərək onlardan maksimum dərəcədə faydalanaq, səmərəli şəkildə istifadə edək. Elə edək ki, insanların həyat səviyyəsi günü-gündən yaxşılaşsın. Samuxda da işlər yaxşı gedir və insanları narahat edən məsələlər gələcəkdə öz həllini tapacaqdır. İndi, demək olar ki, ölkəmizdə elektrik enerjisi problemi həll edilib, bu vaxta qədər qazlaşdırılmayan rayonlara qaz xətləri çəkilir.

İndi qarşımızda duran əsas vəzifə və məsələ əhalini içməli su ilə təmin etməkdir. Bu problem, demək olar ki, bütün rayonlarda var. O cümlədən Bakıda da var. Bakının tələbatını ödəmək üçün böyük boru kəməri çəkilir. Rayonlarda isə proqram hazırlanır və yəqin ki, yaxın zamanlarda lazımi göstərişlər veriləcəkdir. Biz içməli su, kanalizasiya və meliorasiya məsələlərini həll etsək, demək olar ki, əsas infrastruktur məsələləri öz həllini tapacaqdır. Yollar, elektrik stansiyaları, qaz xətləri – bütün bunlar insanların normal yaşaması üçündür. İş yerləri açılır. Mən bilirəm ki, burada böyük istehsal sahələri yaradılıb və orada işləyən insanlar yaxşı maaş alırlar. İşsizlik, demək olar ki, aradan qaldırılır. İşləmək istəyən iş tapar. İndi nə qədər imkanlar var, nə qədər inşaat işləri gedir, nə qədər müəssisələr, fabriklər yaradılıbdır. 600 mindən çox yeni iş yeri yaradılıb və növbəti illərdə işsizlik tamamilə aradan qaldırılacaqdır. İstisna olunmur ki, gələcəkdə xaricdən Azərbaycana işləmək üçün insanlar gələcəklər. Artıq bunun ilkin əlamətlərini biz görürük və artıq var. Mən

bu məqsədlə bir müddət bundan əvvəl miqrasiya xidməti yaratdım. Yəni xaricdən gələn işçi qüvvəsi Azərbaycanda qeydiyyata düşsün və biz bu prosesi tənzimləyək.

Azərbaycanın qarşısında çox gözəl perspektivlər, imkanlar var, ölkəmiz güclənir, möhkəmlənir. Gərək bütün rayonlar, kəndlər inkişaf etsin. Regionların sosial-iqtisadi inkişafına dair növbəti Dövlət Proqramı hər bir kəndin problemini həll edəcəkdir. Yerli icra orqanları da bunu bilir, o proqramda hər bir məsələ öz həllini tapacaq, insanları narahat edən məsələ qalmayacaqdır. Bizim imkanımız var, gücümüz, maliyyə resurslarımız var, büdcəmiz ildən-ilə artır.

Sizə də mən öz səmimi duyğularımı ifadə etmək istəyirəm və ilk dəfədir ki, Samux rayonuna gəlmişəm. İstəyirəm ki, burada hər şey yaxşı olsun, yaxşı yaşayasınız.

**Q ə r i b  M ə m m ə d o v:** Çox sağ olun, Siz bizim prezidentimizsiniz və əbədi prezidentimiz olacaqsınız. Deputatımız da yaxşı işlər görür.

**İ l h a m  Ə l i y e v:** Valeh Ələsgərov yaxşı işləyir. Həm deputatlar, həm də icra nümayəndələri bir komanda kimi işləməlidir. Bu, Azərbaycanda var. Həm deputat öz vəzifə borcunu yerinə yetirməlidir, həm icra hakimiyyəti başçısı, həm də prezident.Biz hamımız ona görə işləyirik ki, xalqa xidmət edək. Bu, əsas məsələdir. Biz xalq üçün işləməliyik və işləyirik. Bu, böyük bir məsuliyyətdir. Hər bir vəzifəli şəxsin məsuliyyəti bundan ibarətdir. O adamı ki, xalq seçib və yaxud xalq tərəfindən seçilmiş prezident onu təyin edib, o, xalqa xidmət etməlidir. Deputatı siz seçmisiniz, inam göstərmisiniz və mən bilirəm ki, o, rayonda böyük işlər görübdür. İcra hakimiyyətinin başçısını mən təyin etmişəm. Siz mənə bu səlahiyyəti vermisiniz və ondan tələb edirəm ki, yaxşı işləsin. Mənim bildiyimə görə, yaxşı işləyir. İnsanların problemləri ilə məşğul olmalıdır. O, ona görə təyin edilibdir. Bilməlidir ki, hansı problem var, harada çatışmayan məsələ var, ədalətsizlik var, nəyi etmək olar, nəyi yerli orqanlar edə bilər, nəyi dövlət etməlidir. Belə

olsa, işlər yaxşı gedəcəkdir. Çünki bizim bütün sahələri əhatə edən proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı var, sənayeləşmə proqramı var. Gəncədə mən dünya miqyaslı zavodların təməlini qoydum. Onlar 2-3 ildən sonra işə düşəcək və minlərlə insan işləyəcək və 100 milyonlarla dollarlıq məhsul ixrac olunacaqdır. Təhsil proqramımız var, bütün rayonlarda, o cümlədən Samux rayonunda məktəblər tikilir. Bəli, həm dövlət xətti ilə, həm də Heydər Əliyev Fondunun dəstəyi ilə.Heydər Əliyev Fondu bu təşəbbüsü qaldırmışdır. Bir müddət bundan əvvəl biz də bu təşəbbüsə qoşulduq və indi həm dövlət xətti ilə, həm Heydər Əliyev Fondunun xətti ilə işlər görülür.

Burada idmançıları görürəm. İdman sahəsində proqram var, bütün bölgələrdə müasir idman kompleksləri tikilir.

Səhiyyə sahəsində proqram var, xəstəxanalar tikilir. Ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün böyük proqram qəbul etmişik. Nəqliyyat proqramı var. Bakıdan Gürcüstan, İran və Rusiya sərhədinə qədər yeni avtomobil yolları çəkilir. Eyni zamanda, şəhərlərarası yollar çəkilir. Hər bir sahədə bu proqramlar var və onların maddi əsası var. Elə deyil ki, gözəl ideya kimi bəyan etdik və yaxud da şüar kimi qaldı kağızda. Yox. Nəyi yazmışıqsa, onu da edirik. Bunun üçün, əlbəttə ki, dövlət orqanları çalışmalıdır, yerli icra orqanları, fəallar, deputatlar, ağsaqqallar və cavanlar çalışmalıdırlar. Bax, bu yolla ölkəmiz irəli getməlidir və belə də gedəcəkdir.

Bu gün Azərbaycan bölgədə ən qabaqcıl ölkədir. Bunu biz də bilirik, beynəlxalq qurumlar və başqa ölkələr də etiraf edirlər. Nəyin hesabına buna nail olmuşuq? Öz gücümüzün hesabına. Kim bizə kömək edir? Başqa keçmiş sovet respublikalarından fərqli olaraq, müstəqilliyimizin ilk illərindən biz heç kimdən ciddi yardım almamışıq. Bizim qonşularımıza daha çox yardım etmişlər, nəinki bizə. İndi də belədir. Bunun səbəbləri var. İstəmirəm bu barədə

danışım, hamı bilir nə üçün. Amma bizə heç lazım da deyil. Lazım gələndə, biz özümüz kiməsə kömək edə bilərik və edirik. Biz ancaq öz gücümüzə, Azərbaycan xalqının iradəsinə, dövlət siyasətinə, müstəqilliyimizə və müstəqillik hüquqlarımıza istinad etməliyik. Biz müstəqil xalq kimi, dövlət kimi inkişaf edirik. Bir il yox, dörd il ərzində! Dörd ildə iqtisadiyyat iki dəfə artıb. Heç bir yerdə bu yoxdur və tarixdə də olmayıbdır. Bu reallıqdır. İqtisadi islahatlar, siyasi islahatlar, sosial məsələlərin həlli artıq yüksək həddə çatıbdır. Siyasəti başlayanda, hansısa iqtisadi proqramı başlayanda, bir müddət lazımdır ki, o işlər görülsün. Bu gün şəhərlərin abadlaşmasında, qaz xətlərinin çəkilməsində, məktəblərin tikintisində bunu görürük. Elə etməliyik ki, bu yüksək sürət azalmasın, bu sürətlə irəliyə gedək və insanları narahat edən bütün problemləri həll edək. Bu işdə hamımız birlikdə olmalıyıq, bir nöqtəyə vurmalıyıq və belə də olacaqdır.

**V i l y a m H a c ı y e v** (*Samux Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, çox sağ olun! Öz minnətdarlığımızı bildiririk. İcazə verin, samuxlular sizinlə xatirə şəkli çəkdirsinlər.

*Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirdi.*

## Şahmat məktəbinin açılışında

*Prezident İlham Əliyev martın 3-də Samux rayon mərkəzində Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısını binanın önündə məktəblilər hərarətlə qarşıladılar. Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. Məktəbdə təcrübəli müəllimlərin köməyi ilə 60-a yaxın uşaq qədim oyunun sirlərinə yiyələnəcəkdir.*

*Məktəbdə ulu öndərin və prezident İlham Əliyevin Azərbaycan idmanına göstərdiyi qayğını əks etdirən fotoguşələr yaradılmışdır.*

*Dövlətimizin başçısı gənc şahmatçıların oyununu izlədi və onlara uğurlar arzuladı.*

**«AZ-RUS Dostluq» Açıq Səhmdar Cəmiyyətində**

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Samux rayonunda «Az-Rus Dostluq» Açıq Səhmdar Cəmiyyətində olmuşdur.*

*Burada dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 2002-ci ildən fəaliyyət göstərən müəssisənin 40 hektar sahəsi var. Tikinti işlərinə 3 milyon manat investisiya qoyulmuşdur. Tərəvəz məhsulları yetişdirilən istixana kombinatının 19 hektar əkin sahəsi var. Hazırda onun 7 hektarından istifadə olunur, ildə 600 ton pomidor və xiyar istehsal edilir. Bu məhsullar respublikanın şəhər və rayonlarına göndərilir, habelə MDB ölkələrinə ixrac olunur. Hazırda burada 600 nəfər işçi çalışır və gələcəkdə onların sayının 1000 nəfərə çatdırılması planlaşdırılır. Orta aylıq əməkhaqqı 350 manat təşkil edir.*

*Dövlətimizin başçısı kombinatın fəaliyyətini əks etdirən fotostendə, məhsul və şitil yetişdirilən sahələrə baxdı, işçilərlə görüşdü. Müəssisənin kollektivi ölkədə yeni istehsal sahələrinin yaradılmasına qayğı göstərdiyinə görə prezidentə minnətdarlıqlarını bildirdi.*

*Prezident İlham Əliyev istixana şəraitində məhsul becərməyin çətinliyini vurğulayaraq, kollektivin əməkhaqqının yüksək olmasının zəruriliyini bildirdi və keyfiyyətli məhsul yetişdirməyi tövsiyə etdi.*

**Meyvə-tərəvəz saxlanılan anbarla tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də Samuxda «Universal NAA» Məhdud Məsuliyyətli Cəmiyyətin ərzaq və meyvə-tərəvəz saxlanılan anbarları ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada 25 min ton məhsul saxlamaq mümkündür. Müasir avadanlıq quraşdırılmış kameralarda xüsusi soyutma sistemləri vasitəsilə istənilən temperaturu yaratmaq olur.*

*Prezident İlham Əliyev belə anbarlara ehtiyac duyulduğunu, hazırda ölkədə ərzaq təminatı ilə bağlı heç bir problemin olmadığını vurğuladı.*

*Dövlətimizin başçısı anbarların işə düşməsini bildirən düyməni basdı.*

*Bununla da prezident İlham Əliyevin Samux rayonuna səfəri başa çatdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XANLAR ŞƏHƏRİNDƏ

*4 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 4-də Xanlar şəhərinə gəlmişdir. Rayonun minlərlə sakini dövlətimizin başçısını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladı.*

*Əvvəlcə rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsinin açılışı oldu. Prezident İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü, abidənin önünə gül dəstəsi qoydu. Postamentlə birlikdə hündürlüyü 9,5 metr olan heykəl qranitdən hazırlanmışdır. Ətrafdakı 3 hektar ərazi də abadlaşdırılmış, istirahət üçün gözəl şərait yaradılmışdır. Burada gül kolları əkilmiş, yaraşıqlı fəvvarələr quraşdırılmış, daş piltələr döşənmişdir.*

*Sonra burada abidənin açılışı münasibətilə rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə təntənəli mərasim keçirildi. Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

### Xanlar şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin açılış mərasimində nitq

Əziz dostlar!

Bu gün biz ulu öndər Heydər Əliyevin abidəsinin açılışına toplaşmışıq. Bu çox əlamətdar bir hadisədir. Ulu öndər bütün dövrlərdə, Azərbaycana rəhbərlik etdiyi illərdə öz xalqına sədaqətlə xidmət etmişdir. Hamımız yaxşı xatırlayırıq ki, 1970–80-ci illərdə Azərbaycanın inkişafında onun çox böyük rolu olmuşdur. O vaxt Azərbaycan başqa müttəfiq respublikalarla müqayisədə ən ağır vəziyyətdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycanda o vaxt aparılan isla-

hatlar ölkəmizin bugünkü inkişafına möhkəm zəmin yaratmışdır. Çünki o illərdə yaradılmış sənaye müəssisələri, inkişaf etmiş kənd təsərrüfatı, tikilmiş sosial obyektlər bu gün də Azərbaycanın hərtərəfli inkişafı üçün öz rolunu oynamaqdadır. Müstəqil Azərbaycanın rəhbəri kimi, yenə də Azərbaycanı ən çətin vəziyyətdən çıxaran məhz ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Onun rəhbərlik etdiyi dövrlərdə Azərbaycan daim inkişaf etmiş, o, Azərbaycanda olmadığı dövrdə isə ölkə böyük fəlakətlərlə üzləşmişdir. Məhz o illərdə – XX əsr 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində Azərbaycanın gələcək inkişafı sual altında idi. Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan bir ay sonra ermənilər Dağlıq Qarabağda separatçı hərəkətlərə başlamışdılar. Azərbaycana qarşı təcavüz başlanmışdı və faktiki olaraq, Azərbaycan torpaqları işğal altına düşmüşdür. Məhz o illərdə bu işğalın əsası qoyulmuşdur. Sovet İttifaqının o vaxtkı rəhbərliyi erməni qəsbkarları ilə birlikdə Azərbaycan üçün bu çətin şəraiti yaratmışdılar.

Ancaq 1993-cü ildən sonra, yenə də ulu öndər Azərbaycana qayıtdıqdan sonra vəziyyət tamamilə dəyişmişdir və bu gün Azərbaycan uğurla inkişaf edir. 1993–2003-cü illər Azərbaycan dövlətçiliyi üçün həlledici illər olmuşdur. Məhz o illərdə Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirə bilmişdir, Azərbaycanda bütün xoşagəlməz hadisələrə, anarxiya və hərc-mərcliyə son qoyulmuş, sabitlik yaranmışdır. Azərbaycan inkişaf etməyə başlamışdır və bu onillik ölkəmizin bugünkü həyatında çox mühüm rol oynamışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və Azərbaycanı xoşbəxt gələcəyə aparır. Bu gün Azərbaycanda davam etdirilən siyasi və iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir. Dörd il ərzində biz bu birinciliyi qoruyub saxlaya bilmişik. Özü də dünya miqyasında. Azərbaycan iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artır və Azərbaycan vətəndaşları bu nailiyyətlərin

bəhrəsini gündəlik həyatlarında görməyə başlamışlar. Bu çox vacibdir. Çünki bizim bütün iqtisadi siyasətimiz, aparılan islahatlar bir məqsədə yönəlibdir ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, bütün problemlər, sosial məsələlər həllini tapsın və ölkəmiz güclənsin.

Bildiyiniz kimi, dörd ildən artıqdır ki, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bu yaxınlarda biz proqramın dördillik yekunlarını müzakirə etdik və bir daha gördük ki, bu illər ərzində bölgələrdə çox böyük inkişaf olmuşdur. 650 mindən çox yeni iş yerinin açılması, yüzlərlə yeni müəssisənin yaradılması, Azərbaycan bölgələrində infrastrukturun yeniləşməsi və yaradılması, elektrik stansiyalarının tikilməsi, qaz xətlərinin çəkilməsi – bütün bunlar regionların inkişafına xidmət göstərir və imkan verir ki, Azərbaycanın bütün bölgələrində insanlar daha da yaxşı yaşasınlar. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik. Azərbaycanın qarşısında duran vəzifələr uğurla icra edilir, bizim bütün proqramlarımız həyatda öz əksini tapır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ölkəmizin hərtərəfli inkişafında çox böyük rolu olmuşdur. Bu proqramın icrası nəticəsində ölkəmizin qeyri-neft sektoru inkişaf edir, bölgələrdə müasir şərait yaradılır və yaradılacaqdır.

Biz uğurlu neft siyasətimizdən istifadə edərək, siyasi və iqtisadi islahatları davam etdirərək elə şərait yaradırıq ki, gələcəkdə Azərbaycan iqtisadiyyatı neft amilindən asılı olmasın. Şübhəsiz ki, bu gün Azərbaycanın inkişafında neft-qaz sahəsi çox böyük rol oynayır. Bu sahədə də əldə edilmiş bütün uğurlar ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə mümkün olmuşdur. Məhz onun təşəbbüsü ilə 1994-cü ildə xarici şirkətlərlə ilk neft müqaviləsi imzalandıqdan sonra Azərbaycan bu sahədə böyük uğurlara nail ola bilmişdir. O vaxt vəziyyət indiki kimi deyildi. Azərbaycan cəmi 3 il idi ki, müstəqil dövlət idi və torpaqlarımız işğal altında idi. Ölkədə hələ vətəndaş müharibəsinin acı nəticələri yaşanırdı,

Azərbaycana vəsait qoymaq istəyən xarici şirkətlərin sayı çox məhdud idi, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Daxili imkanlarımız da, demək olar ki, yox idi. Büdcə çox aşağı səviyyədə, xəzinə isə boş idi. O şəraitdə böyük enerji şirkətlərini Azərbaycana cəlb etmək, onları inandırmaq ki, Azərbaycan investisiyalar üçün əlverişli iqtisadi imkanlara malikdir – bu, böyük müdriklik və cəsarət tələb edirdi. Çünki neft müqavilələrinin imzalanması çox ağır geosiyasi şəraitdə baş verirdi.

Bu gün isə Azərbaycan qarşıda duran bütün enerji vəzifələrini uğurla icra edibdir və biz tarixi nailiyyətlərə çatmışıq. Neft-qaz kəmərləri işə salınmışdır. Azərbaycanda böyük miqdarda neft, qaz hasil edilir, ixrac olunur və beləliklə, ölkə zənginləşir. Uğurlu neft-qaz siyasətimiz, iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, sahibkarlığa həm siyasi və mənəvi, həm də maddi dəstək, kreditlərin ayrılması – bütün bu amillər Azərbaycanın hərtərəfli inkişafına şərait yaradır. Təsadüfi deyil ki, biz dörd il ərzində iqtisadi artım sürətinə görə dünyada birinci yerdəyik. Dörd ildə iqtisadiyyatımız, demək olar ki, 2 dəfə artmışdır və bu meyil davam edir.

Bu dörd il ərzində büdcə xərclərimiz böyük həcmdə artmışdır. Bu gün Azərbaycanın dövlət büdcəsi 12 milyard dollardır. Dörd il bundan əvvəl bu rəqəm 1 milyard 200 milyon idi. Yəni büdcəmiz 10 dəfə artıbdır, xərclərimiz on dəfə artıbdır və bundan səmərəli istifadə edərək Azərbaycanda müasir infrastruktur yaradılır. Elektrik stansiyaları tikilir, avtomobil yolları, qaz xətləri çəkilir, xəstəxanalar, məktəblər inşa olunur, sosial infrastruktura aid olan digər məsələlər həll edilir. Eyni zamanda, vətəndaşlarımızın sosial təminatı yaxşılaşır, minimum əməkhaqqı, minimum pensiyalar ildə iki dəfə artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Yanvarın 1-dən minimum əməkhaqqı və minimum pensiya 60 manata qaldırılmışdır və bu il yenə də biz buna baxacağıq. Mən göstəriş vermişəm ki, yenidən

biz bu məsələyə baxaq və maaşlar, pensiyalar artırılmalıdır. Düzdür, artım çox böyükdür, amma hələ ki, bizi tam qane edə bilməz. Çünki mən istəyirəm ki, Azərbaycan vətəndaşları yaxşı yaşasınlar, aldıqları maaşlar, pensiyalar onların bütün tələbatlarını ödəsin. Əlbəttə ki, özəl sektorda fəaliyyət göstərənlər özlərini sosial baxımdan daha yaxşı müdafiə olunmuş hesab edirlər, yəni onların dolanışığı özlərinin fəaliyyətindən asılıdır. Nəzərə alsaq ki, Azərbaycanda biznesla məşğul olmaq üçün çox gözəl şərait yaradılmışdır və dövlət tərəfindən bütün lazımi tədbirlər görülür. Eyni zamanda, sahibkarlara ildə 100 milyon manata yaxın məbləğdə kreditlər verilir, kənd təsərrüfatı texnikası verilir. Demək olar ki, sahibkarlıqla məşğul olanlar özlərini yaxşı təmin edə bilirlər. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatının 80 faizi özəl sektorda formalaşıb, deyə bilərik ki, özəl sektorda işləyənlərin sayı kifayət qədər çoxdur. Ancaq büdcə təşkilatlarında işləyənlərin sosial müdafiəsi məsələləri, əlbəttə ki, diqqət mərkəzində olmalıdır və o insanlara dövlət qayğısı bundan sonra da davam etdiriləcək, onların iş şəraiti yaxşılaşdırılacaq, əməkhaqları artırılacaqdır.

Siz bilirsiniz və Xanlar rayonunun timsalında da biz bunu görürük ki, indi Azərbaycanda məktəb tikintisi nə qədər geniş vüsət almışdır. Hər yerdə, demək olar ki, hər kənddə yeni məktəblər tikilir. Nə üçün biz bunu edirik? İlk növbədə, ona görə ki, bizim gələcəyimiz olan uşaqlarımız yaxşı şəraitdə oxusunlar. Oxumaq üçün onların bütün şəraiti olsun və gələcəkdə Azərbaycan üçün bilikli gənc nəsil yetişsin. Digər tərəfdən, o məktəblərdə təkcə uşaqlar oxumur, həm də müəllimlər işləyirlər. Müəllimlər uşaqlara bilik öyrədir, onları tərbiyə edirlər, demək, bizim gələcəyimizi formalaşdırırlar. Ona görə müəllimlərin əməyi çox yüksək qiymətləndirilməlidir. Onların həm əməkhaqları artırılmalıdır və artırılır, həm də iş şəraiti yaxşılaşmalıdır. Biz bunu edirik və bundan sonra da edəcəyik. Son dörd il ərzində Azərbaycanda 1200-dən çox məktəb tikilmişdir. Nəzərə

alsaq ki, bütün dövrlərdə Azərbaycanda 4500 məktəb tikilmişdir, bu, misli görünməmiş bir nəticədir. Bu il də 200-dən çox məktəb, əlavə korpuslar tikiləcək və təmir olunacaqdır. Beləliklə, təhsillə – ibtidai və orta təhsillə bağlı məsələləri, bu sahədə maddi-texniki bazanın yaradılması məsələlərini biz yaxın 2-3 ildə həll edəcəyik.

Bütövlükdə, sosial məsələlərə diqqət həmişə yüksək olmuşdur. Bunu biz büdcə xərclərində də görə bilərik. Büdcəmiz sosialyönümlüdür, eyni zamanda, investisiyayönümlüdür və artan imkanlarımız, maliyyə imkanlarımız, əlbəttə ki, bizim qarşımızda yeni imkanlar açır. Azərbaycan güclü ölkəyə çevrilir. Bizim hamımızın məqsədi odur ki, Azərbaycan güclü dövlət olsun, Azərbaycan vətəndaşları yaxşı yaşasınlar. Azərbaycan öz siyasi və iqtisadi maraqlarını tam şəkildə təmin edə bilsin və bölgədə çox möhkəm mövqelərə malik olsun. Biz bunu artıq görürük. Artıq Azərbaycan yerləşdiyi bölgədə söz sahibidir. Biz böyük layihələrin, böyük işlərin təşəbbüskarıyıq. Bütün regional layihələrdə, regional əməkdaşlıq məsələlərində fəal iştirak edirik. Bir çox hallarda bu əməkdaşlığın inkişafı üçün təşəbbüslər göstəririk və bizim rolumuz həm bölgədə, həm də dünyada yüksək dərəcədə qiymətləndirilir və bölgədə lider dövlət kimi, Azərbaycanın mövqeləri günü-gündən möhkəmlənir. Bunun müxtəlif amilləri var və onların hamısını sadalamaq çox vaxt aparar. Başlıcası ondan ibarətdir ki, Azərbaycanda xalqla iqtidar arasında birlik var, qarşılıqlı hörmət var, inam var. Bütün proqramlarımız xalq tərəfindən dəstəklənir və bu bizə əlavə güc verir, əlavə imkanlar yaradır. Ölkəmizdə çox gözəl ictimai-siyasi vəziyyət mövcuddur, sabitlik, əmin-amanlıq var, insanlar normal şəraitdə yaşayır, çalışırlar.

Azərbaycan enerji baxımından həm bölgə üçün, həm dünya üçün əvəzolunmaz ölkəyə çevrilir. Bu bizə əlavə maddi imkanlar yaradır, həm də siyasi gücümüzü artırır. Bildiyiniz kimi, indiki zamanda enerji məsələləri dünyanın gündəliyində birinci yerlərdədir. Yeni etibarlı enerji daşıyı-

cıları, neft-qaz hasil və nəql edən ölkə kimi, Azərbaycan, əlbəttə ki, öz imkanlarını genişləndirir. Biz bütün bu amillərdən məharətlə istifadə edirik ki, ölkəmizi daha da gücləndirək, onun qarşısında duran bütün vəzifələri icra edək. Bizim müttəfiqlərimizin sayı getdikcə artır, genişlənir. Biz bütün əməkdaşlıq məsələlərində çox böyük iradə göstəririk. Biz əməkdaşlığa açığıq, nə qədər çox dost ölkə qazansaq, beynəlxalq mövqelərimiz də bir o qədər möhkəmlənəcəkdir.

Bir sözlə, Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır. Sadəcə, istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin və həll olunmamış məsələlər tezliklə öz həllini tapsın. İnsanları hələ narahat edən, onlara əziyyət verən məsələlər aradan qaldırılsın. Bu sahədə qəbul olunmuş və gələcəkdə qəbul edəcəyimiz proqramlar imkan verəcək ki, hər bir məsələ öz həllini tapsın. Regionların inkişafı proqramının yekunlarının müzakirəsi zamanı mən göstəriş vermişəm ki, növbəti beşillik üçün yeni proqram hazırlansın. Birinci proqram, demək olar ki, artıq icra edilibdir, proqramda nəzərdə tutulan məsələlərin 98 faizi ya tam həll olunub, yaxud da qismən həll edilib və qarşıda hələ bir il vaxt var, həll olunacaqdır. Növbəti beşillik üçün yeni regional inkişaf proqramının hazırlanmasına artıq başlanmışdır. Bütün yerli icra orqanlarına göstərişlər verilmişdir ki, onlar mərkəzə bütün məlumatları təqdim etsinlər: rayonda, hansı kənddə, harada problem var, harada nə çatışmır, harada nə təmir olunmalıdır, harada nə tikilməlidir. Bu göstərişləri bütün icra hakimiyyəti başçılarına vermişik. Onlar da bu məlumatların əsas hissəsini mərkəzə göndərmişlər. İndi bu məsələlər təhlil olunur. Bu günə qədər həll olunmamış bütün məsələlər növbəti proqrama daxil ediləcəkdir. Növbəti beş ildə– 2009–2013-cü illərdə regionlarda bütün məsələlər həll olunacaqdır.

Həyat yerində durmur. Əlbəttə ki, qarşımıza yeni məsələlər çıxır və biz bunları həll etməyə qadirik. Bizim güclü iradəmiz, peşəkar mütəxəssislərimiz var və artıq maddi imkanlarımız var. O imkanlar ki, biz onları özümüz yarat-

mışıq. O imkanlar ki, onlar göydən düşməyib, biz öz gücümüzlə yaratmışıq. Bəzən bizim işlərimizə kölgə salmaq istəyənlər deyirlər ki, bəli, Azərbaycanda neft var, qaz var, ona görə Azərbaycan elə uğurla inkişaf edir. Bəzi ölkələrdə neft və qaz var. Digər ölkələrdə başqa təbii sərvətlər var. İndi bütün ölkələrin tarixinə nəzər salsaq – həm bizim bölgədə, həm də ki, başqa yerlərdə – görərik ki, hər bir ölkənin iqtisadiyyatı hansısa bir təbii sərvətə əsaslanır. Bəzi hallarda bu, neft-qaz olur, bəzi hallarda kənd təsərrüfatı məhsulları olur, digər təbii sərvətlər olur. Bu təbiidir. Dünyanın inkişafı bu təbii sərvətlər əsasında gedir. Enerji olmasa, inkişaf ola bilməz, bu hər bir ölkə üçün təbiidir. Azərbaycanın, bizim uğurumuz ondan ibarətdir ki, öz təbii sərvətlərimizə sahib olmuşuq. Azərbaycan xalqı buna sahib olub və öz təbii sərvətlərini uğurla işlədir. Bütün neft-qaz layihələrində Azərbaycan mütəxəssisləri fəal iştirak edirlər. Bizim həyata keçirdiyimiz bütün layihələrə daha çox xarici investorlar tərəfindən vəsait qoyulur. Ancaq artıq bir neçə aydan sonra Azərbaycan çıxarılan neftin 80 faizinin sahibinə çevriləcəkdir. Başqa ölkələrdə buna bəlkə 50–60 il vaxt lazımdır. Yəni Azərbaycanın nefti və qazı xalqımızın inkişafına xidmət edir. Biz bu imkanlardan səmərəli istifadə edib su kəmərləri, qaz xətləri çəkirik, məktəblər, xəstəxanalar tikirik. Bütün bu əsas maliyyə imkanlarımızın mənbəyi məhz bizim təbii sərvətlərimiz və onlardan səmərəli istifadə etməyimizdir. Biz çətin, ağır geosiyasi şəraitdə neft kəmərləri çəkmişik. Xəzər dənizini Qara dənizlə birləşdirmişik. Xəzər dənizini ilk dəfə olaraq Aralıq dənizi ilə birləşdirmişik. Bunlar asan məsələlər, sadəcə olaraq, texniki, yaxud da ki, kommersiya məsələləri deyildir. Çox böyük siyasi müdriklik, siyasi fəaliyyət, diplomatik səylər tələb edirdi və biz bunlara nail ola bilmişik. Mən şübhə etmirəm ki, bundan sonra bizim qarşımızda həll olunmamış problem qalmayacaqdır.

Bizim hamımızı narahat edən yeganə məsələ Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmamasıdır. Bu ondan

irəli gəlir ki, Azərbaycan öz prinsipial mövqeyindən dönmür və dönməyəcəkdir. Bizim prinsipial mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır, ədalətə əsaslanır və mən inanıram ki, bizim mövqeyimiz son nəticədə torpaqlarımızın azad olunmasına gətirib çıxaracaqdır. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və münaqişə yalnız bu əsasda öz həllini tapa bilər. Heç vaxt separatist qüvvələrə heç bir güzəşt olmayacaq, biz heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına imkan verməyəcəyik, bu heç vaxt baş tutmayacaqdır. Ermənistanda bunu nə qədər tez başa düşsələr, onlar üçün bir o qədər yaxşı olacaqdır. Mən bəyan edirəm ki, Azərbaycan bundan sonra da öz prinsipial mövqeyində qalacaq və münaqişəni ancaq və ancaq bizim ərazi bütövlüyümüz çərçivəsində həll edəcəyik. Biz hələ ki, danışıqlara sadiqik, hələ ki, bəzi ümidlərimiz var. Ancaq bununla bərabər, siz onu da bilirsiniz ki, biz hərbi gücümüzü artırırıq. Bəzi hallarda beynəlxalq təşkilatlar bizi tənqid edirlər ki, Azərbaycan ordu quruculuğuna nə üçün bu qədər vəsait ayırır? Birincisi, bu bizim işimizdir və heç kimə dəxli yoxdur. Biz kasıb olanda, imkanlarımız olmayanda bizə əl tutan olmamışdı, indi isə bizə məsləhət verməyə çalışırlar ki, bu vəsaitdən harada istifadə edək. Biz bu vəsaitdən hər yerə istifadə edirik. Həm məktəb tikirik, xəstəxana tikirik, yol çəkirik, elektrik stansiyaları tikirik, həm də ordumuzu gücləndiririk və gücləndirəcəyik. Bizim artan ordu potensialımız danışıqların tezliklə başa çatmasına xidmət edir. Çünki işğalçı tərəf bilir və aydın dərk edir ki, artıq Azərbaycan o Azərbaycan deyil ki, onun torpaqlarını işğal etmək mümkün olsun. İndi Azərbaycan çox güclü hərbi potensiala malikdir, bu potensial ildən-ilə artır və artırılacaqdır. Belə olan halda, bizimlə ultimatum dili ilə danışmaq heç kimə fayda gətirməz. Azərbaycan həm iqtisadi cəhətdən, siyasi cəhətdən və həm də hərbi cəhətdən güclü ölkədir və bu güc daha da artacaqdır.

Əziz dostlar, mən sizin hamınızı bir daha salamlamaq istəyirəm. Mən çox şadam ki, Xanlar rayonuna gəlmişəm. Bilirəm ki, rayonda inkişaf gedir, abadlıq-quruculuq işləri gedir. Rayonun çox böyük potensialı var və mən əminəm ki, bu potensialdan biz hamımız səmərəli şəkildə istifadə edəcəyik. Rayonda həm sənaye müəssisələri yaranır, həm də xəstəxana tikilir – bu yaxınlarda o, istifadəyə veriləcək – gözəl məktəblər tikilir, yollar salınır. Yəni rayonun inkişafı üçün bütün şərait yaradılır. Sadəcə olaraq, biz hamımız elə etməliyik ki, qarşıda duran bütün məsələləri daha da qısa müddət ərzində həll edək və Xanlar rayonu inkişaf etsin, çiçəklənsin. Mən bunu arzulayıram. Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## Şəhid İbrahim Hüseynov adına 1 saylı orta məktəbi ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev martın 4-də şəhid İbrahim Hüseynov adına 1 saylı orta məktəbdə olmuşdur.*

*1965-ci ildə tikilmiş və qəza vəziyyətində olduğuna görə sökülərək, yenidən Dövlət Neft Şirkətinin vəsaiti hesabına inşa edilmişdi. 3 mərtəbəli məktəb binasında 800 şagird oxuyur. 2007-ci ilin sentyabrında istifadəyə verilmiş məktəbdə 40 sinif otağı, kitabxana, kompyuter otağı, yeməkxana, laboratoriya, idman zalı, mərkəzləşdirilmiş istilik sistemi var. Məktəbdə 100 müəllim çalışır. Keçən il məktəbi bitirən 34 şagirddən 11-i ali məktəblərə daxil olmuşdur.*

*Prezident İlham Əliyev kitabxana, kompyuter otağı və idman zalı ilə tanış oldu. Bildirildi ki, kitabxanada 17 min kitab, o cümlədən 6 min nüsxə dərslik və vəsait var.*

*Dövlətimizin başçısı məktəbdə yaradılmış şəraiti yüksək qiymətləndirdi, ölkəmizdə təhsilə böyük diqqət və qayğı göstərildiyini, gələcəkdə bütün bölgələrdə belə müasir orta təhsil müəssisələrinin tikintisinin davam etdiriləcəyini bildirdi.*

## Rayon Mərkəzi Xəstəxanasının tikintisinin Baş planı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 4-də Xanlar rayonu Mərkəzi Xəstəxanasının tikintisinin Baş planı ilə tanış olmuşdur.*

*Bu xəstəxana Dövlət Proqramına əsasən, Səhiyyə Nazirliyinin sifarişi ilə «Terminal İ.T» müəssisəsi tərəfindən tikilir.*

*Prezident İlham Əliyev xəstəxananın Baş planına və fotolayihəsinə baxdı. Tikintisinə 2006-cı ilin dekabrında başlanılmış xəstəxana 2009-cu ilin əvvəlində istifadəyə veriləcəkdir. Ümumi ərazisi 3 hektardır. Burada poliklinika, uşaq və qadın məsləhətxanası da yerləşəcəkdir. Təsərrüfat korpusu, qazanxana, su hovuzu, avtomobil dayanacağı da olacaqdır. 180 çarpayılıq xəstəxanada 95 tibb işçisi fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev binanın xarici görünüşünün müasirliyinə diqqət yetirməyin və tikinti işlərinin yüksək keyfiyyətlə aparılmasının zəruriliyini vurğuladı. Bildirdi ki, Azərbaycanda hər bir səhiyyə obyekti ən yüksək standartlara cavab verməlidir.*

## «Xanlar aqrar-sənaye» Açıq Səhmdar Cəmiyyətində

*Azərbaycan prezidenti İlham Əliyev martın 4-də «Xanlar aqrar-sənaye» Açıq Səhmdar Cəmiyyətinə gəlmişdir.*

*Burada dövlətimizin başçısını böyük səmimiyyətlə və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə müəssisənin sxematik planı ilə tanış oldu, keçmişini və bu gününü əks etdirən fotoşəkillərə baxdı. Prezidentə məlumat verildi ki, bu müəssisə 1860-cı ildə alman kolonistləri – Forer qardaşları tərəfindən tikilmişdi. Dövlətimizin başçısı düyməni basıb sexi işə saldı, məhsulun istehsalı və qablaşdırılması proseslərini izlədi.*

*Müəssisə uzun fasilədən sonra 2006-cı ildə keçmiş «Xanlar aqrar-sənaye» kombinatının bazasında yaradılmışdır. İtaliyadan gətirilmiş avadanlıq quraşdırılmış, istehsal gücü saatda 6 min butulka olan araq süzmə, 3 min butulka olan şərab sexləri və istehsal gücü sutkada 500 dekalitr olan konyak spirtli sexi yenidən qurularaq işə salınmışdır. Polşa və Rusiya şirkətləri ilə müqavilə bağlanaraq, 3 milyon ədəd butulka sifarişi alınmuşdur. Fransa, İtaliya və digər Avropa ölkələri ilə danışıqlar aparılır.*

*Bu yaxınlarda isə Türkiyə və İtaliyanın birgə istehsalı olan «Erensan» qazanları quraşdırılmış, laboratoriya tamamilə yenidən qurularaq, müasir avadanlıqla təchiz olunmuşdur. Hazırda müəssisədə 380 nəfər işləyir, gələn il onların sayı 1500 nəfərə çatdırılacaqdır. Orta aylıq əməkhaqqı 220–250 manatdır. Zavod ildə 25 min ton üzüm qəbul etmək gücünə malikdir. Özünün 305 hektar üzüm bağı var, bunun 100 hektarı təzə salınmışdır.*

*Dövlətimizin başçısı müxtəlif çeşidli hazır məhsullara, o cümlədən ixraca göndərilən məhsulların nümunələrinə baxdı. Sonra prezident İlham Əliyev üzüm qəbulu məntəqəsi, sexlərlə tanış oldu. Dərinliyi 15 metr olan və təbii havalandırma sisteminə malik zirzəmidə çəlləklərdə saxlanılan məhsullara baxdı. Ölkəmizdə belə müəssisələrin olmasının zəruriliyini bildirən dövlətimizin başçısı bu cür potensial imkanlara malik zavodun məhsullarının xarici bazarlara Azərbaycan markası altında çıxarılmasını yüksək dəyərləndirdi.*

## Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş yaşayış binasının açılışında

*Martın 4-də Xanlar rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 16 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısının tapşırığı ilə tikilmiş ikimərtəbəli, dörd bloklu binada 8 ikiotaqlı, 8 üçotaqlı mənzil vardır.*

*Prezident İlham Əliyev mənzillərin orderlərini sahiblərinə təqdim etdi.*

*Şəhid ailəsinin üzvü, hərbçi Esmiral İsmayılova dövlətimizin başçısına təşəkkür edərək dedi:*

– Cənab Prezident, Sizi buradakı Qarabağ müharibəsi əlilləri vəşəhid ailələri adından salamlayıram. 1988-ci ildən 1994-cü ilə qədər Azərbaycan çox ağrılı, acılı günlərini yaşadı. Bu bizim də həyatımızdan yan keçmədi. Mənim həyat yoldaşım İsmayıl Zəlimxan oğlu İsmayılov Qarabağ uğrunda gedən döyüşlərdə şəhid oldu. Hazırda mənim iki övladım var. Onlardan biri Azərbaycan ordusunun hava hücumundan müdafiə qüvvələrində xidmət edir. Mən özüm də hərbçiyəm. 15 ildir Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edirəm vəöz şərəfli peşəmdən qürur duyuram.

Cənab Prezident, Sizin hərtərəfli qayğınızla əhatə olunmuşuq. Ona görə dəşəhid ailəsi olmağımızı nə uşaqlarım, nə də mən hiss edirik. Sizə dərin minnətdarlığımızı bildiririk. Siz çıxışlarınızda tez-tez vurğulayırsınız ki, Azərbaycan nəyin bahasına olursa-olsun, torpaqlarını erməni işğalçılarından azad edəcəkdir. Bəli, indi bizim güclü, nizami ordumuz var. Biz ümidvarıq ki, torpaqlarımız erməni işğalçılarından azad olunacaq və o gün uzaqda deyildir. Bizim ordumuz, Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, müstəqilliyini qorumağa qadirdir. Belə güclü ordumuz olduğuna, həmişə hərbçilərə kömək etdiyinizə, bizə göstərdiyiniz diqqətə görə bütün şəhid ailələri və Qarabağ müharibəsi əlilləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Allah Sizi başımızın üstündən əskik etməsin. Ümidimiz, güman yerimiz, iman yerimiz Sizsiniz. Bizim yeganə prezidentimiz sizsiniz. Cənab Prezident, Sizin alternativiniz yoxdur. Sağ olun.

**İlham Əliyev**: Çox sağ olun. Sizi ürəkdən salamlayıram.

Siz qeyd etdiyiniz kimi, ordu quruculuğuna çox böyük diqqət göstərilir. Ordumuz güclənir, möhkəmlənir.Biz hərbçilərin sosial məsələlərinin həlli üçün dəçalışırıq.Əlbəttə, indiki Azərbaycan ordusu bölgədə, Cənubi Qafqazda ən güclü ordudur. Biz buna maddi-texniki bazanın yüksək dərəcədə möhkəmləndirilməsi və peşəkarlığın artırılması sayəsində nail ola bilmişik. Ancaq bu proses hələ davam edəcək və davam etməlidir. Biz müharibəşəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır.Ona görə təbiidir ki, biz, ilk növbədə, ordu quruculuğu ilə məşğul olmalıyıq. Azərbaycanın dövlət büdcəsində orduya ayrılan xərclər birinci yerdədir. Bu belə də olmalıdır və ildən-ilə daha da artırılacaqdır. Ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə hazırdır.

Biz istəyirik ki, münaqişəni sülh yolu ilə həll edək. Biz istəmirik ki, müharibə olsun. Müharibə nə olduğunu siz hamıdan yaxşı bilirsiniz. Siz Vətən uğrunda, doğma ölkəmizin müstəqilliyi uğrunda yaxınlarınızı itirmisiniz, sağlamlığınızı itirmisiniz. Azərbaycanın müstəqilliyini qazanması da o ərəfəyə düşübdür. Hələ müstəqillik əldə etməzdən əvvəl biz münaqişədə idik və bizə qarşı təcavüz başlanmışdı. İndi hamımız yaxşı xatırlayırıq, müstəqilliyimizin ilk illəri çox ağır keçibdir. Demək olar ki, Azərbaycanda o vaxt peşəkar, mütəşəkkil ordu yox idi, sadəcə olaraq, könüllülər, vətənpərvər insanlar doğma torpaqları müdafiə etmək üçün döyüşə göndərilmişdilər və müxtəlif amillərə görə Azərbaycan torpaqları işğal altına düşdü. Əlbəttə, Azərbaycanın o vaxtkı rəhbərliyinin bu işlərdə birbaşa günahları var. Beynəlxalq vəziyyət də başqa cür idi. Azərbaycan zəif bir ölkə idi. Müstəqillik əldə edəndə bizim, demək olar ki, iqtisadi gücümüz yox idi, siyasi gücümüz yox idi. Azərbaycana o vaxt rəhbərlik edən insanlar Azərbaycan xalqının taleyini düşünmürdülər, özlərini düşünürdülər, başqa ölkələrin təsiri altında idilər. Müstəqil siyasət aparmaq iqtidarında deyildilər. Milləti, dövləti, xalqı yox, öz gələcəklərini, öz rahatlıqlarını

düşünürdülər. Bu, 1991-ci ildə də belə idi.1992-ci ildə də belə idi və 1993-cü ilin iyun ayına qədər də belə idi. Siz yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev rəhbərliyə gələndən sonra çox uğurlu hərbi əməliyyatlar aparılmış, torpaqlarımızın bir hissəsi qaytarılmışdır. Ancaq o vaxt Azərbaycanın hərbi gücü və iqtisadi gücü imkan vermirdi ki, müharibə davam etsin.Bu, reallıq idi. O vaxt müharibə dayanmalı idi ki, biz güc toplayaq, möhkəmlənək, güclənək və daha da güclü mövqedən çıxış edək. Elə də oldu.1993–2003-cü illər inkişaf illəri oldu. Bu il, 2008-ci ildə biz artıq orduya 1 milyard 300 milyon dollar pul xərcləyirik. Gələcək illərdə daha da çox olacaqdır. Texnika, təyyarələr, silah-sursat alırıq, nə lazımdır edirik ki, torpaqlarımızın hərb yolu ilə azad edilməsinə hər an hazır olaq və biz artıq buna hazırıq. Sadəcə olaraq, danışıqlar prosesində müəyyən ümidlər olduğuna görə, biz hələ ki, bu prosesə sadiqik vəçalışacağıq ki, bunu sülh yolu ilə həll edək. Ancaq bunu sülh yolu ilə o vaxt həll etmək mümkündür ki, biz güclü orduya malik olaq. Düşmən biləndə ki – əslində bilir – Azərbaycan ordusu güclüdür, o vaxt danışıqlar prosesində də, necə deyərlər, özünü normal çərçivəyə sığışdıracaqdır.

Bu münaqişə Azərbaycanın ərazi bütövlüyüçərçivəsində həll olunmalıdır. Bütün dünya birliyi bunu dəstəkləyir, beynəlxalq hüquq normaları bunu diktə edir. Beynəlxalq hüquq normaları da hər bir ölkə üçün mütləq həqiqət olmalıdır. Baxmayaraq, Ermənistan hələ ki bu normalara məhəl qoymur, amma vaxt gələcək reallıqla və beynəlxalq hüquqla razılaşmalı olacaqdır. Ancaq yenə də deyirəm, istədiyimizə nail olmaq üçün, ədaləti bərpa etmək üçün təkcə danışıqlar kifayət deyildir. Bizim danışıqlara hazır olmağımız kifayət deyil, diplomatik səylər kifayət deyildir. Güc olmalıdır. Siz görürsünüz, dünyada nələr baş verir. Güc olan yerdə hər şey həll olunur. Əfsuslar olsun ki, bu belədir. Biz bunu arzulamırdıq ki, bəzi hallarda dünyada beynəlxalq normalar pozulsun, ədalətsiz qərarlar qəbul edilsin. Əslində, bu qərarlar

dünya nizamına da təsir göstərir. Ancaq güc həlledici amildir. Biz də bu gücütoplayırıq və toplayacağıq. Azərbaycanın inkişafı, iqtisadi islahatlar – bütün görülən işlər bu məqsədi güdür.

Mən sizə cansağlığı arzulayıram.Arzu edirəm ki, bu evdə yaxşışəraitdə yaşayasınız. Siz buna layiqsiniz. Yenə də deyirəm, doğmalarınızı, sağlamlığınızı itirmisiniz. Əgər Azərbaycan dövləti sizin həyatınızı bir balaca yüngülləşdiribsə, mən hesab edirəm ki, bu, yaxşı haldır. Azərbaycan dövləti ona sədaqətlə xidmət etmiş insanlara qayğı göstərməyi davam etdirəcəkdir.

Bilirsiniz ki, sosial müavinətlər də artırılır və artırılacaqdır. Sizin sosial məsələləriniz həllini tapacaqdır. Xanlar rayonunda sizin kimi insanlar var, çoxdur. Hələ ki, 16 mənzil tikilib istifadəyə verilibdir. Gələcəkdə yeni evlər tikiləcək ki, sizin kimi insanların vəziyyətini yaxşılaşdıraq.

***

*Sonra prezident İlham Əliyev mənzillərlə tanış oldu. Dövlət başçısının adından hər bir mənzilə soyuducu və televizor hədiyyə olunmuşdur. Mənzillərdə yaşayış üçün hər cür şərait yaradılıb, mebel dəstləri qoyulub, bina istilik sistemi ilə, qazla təchiz edilibdir. Yaxın vaxtlarda telefon xətləri də çəkiləcəkdir.*

## ERMƏNİSTANDAN DİDƏRGİN DÜŞMÜŞ ZOD KƏNDİNİN QAÇQINLARI VƏ KƏLBƏCƏRDƏN OLAN MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞ

*4 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 4-də, Xanlar rayonuna səfərinin sonunda Yeni Zod kəndinə gedərək, Ermənistandan didərgin düşmüş qaçqınlarla və Kəlbəcər rayonundan olan məcburi köçkünlərlə görüşmüş, onların yaşayış şəraiti ilə tanış olmuş, qayğı və problemləri ilə maraqlanmışdır.*

*Kənd sakinləri dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.*

*İkinci qrup Qarabağ müharibəsi əlili, «Azərbaycan Bayrağı» ordenli Emin Orucov prezidenti salamlayaraq dedi:*

– Möhtərəm cənab Prezident, Kəpəzin ətəyində yerləşən Xanlar rayonunun ucqar kəndinin camaatı adından Sizə «Xoş gəlmisiniz!» deyirəm. Siz doğrudan da bu gün bir daha sübut etdiniz ki, hər bir azərbaycanlının, hər bir vətəndaşın prezidentisiniz. Siz bunu bir daha təsdiqlədiniz. Siz bizim prezidentimizsiniz və ömürlük prezidentimiz olaraq qalacaqsınız. Ümidvaram ki, qarşıdan gələn seçkilərdə yenə Siz bizim prezidentimiz olacaqsınız.

Cənab Prezident, mən də Qarabağ müharibəsi əliliyəm, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş və sol ayağımı itirmişəm. Sinəmdə gördüyünüz «Azərbaycan Bayrağı» ordeni ilə məhz ümummilli liderimiz Heydər Əliyev tərəfindən təltif edilmişəm və bundan şərəf duyuram. Mənə qismət oldu ki, 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevlə görüşdüm və bu gün də Sizinlə görüşürəm.

Cənab Prezident, Siz dediyiniz kimi, sabitlik olan yerdə inkişaf güclü olur. Ona görə də ümidvaram ki, Siz öz siyasətinizlə torpaqlarımızı geri qaytaracaq, ərazi bütövlüyümüzü təmin edəcəksiniz. Əgər bu, siyasətlə olmasa, Qarabağ müharibəsi əlilləri, müharibə iştirakçıları adından Sizə söz verirəm ki, bir əmrinizlə mənfur düşmənləri öz ərazilərinə kimi qovacaq, işğal olunmuş torpaqlarımızdan çıxaracağıq.

Xoş gəlmisiniz, Sizə bir daha təşəkkür edirik. Ümidvaram ki, Siz hər gəlişinizlə biz sadə insanları həmişə belə sevindirəcəksiniz.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun. Mən bu gün sizinlə görüşməyə gəlmişəm. Mən səhərdən Xanlarda idim, orada bir neçə tədbirlər keçirdik. Yaxşı da tədbirlər oldu. O cümlədən, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri üçün yeni tikilmiş binanın orderlərini təqdim etdim. Başqa tədbirlər də var idi. İstədim ki, gəlim sizinlə də görüşüm.

Siz etnik təmizləmə siyasətinə məruz qalmış insanlarsınız. Erməni təcavüzkarları tərəfindən Azərbaycana, azərbaycanlılara qarşı aparılan siyasət belə vəziyyətə gətirib çıxarıb ki, bizim torpaqlarımız işğal altındadır. Burada –Yeni Zod kəndində həm Ermənistandan olan soydaşlarımız, həm də Kəlbəcərdən olan köçkünlərimiz məskunlaşıblar. Mən istəyirəm ki, sizin həyatınız yaxşı olsun, siz yaxşı yaşayasınız. Azərbaycanın hər bir yerində inkişaf, əmin-amanlıq olsun, sülh və tərəqqi olsun. Bunu etmək üçün biz hamımız çalışmalıyıq və ilk növbədə, dövlət strukturları, dövlət orqanları insanlara diqqət və qayğı göstərməli, sizin problemlərinizlə məşğul olmalıdırlar. İndi ölkəmizin hər bir yerində bu inkişaf var. İş yerləri açılır, yeni yollar salınır, yeni müəssisələr işə düşür.

Kənd yerlərindəki insanların yaxşı yaşaması üçün də tədbirlər görülür və görülməlidir. Kreditlər verilir, sahibkarlığın inkişafıüçün vəsait ayrılır, kənd təsərrüfatı texnikası ilə təmin olunurlar, digər tədbirlər görülür. Ona görə mən gəldim sizinlə görüşüm, soruşum ki, sizin üçün nə etməliyik,

sizə nə lazımdır? Siz mənə deyəsiniz ki, bu kənddə daha da yaxşı yaşamaq üçün nə işlər görülməlidir və mən də bu problemləri həll edim. Çünki mənim bölgələrə səfərlərimin əsas məqsədi bundan ibarətdir ki, gedim, vəziyyətlə tanış olum, çatışmayan məsələləri həll edək. Elə edək ki, Azərbaycanda bütün insanlar yaxşı yaşasınlar.

Siz ucqar kənddə yaşayırsınız vəəlbəttə, ucqar dağ kəndlərinin öz problemləri var. Ona görə gəlmişəm həm sizəöz hörmətimi bildirim, həm də soruşum ki, mən sizin üçün nə etməliyəm. Deyin, mən də həll edəcəyəm.

**Akif Hüseynov** (*ağsaqqal*): Hörmətli Prezident, çox sağ olun. Kənd ağsaqqalı kimi, mən də Sizə və xanımınıza ictimaiyyət adından «Xoş gəlmisiniz!» deyirəm.

Burada yaşayanların əksəriyyəti, 90 faizi 1988-ci ildə Ermənistandan gələn qaçqınlardır, qalanı isə məcburi köçkünlərdir. Sizin qayğınız sayəsində artıq bütün problemlər getdikcəöz həllini tapır. Əminik ki, bundan sonra daha yaxşı olacaqdır. Söz veririk ki, biz həmişə Sizinlə olacağıq. Qarşıdan prezident seçkiləri gəlir. Sizi yekdillikləözümüzə yenidən prezident seçəcəyik və bizim əbədi prezidentimiz Siz olacaqsınız. Ümidvarıq ki, gələcəkdə bizim bütün problemlərimiz həll olunacaq və Azərbaycanın bu gözəl, dilbər guşəsində Sizin sayənizdə daha yaxşı yaşayacağıq. Sağ olun.

**İlham Əliyev:** Siz Ermənistanın hansı rayonundan gəlmisiniz?

**Akif Hüseynov:** Göyçə mahalından, Basarkeçər rayonundan gəlmişik.

**İlham Əliyev:** Neçənci ildə gəlmisiniz?

**Akif Hüseynov:** 1988-ci ildə gəlmişik, 1990-cı ildən burada məskunlaşmışıq.

**İlham Əliyev:** 1988-ci ildə, yəni orada, Ermənistanda sizə qarşı təcavüz başlayandan sonra.

**Akif Hüseynov:** Bəli.

**İlham Əliyev:** Sizi oradan qovdular. Əslində, ora bizim öz torpaqlarımızdır, Azərbaycan torpaqlarıdır.

**A k i f  H ü s e y n o v:** Bəli, bizim torpaqlarımızdır. Söz veririk ki, gələcəkdə o torpaqlara qayıdacağıq.

**İ l h a m  Ə l i y e v:** Siz artıq 20 ildir burada yaşayırsınız.

**A k i f  H ü s e y n o v:** Bəli.

**İ l h a m  Ə l i y e v:** Burada yaşayış necədir?

**A k i f  H ü s e y n o v:** Cənab Prezident, yaşayış yaxşıdır. Rayonumuzda, o cümlədən kəndlərimizdə güclü abadlıq-quruculuq işləri gedir. Bu ərazidə yaşayan vətəndaşların hamısı islahatla əlaqədar torpaqla təmin olunubdur. Mal-qara saxlayırıq, heyvandarlıqla məşğul oluruq.

**İ l h a m  Ə l i y e v:** Texnika necə, çatır, çatmır? Sizə «Aqrolizinq»dən bir şey verirlər, yoxsa yox? Deyin, bilim.

**A k i f  H ü s e y n o v:** Bəli, texnika çatır, hər şey daha da yaxşı olacaq.

**İ l h a m  Ə l i y e v:** Bir neçə il bundan əvvəl mən «Aqrolizinq» şirkəti yaratdım ki, dövlət xaricdən texnika alıb – indi Azərbaycanın özündə də istehsal etməyə başlayıblar, az icarə haqqı ilə– fermerlərə, kəndlilərə paylasın və onlar bundan istifadə etsinlər. Bilirsiniz, indi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci mərhələsi başa çatmaq üzrədir. Gələn ilin fevralında 5 il olacaq və bu müddət ərzində, demək olar ki, proqram tamamilə icra ediləcəkdir. Ancaq növbəti illər üçün yeni proqram hazırlanır. Ona görə mən bütün icra orqanlarına göstəriş vermişəm ki, hər bir kəndin problemi mənə deyilməlidir, göndərilməlidir ki, biz onu proqrama salaq. Mən bilirəm, siz bəzi problemləri burada deməyə bir az çəkinirsiniz. Ancaq ümid edirəm ki, sizi narahat edən, çatışmayan məsələlər mənə göndəriləcəkdir. Çünki hər bir kəndin problemi həll edildiyi təqdirdə, demək olar ki, ölkənin hər bir problemi həll olunacaqdır. Onsuz da böyük layihələr icra edilir, böyük investisiyalar qoyulur. Elektrik stansiyaları, elektrik xətləri, magistral yollar, qaz xətləri çəkilir.

Yəqin ki, indi burada qaz yoxdur.

**A k i f H ü s e y n o v :**Vaxtilə çəkilmiş qaz xətləri var. Hacıkəndə kimi qaz gəlir. Artıq layihəyə salınıb, kəndə qaz veriləcəkdir.

**İ l h a m Ə l i y e v :** Layihəyə salınıb?

**A r i f S e y i d o v**(*Xanlar Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, qaz xətti Aşıqlı kəndinə kimi gəlir. Hacıkənddən bu tərəfə çəkilməlidir.

**İ l h a m Ə l i y e v:** Bu tərəfə də çəkməliyik.

**A k i f H ü s e y n o v:** Cənab Prezident, qaz gəlsə, yaxşı olacaq, meşələrimizin qırılmasının qarşısı alınacaqdır.

**İ l h a m Ə l i y e v:** İndi bizim ölkədə əhalinin 80 faizi qazla təmin olunur. Ancaq o da həqiqətdir ki, Bakı şəhəri, Sumqayıt, Gəncə – bunlar tam şəkildə təmin edilir. 80 faiz o demək deyil ki, hər bir kənd təmin olunur. 20 faizi təmin edilmir. Biz bunu etməliyik. Özü də indi qaz var, hasilatı artırırıq. Ona görə ən ucqar kəndlərə də xətlər çəkilməlidir və biz bunu etməliyik. Belə olan halda, ekologiya da qorunacaq, meşələr də qırılmayacaq, insanlar da rahat yaşayacaqlar.

İndi bölgələrdə əsas problemlərdən biri içməli sudur. Bütün rayonlarda bu problem var, mən bilirəm. İndi bunun həlli üçün biz xüsusi proqram hazırlayacağıq.

Ümid edirəm ki, elektrik enerjisi ilə bağlı burada problem olmayacaqdır.

**K ə n d s a k i n l ə r i**: Problem yoxdur.

**İ l h a m Ə l i y e v:** Əvvəllər fasilələr var idi. İndi ola bilsin ki, gecə vaxtı var. Bəzi hallarda qəzalar olur, hava şəraiti pisləşir. Bütövlükdə, biz bu problemi həll etmişik. Qaz probleminin 80 faizini həll etmişik, qalan hissəsini də həll edəcəyik. Amma içməli su problemi çox ciddidir. Ona görə xüsusi proqram hazırlanır və bütün rayonlara içməli su veriləcəkdir. Buna bir neçə il vaxt lazımdır. Mən ümid edirəm, biz iki-üç ilə bunu etməliyik. Qalan işlər də sahibkarlığın inkişafından asılıdır.

Əlbəttə, siz burada kənd təsərrüfatı ilə məşğulsunuz bunun üçün də imkan var. İndi kreditlər verilir, gələcəkdə daha da çox veriləcəkdir. Hər halda, mən istəyirəm Azərbaycanda elə bir yer qalmasın ki, orada ciddi problem olsun. Problem onsuz da hər ölkədə var. Ən inkişaf etmişölkəyə də baxanda görürsən ki, orada da yoxsulluq, işsizlik və ədalətsizlik var. Amma biz yoxsulluğu azaldırıq, 16 faizə endirmişik, işsizliyi azaltmışıq.

***

*Bununla da prezident İlham Əliyevin regionlara növbəti səfəri başa çatdı.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Prezident sarayında ABŞ Dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, Azərbaycanla ABŞ arasında enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOZE LELLON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Prezident sarayında NATO Parlament Assambleyasının sədri Joze Lellonu qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanla NATO Parlament Assambleyası arasında əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlığımızın daha da genişləndirilməsi baxımından keçirilən müzakirələrin və görüşlərin qarşılıqlı surətdə faydalı olduğunu vurğuladı.*

*Joze Lellon NATO Parlament Assambleyası ilə ölkəmizin fəal əməkdaşlıq etdiyini, əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində Azərbaycan nümayəndə heyətinin NATO Parlament Assambleyasındakı səmərəli fəaliyyətini qeyd etdi.*

*Görüşdə Azərbaycanla NATO Parlament Assambleyası arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## TÜRKMƏNİSTAN NAZİRLƏR KABİNETİ SƏDRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Prezident sarayında Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, Xarici İşlər naziri Rəşid Meredovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rəşid Meredov Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və dərin ehtiramını prezident İlham Əliyevə çatdıraraq dedi*: «Türkmənistan prezidenti iki ölkə başçısı arasında qurulan əlaqələri yüksək dəyərləndirir və bu əlaqələri əməkdaşlığımızın müxtəlif sahələrdə inkişafıüçün yaxşıəsas hesab edir». *Rəşid Meredov vurğuladı ki, hər iki prezidentin Sankt-Peterburq şəhərində keçirdiyi görüş ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına güclü təkan verir.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkmənistan arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimiz arasında müxtəlif səviyyələrdə keçirilən görüşlər, Türkmənistan–Azərbaycan hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının fəaliyyəti ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsi işinə xidmət edir. Prezident İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## PAKİSTANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ CAVİD QUREYŞİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Prezident sarayında Pakistan İslam Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Cavid Qureyşini diplomatik fəaliyyətinin başa çatması iləəlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Pakistan arasında dostluq əlaqələrinin bütün istiqamətlərdə müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayaraq, səfir kimi, Cavid Qureyşinin ölkəmizdə fəaliyyəti dövründə bu əlaqələrin daha da genişlənməsinə töhfə verdiyini bildirdi. Səfir ölkəmizdə diplomatik fəaliyyəti dövründə Azərbaycan hökuməti və şəxsən prezident İlham Əliyev tərəfindən göstərilən diqqətə görə minnətdarlığını bildirdi və iki ölkə arasında münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminliyini söylədi.*

## «İNTERNATİONAL CRİSİS GROUP»UN DİREKTOR MÜAVİNİ NİKOLAS QRONONU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Prezident sarayında «İnternational Crisis Group»un direktor müavini Nikolas Qrononunu qəbul etmişdir.*

*Görüşdə regionda gedən proseslər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara dair fikir mübadiləsi aparıldı.*

**YUNANISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KAROLOS PAPULİASA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Yunanıstan dövlətlərarası münasibətləri bundan sonra da dostluq əlaqələrimizin, qarşılıqlı faydalı əməkdaşlığımızın möhkəmlənməsi üçün geniş meydan açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN ƏHMƏDƏ**

Hörmətli cənab Prezident!

Banqladeşin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Banqladeş arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Pakistan günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Bu gün Azərbaycan–Pakistan əməkdaşlığı müvəffəqiyyətlə inkişaf etməkdə və möhkəmlənməkdədir. Əminəm ki, dost ölkələrimiz arasında siyasi, iqtisadi əlaqələrin dərinləşməsi, ikitərəfli münasibətlərimizin əhatə dairəsinin genişlənməsi yolunda səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

**İRLANDİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MERİ MAKALİSƏ**

Hörmətli xanım Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–İrlandiya münasibətləri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

**NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB HİFİKEPUNYE POHAMBAYA**

Hörmətli cənab Prezident!

Namibiyanın milli bayramı– Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında münasibətlər dostluq və əməkdaşlıq yolu ilə inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Robert Simmons NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarını prezident İlham Əliyevə çatdırdı, NATO ilə Azərbaycan arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı. Robert Simmons NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Buxarestdə keçiriləcək sammitində Baş katib Sxefferin Azərbaycan prezidenti İlham Əliyevlə görüşünü səbirsizliklə gözlədiyini bildirdi.*

*Dövlətimizin başçısı NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun Baş katibinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev NATO ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla davam etdiyini bildirdi, Buxarestdə keçiriləcək sammitin Azərbaycan–NATO əməkdaşlığının gələcəkdə də inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağını vurğuladı.*

## AVROPA İTTİFAQININ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PYER MORELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında Avropa İttifaqının Orta Asiya üzrə xüsusi nümayəndəsi Pyer Morelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Avropa İttifaqı, Azərbaycan və Orta Asiya arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## 8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 Mart Beynəlxalq Qadınlar günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

Xalqımıza məxsus zəngin milli-mədəni dəyərlərin əsrlər boyu qorunub saxlanmasında və yaşadılmasında Azərbaycan qadınının misilsiz xidmətləri vardır. Onun vətənpərvərliyi, nəcibliyi və müdrikliyi tariximizin hər bir dövründə özünü büruzə vermişdir. İnsanların daim əmin-amanlıq içərisində yaşamaları kimi xoş məram sülhpərvər analarımızın simasında bu gün də parlaq müdafiəçisini tapır. Azərbaycan qadını üzərinə düşən sosial yükün ağırlığına baxmayaraq, daim cəmiyyətimizin mənəvi dayağı olmuş, mürəkkəb ictimai-siyasi dəyişikliklərin yaşandığı vaxtlarda əsl dəyanət və əzmkarlıq nümayiş etdirmişdir.

Hüquq və azadlıqları tam təmin edilmiş Azərbaycan qadınının bugünkü yüksək ictimai mövqeyi təqdirəlayiqdir. Uzun illərdən bəri respublikamızın iqtisadi, siyasi-ictimai və mədəni həyatının fəal iştirakçısı kimi, onun milli dövlət quruculuğu işinə, ölkənin dünyada analoqu olmayan sürətlə dinamik inkişafına verdiyi töhfələr müstəsna əhəmiyyət kəsb edir. Elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə yaxından iştirakı Azərbaycan qadınının böyük potensiala malik olduğunu göstərir, onun nüfuzunu daha da artırır. Ölkəmizdə bərqərar olmuş demokratik mühit qadınlarımıza öz istedad və bacarıqlarını gələcəkdə də tam gerçəkləşdirə bilmələri üçün lazımi əlverişli şərait yaradır.

Əmin olduğumu bildirirəm ki, hər bir Azərbaycan övladının kiçik yaşlardan xalqımıza və onun mədəniyyətinə, milli-mənəvi sərvətlərə, adət-ənənələrimizə sonsuz sədaqət, dərin hörmət ruhunda tərbiyə olunması kimi şərəfli və məsuliyyətli işin həyata keçirilməsi üçün qadınlarımız bundan sonra da var qüvvələrini əsirgəməyəcəklər.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ, KARDİNAL TARÇİZİO BERTONENİ QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*7 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında Müqəddəs taxt-tacın Dövlət katibi, kardinal Tarçizio Bertoneni qəbul etmişdir.*

*Prezident İlham Əliyev hörmətli qonağa müraciətlə dedi:* Mən çox şadam ki, siz Azərbaycana səfər edirsiniz və bilirəm ki, çox böyük və maraqlı proqramınız var. Yəqin ki, proqramın əsas hissəsi bu günə düşür. Biz birlikdə Roma katolik kilsəsinin açılışında iştirak edəcəyik. Bu çox mühüm və önəmli hadisədir və mən əminəm ki, Azərbaycanda yaşayan bütün katoliklər bu gün sevinc içindədirlər. Eyni zamanda, sizin səfəriniz imkan verir ki, münasibətlərimizi bir də nəzərdən keçirək və gələcək fəaliyyət haqqında danışaq. Bir daha sizi salamlayıram.

*Kardinal Tarçizio Bertone qəbula görə dövlətimizin başçısına təşəkkür edərək dedi:* Mən Azərbaycana səfərimi xüsusilə çox vacib hesab edirəm. Çünki bildiyiniz kimi, bu səfərlə bağlı qərarımızı çoxdan qəbul etmişdik. İndi isə onun baş tutmasından çox razıyıq. Eyni zamanda, səfərin önəmliliyi, vacibliyi ilə yanaşı, xüsusilə Azərbaycanda müxtəlif dinlər və müxtəlif icmaların çox gözəl sülh şəraitində, tolerantlıq və dözümlülük şəraitində birgə yaşamasını olduqca yüksək qiymətləndiririk. Azərbaycanın bu adət-ənənəsini nümunəvi hesab edirik. Cənab Prezident, Roma Papası XVI Benediktin ən xoş arzularını və ən səmimi salamlarını Sizə çatdırırıq.

*Dövlətimizin başçısı Roma Papası XVI Benediktin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını və ehtiramını ona çatdırmağı xahiş etdi.*

## Müqəddəs Məryəm Ana kilsəsinin rəsmi açılışı mərasimində nitq

Hörmətli cənab kardinal Bertone!

Hörmətli xanımlar və cənablar!

Hörmətli din xadimləri!

Mən sizin hamınızı ürəkdən salamlayıram, bütün qonaqlara Azərbaycana «Xoş gəlmisiniz!» deyirəm.

Bu gün bizim həyatımızda çox əlamətdar və unudulmaz bir gündür. Azərbaycanda katolik kilsəsi açılır və mən bu münasibətlə Azərbaycanda yaşayan bütün katolikləri ürəkdən təbrik edirəm. Bu hadisə onu göstərir ki, Azərbaycanda dinlərarası münasibətlər çox yüksək səviyyədədir. Bu sahədə görülən işlər, tədbirlər Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərir. Çünki hər bir ölkənin normal, uğurlu inkişafı üçün iqtisadi və siyasi uğurlarla bərabər, sülh olmalıdır, əmin-amanlıq, sabitlik olmalıdır, millətlərarası və dinlərarası münasibətlər yaxşı səviyyədə olmalıdır. Biz bütün bunları Azərbaycanda görürük. Azərbaycan xalqı əsrlər boyu bütün başqa xalqlarla mehribanlıq şəraitində yaşamışdır, Azərbaycanın tarixində heç vaxt milli, yaxud da dini zəmində nəinki münaqişə, hətta narazılıq da olmamışdır. Azərbaycanda yaşayan insanlar bütün bunları çox yaxşı bilirlər. Əlbəttə, burada dövlət siyasətinin çox önəmli rolu vardır. Eyni zamanda, Azərbaycanda yaşayan insanların qəlbində olan qardaşlıq, mehribanlıq duyğuları çox mühüm rol oynayır.

Biz bu gün hörmətli Dövlət katibi ilə Vatikan–Azərbaycan münasibətlərinin müxtəlif sahələrini müzakirə etdik. Biz, ümumiyyətlə, bu səfərə çox böyük diqqət göstəririk və qiymət veririk. Çünki bu onu göstərir ki, Vatikanla Azərbaycan arasında mövcud olan möhkəm əlaqələr daha da

möhkəmlənir. Bu əlaqələrin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vatikana 1997-ci ildə etdiyi səfəri xüsusilə qeyd etmək istəyirəm. O səfərdən sonra münasibətlər, demək olar ki, yeni pilləyə qalxmışdır. Şübhəsiz ki, 2002-ci ildə Roma Papası II İohann Pavelin Azərbaycana tarixi səfəri də bu münasibətlərin inkişafında çox böyük rol oynamışdır. Biz hamımız həmin səfəri yaxşı xatırlayırıq. O doğrudan da tarixi bir səfər idi və bir daha göstərdi ki, Azərbaycan, müstəqil ölkəmiz bütün istiqamətlərdə böyük uğurlara nail olubdur. Eyni zamanda və ilk növbədə, millətindən, dinindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün insanlar eyni hüquqlara malikdirlər, bərabərdirlər və bu, ölkəmizin gələcəyi üçün çox vacib amildir.

Mən Vatikana öz səfərimi də xatırlayıram. 2005-ci ildə Vatikanda olarkən orada keçirilən danışıqlar, müzakirələr bir daha imkan verdi ki, ikitərəfli münasibətlərimizi təhlil edək. Bugünkü tədbirin baş verməsi üçün o vaxt lazımi tədbirlər görülmüşdü. Bakıda kilsənin tikintisi üçün çox gözəl yer ayrılmışdır və qısa müddət ərzində gözəl kilsə tikilmişdir. Mən bu hadisəyə müxtəlif aspektlərdən yanaşıram. İlk növbədə, bu gün Azərbaycanda yaşayan katoliklərin bayramıdır. Katolik kilsəsinin fəaliyyətə başlaması onların böyük bayramıdır. Digər tərəfdən, bu, tarixi həqiqətin bərpasıdır. Çünki biz bilirik ki, XX əsrin əvvəllərində Azərbaycanda katolik kilsəsi tikilmişdir, lakin bolşevik inqilabından sonra o dağıdılmışdır. Bu gün kilsənin tikilib istifadəyə verilməsi o tarixi həqiqətin bərpası deməkdir. Digər tərəfdən, əminəm, dünyada yaşayan bütün katoliklər üçün çox vacib və əlamətdar hadisədir ki, Azərbaycanda bu kilsə tikilibdir. Bu bir daha onu göstərir ki, Azərbaycanda dini dözümlülük, dini tolerantlıq çox yüksək səviyyədədir. Bu bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələrinin bir ailə kimi, qardaşlıq, mehribanlıq şəraitində yaşaması bizim ölkəmizi gücləndirir.

Ölkəni gücləndirən müxtəlif amillər var. Həm siyasi nüfuz, həm iqtisadi potensial, həm sosial məsələlərin həlli və həm də digər məsələlər. Ancaq millətlərarası münasibətlər, xüsusilə çoxmillətli ölkələrdə çox böyük əhəmiyyət kəsb edən məsələdir.

Azərbaycan çoxmillətli ölkədir. Biz bununla fəxr edirik və Azərbaycanda yaşayan bütün milli azlıqlara öz qayğımızı göstəririk və bundan sonra da göstərəcəyik. Azərbaycan o ölkədir ki, burada bütün dinlər sərbəst fəaliyyət göstərir.Eyni zamanda, din dövlətdən ayrıdır, Azərbaycan dünyəvi dövlətdir və bu da bizim üçün çox vacib olan məsələdir. Biz bütün dinlərə böyük hörmətlə yanaşırıq və Azərbaycanda bütün dinlərin fəaliyyəti üçün şərait var.

Bir daha demək istəyirəm ki, hesab edirəm, bugünkü hadisə gələcək üçün dəçox mühüm rol oynayacaqdır. Azərbaycanın gələcək inkişafı, dünya birliyinə inteqrasiyası, Avropa ilə olan gözəl münasibətlərinin davam etdirilməsi, Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində uğurlu fəaliyyətin davam etdirilməsi üçün bu hadisə çox vacib rol oynayır. Əlbəttə, yenə deyirəm, ilk növbədə, Azərbaycanda yaşayan katoliklər üçün bu gün böyük bayramdır. Mən bu bayram münasibətilə bütün katolikləri təbrik etmək istəyirəm.

Qeyd etmək istəyirəm ki, biz kilsənin tikilməsinə çox böyük diqqət göstərmişik – həm yerin seçilməsində, həm də lazımi sənədlərin hazırlanmasında. Mən çox şadam ki, bu gün biz hörmətli kardinal Bertone həzrətləri ilə bərabər bu kilsənin açılışında iştirak edirik. Bir daha demək istəyirəm ki, bundan sonra da Azərbaycanda bütün millətlər dövlət tərəfindən qayğı ilə əhatə olunacaqlar. Azərbaycanda bundan sonra da heç vaxt nə milli, nə də dini zəmində heç bir problem olmayacaqdır. Bütün milli azlıqlar bizim qardaşlarımızdır. Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri bizim qardaşlarımızdır və bu qardaşlıq davam etdiriləcəkdir. Azərbaycan dostluq ölkəsidir, qardaşlıq ölkə-

sidir. Azərbaycan o ölkədir ki, uğurla inkişaf edir, irəliyə baxır və tərəqqi yolunu seçibdir.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

***

*Açılış mərasimində Vatikanın Dövlət katibi Tarçizio Bertone, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Xəzəryanı yeparxiyasının sədri Aleksandr Ata, Dağ yəhudilərinin sədri Semyon İxiilov və Vatikan Dövlətinin Azərbaycandakı apostol nunsisi Klaudio Qucerotti çıxış etmişlər.*

***

*Mərasimin rəsmi hissəsi Azərbaycan Dövlət Xor Kapellasının ifası ilə başa çatdı.Tədbir iştirakçıları əlamətdar hadisə münasibətilə bir daha təbriklərini yetirdilər.*

*Prezident İlham Əliyev Roma Papasi II İohann Pavelin Azərbaycana səfərini əks etdirən fotostendə baxdı. Dövlətimizin başçısına Müqəddəs Məryəm Ana kilsəsinin şəkillərindən ibarət albom nümayiş etdirildi.*

*Sonra prezident İlham Əliyev və Vatikanın Dövlət katibi kardinal Tarçizio Bertone kilsənin ərazisində görüləcək əlavə işlər barədə danışdılar.*

*Azərbaycan prezidenti bir daha təbriklərini yetirdi.*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*10 mart 2008-ci il*

*Martın 10-da Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov Azərbaycan Respublikasına üçgünlük işgüzar səfərə gəlmişdir.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Bolqarıstan prezidentini Baş nazirin müavini Abid Şərifov və digər rəsmi şəxslər qarşıladılar.*

*Hava limanının ali qonaqlar üçün salonunda prezident Georgi Pırvanov və Baş nazirin müavini Abid Şərifov arasında qısa protokol söhbəti oldu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*10 mart 2008-ci il*

*Martın 10-da Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin Bolqarıstan prezidenti Georgi Pırvanov ilə təkbətək görüşü olmuşdur. Dövlətimizin başçısı Bolqarıstan rəhbərini Prezident sarayının həyatində səmimiyyətlə qarşıladı.*

*Sonra keçirilən təkbətək görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə– siyasi, iqtisadi, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi və qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi.*

*Dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətinin vurğulandığı görüşdə ikitərəfli əməkdaşlıqla, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*10 mart 2008-ci il*

*Martın 10-da Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Bolqarıstan prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər çox uğurlu olacaq və iki ölkə arasında dostluq münasibətləri uğurla davam edəcəkdir.

Biz bu gün Sizinlə təkbətək görüşümüzdə ikitərəfli münasibətlərin bütün aspektlərini müzakirə etdik, eyni zamanda, regional məsələlərə toxunduq və bu məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür.

Münasibətlərimizin inkişafı üçün də gözəl şərait var. Çox güclü siyasi əlaqələr, yaranan və möhkəmlənən iqtisadi potensial, humanitar sahədə əməkdaşlığın inkişafı– bütün bu məsələlər çox vacibdir. Şübhə etmirəm ki, səfərinizin nəticəsi olaraq, bu münasibətlər daha da sürətlə inkişaf edəcəkdir.

**Georgi Pırvanov:** Hörmətli cənab Prezident!

Hörmətli nümayəndə heyətinin üzvləri!

İlk növbədə, məni ölkənizə dəvət etdiyinizə görə və Sizinlə məsələləri müzakirə etmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirirəm. Demək olar ki, aramızda aparılan

dolğun dialoq bu gün ən yüksək səviyyədədir. Əlbəttə ki, bu dialoq nəinki ikitərəfli maraqlara xidmət edir, eyni zamanda, bir-biri ilə qonşuluqda olan regionlarda yerləşən iki tərəfin dialoqu deməkdir.

Bolqarıstan Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığı çox müsbət dəyərləndirir və Azərbaycanı Aİ üçün obyektiv olaraq yaxın tərəfdaş sayır.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BOLQARISTAN PREZİDENTİ GEORGI PIRVANOVUN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*Prezident sarayı*

*10 mart 2008-ci il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mən Sizi və nümayəndə heyətini Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Bizim aramızda başlanan və uğurla davam etdirilən siyasi dialoq iki ölkə arasında münasibətlərin inkişafına çox güclü təkan vermişdir. Biz bir müddət bundan əvvəl qarşılıqlı rəsmi səfərlər etmişdik və o səfərlər çərçivəsində ikitərəfli münasibətlərin bütün sahələrini əhatə edən çoxsaylı sənədlər imzalanmışdır.

Bu gün siz Azərbaycanda işgüzar səfərdəsiniz. Bu da çox gözəl əlamətdir və onu göstərir ki, bizim aramızda olan əlaqələr çox möhkəm xarakter daşıyır. Bugünkü görüşdə müzakirə olunan məsələlər bir daha onu göstərir ki, Bolqarıstan–Azərbaycan münasibətləri çox yüksək səviyyədədir. Biz ikitərəfli formatda çox geniş müzakirələr aparmışıq. Həm siyasi, həm iqtisadi əlaqələrin inkişafı üçün lazımi tədbirlərin görülməsi barədə müvafiq göstərişlər vermişik. Siyasi sahədə münasibətlər həm ikitərəfli formatda çox yüksək səviyyədədir, həm də Avropa İttifaqının üzvü kimi, Bolqarıstan Azərbaycanın Avropa İttifaqının «Yeni qonşu-

luq siyasəti»nə qoşulması ilə əlaqədar bizə öz dəstəyini göstərir. Eyni zamanda, iqtisadi münasibətlərin inkişafı üçün gözəl potensial mövcuddur. Həm Bolqarıstan, həm də Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edən ölkələrdir. Əlbəttə ki, artan iqtisadi imkanlarımız qarşılıqlı ticarətin, qarşılıqlı investisiyaların davam etdirilməsinə kömək göstərəcəkdir.

Biz bu gün humanitar sahədə münasibətlərin təhlilini aparmışıq və bu sahədə də münasibətlərin hərtərəfli inkişafı üçün çox gözəl imkanlar var.

Bu gün eyni zamanda, bizi narahat edən məsələlər də müzakirə edildi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə olundu və Azərbaycan bir daha öz mövqeyini bəyan etdi ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalı və etnik təmizləmə siyasətindən əziyyət çəkən soydaşlarımız qeyd-şərtsiz öz doğma torpaqlarına qayıtmalıdırlar. Hesab edirik ki, bizimlə əməkdaşlıq edən ölkələr, xüsusilə Avropa İttifaqı bu məsələnin həlli üçün öz səylərini davam etdirməlidir.

İşğalçı dövlətə çox açıq və aydın bir mesaj göndərilməlidir ki, Dağlıq Qarabağ heç vaxt müstəqil olmayacaq, heç vaxt heç bir ölkə Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır. Belə olan halda ümid edirəm ki, danışıqlar prosesi daha da sürətlə gedəcək, Ermənistanda və separatist qurumda yaşanan bəzi ümidlər artıq sona çatacaqdır.

Bu gün biz energetika sahəsində əməkdaşlığın müxtəlif aspektlərini müzakirə etdik. Bu sahədə də gözəl imkanlar var. Həm Azərbaycan, həm də Bolqarıstan Avropanın enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkələrdir. Bizim əməkdaşlığımız eyni zamanda, Xəzər dənizi–Qara dəniz əməkdaşlığı çərçivəsində çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan çox böyük neft-qaz ehtiyatlarına malikdir. Biz artıq neft, qaz ixrac edən ölkəyə çevrilmişik. Bu il Azərbaycanda 50 milyon tondan çox neft hasil ediləcəkdir. Ən minimum

hesablamalara görə, Azərbaycanda qaz ehtiyatları 2 trilyon kubmetr həcmindədir ki, bu da bundan sonra uzun illər, onilliklər ərzində həm ölkəmizi, həm qonşu ölkələri və həm də Avropanı qazla təmin etmək üçün bizə gözəl imkanlar yaradır.

Bizim çoxşaxəli nəqliyyat infrastrukturumuz var. Azərbaycanın enerji resurslarını dünyaya dörd neft-qaz kəməri çıxarır. Gələcəkdə nəzərdə tutulan bütün proqramlar icra olunduğu təqdirdə Azərbaycan Avropa bazarına neft-qaz ixrac edən çox etibarlı bir ölkəyə çevriləcəkdir.

Eyni zamanda, mən cənab prezidenti məlumatlandırdım ki, bu yaxınlarda biz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlayacağıq. Bütün üçtərəfli razılaşmalar artıq həll olunub və bu dəmir yolu Avropanı Asiya ilə birləşdirəcək və beləliklə, həm iqtisadi, həm siyasi əməkdaşlığın inkişafına kömək edəcəkdir.

Bir sözlə, demək istəyirəm ki, Bolqarıstan prezidentinin Azərbaycana səfərini mən çox yüksək qiymətləndirirəm. Bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin nəticələri çox müsbət, çox uğurlu olacaqdır və bizim ikitərəfli münasibətlərimizin inkişafı üçün çox gözəl və yeni imkanlar yaranacaqdır. Eyni zamanda, bir daha demək istəyirəm ki, bizim münasibətlərimiz ikitərəfli formatdan çıxır, regional formata daxil olur və bu formatda Xəzər dənizi–Qara dəniz əməkdaşlığının perspektivləri çox ümidverici və gözəldir.

Mən Bolqarıstan prezidentini bir daha Azərbaycanda ürəkdən salamlayıram və bütün qonaqlara bir daha «Xoş gəlmisiniz!» deyirəm.

**Bolqarıstan prezidenti Georgi Pırvanovun bəyanatı**

Cənab Prezident!

Mən Sizə öz minnətdarlığımı bildirirəm. Sizin verdiyiniz yüksək qiymətlə şərikəm, çünki bizim hazırkı səfərimiz siyasi dialoqun bir hissəsidir. Xüsusən də son 3-4 il

ərzində apardığımız dialoqun vacib bir elementidir. Bu dialoq açıqdır və onun yaxşı nəticələri var. Təbii ki, hazırda qarşılıqlı münasibətlərimiz yeni bir formada inkişaf edə bilər. Çünki birincisi, Bolqarıstan indi Avropa İttifaqının üzvüdür və artıq fərdi qaydada məsuliyyət daşıyır. Bu məsuliyyət məhz fəal siyasətin həyata keçirilməsinə aiddir. Yəni Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»ndə ölkəmiz öz səylərini göstərməkdədir. O ki qaldı Azərbaycan Respublikasına, burada əməkdaşlığımızın, qarşılıqlı əlaqələrimizin bütün istiqamətlərindən söhbət gedir. İlk növbədə də enerji sektoru xüsusi olaraq nəzərdə tutulur ki, Siz bunu burada öz bəyanatınızda qeyd etdiniz.

Avropanın enerji təhlükəsizliyinə gəldikdə, Bolqarıstan öz məsuliyyətini dərk edərək, bu sahədə, xüsusən də Avropanın Nabukko layihəsi sahəsində səylərini fəallaşdırmaq istəyir. Biz də bu layihənin bir hissəsiyik. Mən bu iştirakımızı yüksək dəyərləndirir və vacib hesab edirəm. Azərbaycan bu işdə resursları ixrac edən çox etibarlı bir ölkədir.

Eyni zamanda, prezident Əliyevə öz təşəkkürümü bildirirəm ki, regionlararası konfransın keçirilməsi barədə mənim ideyamı dəstəkləmişdir. Xəzər dənizi və Qara dəniz ölkələrinin konfransının keçirilməsi nəzərdə tutulur. Konfransın əsas mövzusu enerji təchizatı mənbələrinin şaxələndirilməsinə, bu sahədə işlərin daha da gücləndirilməsinə aid olacaqdır. Bu kontekstdə bizim birgə səylər sayəsində əldə etdiyimiz nailiyyətlər xüsusi əhəmiyyət daşıyır və bu nailiyyətlər həm Bolqarıstana, həm də Azərbaycana Avropanın enerji təhlükəsizliyinə töhfə vermək imkanı yaradır. Mən bu təklifi irəli sürdüm, nazirliklərimizin, ekspertlərin köməyi ilə və enerji şirkətlərimiz vasitəsilə mövcud olan imkanların müzakirəsi və Azərbaycanın bir sıra Avropa enerji layihələrinə, xüsusilə bu yaxınlarda irəli sürülmüş Burqas–Aleksandropolus layihəsinə qoşulması vacibdir. Müzakirələrimiz zamanı mən bu ideyanı təklif etdim və bildirdim ki, Bolqarıstan təbii qazın hasilatı və ixracında iştirak etməyə

hazırdır. Yəni bu o deməkdir ki, məsələn, biz Bolqarıstanın kvotası çərçivəsində 1 milyard kubmetr qaz almağa qadirik və o, artıq Türkiyə və Yunanıstandan keçən boru kəmərindən istifadə edərək, daha sonra isə mövcud olan digər boru kəmərləri ilə nəql edilə bilər. Bu da ki, Azərbaycana uzun müddət ərzində öz işini planlaşdırmaq imkanı yaradacaqdır.

Biz olduqca konkret məsələləri müzakirə etdik və müvafiq nazirliklərdə böyük işlərin görülməsinin zəruriliyini bildirdik. Çox vacibdir ki, daha geniş fəal iqtisadi əməkdaşlığı həyata keçirmək üçün yaxın günlərdə biz əlavə, lakin çox lazımlı imkanlar yaradaq. Xüsusən də nəqliyyat sahəsində. Burada dəmir yolu xətti layihəsi qeyd olundu və hesab edirəm ki, bu, Balkan ölkələrinin vətəndaşları üçün də vacib olardı. Biz eyni zamanda, qeyd etdik ki, aviareyslərin açılmasının yubanmasını istəməzdik. Ancaq bu, ilin sonuna qədər digər Balkan dövlətinin paytaxtı ilə sizin ölkəniz arasında aviauçuşların həyata keçirilməsi ilə kompensasiya olunacaqdır. Burada iki region arasındakı əməkdaşlıq xüsusi qeyd edildi.

Dağlıq Qarabağ məsələsinə gəldikdə, mən bir daha bəyan etdim ki, Bolqarıstan bu gün fəal mövqedədir və hətta bunu ATƏT-də sədrliyi zamanı da ifadə etmişdir. Yəqin yaxşı xatirinizdədir ki, Azərbaycan bu mövqedən xəbərdardır. Bu mövqedən həmçinin Minsk qrupu da xəbərdardır. Avropa İttifaqının bir üzvü kimi, biz bu mövqeni Avropa İttifaqında da qoruyub saxlayırıq. Kosovo məsələsinə gəldikdə, Bolqarıstan hələ ki, Kosovonun müstəqilliyini tanımayıb, biz öz yekun mövqeyimizi hadisələrin orada necə cərəyan edəcəyindən asılı olaraq ifadə edəcəyik. Lakin mən əminliklə bildirmək istəyirəm ki, Avropa İttifaqının bəyan etdiyi mövqe xüsusi bir haldır və digər münaqişələr üçün presedent ola bilməz. Avropanın istənilən digər bir yerində və yaxud dünyanın digər guşələrində, ya da bizim regiona yaxın olan yerlərdə bu, presedent ola bilməz. Xüsusən də bizim üçün

Kosovo problemi nəinki öz müqəddəratını təyin etmək baxımından, o cümlədən regionun təhlükəsizliyi baxımından vacibdir. Bu daha müdrik, tarazlı mövqeyimizi əsaslandırır.

Biz görüşlərimiz zamanı digər olduqca böyük, əhatəli məsələləri, o cümlədən, mədəniyyət sahəsində müqavilələrimizin artırılması və bu sahədə xalqlar arasında əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etdik. Mən prezident Əliyevi ölkəmizə dəvət etdim. Əminəm ki, gələn aylar ərzində prezident Əliyevin Bolqarıstana səfərindən sonra mədəniyyət sahəsində müqavilələrimizi də artıracağıq və bu da xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq və daha da yaxşı tanıdacaqdır. Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*10 mart 2008-ci il*

*Martın 10-da «Yaxt klub»da Azərbaycan prezidenti adından Bolqarıstan prezidenti Georgi Pırvanovun şərəfinə ziyafət verilmişdir. Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən bir daha salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

Cənab Prezident, bu Sizin Azərbaycana ikinci səfərinizdir. Birinci səfəriniz kimi, bu səfər dəçox uğurlu oldu. Biz bu gün bir daha gördük ki, Bolqarıstan–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir, bütün sahələri əhatə edir və bu əlaqələrin çox gözəl gələcəyi var. Əlbəttə ki, bizim aramızda yaranmış bu səmimi dostluq münasibətləri də ikitərəfli əlaqələrin inkişafında böyük rol oynayır. Bizim xalqlarımız tarixdə həmişə əməkdaşlıq etmişlər, bir-birinə dostluq münasibətləri bəsləmişlər. Əlbəttə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər keyfiyyətcə yeni mərhələyə qalxmışdır və indiki şəraitdə həm bizim ölkələrimiz üçün, həm də region üçün çox böyük əhəmiyyət kəsb edir. Bu gün müzakirə edilən məsələlər bunu bir daha göstərir.

Energetika, nəqliyyat məsələləri, iqtisadi əməkdaşlıq, humanitar sahədə əməkdaşlıq – bütün bu məsələlər həm bizim üçün, həm də region üçün çox vacibdir. Bu gün qeyd olun-

duğu kimi, Xəzər dənizi–Qara dəniz regional əməkdaşlığının inkişafı üçün bizim münasibətlərimiz çox vacib rol oynayır.

Azərbaycan Avropa İttifaqı və NATO ilə sıx əməkdaşlıq edir. Hər ikisi ilə əməkdaşlıqda xüsusi proqramlar icra olunur və Bolqarıstan bizim bu istiqamətdə səylərimizi həmişə dəstəkləmişdir. Bu bir daha onu göstərir ki, bizim əlaqələrimiz çoxşaxəlidir. Həm ikitərəfli məsələləri əhatə edir və həm də beynəlxalq təşkilatlarda əlaqələrimiz çox uğurludur. Mən şübhə etmirəm ki, bu səfər də əlaqələrimizin inkişafında mühüm rol oynayacaq və Bolqarıstan–Azərbaycan dostluq münasibətləri uğurla davam etdiriləcəkdir.

Cənab Prezident, mən bu badəni Sizin şərəfinizə, dost Bolqarıstan xalqının şərəfinə qaldırıram.

**Bolqarıstan prezidenti Georgi Pırvanovun çıxışı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Məni ölkənizə dəvət etdiyinizə və ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək imkanına görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Bizim xalqlarımız arasında həmişə etimad olub və bu etimad ikitərəfli münasibətlərin inkişafının əsas şərtidir. Mən cənab prezidentlə tamamilə razıyam ki, bu gün bizim qarşılıqlı münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə qalxıb. Bu münasibətlər bizim Avropa İttifaqının üzvü olmağımız və sizin Avropa İttifaqı ilə tərəfdaşlığınız kontekstində inkişaf edir. Bu münasibətlər o faktlara əsaslanır ki, həm Bolqarıstan, həm də Azərbaycan yerləşdikləri regionlarda dünya siyasətinin formalaşmasında fəal rol oynayırlar. Biz ölkələrimiz arasında qarşılıqlı münasibətlərimizin barədə danışanda təkcə əvvəlki əlaqələrdən bəhs etməklə kifayətlənə bilmərik. Bizim qarşılıqlı münasibətlərimizin gələcək perspektivləri var. Bizim nəqliyyat infrastrukturu ilə bağlı layihələrimiz olacaq, bu layihələr ölkələrimiz arasındakı məsafəni, sözün həqiqi mənasında qısaldacaqdır.

Mən əminəm ki, biz müştərək enerji layihələrini həyata keçirməyə nail olacaq, onların sayəsində Avropa İttifaqının enerji təhlükəsizliyinə öz töhfəmizi verəcəyik. İnanıram ki, mənim bu səfərimdən sonra şirkətlərimiz sərmayə qoymaq və öz aralarında qarşılıqlı münasibətləri yaxşılaşdırmaq üçün yeni imkan əldə edəcəklər. Qarşıda görülməli işlər çox olacaq, qətiyyətlə deyə bilərəm ki, gələn il, bəlkə də elə bu mövsümdə Siz Bolqarıstanda səfərdə olarkən qarşılıqlı münasibətlərimizlə bağlı bir çox yeni məsələləri müzakirə edəcəyik.

Mən bolqar və Azərbaycan xalqlarının firavanlığı şərəfinə, qarşılıqlı münasibətlərimizin daha yaxşı gələcəyi şərəfinə, burada iştirak edənlərin hamısının şərəfinə badə qaldırmaq istəyirəm.

## İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ ƏTRAF ƏRAZİLƏRDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*11 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva martın 11-də İçərişəhər Dövlət Tarix-memarlıq qoruğunda və ətraf ərazilərdə aparılan bərpa və yenidənqurma işləri ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə milli memarlığımızın nadir nümunələrindən olan İçərişəhərə gələrək, burada aparılan əsaslı bərpa və yenidənqurma işlərinin gedişi ilə maraqlandılar. Tarixi erkən orta əsrlərdən başlayan İçərişəhər yeganə qoruq şəhər-muzeydir və 21,5 hektar ərazini əhatə edir. Burada Şərq memarlığı üslubunda tikilmiş 50-yə qədər tarixi, mədəniyyət və dini abidələr qorunur. İçərişəhərin qədim abidələrinin dəyəri nəzərə alınaraq, 1977-ci ildə bura qoruq elan edilmiş, 2000-ci ildə YUNESKO tərəfindən «Dövlət Tarix-memarlıq qoruğu» kimi qeydə alınmışdır.*

*2001-ci il fevralın 2-də ümummilli lider Heydər Əliyevin tapşırığı ilə respublika hökuməti İçərişəhərin «Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri» siyahısına daxil edilməsi barədə qərar qəbul etmişdir.*

*Bərpa və təmir işlərinin gedişi ilə yaxından tanış olan prezident İlham Əliyev yerindəcə müvafiq tapşırıqlarını verdi.*

*Sonra dövlətimizin başçısı və xanımı XX əsr satirik Azərbaycan ədəbiyyatının banisi M.Ə.Sabirin adını daşıyan bağa gəldilər. Paytaxt sakinlərinin istirahət yerlərindən olan Sabir bağında da prezident İlham Əliyevin tapşırığı ilə geniş abadlıq*

*və quruculuq işlərinə başlanılmışdır. Prezident İlham Əliyevə burada işlərin gedişi barədə məlumat verildi.*

*Azərbaycan prezidenti və xanımı dahi şair və mütəfəkkir Nizami Gəncəvinin abidəsinin ucaldığı bağa gələrək, burada dövlət başçısının göstərişi ilə aparılan əsaslı yenidənqurma işləri ilə tanış oldular. Prezident İlham Əliyev işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılması ilə əlaqədar tövsiyələrini verdi. Nizami və Sabir bağlarında görülən işlər Bakı şəhərində həyata keçirilən geniş abadlıq və yenidənqurma tədbirlərinin davamı olaraq, paytaxtımızı daha da gözəlləşdirəcəkdir.*

*Daha sonra yenidən İçərişəhərə qayıdan prezident və xanımı burada digər tarix-memarlıq abidələrində görülən bərpa və təmir işləri ilə maraqlandılar. İçərişəhərin planı ilə tanış olan dövlətimizin başçısı iş prosesində tarixi tikililərin memarlıq üslubuna xələl gətirilməməsini bir daha tapşırdı.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva orta əsr Azərbaycan memarlığının nadir nümunələrindən olan Qız qalasına baxdılar. Qalanın hündürlüyü bütövlükdə 29,7 metr, diametri 16-16,5 metr, divarının qalınlığı aşağıda 5 metr, yuxarı yaruslarda isə 4 metrdir. Son dəfə qalada bərpa işləri 1960-cı ildə görülmüşdür. Burada arxeoloji qazıntılar da aparılmışdır. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qalada saxlanılan eksponatlarla tanış oldular, sonra qalaya çıxaraq, oradan şəhərin mənzərəsini seyr etdilər.*

*Sonra dövlətimizin başçısı və xanımı Bakının dünənini və bu gününü əks etdirən videosüjetə baxdılar, İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri ilə tanış oldular.*

## «ABN AMRO»nun VİTSE-PREZİDENTİ MARK HOLTZMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında «ABN AMRO»nun vitse-prezidenti Mark Holtzmanı qəbul etmişdir.*

*Mark Holtzman prezident İlham Əliyevlə Davosda keçirilən görüşdə iştirakını məmnuniyyətlə xatırladaraq, orada dövlətimizin başçısının Azərbaycanın iqtisadi imkanları və əldə etdiyi nailiyyətləri barədə çıxışının forum iştirakçılarında dərin təəssürat yaratdığını və ölkəmizdə gedən inkişaf proseslərinə böyük maraq doğurduğunu bildirdi.*

*Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən görüşlərin əhəmiyyətindən danışan prezident İlham Əliyev tədbir zamanı aparılan müzakirələrin qarşılıqlı surətdə faydalı olduğunu, əməkdaşlıq üçün geniş imkanlar açdığını vurğuladı.*

## BEYNƏLXALQ TENNİS FEDERASİYASININ PREZİDENTİ FRANÇESKO RİÇÇİ BİTTİ VƏ RUSİYA TENNİS FEDERASİYASININ PREZİDENTİ ŞAMİL TARPİŞEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında Beynəlxalq Tennis Federasiyasının prezidenti Françesko Riççi Bittini və Rusiya Tennis Federasiyasının prezidenti Şamil Tarpişevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizdə idmanın sürətlə inkişaf etdiyini, son illər bu sahəyə dövlət tərəfindən böyük diqqət göstərildiyini, ayrı-ayrı regionlarda dünya standartlarına uyğun müasir idman infrastrukturunun yaradıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda tennisin inkişafı üçün də müasir infrastrukturun yaradılacağına əminliyini söylədi.*

*Ölkəmizdə tennisin böyük ənənəyə malik olduğunu vurğulayan Beynəlxalq Tennis Federasiyasının prezidenti Françesko Riççi Bitti Azərbaycan tennis məktəbinin Əhmərov, Lixaçov, Biryukova kimi yetirmələri olduğunu xatırlatdı. O bu sahənin inkişaf etdirilməsi üçün ölkəmizdə əsaslı bazanın olduğunu vurğuladı. Françesko Riççi Bitti əmin olduğunu bildirdi ki, Azərbaycanda idmana göstərilən böyük diqqət tennisin inkişafında da mühüm rol oynayacaqdır.*

## «MİR» TELEVİZİYA KANALININ RƏHBƏRİ RADİK BATIRŞİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında «Mir» televiziya kanalının rəhbəri Radik Batırşini qəbul etmişdir.*

*Görüşdə Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin humanitar sahədə əməkdaşlığının, o cümlədən bu ölkələr arasında informasiya mübadiləsinin əhəmiyyəti vurğulandı və «Mir» televiziya kanalının bu istiqamətdə fəaliyyətinə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ AVTOMOBİL YOLLARI ŞƏBƏKƏSİNİN İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*Prezident sarayı*

*12 mart 2008-ci il*

Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar nəticəsində bizim iqtisadiyyatımız çox yüksək sürətlə artır.

Son dörd ildə ümumi daxili məhsul 96 faiz artmışdır ki, bu da indiyə qədər dünya iqtisadiyyatında görünməmiş bir nailiyyətdir. Əlbəttə, bu, imkanlarımızı daha da artırır. Bizə imkan verir ki, iqtisadiyyatımızın bütün sahələrini inkişaf etdirək.

Sirr deyil ki, uğurlu iqtisadi siyasətin təməlində keçən əsrin 90-cı illərinin ortalarında başlanmış və bu gün uğurla davam etdirilən Heydər Əliyevin neft siyasəti dayanır. Məhz o çətin, ağır günlərdə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycan dünya birliyinə, dünya iqtisadiyyatına uğurla inteqrasiya etməyə başlamışdır və ölkəmiz siyasi dividendlərlə yanaşı, əlbəttə ki, çox böyük iqtisadi imkanlar da əldə edə bilmişdir. Bu yolda çox böyük çətinliklər olmuşdur, ölkəmiz böyük sınaqlardan keçmişdir. Ancaq bu gün qürur hissi ilə deyə bilərik ki, nəzərdə tutulmuş bütün proqramlar, layihələr həyatda öz əksini tapıbdır. Azərbaycan nefti və qazı dünya bazarlarına çıxarılır. Azərbaycan özünün enerji təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görübdür. Azərbaycanın təbii ehtiyatları dörd neft-qaz kəməri vasitəsilə dünya bazarlarına çıxarılır və ölkə böyük həcmdə maddi imkanlar əldə edir.

Bununla yanaşı, ölkə iqtisadiyyatında aparılan liberal islahatlar, bütövlükdə liberallaşma siyasəti, dövlətin özəl sektora dəstəyi – həm mənəvi, həm də maddi dəstək – bütün bu amillər, əlbəttə ki, iqtisadiyyatımızı gücləndirir və nəticə etibarilə Azərbaycan daha da inamla və sürətlə inkişaf edir. İqtisadi müstəqillik, enerji təhlükəsizliyi məsələləri, iqtisadi cəhətdən heç kimdən asılı olmamaq amilləri, əlbəttə, hər bir ölkə, xüsusilə gənc müstəqil ölkə üçün önəmlidir və bu gün biz tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmiş, əbədi və dönməz etmişdir.

Bizim müstəqil siyasət aparmaq üçün bütün imkanlarımız var: həm siyasi iradə, həm xalq tərəfindən bizim siyasətimizə verilən qiymət, həm də iqtisadi imkanlar, enerji təhlükəsizliyi məsələləri və Azərbaycanda aparılan iqtisadi və sosial islahatlar. Ölkəmiz bundan sonra da uğurla inkişaf edəcək, mən buna şübhə etmirəm. Biz bundan sonrakı illərdə həm iqtisadi, siyasi islahatları davam etdirəcək, həm də sosial məsələlərin həllinə diqqət göstərilməsini davam etdirəcəyik. Beləliklə, Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil olacaqdır.

Bugünkü müşavirə nəqliyyat məsələləri, daha doğrusu, avtomobil nəqliyyatı məsələləri ilə bağlıdır. Son illər ərzində bu sahədə çox böyük uğurlar əldə edilmişdir. Demək olar ki, Azərbaycanda nəqliyyatın bütün sahələri planlı şəkildə inkişaf etdirilir. Hər bir sahə üçün əlavə proqramlar, layihələr var, maliyyə resursları təmin edilir. İndi ölkəmiz dünya maliyyə aləmində də çox güclü mövqelərə malikdir. Bizə böyük inam var və buna görə indi dünya maliyyə bazarında maliyyə resursları almaq bizim üçün böyük problem deyildir. Azərbaycan istənilən məbləğdə kreditlər əldə edə bilər. Deyə bilərəm ki, kreditləri bizə təklif edən qurumlar daha çoxdur, nəinki bizim buna olan ehtiyacımız. Artıq bundan sonra biz maliyyə çətinlikləri çəkməyəcəyik. Beləliklə, bizə lazım olan, ölkənin inkişafına lazım olan bütün infrastruktur layihələrini icra edəcəyik.

Bir daha demək istəyirəm ki, bütövlükdə, nəqliyyatda işlər yaxşı gedir.

Bildiyiniz kimi, dəmir yolu nəqliyyatında transmilli layihələr həyata keçirilməyə başlayır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi tarixi nailiyyətdir. Biz dəfələrlə bu barədə sözümüzü demişik, bunu təkrarlamağa ehtiyac yoxdur. Bu dəmir yolunun tikintisi bölgədə tamamilə yeni vəziyyət yaradır və Azərbaycanı çox etibarlı tranzit ölkəyə çevirəcəkdir. Digər layihələr də icra olunur və bütövlükdə, dəmir yolu sisteminin möhkəmlənməsi bizim üçün çox vacibdir. Gələcəkdə bu sahəyə yenə də vəsait ayrılacaqdır.

Həmçinin dəniz nəqliyyatı da inkişaf etməkdədir. Azərbaycanda, Bakıda yeni böyük dəniz limanı tikiləcəkdir. Biz bunun layihəsi ilə tanış olduq. Yeni tankerlər alınır. Quru yüklərin daşınması üçün gəmilər, bərələr alınır. Nəzərə alsaq ki, Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi nəticəsində Azərbaycan ərazisi ilə yük daşımalarının həcmi xeyli artacaq, əlbəttə, biz indidən buna hazır olmalıyıq. Bütün nəqliyyat infrastrukturumuzu buna hazır etməliyik. İlk növbədə, Xəzər gəmiçiliyini möhkəmləndirməliyik. Bildiyiniz kimi, gəmiçiliyin inkişafı üçün yeni gəmilərin alınmasına dövlət tərəfindən vəsait ayrılır. Biz bundan sonra da gəmiçiliyə kömək göstərəcəyik. Düzdür, mən hesab edirəm ki, hər bir şirkət, o cümlədən dövlət şirkəti öz ehtiyaclarını özü təmin etməlidir. Ancaq bununla bərabər, bəzi hallarda maliyyə imkanları məhdud olduğuna görə, ölkənin strateji maraqları təkcə şirkətlərin fəaliyyəti nəticəsində təmin oluna bilmir.

Belə olan halda, mütləq dövlət müdaxilə etməli, öz resurslarını bu işlərə yönəltməlidir ki, ölkəmizin strateji, iqtisadi və regional maraqları təmin olunsun. Məhz buna görə Azərbaycan dövləti gəmiçiliyin inkişafına dövlət büdcəsindən böyük məbləğdə vəsait ayırıb və biz növbəti illərdə də bu siyasəti davam etdirəcəyik.

O cümlədən, bildiyiniz kimi, biz hava nəqliyyatını məhz dövlət zəmanətli kreditlər hesabına çox inkişaf etdirə bilmişik. Məhz dövlət zəmanəti ilə alınan kreditlər hesabına yeni təyyarələr alınır. Müasir təyyarələr –«Boinq», «Erbas», «ATR» təyyarələri alınır. Demək olar ki, Azərbaycanın təyyarə parkında köhnə təyyarələr artıq yoxdur. MDB məkanında ilk dəfə məhz Azərbaycana «Boinq-787» tipli yeni təyyarələr gətiriləcəkdir. Onlar bu sahədə ən son texnoloji nailiyyətdir.

Azərbaycanda yeni aeroportlar tikilir. Bakı, Naxçıvan, Gəncə, Lənkəran – Azərbaycanda dörd beynəlxalq aeroport olacaqdır. Bununla yanaşı, regional aeroportlar da tikilir. Zaqatalada, gələcəkdə lazım olarsa, başqa yerlərdə də nəzərdə tutulur. Yəni bu sahənin inkişafı bizim üçün çox lazımdır. Azərbaycan indi dünyada təyyarələr vasitəsilə yük daşımalarının təmin edilməsində də vacib rol oynayır. Azərbaycan artıq regional mərkəz olubdur. Bizim səylərimiz nəticəsində məşhur «Karqolüks» şirkəti məhz Azərbaycanı mərkəz seçibdir və Avropadan Asiyaya, Asiyadan Avropaya uçuşları Azərbaycanın üzərindən təmin edir. Yəni bütün bu nailiyyətlər bir daha onu göstərir ki, biz öz siyasətimizlə, etibarlı tərəfdaş olmağımızla, gözəl geosiyasi vəziyyətdən istifadə etməklə Azərbaycanda çox güclü və hərtərəfli nəqliyyat infrastrukturuna malik oluruq, bunu gücləndiririk. Növbəti illərdə bu sahəyə həm diqqət artırılacaq, həm də maliyyə resursları cəlb ediləcəkdir.

Bugünkü müşavirə avtomobil nəqliyyatı problemləri ilə bağlıdır. Bu sahədə də çox böyük işlər görülüb. Yolların çəkilişi elə bir sahədir ki, burada əldə edilmiş nailiyyətlər haqqında danışmaq bəlkə də yersizdir. Çünki bütün bunlar göz qabağındadır. Hər bir vətəndaş bunu görür, yeni yollardan istifadə edir, bu yollar həm insanlara rahatlıq verir, həm də ölkə iqtisadiyyatı hərtərəfli inkişaf edir.

Bildiyiniz kimi, biz regional inkişaf proqramının sonuncu mərhələsindəyik. Artıq proqramın beşinci ili gedir və bu

yaxınlarda başa çatacaqdır. Bildiyiniz kimi, növbəti proqram hazırlanır və regionların inkişafında yol nəqliyyatının möhkəmlənməsi başlıca rol oynayır. Yol olmayan yerdə inkişaf da yoxdur. Əgər biz bütün regionları inkişaf etdirmək istəyiriksə və bunu ediriksə, burada birinci şərt yoldur. Elektrik enerjisi, qaz, su və yoldur. İndi ediləcək təqdimatda bu sahədə hansı işlərin görülməsi ilə tanış olacağıq. Daha önəmlisi odur ki, biz növbəti illərdə hansı işləri görməliyik.

Onu deyə bilərəm ki, indi Azərbaycanı qonşu ölkələrlə birləşdirən bütün magistral yollarda böyük təmir-tikinti işləri gedir. Həm yeni yollar salınır, həm də mövcud yollar əsaslı təmir olunur. Ümid edirəm ki, yaxın zamanlarda biz üç istiqamətdə gedən işlərin tamamlanmasını görəcəyik. Həm Bakı–Gürcüstan, həm Bakı–Rusiya, həm də Bakı–İran sərhəd yollarının tikintisi. Bu yollar bizi təkcə qonşu ölkələrlə birləşdirmir, eyni zamanda, Azərbaycanın, demək olar, bütün ərazisindən keçir və əlbəttə, yolboyu yerləşən şəhərlərə daha da rahat çıxışı təmin edir. Ona görə bu yolların tikintisi bir neçə məqsəd daşıyır. Əlbəttə, biz Azərbaycan ərazisi ilə yükdaşımaların artmasını istəyirik və bunu təmin edirik. Amma ilk növbədə, Azərbaycan vətəndaşlarının normal yoldan istifadə etməsi məsələləri diqqət mərkəzindədir.Bir daha demək istəyirəm ki, regionların inkişafı məsələləri birbaşa yol infrastrukturu ilə bağlıdır.

Bununla yanaşı, şəhərlərarası yollar da böyük əhəmiyyət kəsb edir və bu sahədə işlər görülür, həmin yollar təmir olunur. Bakı–Şamaxı–Yevlax–Balakən yolu yenidən qurulmalıdır və işlər başlanmışdır. Eyni zamanda, bir müddət bundan əvvəl mənim tərəfimdən Nəqliyyat Nazirliyinə göstəriş verilmişdir ki, mövcud olmayan yollar haqqında, şəhərləri birləşdirəcək qısa yolların tikintisi haqqında fikirləşsinlər. Çünki bəzi hallarda bir bölgədən o biri bölgəyə getmək üçün insanlar Bakıdan keçərək hərəkət etməlidirlər. Əlbəttə, bu həm vaxt baxımından, həm də rahatlıq baxı-

mından bizə əl vermir. Bildiyimə görə, bu sahədə də müəyyən araşdırmalar aparılmışdır.

Biz kənd yollarının tikintisinə də diqqət göstəririk. Ən ucqar kəndlərə yollar çəkilir və bunlar çox gözəl yollardır. Yol çəkilən kimi biz dərhal görürük ki, o bölgədə canlanma gedir, dərhal inkişaf baş verir. Xüsusilə Azərbaycanın çox gözəl təbiətini nəzərə alsaq, turizm üçün yararlı olan yerlərdə inkişafı biz dərhal görürük. O yerlərdə iqtisadi inkişaf başlayır, kiçik və orta sahibkarlıq inkişaf etməyə başlayır. Yəni biz bölgələrdən mütəmadi qaydada məlumat aldığımıza görə görürük ki, yolun çəkilişi regionlarda gedən inkişafla nə dərəcədə bağlıdır. Bunlar, demək olar ki, bir-biri ilə birbaşa bağlı olan məsələlərdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icra olunmasının bir səbəbi də ondadır ki, biz bu proqramın icrası ilə bərabər, yol infrastrukturuna da böyük diqqət göstərmişik.

Onu da demək istəyirəm ki, proqram 2004-cü ilin əvvəlində qəbul olunanda proqramda bu illər ərzində, son dörd il ərzində yol tikintisi ilə bağlı görülən işlər nəzərdə tutulmamışdı. Ancaq biz əlavə vəsait ayırmaqla proqramın sürətlənməsini təmin etmək üçün yol infrastrukturuna da böyük vəsait qoymuşuq. Biz bunun nəticəsini görürük.

Bakı şəhərinin yol nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün də bir müddət bundan əvvəl çox vaxtında qəbul edilmiş lazımlı qərarlar bu sahədə vəziyyəti bir qədər yüngülləşdirmişdir. Sirr deyil ki, Bakıda və bütövlükdə, Azərbaycanda gedən inkişaf yol infrastrukturuna əlavə yük gətiribdir. Bakının tarixi küçələrinin əksəriyyəti ensizdir. Onları enliləşdirmək, demək olar, mümkün deyildir. Biz öz tarixi keçmişimizə hörmətlə yanaşırıq və yanaşmalıyıq. Yeni salinan yollar da, əlbəttə, artan yükə dözə bilmir. Mən bir rəqəmi deyə bilərəm ki, təkcə keçən il Azərbaycana xaricdən 80 mindən çox avtomobil gətirilmişdir ki, bunların da böyük əksəriyyəti Bakının payına düşür. Əgər biz tədbirlər görməsəydik, mənim tərəfimdən sərəncamlar imzalanmasaydı və

işlər görülməsəydi, bu gün deyə bilərəm ki, bəlkə də Bakının yol infrastrukturu, Bakının nəqliyyatı iflic vəziyyətinə düşə bilərdi.

2005-ci ilin sonunda biz görəndə ki, artıq tıxaclar yaranır, 2006-cı ilin əvvəlində müvafiq sərəncamlar imzalamaqla böyük işlərə başladıq. Hələ deyə bilmərəm ki, biz istədiyimizə nail ola bilmişik. Ancaq qısa müddət ərzində Bakıda salınan yeni yollar, təmir olunan yollar, yolötürücülərinin, qovşaqlarının, yeraltı-yerüstü keçidlərin tikilməsi vəziyyəti xeyli dərəcədə sağlamlaşdırmışdır. Bunu biz də görürük, əhali də görür. Ancaq o da həqiqətdir və biz indi bunu görürük ki, nəzərdə tutulmuş layihələr məsələnin həlli üçün yetərli deyildir. Doqquz yolötürücüsü, körpü, tunel, yol qovşağının tikintisi nəzərdə tutulmuşdur ki, artıq onlardan altısı istismara verilmişdir. Ancaq biz görürük ki, bunlara hələ nə qədər böyük ehtiyac vardır. Ona görə Bakı şəhərinin nəqliyyat sisteminin yaxşılaşdırılması üçün nə lazımdırsa, biz onu edəcəyik. Həm körpülərin, yol qovşaqlarının tikintisi, həm də yeni yolların açılması, salınması davam etdiriləcəkdir.

Bildiyiniz kimi, Azərbaycanda bu il nəqliyyatın intellektual idarəetmə sistemi tətbiq olunmalıdır. Mən Koreya Respublikasında rəsmi səfərdə olduğum zaman bu sistemlə tanış oldum, onunla xüsusilə maraqlandım. Sonra müqavilə imzalandı və indi o sistem Azərbaycanda tətbiq olunacaqdır.

Bu, şəhər nəqliyyatına çox kömək göstərəcəkdir.

Əzizbəyov metro stansiyasından Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yolu, demək olar ki, biz yenidən qururuq, iki dəfə genişləndiririk. İndi bu yol 4-6 zolaqlıdır. Ancaq sonra 8–12 zolaqlı olacaqdır. Yəni biz şəhərimizə əsas girişin ən müasir standartlara çatdırılması üçün böyük işlər görürük. Artıq yolun bir hissəsi işləyir və tikinti işləri yaxşı gedir.

Bununla bərabər, onu da deməliyəm ki, şəhəri aeroportla birləşdirən və normal vəziyyətdə olan cəmi bir yol var. Əlbəttə ki, biz bununla razılaşa bilməzdik. Ona görə qəbul

etdiyimiz qərar əsasında yeni yolun salınması da nəzərdə tutulmuşdur. Azadlıq meydanı–Zığ–Heydər Əliyev Beynəlxalq Aeroportuna qədər yeni yol salınır. Mən yolun tikintisi ilə tanış olmuşam və deyə bilərəm ki, çox keyfiyyətlə, tamamilə yeni texnologiya əsasında tikilir. Həmin texnologiya bu yaxınlarda Avropanın inkişaf etmiş şəhərlərində tətbiq olunmağa başlanmışdır. Artıq bu texnologiya Azərbaycanda var. Bax, budur bizim məsələyə yanaşmağımız, budur bizim siyasətimiz.

Mən bunu bir neçə dəfə demişəm, bir də demək istəyirəm ki, Azərbaycanda yaranan müəssisələr, tikilən yollar, infrastruktur obyektlərinin hamısı dünya standartlarına uyğun olmalıdır, o səviyyədə olmalıdır. Biz dünyada olan ən son nailiyyətləri Azərbaycana gətirməliyik. Beş, on il bundan əvvəl dünya standartı sayılan səviyyə bizə lazım deyildir. Ən inkişaf etmiş ölkədə hansı texnologiya tətbiq edilirsə, o, Azərbaycanda da tətbiq olunmalıdır. Bizim ölkəmiz müasir ölkəyə çevrilir və əminəm ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır. Dünyada inkişaf etmiş o qədər də çox ölkə yoxdur. Bu anlayış özündə çoxlu amilləri cəmləşdirir. Ancaq mən inanıram, bizim imkanımız var ki, ölkəmizi inkişaf etmiş ölkələrin sıralarına daxil edək.

Yol infrastrukturunun bu işlərdə çox mühüm yeri var. Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir. Bax, bu gün biz bu məsələlərlə bağlı müzakirə aparacağıq.

## YEKUN NİTQİ

Geniş təqdimatda gələcəkdə görüləcək işlər göstərildi. Eyni zamanda, bayaq qeyd etdiyimiz kimi, bu vaxta qədər bu sahədə görülən işlər də göstərilmişdir. Həm bu vaxta qədər görülən və həm də bundan sonra görüləcək işlər deməyə əsas verir ki, Azərbaycanın avtomobil nəqliyyatı infrastrukturunun tamamilə yeniləşməsi mümkün olacaqdır.

Bu çox böyük proqramdır və həm magistral yollarının, şəhərlərarası, kənd yollarının, şəhər yollarının tikintisi, həm də yol qovşaqlarının, piyada keçidlərinin tikintisi, nəqliyyatın idarəetmə sisteminin təkmilləşdirilməsi üçün çox vacib bir vasitə olacaqdır. İndi sadəcə olaraq, təqdimatda göstərilən bütün layihələri bir daha nəzərdən keçirmək lazımdır. Biz onların prioritetlərini müəyyən etməliyik ki, bu il hansılar və gələn il hansılar başlanmalıdır. Ancaq hesab edirəm ki, bu, böyük, gözəl proqramdır və bunun icrası nəticəsində, demək olar ki, nəqliyyatla bağlı əsas məsələlər öz həllini tapacaqdır.

Biz Bakı şəhərində ilk yol qovşaqlarının tikintisinə başlayanda, əlbəttə, təxmin edə bilirdik ki, bu, sadəcə olaraq, birinci mərhələdir, bir başlanğıcdır. Bu gün təqdimatda göstərilən layihələr, deyə bilərəm ki, Bakının bütün nəqliyyat sisteminin təkmilləşməsini təmin edəcəkdir. Yəni nəzərdən qaçan, yaxud da burada göstərilməyən layihələr yaxın gələcək üçün yoxdur. Biz sadəcə olaraq, qısa müddət ərzində bütün bu layihələri həyata keçirməliyik. Əlbəttə, bunu etmək üçün texniki imkanlar lazımdır və onlar da var. İndi burada göstərildi ki, nə qədər avadanlıq alınıbdır. Çox sevindirici hal ondan ibarətdir ki, Bakıda və magistral yollarda tikintidə işləyənlər yerli mütəxəssislərdir. Yəni bu işləri Azərbaycan şirkətləri görür. Bir neçə il bundan əvvəl biz bu barədə, sadəcə olaraq, fikirləşə bilərdik, bunu arzulaya bilərdik. Ancaq indi bu reallıqdır.

Dövlət tərəfindən həyata keçirilən layihələr, dövlət investisiya xətti ilə və xaricdən gətirilən kreditlər hesabına görülən işlər imkan verir ki, özəl sektor da inkişaf etsin. Azərbaycan şirkətləri, özəl sektor nümayəndələri bütün bu işlərdə fəal iştirak edirlər. Hesab edirəm ki, əgər onların işlərinin keyfiyyəti yüksək səviyyədədirsə, gələcəkdə də əlbəttə, ilk növbədə üstünlüyü yerli şirkətlərə verməliyik.

Texniki imkanlardan başqa, maliyyə imkanları da olmalıdır. 2008-ci ilin dövlət büdcəsi artıq təsdiq olunubdur.

Ancaq istisna deyil ki, büdcəyə düzəlişlər edilsin. Hesab edirəm ki, bu edilməlidir və dürüstləşdirmə zamanı həm nəqliyyatda, həm də başqa sahələrdə bizim üçün, ölkəmizin inkişafı üçün lazım olan tədbirlər nəzərdə tutulmalıdır. Ona görə hesab edirəm ki, növbəti bir-iki ay ərzində bütün bu təkliflər bir daha təhlil edilməli, proqram şəklinə salınmalı və 2008-ci il üçün prioritet məsələlər 2008-ci ilin büdcəsinə əlavə olunmalıdır. Ondan sonrakı illərdə isə bunlar təbii ki, növbəti illərin büdcələrində nəzərdə tutulacaqdır.

Maliyyə imkanlarımız var. Yolların bir hissəsi kreditlər hesabına tikilir. Əgər güzəştli və əlverişli şərtlərlə yeni kreditlər əldə etmək mümkün olacaqsa, buna da getməliyik. Amma o da həqiqətdir ki, indi Azərbaycanın iqtisadi, maliyyə vəziyyəti belədir ki, biz kreditlərsiz də bütün işləri görə bilərik. Bildiyiniz kimi, bəzi hallarda bizə lazım olan regional layihələrin həlli üçün Azərbaycan dövlətinin özü kreditlər verməyə hazırdır və bunu edirik. Bir sözlə, həm xarici maliyyə resurslarından istifadə etməliyik, həm də ilk növbədə, öz imkanlarımızdan istifadə etməliyik.

Bir daha demək istəyirəm ki, bu təqdimatda avtomobil nəqliyyatının bütün sahələri öz əksini tapıbdır. Əlbəttə, növbəti illərdə biz diqqəti daha çox kənd yollarına yönəltməliyik. Çünki təbii, təqdimatda, ilk növbədə, ən prioritet məsələlər öz əksini tapıbdır. Ancaq kənd yolları da bizim üçün prioritetdir. Düzdür, bu yollar yerli icra orqanları tərəfindən tikilməlidir, təmir olunmalıdır. Yəqin buna görə təqdimatda bu barədə deyilməyibdir. Ancaq ümumi konsepsiyanı, ümumi yanaşmanı yəqin ki, Azərbaycan dövləti tərəfindən bu işlərə cavabdehlik daşıyan qurum kimi, Nəqliyyat Nazirliyi öz üzərinə götürməlidir. Çünki indi Nəqliyyat Nazirliyinin infrastrukturu, texnikası, avadanlığı, texnologiyası var. Gələcəkdə yəqin ki, biz buna bir daha baxmalıyıq və kənd yollarını da yüksək səviyyəyə çatdırmalıyıq.

Hesab edirəm ki, biz bu təqdimata və təklif olunan layihələrə Naxçıvan Muxtar Respublikasının yol problemlərini

də əlavə etməliyik. Demək olar ki, bu təqdimatda Azərbaycanın bütün bölgələri əhatə olunur. Ancaq biz Naxçıvan Muxtar Respublikasının yol təsərrüfatına da əlavə vəsait ayırmalıyıq. Xahiş edirəm ki, bu məsələlərlə bağlı Naxçıvanın rəhbərliyi ilə də əlaqə saxlayın, onlarla danışın və biz dövlət büdcəsindən Naxçıvanın yollarının tikintisinə, təmirinə məqsədyönlü şəkildə vəsait qoymalıyıq. Beləliklə, bu layihələrin həyata keçirilməsi ilə biz nəqliyyat sahəsində böyük bir işi həll edirik.

Bildiyiniz kimi, Bakıda piyada keçidlərinin tikintisi çox yaxşı gedir, yüksək keyfiyyətlə aparılır. Çox yaxşı ki, demək olar, bütün keçidlərdə eskalatorlar qoyulubdur. Biz insanlara rahatlıq yaradırıq. Çünki yaşlı insanlar pilləkənlə qalxıb-düşməkdə əziyyət çəkirlər. Bəzi hallarda cavanlar özlərinə əziyyət vermək istəmir, yeraltı keçid olduğu halda, yol qaydalarını pozaraq, ondan istifadə etmirlər. Ancaq eskalator olan halda və yeraltı keçid, yerüstü keçid müasir səviyyədə olduğu halda, əminəm ki, insanlar onlardan daha da səmərəli istifadə edəcəklər.

Biz eyni zamanda, ölkəmizə yeni avtobusların gətirilməsi ilə də məşğuluq. Bu sahədə Nəqliyyat Nazirliyi işlər görür və özəl şirkətlər də fəaldırlar. Biz dövlət tərəfindən bu məsələyə baxa bilərik. Yəni dövlət tərəfindən investisiya şəklində vəsait ayırıb bu avtobusları alaraq, özəl firmalara icarəyə verə bilərik ki, bu sahədə də vəziyyət yaxşılaşsın. Bilirəm ki, insanları narahat edən şəhər nəqliyyatıdır və bu sahədə, əlbəttə, tənzimləmə siyasəti aparılmalıdır. Bir müddət bundan əvvəl xaricdən 200 avtobus gətirilibdir. Bu, artıq bu sahəyə böyük bir töhfədir. Eyni zamanda, intellektual idarəetmə sisteminin işə düşməsi ilə bu sahədə çox böyük dəyişikliklər olacaqdır. Bu işlər kompleks şəkildə aparılacaqdır. Beləliklə, Azərbaycan iqtisadiyyatı – nəqliyyat iqtisadiyyatın əsas elementlərindən biridir – daha da inkişaf edəcəkdir.

Bizim mövqeyimiz möhkəmdir. Bildiyiniz kimi, dünyanın aparıcı iqtisadi qurumları vaxtaşırı ölkələrin reytinqlərini

tuturlar. Bəzi hallarda onlar ciddi xarakter daşımır, bəzi hallarda isə mötəbər qurumlar və onların tərtib etdiyi reytinqlər, əlbəttə, həqiqəti əks etdirir. Xüsusilə Davos Dünya İqtisadi Forumunun reytinqlərində iqtisadiyyatın rəqabət qabiliyyətliliyi sahəsində Azərbaycan dünya miqyasında 66-cı yeri tutur. Çox tanınmış maliyyə qurumu olan «Qoldman Saks»ın tərtib etdiyi reytinqdə isə Azərbaycan 61-ci yerdədir və bütün başqa MDB ölkələrini qabaqlayır. Bu reallıqdır, həqiqəti əks etdirən reallıqdır. Azərbaycan çox sürətlə inkişaf edir. Həm iqtisadi inkişaf, həm sosial məsələlərin həlli, həm insanların həyat səviyyəsinin yaxşılaşması, vaxtaşırı, ildə iki dəfə minimum əməkhaqqının, minimum pensiyaların artırılması, sosial müavinətlərin artırılması, həm də iqtisadi və sosial islahatların aparılması sahəsində biz çox böyük nailiyyətlərə çatmışıq. Ancaq biz bununla kifayətlənməməliyik. Elə etməliyik ki, növbəti illərdə uğurlu inkişafımız güclənsin və ölkə qarşısında duran bütün vəzifələr öz həllini tapsın.

Mən hesab edirəm ki, bu müzakirələr nəticəsində təqdimatda göstərilən bütün məsələlər bir daha təhlil ediləcək və bunun əsasında mənim tərəfimdən yeni sərəncam imzalanacaq, 2008-ci il üçün proqram tərtib olunacaqdır. Növbəti illərdə proqramın icrası bu sahədə vəziyyəti xeyli yaxşılaşdıracaqdır. Eyni zamanda, Azərbaycan nəqliyyat infrastrukturu baxımından ən qabaqcıl ölkəyə çevriləcəkdir.

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARA

Hörmətli sədr!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Müxtəlif janrlarda yaratdığınız və taleyüklü problemlərə həsr etdiyiniz əsərlərinizlə Siz respublikamızda ədəbi prosesin inkişafına layiqli töhfələr vermisiniz. Qələminizin məhsulu olan, öz həyatiliyi, təbiiliyi, dilinin rəvanlığı və üslub rəngarəngliyi ilə fərqlənən yaradıcılığınız müasir Azərbaycan oxucusunun bədii-estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Siz fəaliyyətinin çoxşaxəliliyi ilə seçilən qələm sahibisiniz. Teatr və kino üçün əsərləriniz tamaşaçılar tərəfindən həmişə böyük maraqla qarşılanmışdır. Ssenarilərini yazdığınız və rejissoru olduğunuz bədii filmlər Sizi peşəkar kino xadimi kimi tanıtmışdır.

Azərbaycançılıq düşüncəsindən yoğrulan ədəbi-tənqidi, elmi-publisistik məqalə və esseləriniz nasir-publisist istedadınızın məhsulu kimi meydana çıxmışdır. Həmin yazılarda milli mədəniyyətimizin qiymətli abidələrinə, klassik və müasir ədəbi fikir tariximizin bir çox böyük şəxsiyyətinə və hadisəsinə tədqiqatçı münasibəti öz dolğun əksini tapmışdır.

Sizin ictimai xadim kimi də fəaliyyətiniz geniş və əhatəli olmuşdur. Uzun illərdən bəri Azərbaycan Yazıçılar Birliyinin sədri kimi məsul bir vəzifədə çalışmağınız isə böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunuzu göstərir.

İnanıram ki, yaradıcılığının ən yetkin dövrünü yaşayan söz ustası kimi, Siz bundan sonra da ədəbiyyatımızın zənginləşməsi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 mart 2008-ci il*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ VLADİMİR QURGENİDZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında Gürcüstanın Baş naziri Vladimir Qurgenidzeni qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi, yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət göstərdiyi vurğulanmış, ikitərəfli münasibətlərin, iqtisadi sahədə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.*

## YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Yunanıstanın İnkişaf naziri Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanla Yunanıstan arasında ikitərəfli münasibətlərin yeni mərhələdə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ötən il Türkiyə–Yunanıstan qaz kəmərinin açılışı zamanı keçirilən görüşləri xatırlatdı, həmin tədbirin qarşılıqlı əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu bildirdi. Prezident İlham Əliyev Yunanıstan nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə yeni imkanlar açacağına əminliyini söylədi.*

*Xristos Folias Yunanıstanın Baş naziri Kostas Karamanlisin salamlarını və ehtiramını prezident İlham Əliyevə çatdırdı. Böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etdiyini deyən Xristos Folias qarşılıqlı əlaqələrin hər iki ölkə üçün faydalı olduğunu bildirdi. O, əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün kifayət qədər imkanların mövcud olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Yunanıstanın Baş naziri Kostas Karamanlisin salamlarına görə təşəkkür etdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ– İCRAÇI KATİBİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri – icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.*

*Görüşdə MDB çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## BEYNƏLXALQ UNİVERSAL DÖYÜŞ FEDERASİYASININ PREZİDENTİ SERGEY NOVİKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti Sergey Novikovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda idmana göstərilən yüksək dövlət qayğısından danışılmış, ölkəmizin ayrı-ayrı regionlarında dünya standartlarına uyğun müasir idman infrastrukturunun yaradıldığı bildirilmişdir. Eyni zamanda, Azərbaycanın nümayəndəsi Natiq Əliyevin Avropa Universal Döyüş Federasiyasının prezidenti seçilməsi ölkəmizin beynəlxalq idman aləmində fəal iştirakının göstəricisi kimi vurğulanmışdır. Azərbaycanda digər idman növləri kimi, universal döyüş növünün də inkişaf etdiriləcəyinə əminlik ifadə olunmuşdur.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz qədim ənənələrə malik Azərbaycan–Çin münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, dost ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın hərtərəfli inkişafı, əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Çin xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2008-ci il*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULAY VADA**

Hörmətli cənab Prezident!

Seneqalın milli bayramı– Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, dost ölkələrimiz arasındakı münasibətlər, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsindəəməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Seneqal xalqına əmin-amanlıq və rufah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2008-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ ƏL-VALİD BİN TƏLAL BİN ƏBDÜLƏZİZ AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Prezident sarayında Səudiyyə Ərəbistanının Şahzadəsi əl-Valid bin Təlal bin Əbdüləziz Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana səfərindən məmnun olduğunu deyən Şahzadə Azərbaycanda gedən iqtisadi inkişafın böyük təəssürat yaratdığını, ölkəmizin gələcəkdə daha böyük nailiyyətlər əldə edəcəyinə əminliyini bildirdi.*

*Azərbaycanda reallaşdırılan müxtəlif biznes layihələrinin onlarda maraq doğurduğunu bildirən qonaq Bakıda keçirdiyi səmərəli görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Dövlətimizin başçısı son illər ölkəmizdə əldə edilən yüksək iqtisadi inkişafın bütün istiqamətlərdə uğurlu nəticələr verdiyini, sosial sahənin getdikcə daha da yaxşılaşdığını, ümumdaxili məhsulun dinamik surətdə artdığını bildirdi. Ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini, o cümlədən iqtisadi əməkdaşlığın genişləndiyini vurğulayan prezident İlham Əliyev ilk dəfə Azərbaycana gələn Şahzadə əl-Valid bin Təlal bin Əbdüləziz Al Səudun səfərinin səmərəli olacağına və əlaqələrimizin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminliyini söylədi.*

## SABİR BAĞINDA VƏ NİZAMİ MEYDANINDA GÖRÜLMÜŞ ƏSASLI TƏMİR İŞLƏRİ İLƏ TANIŞLIQ

*Bakı*

*18 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Bakının mərkəzindəki Sabir bağında və Nizami meydanında görülmüş əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Sabir bağına gəldi. Paytaxtın bu istirahət guşəsində görülmüş işlər buranın görkəmini tamamilə dəyişmişdir. Bağda yeni yaşıllıq zonası salınmış, müasir işıqlandırma sistemi quraşdırılmış, üzlük daşlar, mərmər döşənmişdir. Yaşıllıq zonasında Novruzun rəmzi olan səmənilərin əkilməsi isə xoş bayram ovqatı yaradır.*

*Prezident İlham Əliyev bağı seyr edərək dedi ki, burada işlər ən yüksək səviyyədə və zövqlə görülmüşdür. Həm bu bağ, həm də ətrafdakı binalar şəhərimizi daha da gözəlləşdirir. Beləliklə, Bakının tarixi yerləri sanki yenidən canlanır. Bu bağ bəlkə də yaranandan bu qədər gözəl olmamışdır. Bağ həm gündüz, həm də axşam çox gözəldir. Bakı sakinlərinin istirahəti üçün gözəl yer yaradılıbdır.*

*Sonra dövlətimizin başçısı Nizami meydanına gəldi, görülmüş işlərin nəticəsi ilə maraqlandı. Burada da qısa müddətdə bərpa və yenidənqurma işləri aparılmış, yaşıllıq zolağı, işıqlandırma sistemi tamamilə yeniləşdirilmişdir.*

*Prezident İlham Əliyev mərtəbəli fəvvarələr kompleksinə baxdı, görülmüş işlərdən razılığını bildirdi. Nizami adına*

*Ədəbiyyatı Muzeyi ilə gözəl vəhdət təşkil edən meydanda istirahət üçün lazımi şərait yaradılmışdır.*

*Daha sonra dövlətimizin başçısı «Azərbaycan» kinoteatrının qarşısına, Natəvanın abidəsinin ucaldığı əraziyə gələrək, burada gedən təmir-bərpa işləri ilə maraqlandı. Prezident İlham Əliyev ətraf binaların da müasir görkəm alması üçün müvafiq tapşırıqlarını verdi.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*Hörmətli həmvətənlər!*

*Sizi xalqımızın sevimli Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar diləyirəm.*

*Təbiətin əbədi qanunları və kainatın dəyişməz nizamı ilə əlaqədar olan Novruz bayramı gecə ilə gündüzün bərabərləşdiyini xəbər verən ilk bahar günü yurdumuza qədəm qoyur. Qədim əcdadlarımızın bizə misilsiz yadigarı kimi, yaz bayramının gəlişi Odlar diyarında yüzillərdən bəri xüsusi mərasimlərlə qarşılanır, təntənəli el şənlikləri ilə müşayiət olunur. Milli varlığımızı və ulu babalarımızın mənəvi aləminin zənginliyini ən incə çalarlarınadək nümayiş etdirən bu el bayramı əsrlərin sınağından çıxmış gözəl adət-ənənələri ilə bu gün də çox sevilir, uca tutulur və layiqincə qorunub yaşadılır. Onun hazırda respublikamızın hər bir guşəsində böyük ruh yüksəkliyi ilə rəsmi səviyyədə geniş qeyd olunması dövlət müstəqilliyimizin verdiyi bəhrələrdəndir. Novruz bayramı, sözün əsl mənasında, ümumxalq bayramı mahiyyəti qazanmışdır.*

*Azərbaycanın son illərdə ən müxtəlif sahələrdə nail olduğu misilsiz uğurlar bu bahar günlərində hər evə, hər ailəyə həqiqi bayram əhvalı bəxş etmişdir. Mədəni-ictimai həyatımızın daha da canlanması, iqtisadiyyatımızın yüksələn xətt üzrə davamlı inkişaf tempi, paytaxtımızı və bölgələrimizi bürüyən abadlıq-quruculuq işləri təbiətin dirçəlməsi və yeniləşməsi ilə həmahəng olub hər birimizdə nikbin ovqat yaradır, sabahkı günə dərin inam aşılayır.*

*Azərbaycan torpaqlarının müdafiəsində dayanan mətin əsgərlərimizə mən bu əziz günlərdə səmimi bayram salamımı yetirirəm. Ölkəmizin ərazi bütövlüyünün qorunması naminə*

*canlarını fəda edərək, uca şəhidlik mərtəbəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini ehtiramla yad edir, onlara Tanrıdan rəhmət diləyirəm.*

*Azərbaycanın sərhədlərindən uzaqlarda yaşayan soydaşlarımız da Novruz bayramını bizimlə birlikdə böyük sevinclə qarşılayırlar. Dünya azərbaycanlılarının milli həmrəyliyinin rəmzinə çevrilən bu bayram hər gəlişi ilə onların Ana Vətənə azərbaycançılıq məfkurəsi işığında bağlılıq duyğularını daha da gücləndirir.*

*Əziz bayram günündə hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm.*

*Novruz bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 19 mart 2008-ci il*

## MƏŞHUR FRANSALI MÜĞƏNNİ PATRİSİYA KAASIN KONSERTİNDƏ

*Azərbaycan Dövlət Filarmoniyası*

*19 mart 2008-ci il*

*Martın 19-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında məşhur Fransa müğənnisi Patrisiya Kaasın konserti olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdə olmuşlar.*

*Konsertdən əvvəl prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva «Cartier İnternational» şirkətinin prezidenti Bernard Fornas və dünyanın məşhur kino ulduzu Monika Belluççi ilə görüşdülər.*

*Filarmoniyanın salonuna toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Konsert proqramından əvvəl çıxış edən «Cartier İnternational» şirkətinin prezidenti Bernard Fornas Azərbaycan prezidenti İlham Əliyevə və ölkəmizin birinci xanımı Mehriban Əliyevaya konsertə gəldiklərinə görə təşəkkür etdi. O vurğuladı ki, zəngin tarixə, mədəniyyətə və qədim adət-ənənələrə malik Azərbaycan müasir, sürətlə inkişaf edən ölkədir. Beynəlxalq şirkətlər, o cümlədən təmsil etdiyi qurum dünyada nüfuzlu söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verir.*

*Sonra səhnə Fransanın canlı əfsanəsi adlandırılan Patrisiya Kaasın ixtiyarına verildi. İfasında blüz və caz elementlərini birləşdirən Fransa şansonunun kraliçası Patrisiya Kaas Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində fortepianonun müşayiətilə canlı olaraq ən populyar mahnılarını ifa etdi.*

*Təkrarolunmaz ifası, tamaşaçılarla səmimi ünsiyyəti ilə fərqlənən Patrisiya Kaasın çıxışı ilk dəqiqələrdən alqışlarla qarşılandı.*

*Müvəffəqiyyətlə keçən konsertin sonunda Patrisiya Kaas prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya dərin minnətdarlığını bildirdi.*

## NEFTÇİLƏR PROSPEKTİNDƏ ƏSASLI TƏMİR EDİLMİŞ YERALTI PİYADA KEÇİDİ İLƏ TANIŞLIQ

*19 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da paytaxtın Neftçilər prospektində Kukla Teatrının qarşısındakı yeraltı piyada keçidin əsaslı təmirdən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısının Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə bağlı sərəncamı çərçivəsində həyata keçirilən tədbirlər planına uyğun olaraq, əsaslı təmir edilmiş və yenidən qurulmuş yeraltı piyada keçidində görülmüş işlər barədə məlumat verdi. Paytaxtın gediş-gəlişli ərazisində yerləşən piyada keçidi olduqca yararsız vəziyyətdə idi. Bu da piyadalar üçün narahatlıq yaradırdı. İndi keçiddə nəmişliyin qarşısını almaq üçün ən yeni texnologiya əsasında təmir işləri görülmüş, avtomat telefon aparatları qoyulmuş və müasir işıqlandırma sistemi quraşdırılmışdır. Piyadaların rahat hərəkəti üçün xüsusi mərmərdən istifadə olunmuşdur. Kukla Teatrının qarşısında olduğuna görə, yeraltı keçid uşaqların maraq dünyasını əks etdirən rəsmlərlə bəzədilmişdir.*

*Prezident İlham Əliyev təmir və bərpa işlərinin keyfiyyəti ilə tanış oldu, görülən işlərdən razılığını bildirdi. Dövlətimizin başçısı paytaxtda yeni keçidlərin, avtomobil dayanacaqlarının tikintisi üçün əlavə tədbirlərin görülməsi haqqında da müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## «İNTERFAKS» BEYNƏLXALQ İNFORMASİYA QRUPUNUN DİREKTORLAR ŞURASININ SƏDRİ MİXAİL KOMİSSAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Prezident sarayında «İnterfaks» Beynəlxalq İnformasiya Qrupunun direktorlar Şurasının sədri Mixail Komissarı qəbul etmişdir.*

*Prezident İlham Əliyevə və Azərbaycan xalqına Novruz bayramı münasibətilə təbriklərini çatdıran Mixail Komissar Azərbaycanın sürətlə inkişaf etdiyini, ölkəmizin regionda aparıcı dövlətlərdən biri olduğunu məmnunluqla qeyd etdi. Ölkəmizdə gedən inkişaf proseslərinin dünya mətbuatı tərəfindən böyük maraqla izlənildiyini bildirən qonaq rəhbərlik etdiyi agentlik üçün də Azərbaycanda əldə olunan nailiyyətlərin mühüm informasiya mənbəyi olduğunu dedi.*

*«İnterfaks» informasiya agentliyinin Azərbaycandakı uzunmüddətli fəaliyyətinə toxunan dövlətimizin başçısı ölkəmizlə bağlı məlumatların dünya ictimaiyyətinə operativ şəkildə çatdırılmasında agentliyin səmərəli fəaliyyət göstərdiyini vurğuladı.*

## ÜMUMDÜNYA KARATE FEDERASİYASININ PREZİDENTİ ANTONİO ESPİNOS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 20-də Prezident sarayında Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul etmişdir.*

*Antonio Espinos dövlətimizin başçısı ilə Milli Olimpiya Komitəsinin prezidenti kimi görüşünü məmnunluqla xatırlatdı. O ilk dəfə 2003-cü ildə ölkəmizə səfər etdiyini və ötən dövr ərzində bütün sahələrdə, o cümlədən idman sahəsində də böyük nailiyyətlər əldə edildiyini vurğuladı. Dövlətimizin başçısı ölkəmizdə idmanın sürətlə inkişaf etdiyini, digər idman sahələrinə olduğu kimi, gənc nəslin karateyə də çox böyük maraq göstərdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan idmanının beynəlxalq aləmdə layiqincə təmsil olunduğunu və idmançılarımızın böyük uğurlar qazandığını söylədi. Dövlətimizin başçısı Ümumdünya Karate Federasiyası ilə ölkəmizin müvafiq idman strukturu arasında əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Sonra Antonio Espinos ölkəmizdə idmanın inkişafındakı yüksək xidmətlərinə görəÜmumdünya Karate Federasiyasının fəxri 9-cu Dan dərəcəli diplomunu Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

## BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ

*Bakı, İçərişəhər*

*20 mart 2008-ci il*

*Martın 20-də yurdumuza baharın gəlişi münasibətilə ən izdihamlı bayram şənlikləri ölkəmizin paytaxtı Bakıda keçirilmişdir. Qədim İçərişəhərin darvazaları qarşısında – Gənclər meydanında bayram münasibətilə böyük mərasim təşkil olunmuş, ətrafdakı binalar, əsrlərin şahidi olan qədim qala divarları al-əlvan plakatlarla bəzədilmişdi.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva Novruz şənliklərində iştirak etmək üçün Gənclər meydanına gəldilər. Meydana toplaşmış minlərlə şəhər sakini dövlətimizin başçısını, onun xanımını hərarətlə, sürəkli alqışlarla qarşıladı.*

*Xalqımız qədim el bayramı olan Novruzu doğma Azərbaycanımızın hər yerində böyük sevinc və yüksək əhval-ruhiyyə ilə qeyd edir. Azərbaycan prezidentinin Novruz bayramı münasibətilə xalqımıza təbrikində deyildiyi kimi, ölkəmizin sərhədlərindən uzaqlarda yaşayan soydaşlarımız da Novruz bayramını bizimlə birlikdə böyük sevinclə qarşılayırlar. Dünya azərbaycanlılarının milli həmrəyliyinin rəmzinə çevrilən bu bayram hər gəlişi ilə onların azərbaycançılıq məfkurəsi işığında doğma Vətənə bağlılıq duyğularını daha da gücləndirir.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar. Atlılar dəstəsinin müşayiəti və milli musiqi sədaları altında meydana tonqal gətirildi. Dövlətimizin başçısı Novruz*

*tonqalını alovlandırdı. Bahar qız el adətincə prezidentə və xanımına səməni və bayram xonçası təqdim etdi.*

*Şənliyin aparıcıları bahar bayramının millətimizə ruzi-bərəkət gətirməsini arzulayaraq, əsrlərin sınağından çıxmış, gözəl adət-ənənələri ilə bu gün də uca tutulan bu el bayramının ulu öndər Heydər Əliyev tərəfindən layiqincə qorunub yaşadılmasını, onun hazırda respublikamızın hər bir guşəsində böyük ruh yüksəkliyi ilə rəsmi səviyyədə geniş qeyd olunmasını xatırlatdılar.*

*Meydanda qəhrəmanlıqla dolu keçmişimizin mənzərəsini canlandıran səhnələr göstərilir, şən, oynaq musiqi sədaları ətrafı bürüyürdü. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılır, bayram mərasiminin iştirakçılarında daha xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev şənliyə toplaşmış paytaxt sakinləri ilə səmimiyyətlə salamlaşdı, onları Novruz bayramı münasibətilə təbrik etdi.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

– Əziz həmvətənlər, əziz dostlar!

Mən sizin hamınızı bu gözəl Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bu gün bütün Azərbaycan xalqını bu gözəl bahar bayramı münasibətilə təbrik edirəm.

Novruz bayramı Azərbaycan xalqının ən əziz, ən sevimli bayramlarından biridir. Əsrlər boyu xalqımız bu bayramı qeyd etmişdir. Ancaq müstəqillik dövründə bayram rəsmi şəkildə qeyd olunur. İkinci ildir ki, biz bunu beş gün qeyd edirik. Bu bir tərəfdən, onu göstərir ki, Azərbaycan xalqı Novruz bayramına ən hərarətli münasibət bəsləyir, o bizim üçün ən başlıca, ən gözəl bayramdır. Digər tərəfdən, bu beş gün imkan verir ki, hər bir ailə bu günlərdə istirahət etsin, bir yerdə dincəlsin və bir yerdə olsun. Ailə dəyərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim mədəniyyətimiz, tariximiz – bütün bunlar Azərbaycan xalqını qorumuşdur. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibin-

də yaşamışıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik, assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət-ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq.

Bu gün biz müstəqil dövlət kimi, sürətlə inkişaf edirik. Həm iqtisadi sahədə, həm siyasi sahədə– bütün sahələrdə Azərbaycan müstəqil dövlət kimi dünyada öz yerini tutubdur. Bu yer möhkəm yerdir. Biz bu bölgədə aparıcı dövlətə çevrilmişik. Bundan sonra Azərbaycan ancaq və ancaq irəliləyiş yolu ilə gedəcəkdir, irəliyə doğru, tərəqqiyə doğru, rifaha doğru gedəcəkdir.

Biz bu gün müxtəlif layihələr üzərində işləyirik. İndiyə qədər görülmüş işlər Azərbaycanı ən çətin vəziyyətdən – XX əsrin 90-cı illərinin əvvəllərində yaranmış vəziyyətdən çıxarıb, tərəqqi yoluna gətirmişdir. Bizim iqtisadiyyatımız üç ildir ki, artım sürətinə görə dünyada birinci yerdədir. Bütün sosial məsələlər öz həllini tapır. İldə iki dəfə əməkhaqları, pensiyalar artırılır və bundan sonra da bu siyasət davam etdiriləcəkdir. İqtisadi sahədə əldə edilmiş uğurlar bizim maddi imkanlarımızı artırır. Biz bu imkanlardan çox səmərəli şəkildə istifadə edirik, islahatları dərinləşdiririk. Azərbaycan üçün, ölkəmiz üçün lazım olan bütün böyük layihələri həyata keçiririk.

Bizim artan iqtisadi gücümüz ölkəmizin siyasi gücünü də artırır. Əlbəttə ki, hər bir ölkənin inkişafı üçün iqtisadi amillər başlıca rol oynayır və bu gün Azərbaycan həm iqtisadi baxımdan, həm enerji təhlükəsizliyi baxımından özünü tam şəkildə təmin edən ölkədir. Beləliklə, bu bizə imkan verir ki, müstəqil siyasət aparaq. Bizim siyasətimiz ancaq və ancaq Azərbaycan xalqının milli maraqlarına söykənir, bu maraqları güdür və bundan sonra da biz bu siyasətə sadiq qalacağıq.

Biz iqtisadiyyatı artırmaqla, eyni zamanda, bölgədə regional əməkdaşlığın inkişafına güclü təkan veririk. Biz böyük layihələrin təşəbbüskarıyıq, icraçısıyıq və bu layihələrin icrası nəticəsində Azərbaycan həm siyasi, həm də

iqtisadi mənfəət əldə edir. İqtisadi islahatlar bundan sonra da aparılacaqdır. Baxmayaraq ki, dörd il ərzində bizim iqtisadiyyatımız iki dəfə artıb – bu, dünyada analoqu olmayan bir nəticədir – biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz irəliyə baxmalıyıq, gələcəyə baxmalıyıq ki, Azərbaycan necə inkişaf edəcək, bizim inkişafımız hansı nəticələrə gətirib çıxaracaqdır. Bütün bunları etmək üçün, əlbəttə ki, hər bir sahə üzrə xüsusi proqramlar olmalıdır. Onlar da var və icra edilir. Mən əminəm ki, gələcəkdə Azərbaycan çox güclü, inkişaf etmiş müasir dövlətə çevriləcəkdir. Biz artıq bunun ilkin elementlərini, ilkin əlamətlərini görürük. Bizim güclü iqtisadi potensialımız, bölgədə möhkəm yerimiz, təsiretmə imkanlarımızın genişlənməsi Azərbaycanın beynəlxalq nüfuzunu da xeyli dərəcədə qaldırır.

Biz dünyada çox böyük hörmətə malik bir ölkəyik. Daxili siyasətin davamı olaraq, xarici siyasətimiz Azərbaycanın milli maraqlarını güdür və bu maraqlar lazımi səviyyədə qorunur. Dünyada Azərbaycan çox etibarlı tərəfdaş kimi tanınır. Biz bu gözəl reputasiyanı qazanmışıq və bundan sonra da öz xarici siyasətimizi bölgədə və dünyada əməkdaşlığın dərinləşməsinə yönəldəcəyik. Bizim xarici siyasətimiz sabitliyin möhkəmlənməsinə, bölgədə əməkdaşlığın dərinləşməsinə, sülhün bərqərar olunmasına yönəldilibdir. Bütün ölkələrlə çox gözəl, normal münasibətlərimiz var və Azərbaycanın iqtisadi, siyasi önəmi artdıqca, əlbəttə ki, bizə xaricdən olan maraq da artır.

Bildiyiniz kimi, bu yaxınlarda BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı aparılan səsvermə də bizim siyasi gücümüzü göstərmişdir. Azərbaycanın haqq işi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması məsələləri o qətnamədə təsdiq edilmişdir və BMT – dünyanın aparıcı beynəlxalq təşkilatı tərəfindən qəbul olunmuşdur. Bu bizim böyük diplomatik və siyasi qələbəmizdir. Bu bir tərəfdən, Azərbaycanın

artan nüfuzunu göstərir, çünki bizi dəstəkləyən ölkələr bizim haqlı olduğumuzu birmənalı şəkildə bəyan etdilər. Baxmayaraq ki, bəzi ölkələrə güclü təzyiqlər də göstərilmişdi. Digər tərəfdən, bu onu göstərir ki, dünya ictimaiyyəti bu məsələyə ədalətli yanaşır. Bizim işimiz haqq işidir. Biz münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunmasını tələb edirik və bu mövqedən geri çəkilməyəcəyik.

Qətnamədə Azərbaycanın işğal altındakı ərazilərinin işğalçılardan azad olunması, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi məsələlərinin öz əksini tapması, əlbəttə ki, bizim mövqeyimizi daha da gücləndirir.

Biz dəfələrlə bəyan etmişik və mən bu gün də bəyan etmək istəyirəm ki, bunun kənarında, bu çərçivələrin kənarında heç bir razılaşma mümkün deyildir. Dağlıq Qarabağın müstəqilliyi heç vaxt tanınmayacaqdır, dünya birliyi bu barədə bir daha öz mövqeyini bildirmişdir. Azərbaycan isə heç vaxt buna imkan verməyəcəkdir.

Bizim iqtisadi gücümüz artır, siyasi çəkimiz artır, ordu quruculuğuna böyük diqqət göstərilir. Bildiyiniz kimi, bu bizim üçün prioritet sahədir, dövlət xərclərimizin böyük bir hissəsi ordu quruculuğuna yönəldilibdir. Demək olar ki, orduya nəzərdə tutulan xərclər birinci yerdədir və biz bunu gələcəkdə də davam etdirəcəyik. Biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, yalnız və yalnız atəşkəs rejimi yaranmışdır.

Biz bundan sonra həm siyasi, həm də iqtisadi islahatları dərinləşdirəcəyik. Azərbaycanın çox gözəl imkanları, çox gözəl perspektivləri var. Biz öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik və bu gün bundan çox böyük iqtisadi mənfəət əldə edirik. Gələcəkdə Azərbaycanın qarşısında heç bir maddi problem olmayacaqdır. Bizim çoxşaxəli enerji siyasətimiz mövqeyimizi möhkəmləndirir, eyni zamanda, imkan verir ki, öz təbii ehtiyatlarımızı dünya

bazarlarına müxtəlif yollarla çıxaraq və beləliklə, bundan maksimum dərəcədə mənfəət götürək.

Növbəti illərdə Azərbaycanın uğurlu neft-qaz siyasəti davam etdiriləcəkdir. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri bizim tarixi nailiyyətlərimizdir. Bu layihələr imkan verəcək ki, bundan sonra uzun illər, onilliklər ərzində Azərbaycan xalqı yaxşı yaşasın, öz sosial vəziyyətini yaxşılaşdırsın və ölkəmizdə güclü iqtisadi potensial yaransın. Həm iqtisadi islahatların dərinləşməsi və həm də sosial məsələlərin həlli həmişə diqqət mərkəzində olmuşdur, bu gün də belədir.

Bununla bərabər, biz nəhəng nəqliyyat layihələri həyata keçirmək arzusundayıq və bunu edirik. Bizim təşəbbüsümüzlə bu il Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi başlanmalıdır. Bu da böyük tarixi qələbədir. Bu layihənin həm iqtisadi, həm siyasi baxımdan, həm də regional əməkdaşlıq baxımından əhəmiyyəti çox böyükdür və gələcəkdə Azərbaycana çox böyük xeyirlər gətirəcəkdir.

Azərbaycanın bütün bölgələri inkişaf edir. Mən bölgələrə tez-tez gedir, vəziyyətlə tanış oluram və görürəm ki, işsizlik aradan qaldırılır, yoxsulluq aşağı düşür, abadlıq-quruculuq işləri aparılır. Bölgələrimizdə müasir infrastruktur layihələri həyata keçirilir və beləliklə, Azərbaycan hərtərəfli şəkildə inkişaf edir. Biz böyük neft-qaz sərvətlərinə malikik. Amma bizim məqsədimiz odur ki, qeyri-neft sənayesini, iqtisadiyyatın qeyri-neft sahəsini inkişaf etdirək. İqtisadiyyat çoxşaxəli olsun, neft amilindən, neftin qiymətindən asılı olmasın və güclü qeyri-neft potensialı yaransın.

Sahibkarlığın inkişafı, kənd təsərrüfatının inkişafı, bölgələrin inkişafı– bütün bunlar reallıqdır. Son illər ərzində qəbul edilmiş proqramların hamısı icra olunur, verilmiş vədlərin hamısı həyatda öz əksini tapır. Azərbaycan güclü ölkəyə çevrilir. Biz artıq başqa ölkələrin enerji təhlükəsizliyi məsələlərində iştirak edirik və bunu genişləndirəcəyik.

Azərbaycan enerji resursları və onların nəqli baxımından Avropa üçün çox önəmli ölkəyə çevrilir və əlbəttə, bu amil Avropa ilə münasibətlərimizin inkişafında mühüm rol oynayır. Əlbəttə, biz bundan istifadə edəcəyik ki, əməkdaşlıq dərinləşsin və Azərbaycanda istər siyasi, istər iqtisadi, istərsə də sosial sahədə mövcud olan bütün meyarlar Avropa İttifaqının meyarlarına yaxınlaşsın və ona uyğunlaşsın. Biz bu işləri görmək üçün «Yeni qonşuluq siyasəti» proqramına qoşulmuşuq. Baxmayaraq ki, bizim qoşulmağımızın səbəbləri heç də maddi səbəblər olmamışdır. Biz nə iqtisadi cəhətdən, nə maddi cəhətdən, nə də siyasi cəhətdən heç kimdən asılı ölkə deyilik. Sadəcə olaraq, biz istəyirik ki, dünyada mövcud olan ən yaxşı təcrübəni, bizim şəraitə uyğun olan təcrübəni Azərbaycanda da tətbiq edək ki, güclü vətəndaş cəmiyyəti yaransın, demokratiya tam şəkildə bərqərar olunsun, iqtisadi, siyasi azadlıqlar möhkəmlənsin və Azərbaycan müasir ölkəyə çevrilsin.

Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bunu etmək üçün bütün imkanlar var. Siyasi iradə var, xalqla iqtidar arasında vəhdət var. Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət, sabitlik, əmin-amanlıq mövcuddur. Biz indi başqa ölkələrdə, yaxın qonşuluqda baş verən hadisələri izləyirik və görürük ki, inkişaf olmayan yerdə sabitlik də yoxdur və əksinə, əmin-amanlıq, sabitlik olmayan yerdə, xalqla iqtidar arasında vəhdət olmayan yerdə inkişafdan da söhbət gedə bilməz.

Bizim gələcəyimiz çox parlaq olacaqdır, qarşımızda bütün yollar açıqdır. Biz irəliyə, müasirliyə, inkişafa, tərəqqiyə doğru gedirik və çox istəyirəm ki, tezliklə bütün istəklərimizə nail olaq. Bizim qəbul etdiyimiz proqramlar, əlbəttə ki, bir müddət vaxt aparacaqdır. Mən çox istəyirəm ki, biz bunu tezləşdirək. Ən yaxın zamanlarda Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar, ən yaxın zamanlarda Azərbaycan daha da möhkəm ölkəyə çevrilsin.

Biz bu gözəl bahar bayramında Bakının tarixi binalarının yeni simasını görürük. Bildiyiniz kimi, Bakının tarixi yerlərinin qorunması, təmiri, bərpası üçün mən xüsusi sərəncam imzalamışam və çox böyük quruculuq, abadlıq işləri aparılır, tarixi binalar təmir edilir. Bizim üçün, Bakı sakinləri üçün əziz olan yerlər bərpa olunur. Gözəl parklar salınır, abadlıq işləri aparılır. Bakı həm gözəllik baxımından, həm də rahatlıq, infrastruktur baxımından dünyanın ən yaraşıqlı şəhərlərindən birinəçevriləcəkdir. Biz öz qədim tariximizi qoruyuruq, ancaq eyni zamanda, dünyanın ən müasir standartlarını Azərbaycanda və Bakıda tətbiq edirik.

İçərişəhər tarixi kompleksinin qorunması üçün lazımi tədbirlər görülmüşdür. Qədim tariximiz olan İçərişəhəri qorumalıyıq və abadlaşdırmalıyıq. Bu yaxınlarda bakılıların sevimli yeri olan Milli Parkın yenidən qurulması, təmiri və onun əvvəlki vəziyyətinə qaytarılması üçün lazımı işlər görülübdür. Əminəm ki, bir il ərzində Milli Park dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir. Biz bunu edəcəyik. Başqa yerlərdə, həm şəhərimizin tarixi yerlərində, həm də şəhər kənarında abadlıq-quruculuq işləri aparılır, inkişaf gedir.

Əziz dostlar, bu gözəl gündə biz bir daha əminliklə deyə bilərik ki, Azərbaycan dövləti öz müstəqilliyini möhkəmləndirir, ölkəmiz inkişaf yolu ilə gedir. Azərbaycan dünyada böyük hörmətə malik bir ölkədir. Bizim iqtisadi və sosial siyasətimiz insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilibdir. Öz tarixi keçmişimizə, öz milli adət-ənənələrimizə çox böyük hörmətlə yanaşırıq. Biz mədəniyyət sahəsində böyük işlər görürük. Bütün teatrlar, muzeylər təmir olunur, yeni muzeylər, yeni teatrlar tikiləcəkdir. Bir sözlə, Azərbaycan uğurla inkişaf edir. Bu inkişaf davam etdiriləcəkdir. Bunu etmək üçün Azərbaycanda vətəndaş birliyi daha da möhkəmlənməlidir və bu belə də olacaqdır.

Mən bu əziz gündə bütün Azərbaycan xalqını gözəl bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik etmək, cansağlığı, xoşbəxtlik arzulamaq istəyirəm.

Bayramınız mübarək olsun!

***

*Sonra dövlətimizin başçısı meydana toplaşan sakinlərlə səmimi görüşdü. Buraya toplaşan paytaxt sakinləri dövlət müstəqilliyimizin verdiyi bəhrələrdən olan Novruza ümumxalq bayramı mahiyyəti qazandıran, xalqımızın adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə yüksək qiymət verən ulu öndəri rəhmətlə andılar və prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı ürəkdən təbrik etdilər.*

*Prezident İlham Əliyev İçərişəhərdə keçirilən Novruz şənliklərində də iştirak etdi. Bakının ayrı-ayrı rayonlarının buraya toplaşan nümayəndələri prezidenti hərarətlə salamladılar. Dövlətimizin başçısı Bakı sakinləri və şənlik iştirakçıları ilə mehribancasına görüşərək, hal-əhval tutdu, onları bayram münasibətilə təbrik etdi. Bahar qız prezidenti xalqımızın qədim el bayramı münasibətilə bir daha ürəkdən təbrik etdi, Azərbaycanın xoşbəxt gələcəyi, firavanlığı, ölkəmizin dirçəlişi və ərazi bütövlüyünün bərpası naminə gördüyü işlərdə ona uğurlar arzuladı.*

*İncəsənət ustaları, bədii özfəaliyyət kollektivləri xalqımızın adət-ənənələrini, qədim el sənətlərini nümayiş etdirdilər, «Kosa, Keçəl və Bahar qız» tamaşasını göstərdilər, rəngarəng konsert proqramı ilə çıxış etdilər. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Şənlik iştirakçıları qədim xalq mahnılarını, aşıq havalarını və muğam dəsgahlarını ifa edir, milli musiqinin sədaları altında rəqs edirdilər.*

*Prezident İlham Əliyev meyxanaçıların ifasını dinlədi, Novruz şənliklərinin elementlərindən olan xoruz döyüşünə maraqla tamaşa etdi. Dövlətimizin başçısına milli papaq,*

*xanımına isə kəlağayı hədiyyə olundu, onların bədnəzərdən uzaq olması üçün el adətincə üzərlik yandırıldı. Prezidenti özlərinə xas sevinclə salamlayan paytaxtın balaca sakinləri unudulmaz Heydər babaya, Vətənə və dövlətimizin başçısına həsr olunmuş mahnılar ifa etdilər.*

*Sonra prezident İlham Əliyevi Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar. Kosa dövlətimizin başçısına müraciətlə dedi:*

– Cənab Prezident, bayramınız mübarək. Mən bu Keçəl ilə birlikdə Sizi və ailənizi xalqımızın müqəddəs Novruz bayramı münasibətilə təbrik edir, Sizə cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər və ölkəmizə əmin-amanlıq arzulayıram. Novruz bayramı ulu öndərimizin səyi nəticəsində rəsmən ümumxalq bayramına çevrilmişdir. İndi prezidentimizin sayəsində xalqımız gözəl şənlənir.

Bu Keçəl ilə respublikamızı qarış-qarış gəzmişik. Vallah, o qədər dəyişikliklər baş verir, quruculuq işləri o qədər sürətlə gedir ki, hətta getdiyimiz yerləri tanımaq olmur, bəzən azırıq. Bakıda yeni körpülər, binalar tikilir, şəhərimiz necə də abadlaşır, gözəlləşir, yaxşılaşır.

– Cənab Prezident, Azərbaycan neftinin, qazının Avropaya ixracı Sizin zəhmətinizin bariz nümunəsidir. Beş il bundan əvvəl demişdim ki, ulu öndərimizin layiqli davamçısı İlham Əliyevin çiyninə dövlət quşu qonacaq, prezident seçiləcəkdir və seçildiniz. İndi də qarşıdan gələn seçkilərdə xalqımız Sizə dayaq duraraq, yekdilliklə prezident vəzifəsinə seçəcəkdir. Prezidentimiz həmişə qalib gəlib və gələcəkdir.

*Kosa və Keçəl arzu və istəklərinin çin olması üçün prezidentlə və onun xanımı ilə yumurta döyüşdürdülər.*

*Bakının müxtəlif rayonlarından gəlib Novruz şənliyində iştirak edənlər dövlətimizin başçısını səmimiyyətlə salamladılar. Prezident İlham Əliyev burada təndirdə kabab və çörək bişirilməsinə, ipəyirmə, naxışvurma, xalçatoxuma və digər qədim el sənətlərinin nümayişinə baxdı, kəndirbazın çıxışına maraqla tamaşa etdi, bişirilən yeməklərdən daddı. Daha sonra*

*aşıqlar prezidentin şərəfinə mahnı oxudular. Dünya memarlığının gözəl nümunələrindən olan qədim Qız qalası ətrafında folklor və rəqs qruplarının çıxışı da maraqla qarşılandı. Burada Azərbaycanın qədim el sənəti nümunələrindən ibarət sərgi də açılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgiyə çıxarılmış və milli varlığımızı, ulu baba və nənələrimizin mənəvi aləminin zənginliyini, sənətkarlığın ən incə çalarlarını nümayiş etdirən xalı-xalçalara, kilimlərə, geyim dəstlərinə, oyuncaqlara, daşdan, dəmirdən, ağacdan və sapdan hazırlanmış müxtəlif sənətkarlıq nümunələrinə baxdılar.*

*Dövlətimizin başçısı bayram şənliyinə gəlmiş Bakı sakinlərinə və paytaxtın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.*

*Novruz bayramı münasibətilə keçirilən şənliklərdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «İNTERFAKS» AGENTLİYİNƏ MÜSAHİBƏSİ

***– Möhtərəm İlham Heydər oğlu, oktyabr ayında Azərbaycanda prezident seçkiləri keçiriləcək. Siz bu gün ölkədəki vəziyyəti necə qiymətləndirərdiniz? Azərbaycanı nə gözləyir, bu barədə Sizin planlarınız necədir?***

– Əvvələn, ölkənin inkişafının gələcəyini planlaşdırmaq üçün biz 2003-cü ildən bəri hesabat dövründə görülmüş işləri əsas götürməliyik. Dörd ildən bir qədər artıq müddətdə ölkədə sürətli iqtisadi yüksəliş müşahidə olunur. Son bir neçə ildə ÜDM-in artım sürətinə görə Azərbaycan dünyada liderdir, dörd ildə ÜDM 96 faiz artmışdır. Bu bizə kifayət qədər maliyyə ehtiyatları toplamağa və fəal sosial siyasət yeritməyə imkan vermişdir. Bu sanballı rəqəmlərlə yanaşı, mənim üçün bəlkə də ən əhəmiyyətlisi odur ki, ötən dörd ildə ölkədə yoxsulluğun səviyyəsi 49 faizdən 16 faizə düşmüşdür. Bu ilk növbədə, onu göstərir ki, bizim apardığımız bütün islahatlar ən əvvəl vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir. Digər tərəfdən, Azərbaycanın neft və qaz hasil edən ölkə olduğunu nəzərə alsaq, bu fakt onu göstərir ki, neft satışından əldə edilən gəlirlər bərabər şəkildə bölüşdürülür. Əks halda, yoxsulluğun səviyyəsi nəinki azalmaz, hətta artardı. Biz praktik olaraq, işsizliyin aradan qaldırılması istiqamətində böyük uğurlar qazanmışıq. Son dörd ildə 650 mindən çox iş yeri yaradılmışdır ki, bunların da 450 mindən çoxu daimi iş yerləridir. 8,5 milyon əhalisi olan ölkə üçün bu, kifayət qədər yüksək göstəricidir. İri infrastruktur layihələri reallaşdırılır, bu gün neft strategiyasını uğurla həyata keçirən Azərbaycan öz neftini üç ölkənin – Rusiya, Gürcüstan və Türkiyə ərazisindən keçən üç boru kəməri vasitəsilə ixrac etmək imkanına malikdir.

Bundan əlavə, Azərbaycan qazını tarixdə ilk dəfə dünya bazarına çıxaran kəmər inşa edilmişdir.

Sosial sahədə çox şeydən – investisiyalar, səhiyyə, təhsil barədə danışmaq olar. Son 4 ildə 1200 məktəb tikilmiş, onların hamısı kompyuterləşdirilmişdir. Səhiyyəyə, insanları narahat edən digər məsələlərə – infrastruktura, elektrik stansiyalarına, su, qaz kəmərlərinə, ekoloji proqramlara böyük vəsait qoyuruq. Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, onunla bağlı proqram olmasın.

Biz seçkilərə bu nəticələrlə gedirik. Mənim prezident kimi deməyə, hesabat verməyə sözüm var. Mən verdiyim vədlərin hamısını yerinə yetirmişəm. Onu da deyim ki, bəzi vədlərim kimlərəsə real görünmürdü. Məsələn, 2003-cü ildə prezident seçkiləri ərəfəsində mən deyirdim ki, ölkədə 600 min iş yeri yaradılacaq. Çoxları təəccüblənirdi ki, beş il ərzində bunu etmək necə mümkün olacaq. Biz isə buna nail olduq. Mən demişdim ki, beş ildən sonra ölkəmizdə bir dənə də çadır düşərgəsi qalmayacaqdır. Həmin düşərgələrdə isə on minlərlə insan yaşayırdı. On iki çadır düşərgəsindən axırıncısı bu il ləğv edilmişdir, bütün qaçqın və məcburi köçkünlər yeni evlərə köçürülmüşlər.

Lakin bütün bunlar ötən müddətdə görülmüş işlərdir, bu gün isə biz artıq gələcək haqqında, ölkəmizin beş il sonra necə olacağı barədə fikirləşirik. Biz sadəcə, əhalinin maddi rifahının artırılması vəzifəsini qarşıya qoymuruq, inkişaf etmiş ölkəyə çevrilmək vəzifəsini qarşıya qoyuruq və buna nail olmaqdan ötrü potensial var. Əvvələn, intellektual potensial, ikincisi, iqtisadi potensial. Biz ölkəmizin enerji təhlükəsizliyi məsələsini tam həll etmişik və artıq başqa ölkələrin enerji təhlükəsizliyini də təmin edirik. Ən yaxın illərdə – əvvəllər bu müddətin 20 il olacağını deyirdik, indi isə 10 il deyə bilərik – enerji layihələrinin həyata keçirilməsindən yüz milyardlarla dollar gəlir gözləyirik. Bütün bunlar həm iqtisadi, həm də siyasi islahatları həyata keçirməyə, ölkəmizin beynəlxalq mövqelərini möhkəmlətməyə və gələ-

cəyə inamla baxmağa imkan verir. Gələcəkdə biz Azərbaycanı inkişaf etmiş, demokratik dövlət kimi, insanların sülh, qarşılıqlı anlaşma və sosial ədalət şəraitində yaşadığı müasir dövlət kimi görürük. Mən Azərbaycanı belə bir ölkə kimi görmək istəyirəm və buna nail olmaq üçün bizim hər cür imkanımız var. Xalqın iradəsi var, sabitlik var, cəmiyyət və iqtidar arasında birlik var. Əhalinin dəstəyi olmasaydı, bizim proqramların heç biri həyata keçirilə bilməzdi. Ölkəmizdə maliyyə ehtiyatları var, sabitlik var, qonşularımızla yaxşı münasibətlər yaratmışıq, bu da hər bir ölkəüçün vacibdir. Buna görə də mən Azərbaycanın gələcəyinə nikbinliklə baxıram və Azərbaycanın çox parlaq gələcəyinə əminəm.

***– Bu sual Azərbaycanın NATO-ya inteqrasiyasının mümkünlüyü ilə bağlıdır. Məlumat var ki, Siz Buxarestə, NATO-nun aprel sammitinə gedə bilərsiniz. Ümumiyyətlə, NATO-ya inteqrasiyanın mümkünlüyü mövzusu mövcuddur. Sizin buna münasibətinizi bilmək istərdik.***

–Keçmiş SSRİ məkanındakı dövlətlərin bir çoxunun başçıları kimi, mən də NATO-nun Buxarestdə keçiriləcək sammitinə dəvət edilmişəm və orada iştirak etməyə hazırlaşıram. Bildiyimə görə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətlərin başçıları da həmin zirvə toplantısında iştirak etməyi planlaşdırırlar. NATO-nun zirvə toplantısında əvvəllər də iştirak etmişəm və ümumiyyətlə, bu iştirak hansısa ölkənin həmin təşkilatın üzvü olmağa çalışmasının göstəricisi deyildir. Biz NATO ilə kifayət qədər çoxdan əməkdaşlıq edirik. Əvvəllər «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlıq edirdik, indi isə fərdi tərəfdaşlıq planı mərhələsinə keçmişik. Biz Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edirik. Yaxın vaxtlara qədər bizim sülhməramlı kontingentimiz Kosovoda da iştirak edirdi, lakin həmin regionda siyasi vəziyyət dəyişəndən sonra parlament mənim təqdimatım əsasında sülhməramlı qüvvələrimizin Kosovodan geri çağırılması haqqında qərar

qəbul etmişdir. NATO ilə əməkdaşlığımız kifayət qədər müsbət xarakter daşıyır. Bu əməkdaşlıq bizə bu sahədə islahatlar aparmağa imkan verir və əməkdaşlığın bugünkü səviyyəsi bizi qane edir.

Azərbaycan bunu əsas götürür ki, hər hansı təşkilatda üzvlük qarşılıqlı razılıq əsasında həyata keçirilməlidir, biz özümüzü kiməsə zorla qəbul etdirmək fikrində deyilik. Bizim Avropa İttifaqı ilə dəəməkdaşlığımız səmərəlidir. Cənubi Qafqazın başqa ölkələri kimi, Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı çərçivəsində əməkdaşlıq edir. Avropaya inteqrasiya planı baxımından da, əgər bu təşəbbüs Avropa İttifaqı tərəfindən irəli sürülmüş olsa, əlbəttə, biz onu nəzərdən keçirəcəyik. Əks halda, özümüzü zorla qəbul etdirmək fikrində deyilik. Biz öz təhlükəsizliyimizi özümüz təmin edirik, həm iqtisadi, həm siyasi və həm də enerji baxımından özümüzü tam təmin edə bilən ölkəyik. Ona görə də biz bunu əsas götürürük ki, münasibətlər bərabərhüquqlu olmalıdır, qarşılıqlı hörmət və qarşılıqlı mənafelər əsasında qurulmalıdır. NATO ilə əməkdaşlığın səviyyəsi hazırda bizi qane edir. Sonra nə olacağını, dünyada hadisələrin necə inkişaf edəcəyini, bizim regionda hansı proseslər gedəcəyini qabaqcadan söyləmək çətindir. Buna görə də bugünkü vəziyyəti əsas götürsək, Azərbaycanın NATO-ya üzvlük məsələsi gündəlikdə deyildir.

***– Siz hərbi məsələyə toxundunuz. Azərbaycan Silahlı Qüvvələrinin vəziyyətini necə qiymətləndirirsiniz?Mümkünsə, silah alınması barədə bir qədər məlumat almaq istərdik. Kifayət qədər böyük rəqəm səslənir, hərbi büdcə bir milyard dollara bərabərdir. Mən belə başa düşürəm ki, silah almaq planları elə bir mövzudur ki, o bütün dünyada diqqəti cəlb edir.***

– Bəzən bizim hərbi xərclər Azərbaycan büdcəsinin ümumi xərcləri kontekstindən çıxarılır ki, bu o qədər də ədalətli yanaşma deyildir. Biz həmişə obyektivliyin tərəfdarıyıq. Deməliyəm ki, son dörd ildə Azərbaycan büdcəsinin xərcləri 10 dəfə artmışdır və bunun özü də nadir göstəricidir.

Büdcəmiz 2003-cü ildəki 1 milyard 300 milyon dollardan artaraq, 2008-ci ildə icmal büdcə 12 milyard dollara çatmışdır. Bu ilin yazında biz büdcənin artırılması məsələsinə yenidən baxılması ilə bağlı parlamentə müraciət etməyi planlaşdırırıq. Buna görə də təəccüblü deyil ki, son dörd ildə Azərbaycanın hərbi xərcləri də əhəmiyyətli dərəcədə artmışdır. Sizin dediyiniz 1 milyard dollar 2007-ci ilə aiddir, 2008-ci ildə hərbi xərclər hələlik 1 milyard 300 milyon dollardır, lakin onu artırmağı planlaşdırırıq.

Beləliklə bu, obyektiv prosesdir. Təhsil sahəsində də eyni vəziyyəti müşahidə edirik, təhsilə bir milyard dollar sərf olunur, halbuki dörd il bundan əvvəl bu rəqəm xeyli az idi. Yəni bütün bunlar, təbii ki, ölkənin iqtisadi imkanlarının artması hesabına baş verir. Üstəlik, onu da nəzərə almalıyıq ki, biz Ermənistanla müharibə vəziyyətindəyik, torpaqlarımız işğal edilmişdir. On ildən artıq müddətdir ki, apardığımız danışıqlar heç bir nəticə verməmişdir. Əlbəttə, mövqelərin hansısa şəkildə yaxınlaşması baxımından irəliləyiş olmasını söyləyə bilərik, mən heç də demirəm ki, danışıqlar prosesinin imkanları tamamilə tükənmişdir. Müəyyən müsbət məqamlar vardır, bəzi bəndlər üzrə biz irəliləyişə nail olmuşuq. İlk növbədə, Ermənistan başa düşmüşdür ki, Azərbaycanın işğal olunmuş bütün əraziləri azad edilməlidir və bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Düzdür, bəzi erməni siyasətçiləri danışıqlar prosesinin və münaqişənin tam həlli maketinin mahiyyətini təhrif etməyə çalışırlar, lakin bu maket belə olmalıdır: Azərbaycanın işğal edilmiş yeddi rayonu azad olunmalı, bütün qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıtmalı və gələcəkdə Dağlıq Qarabağın statusu məsələsi həll edilməlidir. Bu statusun nədən ibarət olacağını isə gələcək göstərəcəkdir. Lakin biz Azərbaycanın ərazi bütövlüyü çərçivəsindən kənarda heç bir statusu qəbul etməyəcəyik. Düşdüyümüz vəziyyət, torpaqlarımızın işğal altında olması, əlbəttə ki, bizi hərbi xərcləri artırmağa məcbur edir

və həmin xərcləri artırırıq. Bizim silah aldığımız ölkələr arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan ölkələr də var. Təbii ki, başqa ölkələrdən də texnika və silahlar alırıq. Bu yaxınlarda biz Müdafiə Sənayesi Nazirliyi yaratmışıq, hərbi təyinatlı məhsullar istehsal etməyə başlamışıq və bunu genişləndirəcəyik. Hazırda böyük maliyyə resurslarımızın olması, təbii ki, bizə yeni sahələr yaratmağa imkan verir. Biz metallurgiyada, alüminium sənayesində yeni sahə yaradırıq. Bu məqsədlərə bir neçə milyard dollar sərf ediləcəkdir. Başqa sahələrdə də bu proses başlanmışdır. Biz təhlükəsizliyimizi təmin edəcək güclü hərbi-sənaye kompleksi yaradırıq və yaradacağıq.

***– İlham Heydər oğlu, çox sağ olun. Sonuncu sual. Mümkünsə, BMT-nin qətnaməsini şərh edərdiniz.***

– Biz bu qətnaməni Azərbaycanın növbəti diplomatik və siyasi uğuru hesab edirik. Ən böyük və önəmli beynəlxalq təşkilat olan BMT Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməli olduğu prinsipləri bir daha təsdiq etmişdir: ərazi bütövlüyü, Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində doğma yurdlarından qovulmuş bütün qaçqınların və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli. Yəni qətnamə beynəlxalq hüququn bütün norma və prinsiplərinə tamamilə uyğundur və mənim fikrimcə, danışıqlar prosesinin ruhunu, mahiyyətini tam əks etdirir. Biz qətnamənin qəbul olunacağına şübhə etmirdik və çox şadıq ki, o qəbul edilmişdir. Əlbəttə ki, bizi dəstəkləmişölkələrin hamısına minnətdarlığımızı bildiririk. Avropa İttifaqına gəldikdə isə, bizə məlum olduğu kimi, Avropa İttifaqının üzvü olan ölkələr səsvermədə bitərəf qalmaq barədə razılaşdırılmış qərar qəbul etmişdilər. Bu ona görə baş vermişdir ki, Avropa İttifaqı digər məsələlər kimi, xarici siyasətlə bağlı məsələlərdə də yüksək intizama malikdir.

Lakin bizim əleyhimizə səs vermiş ölkələrin mövqeyi təəccüb doğurur. Xüsusən ona görə ki, bu ölkələr arasında

Minsk qrupunun həmsədrləri, münaqişənin tənzimlənməsində vasitəçilik edən Fransa, Rusiya və ABŞ da var. Səsvermədən sonra bu ölkələrin rəsmi nümayəndələrinin verdikləri izahatlar müsbət xarakter daşıyır. Həmsədr ölkələr Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləmiş, onlar bir daha bəyan etmişlər ki, Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımırlar. Ümumiyyətlə, bu mövqe əvvəldən də məlum idi. Lakin biz bu izahatları səsvermədə anlaşılmaz və mənim fikrimcə, düşünülməmiş addım nəticəsində Azərbaycan xalqının qəlbində qalmış xoşagəlməz hissləri bir qədər yumşaltmaq cəhdi hesab edirik. Mən belə hesab edirəm ki, həmin ölkələr vasitəçilər kimi, bitərəf mövqe tutmalı idilər. Biz onların qətnamənin lehinə səs verəcəyini gözləmirdik və düşünürdük ki, onlar bitərəf qalacaqlar. Ona görə də indiki vəziyyətdə danışıqlar prosesinin gələcəyi həm də danışıqlar prosesinə cəlb edilmiş ölkələrlə vasitəçilər arasında etimadın səviyyəsindən asılı olacaqdır. Deməliyəm ki, qətnamənin əleyhinə səs verilməsi etimadı nəinki artırmamış, əksinə, ona ciddi xələl gətirmişdir. Qətnamə layihəsində danışıqlar prosesinin bütün bəndlərinin əks olunmaması kimi izahatlar isə tamamilə əsassızdır, belə ki, BMT-yə təklif olunmuş qətnamədə belə bir bənd var idi ki, biz Minsk qrupunun səylərini, tənzimləmə prinsiplərinə sadiqliyi dəstəkləyirik. Ona görə də bu cür dəlillər əsassızdır, onlar məsələdən xəbərdar olmayan adamlar üçün nəzərdə tutulmuşdur.

Lakin Minsk qrupu danışıqlar prosesinin ruhuna və müzakirə mövzusuna, daha dəqiq desək, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, qaçqınların öz yurdlarına qaytarılması, eləcə də münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması məsələsinə heç vaxt etiraz etməmişdir. Əgər onlar danışıqlar prosesinin detallarını açıqlamaq istəyirlərsə, qoy bunu axıra qədər açıqlasınlar. Dağlıq Qarabağın Azərbaycandan nə vaxtsa, 5 ildən, 10 ildən, 100 ildən sonra hansısa plebistsit yolu ilə və ya hər

hansı başqa şəkildə ayrılması məsələsi heç vaxt danışıqların mövzusu olmamışdır və olmayacaqdır.

Səsvermə onu da göstərdi ki, həmsədr ölkələrdən bəziləri BMT-nin üzvləri arasında fəal lobbiçilik edərək və təbliğat apararaq, həmin ölkələri öz tərəflərinə cəlb etməyə çalışsalar da, bu cəhd baş tutmamışdır. Həmsədr ölkələr – dünyanın aparıcı ölkələridir, nüvə dövlətləri, BMT Təhlükəsizlik Şurasının üzvləridir. Kim onların mövqeyini dəstəklədi? Vanuatu? Yaxud Anqola? Bu, dünya ictimaiyyətinin əhval-ruhiyyəsinin göstəricisi, hər halda, dünyada haqq-ədalətin olmasının göstəricisi idi. Buna görə də mən bir daha demək istəyirəm ki, səsvermənin yekunları bizi qane edir. Biz bu mövqedən bircə addım da geri çəkilməyəcək və çalışacağıq ki, danışıqlar prosesi gələcəkdə müsbət məcrada getsin. Lakin, əlbəttə, Ermənistanın mövqeyi, Ermənistan rəhbərliyinin sülh prosesinə nə dərəcədə sadiq olacağı məsələsində hələlik bizdə aydınlıq yoxdur. Ermənistan tərəfi qoşunların təmas xəttində vəziyyəti kəskinləşdirməklə dünya ictimaiyyətinin diqqətini bu ölkədə gedən daxili siyasi proseslərdən yayındırmağa cəhd göstərdi, lakin buna nail ola bilmədi. Ona görə də biz danışıqlar prosesi barədə müəyyən fikir deyə bilmərik. Çünki biz bilirik ki, indi Ermənistan cəmiyyətində parçalanma baş vermişdir, orada birlik, o cümlədən münaqişənin tənzimlənməsi məsələsi barədə fikir birliyi yoxdur. Belə şəraitdə biz, sadəcə olaraq, orada hadisələrin necə inkişaf edəcəyini və Ermənistan rəhbərliyinin məsul qərarlar qəbul etməyə nə dərəcədə qadir olacağını müşahidə etməliyik. Lakin mən hesab edirəm ki, bu cür qərarlar qəbul etməyin vaxtıdır. Qarşıdurmanın nəticələrini və hər iki ölkənin inkişaf səviyyəsini nəzərə alsaq, bu qarşıdurmada kimin qalib gəldiyini söyləmək mübahisəli məsələdir.

Müharibə hələ qurtarmayıb, onun birinci mərhələsi başa çatıbdır. Lakin 1994-cü ildən bəri davam edən atəşkəs kimin real müstəqilliyi qoruyub saxlamağa, tərəqqi və inkişaf yoluna qədəm qoymağa nail olduğunu və kimin ölkəni xaosa, və-

təndaş müharibəsinə sürüklədiyini, kimin öz xalqının qanını axıtdığını göstərdi. Qan üstündə hakimiyyətə gələnlər, bir qayda olaraq, elə qan tökməklə də hakimiyyətdən gedirlər. Ermənistanda istər seçkilər zamanı, istərsə də seçkilərdən sonra baş verən hadisələr həm də Ermənistanın Azərbaycana münasibətdə təcavüzkar işğalçılıq siyasətinin nəticəsidir. Əgər Qafqazda sülh olsaydı, əgər Ermənistan və Azərbaycan arasında müharibə vəziyyəti olmasaydı, yəqin ki, oradakı hadisələr başqa ssenaridə gedərdi. Hazırda iki ölkə arasındakı fərq bizim xeyrimizə artır, Ermənistanın və Azərbaycanın iqtisadi potensiallarını müqayisə etmək mümkün deyildir. Bu gün bizim iqtisadiyyatımızın həcmi Ermənistan iqtisadiyyatından ən azı, dörd-beş dəfə böyükdür. Bu gün bizim valyuta ehtiyatlarımız təqribən 8 milyard dollardır və bu il ərzində minimum iki dəfə artacaqdır. Bizim inkişaf perspektivlərimiz var, müvafiq proqramlarımız var, dünya bazarlarına çıxışımız var və özü-özünü təcrid edən ölkə deyilik. Əlbəttə, hər bir ölkə öz yolunu özü seçir. Biz demokratiya yolunu, sosial ədalət, regionda inteqrasiya proseslərinin inkişafı yolunu seçmişik və bu yolla uğurla irəliləyirik. Ermənistan isə təcridçilik, təcavüz, başqasının ərazilərini işğal etmək, beynəlxalq hüququn prinsiplərini pozmaq yolunu, etnik təmizləmə siyasətini seçmişdir. Bunun nəticəsinin nə olduğunu özünüz görürsünüz. Əgər onlar Xocalıda Azərbaycan xalqına qarşı soyqırımı törətmişdilərsə, Yerevanda seçkilərdən sonra erməni xalqının özünə qarşı cinayət törətdilər.

***– Müsahibəyə görə çox sağ olun.***

– Sağ olun.

Bakı, *20 mart 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ ULRİX FELDHOFU QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*29 mart 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Ulrix Feldhofu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda idmana göstərilən yüksək dövlət qayğısından danışılmış, ölkəmizdə idmanın bütün sahələrinin, o cümlədən kanoe idman növünün də inkişaf etdirildiyi qeyd olunmuşdur. Mingəçevirdəki avarçəkmə təlim-məşq bazasının dünya standartlarına uyğun şəkildə yenidən qurulmasının əhəmiyyəti vurğulanmış, orada bir sıra beynəlxalq yarışların və təlim-məşq toplanışlarının keçirilməsi üçün yaxşı imkanların yaradılacağına əminlik ifadə olunmuşdur.*

## DÖVLƏT FİLARMONİYASININ YERLƏŞDİYİ BAĞDA VƏ DƏNİZKƏNARI MİLLİ PARKDA BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*29 mart 2008-ci il*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə filarmoniyanın yerləşdiyi bağa gəldilər. Bakının ilk yaşıllıq zolaqlarından olan bu bağın əsası 1830-cu ildə qoyulmuş, 1859-cu ildə onun ərazisi genişləndirilmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, burada bərpa və yenidənqurma işləri ilə yanaşı, arxeoloji qazıntılar da aparılır. Ərazidə İçərişəhərin ikinci qala divarı və qala qapısı da aşkar olunmuşdur. Mütəxəssislərin fikrincə, bu, dəniz sularının altında qalan Səbayel qalasının İçərişəhərlə bağlı olması ehtimalını da istisna etmir. Dövlətimizin başçısına burada qədim su quyularının aşkar olunması barədə də məlumat verildi, onların bərpa edilərək, bulaq kompleksi kimi, əhalinin istifadəsinə veriləcəyi bildirildi.*

*Prezident İlham Əliyev və Mehriban xanım İçərişəhərin keçmişini əks etdirən foto şəkillə, qazıntılar zamanı tapılmış mədəniyyət nümunələri ilə də tanış oldular. Prezident bərpa və yenidənqurma işlərinin keyfiyyətlə görülməsini, maddi-mədəniyyət abidələrini diqqətlə bərpa etməyi tapşırdı.*

*Sonra dövlət başçısı və xanımı dənizkənarı Milli Parka gəldilər. Prezident İlham Əliyevin sərəncamı ilə burada geniş abadlıq və yenidənqurma işlərinə başlanılmışdır.*

*Dənizkənarı bulvar kimi tanınan parkın əsası 1909-cu ildə qoyulmuş, sonralar hər iki istiqamətdə genişləndirilmişdir. XX əsrin 70-ci illərində Bakı şəhərində yaşıllaşdırma və abadlaşdırma tədbirləri geniş vüsət alanda dənizkənarı bulvarda da*

*xeyli işlər görülmüşdür. 1998-ci il dekabrın 29-da prezident Heydər Əliyevin sərəncamı ilə bulvara Milli Park statusu verilmişdir. Hazırda parkın uzunluğu üç kilometr, sahəsi 70 hektardır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, parkda yeni çəmənliklər salınacaq, müxtəlif çeşidli gül kolları əkiləcək, ən müasir standartlara cavab verən yeni attraksionlar quraşdırılacaqdır. Dövlətimizin başçısı parkda abadlaşdırma və yenidənqurma işlərinin yüksək keyfiyyətlə görülməsi ilə bağlı tapşırıqlarını verdi.*

*Dövlətimizin başçısının rəhbərliyi ilə ölkənin paytaxtında həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri nəticəsində simasını günbəgün dəyişən Bakı nəinki regionun, ümumən dünyanın ən gözəl və abad şəhərlərindən birinə çevrilməkdədir. Bunu Azərbaycan paytaxtına gələn çoxsaylı xarici qonaqlar da etiraf edirlər.*

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər il olduğu kimi, bu il də sizə bütün dünya azərbaycanlılarının kədər və hüznlə qeyd etdiyi soyqırımı qurbanlarını anma günü – 31 Mart münasibətilə müraciət edirəm.

Təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirmişlər. Azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə mifik «Böyük Ermənistan» yaratmaq məqsədi ilə Azərbaycan və türk xalqları onilliklər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalmışlar. Xalqımızın tarixi kobud surətdə saxtalaşdırılmış, mədəniyyətimiz, toponimlərimiz ermənilər tərəfindən özününküləşdirilmişdir.

Soyqırımı siyasəti müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirilmiş, kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunmuşdur. XIX əsrin birinci yarısında İrandan və Osmanlı imperiyasından köçürülən ermənilər hesabına Qarabağ və Zəngəzurda demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905 və 1918-ci illərdə azərbaycanlı əhalinin kütləvi qırğınları, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948–53-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və sair faktlar soyqırımı tarixinin faciəli və qanlı səhifələridir.

1988-ci ildə erməni millətçiləri SSRİ rəhbərliyinin və xarici

havadarlarının təhriki ilə Dağlıq Qarabağı güclə Ermənistana birləşdirmək üçün Azərbaycana qarşı açıq təcavüzə başladılar və az sonra tammiqyaslı hərbi əməliyyatlara keçdilər. 1992-ci ilin fevralında erməni hərbi birləşmələrinin törətdiyi Xocalı faciəsi öz qəddarlığına və amansızlığına görə misli görünməmiş soyqırımı aktı insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

Siyasi-ideoloji təxribat və dezinformasiya sahəsində zəngin təcrübəsi olan erməni millətçiləri bu gün də bütün dünyada ölkəmiz və xalqımız əleyhinə təbliğat müharibəsi aparır, dünya ictimaiyyətini çaşdırmağa, Azərbaycan ərazilərinin işğalını unutdurmağa çalışırlar. Dünyada sivil birgə yaşayış və əməkdaşlıq prinsiplərinin getdikcə daha çox uğur qazandığı, hərtərəfli inteqrasiya proseslərinin geniş yayıldığı bir zamanda erməni millətçilərinin saxta soyqırımı təbliğatı və qonşu dövlətlərə ərazi iddiaları regionda sabitliyi və dünya düzənini pozmağa yönəlmiş dağıdıcı faktor rolunu oynayır, xalqları bir-birinə qarşı qoyur, milli və dini qarşıdurmanı təşviq edir.

Lakin Ermənistan dövlətinin və erməni lobbisinin təcavüzkar siyasəti iflasa məhkumdur. Son illərin təcrübəsi göstərir ki, erməni işğalçılarının və onların havadarlarının imkanları heç də qeyri-məhdud deyil və bu imkanlar getdikcə daralmaqdadır. Bu siyasətə qarşı geniş iqtisadi potensiala malik qüdrətli Azərbaycan dövləti, onun siyasi nüfuzu, dünya azərbaycanlılarının və Azərbaycanın dostlarının getdikcə möhkəmlənən həmrəyliyi, nəhayət, güclü Azərbaycan ordusu dayanır. Biz dünya siyasətinə ciddi təsiri olan böyük dövlətlərlə müntəzəm və məhsuldar iş aparır, onilliklər boyu formalaşmış stereotipləri, yanlış yanaşmaları dağıtmağa çalışır və çox hallarda buna müvəffəq oluruq. İkili standartlara və ermənipərəst qüvvələrin təzyiqlərinə baxmayaraq, beynəlxalq ictimaiyyət aşkar faktlar qarşısında həqiqəti daha tez-tez etiraf etməli olur. Soyqırımı qurbanlarını anma tədbirləri bütün dünyada getdikcə daha əzəmətli, daha mütəşəkkil xarakter alır və geniş əks-səda doğurur.

Bu gün Azərbaycan regionda və dünyada dinamik inkişaf edən dövlət olaraq, həm də əməkdaşlıq və tolerantlıq məkanı kimi qəbul edilir. Ölkədə sosial və milli-dini həmrəylik mövcuddur. Nə qədər ağır olsa da, biz soyqırımı faktlarından başqa xalqlara düşmənçilik və nifrət aşılamaq üçün istifadə etmək niyyətində deyilik. Biz yalnız tarixi ədalətin və həqiqətin bərpa olunmasını, dünyanın heç bir yerində belə faciəli hadisələrin təkrarlanmayacağına təminat verilməsini istəyirik. Bunun əksinə, işğalçı Ermənistanda iqtisadi və mənəvi-siyasi tənəzzül getdikcə dərinləşir, sosial problemlər və demoqrafik vəziyyət gərginləşir. Ermənistan təcavüzkar siyasəti ilə özünü bütün regional iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrindən təcrid etmişdir. Bu ölkədə baş verən siyasi böhran, antidemokratik proseslər onun rəhbərliyinin uzağı görməyən, təcavüzkar siyasətinin nəticəsidir, erməni xalqının geniş dairələrinin hakimiyyətə etimadsızlığının göstəricisidir. Ermənistan rəhbərliyi öz təcavüzkar və davakar siyasətindən nə qədər tez imtina etsə, qonşularla siyasətini əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsasında qursa, bu onun özü üçün bir o qədər yaxşı olar.

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Sizi əmin edirəm ki, xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağıq.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət, yaxınlarına səbir diləyir, xalqımıza səadət və tərəqqi arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 mart 2008-ci il*

## BEYNƏLXALQ ANTİKORRUPSİYA ORQANLARI ASSOSİASİYASI İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 mart 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 31-də Prezident sarayında Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev qonaqlara müraciətlə dedi:*

– Hörmətli qonaqlar, mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Mən çox şadam ki, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası İcraiyyə Komitəsinin iclası Bakıda keçirilir və əminəm ki, iclas çox uğurlu olacaqdır. Sizin təşkilatınız gəncdir. Ancaq qısa müddət ərzində dünyada çox böyük nüfuza malik olan təşkilata çevrilibdir. Mənə verilən məlumata görə, təşkilat 137 ölkəni birləşdirir və dünya miqyasında çox böyük beynəlxalq qurumdur.

Bizim üçün çox sevindirici haldır ki, Azərbaycan nümayəndəsi İcraiyyə Komitəsinin üzvü və təşkilatın vitse-prezidentidir. Bu bir tərəfdən, Azərbaycana olan hörmətin əlamətidir, digər tərəfdən, onu göstərir ki, Azərbaycan antikorrupsiya proqramlarının icrası işində çox böyük uğurlara nail olubdur. Bu istiqamətdə ölkəmizdə son illər ərzində çox böyük işlər görülübdür. 2004-cü ildə korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul olunmuş və Dövlət Pro-

qramı təsdiq edilmişdir. Azərbaycanda korrupsiyaya qarşı mübarizə üzrə komissiya yaradılmışdır. Komissiya bütün işləri istiqamətləndirir, təhlil edir və bu sahədə daha böyük nailiyyətlərin əldə olunması üçün əməli tədbirlər görür.

Bu sahədə bizim beynəlxalq əməkdaşlığımız da çox uğurla davam edir. Azərbaycan bu istiqamətdə aidiyyəti beynəlxalq təşkilatlarla birgə fəaliyyət göstərir. Bu fəaliyyət və habelə, ilk növbədə, Azərbaycanda bu sahədə görülən işlər nəticəsində son illər ərzində ölkəmizdə korrupsiyanın səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Biz hasilat sənayelərində şəffaflıq təşəbbüsünə ilk qoşulan ölkələrdən biriyik və bu sahədə çox böyük uğurlar əldə etmişik.

Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatının aparıcı seqmenti neft-qaz sahəsidir. Azərbaycan bu sahədəşəffaflığın təmin olunması üçün çox böyük və əhəmiyyətli addımlar atmışdır. Azərbaycanda fəaliyyət göstərən Dövlət Neft Fondu neft satışından əldə olunan bütün gəlirləri cəmləşdirir, onları şəffaf şəkildə saxlayır, vaxtaşırı beynəlxalq audit keçirilir. Neft Fondunun gəlirləri yalnız və yalnız parlamentin qərarı ilə xərclənir.

Azərbaycanın dövlət büdcəsi təsdiq ediləndə, eyni zamanda, Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlər müəyyən olunur və beləliklə, bütün əhali, bütün Azərbaycan xalqı parlamentdə öz nümayəndələri vasitəsilə bu vəsaitin xərclənməsində iştirak edir. Bu reallıq təkcə bizim sözlərdə, bəyanatlarda deyil, eyni zamanda, beynəlxalq təşkilatların Azərbaycana münasibətində də öz əksini tapır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu şəffaflığın təmin olunmasına görə yüksək mükafatla təltif edibdir. Bu, dediyim sözlərin çox gözəl göstəricisidir. Bununla bərabər, biz onu da etiraf etməliyik və edirik ki, korrupsiyaya qarşı mübarizədə hələ tam şəkildə qələbə çalmamışıq. Ancaq görülən tədbirlər, işlər nəticəsində artıq real, müsbətə doğru dəyişikliklər var və gələcək illərdə biz bu nailiyyətləri daha da möhkəmləndirəcəyik.

Bu sahədə çalışan insanlar kimi, sizə yaxşı məlumdur ki, korrupsiya yaradan müxtəlif amillər var. Əfsuslar olsun ki, bütün postsovet məkanında bu amillər kifayət qədər çox idi. İlk növbədə, bütün postsovet məkanında ölkələr müstəqillik əldə edəndə özəl sektor mövcud deyildi. Beləliklə, korrupsiyanı şərtləndirən planlı dövlət sisteminin gücü tam şəkildə bərqərar olmuşdu. Digər tərəfdən, bütün postsovet ölkələrində yoxsulluq çox böyük səviyyədə idi və bu da öz növbəsində korrupsiyanı şərtləndirən amillərdən biridir. İqtisadiyyata dövlət müdaxiləsi, demək olar ki, 100 faiz təşkil edirdi. Başqa amillər də vardı. Əlbəttə, biz indi görürük ki, coğrafi vəziyyətindən, yaxud da etnik mənsubiyyətindən asılı olmayaraq, bütün postsovet ölkələrində bu problem çox ciddi olmuşdur.

Biz korrupsiyaya qarşı mübarizədə müxtəlif amillərdən istifadə edirik. İlk növbədə, dediyim kimi, bunun üçün güclü qanunvericilik bazası yaradılmışdır, Dövlət Proqramı icra olunur, komissiya fəaliyyət göstərir və dövlət tərəfindən korrupsiyaya qarşı mübarizəyə çox böyük diqqət və dəstək var. Digər tərəfdən, inzibati tədbirlər görülür və vəzifədən asılı olmayaraq, korrupsiyaya qurşanmış dövlət məmurları cinayət məsuliyyətinə cəlb edilirlər. Onların arasında yüksək vəzifəli dövlət məmurları, nazirlər də vardır ki, bu da göstərir ki, bu mübarizədə heç bir ayrı-seçkiliyə yol verilmir. Kim korrupsiya ilə məşğuldursa, vəzifəsindən asılı olmayaraq, o cəzalandırılacaq və beləliklə, ədalət zəfər çalacaqdır.

Digər tərəfdən, özəl sektorun inkişafı özlüyündə korrupsiyanın səviyyəsini aşağı endirir. Hazırda Azərbaycan iqtisadiyyatının 80 faizindən çox hissəsi özəl sektorda formalaşır. Dövlət qurumlarının özəl sektora müdaxilə etməməsinə, demək olar ki, ciddi şəkildə nəzarət olunur və bu iş tənzimlənir. Yoxsulluğun azaldılması korrupsiyaya qarşı mübarizəyə çox böyük dəstəkdir və Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur. Son dörd il ərzində Azərbaycanda yoxsulluq şə-

raitində yaşayanların sayı 49 faizdən 16 faizə düşübdür. Cəmiyyətdə ictimai nəzarət daha da güclü olmalıdır.

Azərbaycanda bu istiqamətdə böyük işlər görülür, demokratikləşmə prosesi uğurla gedir. Azərbaycanda açıq cəmiyyət formalaşır, iqtisadi və siyasi islahatların icrası nəticəsində biz eyni zamanda, korrupsiyaya qarşı mübarizədə daha da fəal addımlar atmış oluruq. Beləliklə, demokratiya, liberal iqtisadi islahatlar, güclü ictimai nəzarət, dövlət proqramları, güclü qanunvericilik bazası və cəmiyyətdə korrupsiyaya qarşı mübarizənin fəallaşması– mən əminəm ki, bu amillər gələcək illərdə də Azərbaycanda korrupsiyanın səviyyəsini xeyli dərəcədə aşağı salacaq və ölkəmiz daha da uğurla inkişaf edəcəkdir.

Əziz döstlar, bir sözlə, mən bir daha sizi Bakıda ürəkdən salamlayıram. Bir daha demək istəyirəm, çox şadam ki, İcraiyyə Komitəsinin toplantısı məhz Bakıda keçirilir. Mən əminəm ki, iclas çox uğurlu, işgüzar şəraitdə keçəcəkdir. Eyni zamanda, bilirəm ki, bəziləriniz ilk dəfədir Azərbaycandasınız. Bu, gözəl fürsətdir ki, Bakı ilə, Azərbaycan ilə tanış olasınız və sizin aranızda əməkdaşlıq daha da güclənəcəkdir. Sizi bir daha salamlayıram və sizə xoş arzularımı bildirmək istəyirəm.

**Szya Çunvan** (*Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının prezidenti)*: – Hörmətli cənab Prezident, bizi səmimiyyətlə qəbul etdiyinizə və söylədiyiniz gözəl nitqə görə Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının İcraiyyə Komitəsi adından Sizə minnətdarlığımı bildirirəm. Siz korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın son illər ərzində əldə etdiyi nailiyyətlər haqqında geniş məlumat verdiniz. Bu gün səhər nümayəndə heyətimiz ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etdi, Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin tarixi haqqında məlumatlandırıldı.

Mən hələ 2003-cü ildə Azərbaycana səfər etmişdim. Bu mənim Azərbaycana ikinci səfərimdir. Son beş ildə Sizin rəh-

bərliyiniz altında Azərbaycanın əldə etdiyi böyük nailiyyətləri görməkdən çox şad oldum. 2006-cı ildə yaratdığımız təşkilatın əsas məqsədi BMT-nin korrupsiyaya qarşı Konvensiyasının həyata keçirilməsinə yardım göstərməkdən ibarətdir. Hazırda təşkilatın 130-dan çox üzvü var və onun qərargahı Pekində yerləşir. Çin ilə Azərbaycan arasında dostluq əlaqələri hələ qədim əsrlərdə, Böyük İpək Yolu vaxtlarından mövcud idi. Biz arzu edirik ki, iki ölkənin başçılarının rəhbərliyi altında bu münasibətlər gələcəkdə daha da inkişaf etsin.

## ATƏT-in BAKI OFİSİNİN BAŞÇISI XOSE LUİS HERRERO ANSOLA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Prezident sarayında ATƏT-in Bakı ofisinin başçısı Xose Luis Herrero Ansolanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ATƏT arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA SƏFƏRİ

*Heydər Əliyev Beynəlxalq Aeroportu*

*2 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də NATO-nun sammitində iştirak etmək üçün Rumıniyanın paytaxtı Buxarestə səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Rumıniyaya səfərə gəlmişdir.*

*Buxarest Beynəlxalq Hava Limanında prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rumıniya Xarici İşlər Nazirliyinin Dövlət katibi Mihay Georgiu və digər rəsmi şəxslər ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Buxarest, «Hilton» oteli*

*2 aprel 2008-ci il*

*NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də onun üçün ayrılmış iqamətgahda – «Hilton» otelində Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycan ilə Gürcüstanın regional əməkdaşlıq çərçivəsində əlaqələrinin genişlənməsindən məmnunluq ifadə olundu.*

*Dövlət başçıları qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini vurğuladılar.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Buxarest, «Hilton» oteli*

*2 aprel 2008-ci il*

*NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də onun üçün ayrılmış iqamətgahda – «Hilton» otelində ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*Buxarest, Parlament binası*

*3 aprel 2008-ci il*

*Aprelin 3-də Buxarestdə Parlament binasında Azərbaycan prezidenti İlham Əliyevin Latviya prezidenti Valdis Zatlers ilə görüşü olmuşdur.*

*Görüşdə iki ölkənin siyasi, iqtisadi və digər sahələrdə əlaqələrinin inkişafı vurğulandı. Bildirildi ki, Azərbaycan ilə Latviya Avroatlantik strukturlarına inteqrasiya istiqamətində və beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir.*

*Dövlət başçıları Azərbaycan və Latviyanın Avropanın enerji təhlükəsizliyi sahəsində əməkdaşlığını xüsusi vurğuladılar.*

## BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ (ISAF) TÖHFƏ VERƏN QEYRİ-NATO ÖLKƏLƏRİNİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ƏFQANISTANA DAİR BİRGƏ İCLASI

*Buxarest*

*3 aprel 2008-ci il*

*Aprelin 3-də Buxarestdə Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (ISAF) töhfə verən qeyri-NATO ölkələrinin dövlət və hökumət başçılarının Əfqanıstana dair birgə iclası keçirilmişdir.*

*NATO ölkələrinin dövlət və hökumət başçılarının, habelə Əfqanıstan prezidenti Həmid Kərzainin, BMT-nin Baş katibi Pan Gi Munun, Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun, Dünya Bankının və Yaponiya hökuməti nümayəndələrinin də iştirak etdikləri iclası NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer açmışdır. O demişdir ki, ötən 7 ildə Əfqanıstan böyük inkişaf yolu keçmiş, ölkədə böyük bərpa və quruculuq işləri aparılmış, təhlükəsizlik gücləndirilmiş, idarəçilik təsisatları möhkəmləndirilmişdir. Əfqanıstanın inkişafında bu iclasda iştirak edən tərəflərin hər birinin payı vardır.*

*Baş katib vurğulamışdır ki, Əfqanıstanın bu inkişafı ağrısız ötüşməmiş, əfqan xalqı qurbanlar, o cümlədən insan tələfatı vermişdir. Lakin beynəlxalq ictimaiyyət Əfqanıstanın parlaq gələcəyi üçün səylərini davam etdirəcəkdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etmişdir. Dövlətimizin başçısı ölkəmizin sülhməramlılarının beynəlxalq antiterror əməliyyatlarında fəal iştirakından danışmış, Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunmasına Azərbaycanın töhfəsini xüsusi vurğulamışdır.*

## AVROATLANTİK TƏRƏFDAŞLIQ ŞURASINDA DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ NATO BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞ

*Buxarest, Parlament binası*

*3 aprel 2008-ci il*

*Aprelin 3-də Buxarestin Parlament binasında NATO-nun sammiti çərçivəsində Avroatlantik Tərəfdaşlıq Şurası dövlət və hökumət başçılarının NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin rəhbərliyi ilə işçi naharı olmuşdur.*

*Tədbiri NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer açdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafını, ölkəmizin regionda artan rolunu, Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiya sahəsində əməkdaşlığının genişlənməsini vurğuladı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev xatırlatdı ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımız öz doğma yurdlarından didərgin düşmüşdür.*

*Prezident İlham Əliyev bu münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinin mümkünlüyünü vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində, Qara dəniz və Xəzər dənizi hövzələrində əməkdaşlıqda fəal iştirak etdiyini də bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ BİR SIRA ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI İLƏ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

*Buxarest*

*3 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Buxarestdə NATO-nun sammiti çərçivəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, habelə NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə görüşləri olmuşdur.*

*Görüşlərdə ikitərəfli əlaqələrə və qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılmışdır.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Buxarest, «Hilton» oteli*

*3 aprel 2008-ci il*

*Aprelin 3-də Buxarestin «Hilton» otelində Rumıniya prezidenti Trayan Beseskunun adından NATO-nun sammitində iştirak edən dövlət və hökumət başçılarının və onların xanımlarının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qəbulda iştirak etmişlər.*

### Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 4-də Rumıniya paytaxtında ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəlmişlər.*

*Burada dövlətimizin başçısını və xanımını yerli hakimiyyət orqanının rəhbəri qarşıladı. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin parkdakı abidəsi önünə gül dəstələri qoydular.*

### Səfər başa çatdı

*NATO-nun sammitində iştirak edən Azərbaycan prezidenti İlham Əliyevin Rumıniyaya səfəri aprelin 4-də başa çatmışdır.*

*Buxarestin Baneasa Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini və xanımını Rumıniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*Dövlətimizin başçısı həmin gün Vətənə qayıtmışdır.*

*Prezident İlham Əliyevi Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «AZƏRBAYCANDA SİYASİ HÜQUQLARIN QORUNMASI – YENİ MEYARLAR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN XARİCİ ÖLKƏLƏRDƏN OLAN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında «Azərbaycanda siyasi hüquqların qorunması – yeni meyarlar» mövzusunda beynəlxalq konfransın xarici ölkələrdən olan iştirakçıları ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi:*

– Xanımlar və cənablar, sizi salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Belə vacib beynəlxalq tədbirin keçirilməsi məndə böyük məmnunluq doğurur. Əminəm ki, konfrans zamanı aparılacaq müzakirələr, fikir mübadiləsi və tədbirin praktik nəticələri ölkəmizdə siyasi islahatların gələcəkdə də davam etdirilməsində, eləcə də cəmiyyətdə siyasətçilər arasında daha yaxşı anlaşmanın qurulmasında mühüm rol oynayacaqdır. Konfrans Azərbaycanın Avropa strukturlarına inteqrasiyası baxımından da əhəmiyyətlidir. Bilirəm ki, bu gün və sabah sizin çox sıx proqramınız var. Siyasi islahatlar, demokratik inkişaf, insan hüquqlarının qorunması, ölkəmizdə, habelə bütün dünyada insan hüquqları ilə bağlı vəziyyətin qiymətləndirilməsi müzakirələrinizin mövzusu olacaqdır.

Biz ölkəmizdə siyasi və iqtisadi islahatları uğurla davam etdiririk. Siyasi və iqtisadi islahatların paralel şəkildə həyata keçirilməsi və bir-birini tamamlaması faktı onu göstərir ki, bu sahədə biz bütün amilləri nəzərə alırıq. Azərbaycan

müstəqilliyini qazanan zaman ölkədə heç bir siyasi sistem, bazar iqtisadiyyatı, siyasi plüralizm, demokratiya mövcud deyildi. Biz qərarları totalitar şəkildə qəbul edən təkpartiyalı sistemdən çıxmışdıq. Son 16 ildə isə çox mühüm dəyişikliklərə nail olduq. Bu gün iqtisadiyyatımızın 80 faizindən çoxunu özəl sektor təşkil edir. Azərbaycan iqtisadiyyatı tam şəkildə bazar prinsiplərinə əsaslanır. Biz liberallaşma, xarici sərmayələrin cəlb olunması və iqtisadiyyatın çoxşaxəliliyi prinsiplərini həyata keçiririk.

Siyasi sistemə gəldikdə, bu gün bizdə də digər demokratik ölkələrin malik olduğu atributlar – çoxpartiyalılıq, siyasi plüralizm, söz, mətbuat azadlığı var. Siz bilirsiniz ki, ölkəmizdə yüzlərlə qəzet çıxır. Biz Azərbaycanda demokratik proseslərə güclü dəstək veririk, çünki bütün iqtisadi nailiyyətlərə baxmayaraq, bilirik ki, öz məqsədlərimizə yalnız güclü ictimai nəzarət və möhkəm demokratik əsaslar yaratmaqla çata bilərik. Yeri gəlmişkən deyim ki, bu nailiyyətlər olduqca gözəçarpandır. Son 4 ildə ÜDM-in artımı 96 faiz olmuşdur. Bəli, bu gün Azərbaycan özünü təmin edən ölkədir. Bizim yaxşı iqtisadi inkişafımız var. Bir çox sosial və infrastruktur layihələri həyata keçirilir. Bizim zəngin təbii sərvətlərimiz var və enerji resurslarımız artıq dünya və Avropa bazarlarına ixrac olunur. Onu da bilirik ki, bütün bunlar güclü siyasi sistemlə müşayiət olunduqca, uğurlarımız daha da artır.

Bizim Avropa strukturlarına inteqrasiyamızın əsas məqsədi həyat şəraitimizlə bağlı meyarlarımızı Avropada mövcud olan bir çox müsbət meyarlara yaxınlaşdırmaq istəyidir. Azərbaycan 2001-ci ildə Avropa Şurasına daxil olduğu zaman başlıca məqsəd demokratik inkişaf və insan hüquqlarının qorunması sahəsində olan bütün nailiyyətləri ölkəmizə gətirməkdən ibarət idi. Biz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə qoşulduqdan sonra eyni siyasət davam etdirildi. Bu halda, yenə də əsas amalımız Azərbay-

candakı meyarları Avropa İttifaqında mövcud olan meyarlara daha da yaxınlaşdırmaqdan ibarət idi.

Bu yaxınlarda bəyan edildiyi kimi, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin Azərbaycana aid olan hissəsinin həyata keçirilməsi çox uğurlu olmuşdur. Biz müxtəlif məsələlər ətrafında əməkdaşlıq edirik və əminik ki, gələcəkdə bu, yeni sahələri əhatə edəcəkdir.

Ümumiyyətlə, mən ölkədə olan vəziyyəti və potensialı kifayət qədər müsbət dəyərləndirirəm. Müstəqilliyin ilk illərində dövlətimizin üzləşdiyi əsas iqtisadi, siyasi və sosial çətinlikləri aradan qaldırmağa nail olmuşuq. Biz özümüzü təmin edən ölkəyik və qonşularla, eləcə də beynəlxalq təşkilatlarla yaxşı münasibətlər qurmuşuq. İqtisadi inkişaf baxımından deyə bilərəm ki, Azərbaycan artıq dördüncü ildir dünyada ilk yerlərdən birini tutur. ÜDM-in sürətli artımı ilə yanaşı, biz yoxsulluğun səviyyəsini də azalda bilmişik. Son dörd il ərzində bu göstərici 49 faizdən 16 faizə düşmüşdür.

Bu onu göstərir ki, Azərbaycanda neftdən əldə olunan gəlirlər ədalətli formada bölüşdürülür. Belə olmasaydı, yoxsulluq səviyyəsində yaşayan insanların sayı çox olardı. Biz mühüm regional layihələrin həyata keçirilməsinə nail olmuşuq. Demək olar ki, işsizlik problemini tam aradan qaldırmışıq. Son dörd ildə 600 mindən çox iş yeri açılmışdır. Dövlət büdcəsi 10 dəfə artaraq, 1,3 milyard dollardan 12 milyard dollara çatmışdır. Bu rəqəm bütün keçmiş SSRİ-də adambaşına düşən ən yüksək büdcə xərclərini təşkil edir.

Əlbəttə, bu cür möhkəm iqtisadi bünövrəyə əsaslanaraq, ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarına riayət olunması, demokratiyanın daha da inkişaf etdirilməsi istiqamətində də mühüm addımlar atılmışdır. Ümidvarıq ki, yaxın gələcəkdə siyasi sistemimiz dünyanın inkişaf etmiş ölkələrinin siyasi sistemindən heç də geri qalmayacaqdır.

İnkişaf etmiş ölkəyə çevrilmək üçün bütün imkanlara malikik. Savadlılıq çox yüksək səviyyədədir. Demək olar ki,

100 faizdir. Ölkədə çox əlverişli sərmayə mühiti mövcuddur. Eyni zamanda, Azərbaycan çoxmillətli dövlətdir. Ölkəmizdə bir çox etnik azlıqlar var, onlar bir ailə kimi yaşayırlar. Etnik və dini dözümlülük yüksək səviyyədədir. Bütün bunlar uğurları şərtləndirən əsas zəruri və vacib elementlərdir.

Amma problemlər də yox deyil. Bəzi problemlər var və onların getdikcə aradan qaldırılması istiqamətində səylərimizi artıracağıq. Biz ölkənin siyasi səhnəsində bütün siyasi mübahisələrin tam həll olunmasını bəyan etmirik. Cəmiyyət siyasiləşməyib, yəni, cəmiyyətin iki və ya üç faizi siyasi partiyaların üzvüdür. Bu reallıqdır. Ölkəmizin milli maraqları, müstəqilliyin möhkəmləndirilməsi prioritet məsələlərdir. Azərbaycanın müstəqilliyi ilə bağlı olan bu məsələlərdə bütün milli qüvvələr birləşməli, bir yerdə olmalıdır.

Əminəm ki, sizin Azərbaycan haqqında məlumatınız var. Bəzən Azərbaycan haqqında verilən məlumatlarla real vəziyyət üst-üstə düşmür. Siz bu səfər zamanı ölkəmizin gündəliyində duran məsələləri, inkişaf proseslərini və çatışmazlıqları gözlərinizlə görəcəksiniz. Apardığınız müzakirələrlə yanaşı, fikrimcə, buradakı həmkarlarınızla təmaslarınız və real vəziyyətlə tanış olmağınız daha vacibdir. Biz çox məmnunuq ki, ölkəmizdə sabitliyi qoruyub saxlaya bilmişik. Bu sabitlik hər hansı sərt tədbirlər sayəsində deyil, inkişaf nəticəsində qorunub saxlanılır. Ölkəmizdə əhalinin həyat şəraiti ildən-ilə daha da yaxşılaşır. İqtisadi artım çox sürətlidir, ictimai əhval-ruhiyyə isə müsbətdir.

Siyasi və iqtisadi islahatları davam etdirəcəyik. Bu islahatların davam etdirilməsi və Azərbaycanın tərəqqiyə, demokratiyaya və inkişafa doğru irəliləməsi üçün bizim siyasətimiz xalq tərəfindən dəstəklənir.

Bu gün mən vaxtınızı çox almaq istəmirəm. Siz vəziyyəti qiymətləndirmək üçün hər cür imkanlara malik olacaqsınız. Mən sizə maraqlı müzakirələr, ölkəmizdə xoş günlər arzulayıram. Ümidvaram, ilk dəfə səfər edənlər Azərbaycanla

yaxından tanış olacaqlar və əminəm ki, bu səfəri xatırlayacaqlar.

**Eduard Lintner** (*Almaniya Bundestaqının üzvü*): Hörmətli cənab Prezident, Sizinlə görüşümüz Azərbaycana etdiyimiz səfərin ən vacib hissəsidir. Sizinlə bir daha görüşmək imkanı yaratdığınıza görə olduqca minnətdaram. Həyata keçirdiyiniz islahatların uğurlu olmasına yönəlmiş gərgin və yorulmaz fəaliyyətiniz bugünkü görüş əsnasında hiss edildi. Eyni zamanda, qeyd etdiniz ki, bəzi problemləri həll etməyə çalışırsınız. Hamı bilir ki, Azərbaycanı daha yüksək demokratik səviyyəyə qaldırmaq üçün vacib və uğurlu addımlar atılır. Bu yolda biz Sizi həmişə dəstəkləyirik. Mən konfransı təşkil edən qeyri-hökumət təşkilatlarına da minnətdaram, çünki nəinki siyasətçilərin, hökumətlərin və prezidentlərin, o cümlədən bütün cəmiyyətin və onun təsisatlarının bu proseslərdə iştirakı vacibdir. Zənnimcə, belə olarsa, işlər daha da uğurlu olacaqdır. Avropadan və dünyanın digər yerlərindən gəlmiş təqribən yüzə yaxın ekspertin, siyasətçinin və jurnalistlərin bu tədbirdə iştirak etmələri də sevindirici haldır. Mən konfransın işinə böyük uğurlar arzulayır, ölkənizə əmin-amanlıq diləyirəm. Çox sağ olun.

**Pol Vil** (*Belçika senatoru*): Siz gənc dövlətin başçısısınız. Ölkənizdə bir çox insanlarla, xüsusilə gənclərlə görüşdüm, söhbət etdim. Onlar xoşbəxtdirlər və irəliyə doğru atılan addımlar onları sevindirir. Cəmiyyətdə müsbət əhval-ruhiyyənin şahidi olduq. Ölkənizə artıq bir neçə dəfə səfər etmiş həmkarlarımız gözəçarpan inkişafı qeyd edirlər. Konfransa gəldikdə, hesab edirik ki, bu tədbirin keçirilməsi çox müsbət təşəbbüsdür. Bizim üçün çox vacibdir ki, bu ölkənin nailiyyətləri və problemləri barədə faktlarla tanış olaq və malik olduğumuz böyük imkanlardan istifadə edərək, Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı müzakirələr getdiyi zaman fikrimizi bildirək. Zənnimcə, faktlar və əldə etdiyiniz göstəricilər ölkəniz üçün ən yaxşı dəlillərdir. İqtisadiyyat inkişaf etdikcə,

ölkənizin dünyaya qarşılıqlı inteqrasiyası daha da artacaq və əminəm ki, hamımız böyük bir beynəlxalq ailənin üzvünə çevriləcəyik. Sizin sürətli iqtisadi inkişafınız düzgün istiqamətdə olmağınıza dəlalət edir. Çox sağ olun.

**Pedro Aqramunt** (*İspaniya senatoru*)**:** Cənab Prezident, mən İspaniya parlamentinin üzvüyəm. Avropa Şurası Monitorinq komitəsinin işində də iştirak edirəm. Eyni zamanda, Avropa İttifaqının Siyasi məsələlər komitəsinin üzvüyəm. İlk növbədə, bizi dəvət etdiyinizə görə minnətdarlığımı bildirirəm. Bu konfransı təşkil etmək əla ideya idi. Məmnunluqla qeyd edim ki, Siz və ölkəniz insan hüquqlarının və siyasi hüquqların qorunmasına diqqət yetirirsiniz. Bu, demokratiya üçün vacibdir. Bilirik ki, ölkəniz Avropa Şurasına qoşulduqdan sonra Parlament Assambleyasının işində fəal iştirak edir. Mən ötən ilin noyabr ayında burada mətbuat azadlığı mövzusunda təşkil olunmuş konfransda iştirak etdim və deməliyəm ki, Azərbaycanda olan inkişaf mənə böyük təəssürat bağışladı. Ölkənizə ilk səfərim 6-7 il bundan əvvəl olmuşdu. Mən o vaxt Avropa İttifaqının Miqrasiya komitəsinin nümayəndəsi idim. İndi mən özüm buradakı dəyişiklikləri görürəm. Sizin qeyd etdiyiniz kimi, biz bunları öz gözlərimizlə görürük. Ölkə sürətlə dəyişir. Bizi qəbul etdiyinizə və konfransın təşkilinə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

**Alen Desteksi** (*Belçika senatoru*)**:** Cənab Prezident, mən Belçika senatoruyam və ATƏT-in Parlament Assambleyasında ölkəmi təmsil edirəm. Eyni zamanda, Belçika parlamentində Belçika–Azərbaycan dostluq qrupunun sədriyəm. Bizi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Konfransı təşkil edən Siyasi Məhbuslar Problemləri üzrə Şuraya da minnətdaram. Mən Sizin giriş nitqinizi yüksək dəyərləndirirəm, çünki ölkənizdəki vəziyyəti gözəl təsvir etdiniz. Onu deməliyəm ki, bu mənim Azərbaycana üçüncü səfərimdir. Həmkarlarım kimi, mən də həm iqtisadi, həm siyasi sahədə mövcud olan tərəqqini hiss edirəm.

Burada əyləşənlər Sizin siyasətinizi və ölkənizin beynəlxalq aləmə inteqrasiyasını dəstəkləyir. Müxtəlif məsələləri açıq şəkildə müzakirə etmək imkanı yaratdığına görə mən Siyasi Məhbuslar Problemləri üzrə Şuraya minnətdarlığımı bildirirəm. Sonda onu demək istəyirəm ki, bir məsələdə biz tam əminik – Azərbaycan xalqı çox mehribandır. Biz bunu bilirik. Bu ölkəyə bir dəfə səfər edən şəxs yenidən Azərbaycana qayıtmaq arzusuna düşür. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Söylədiyiniz xoş sözlərə görə çox sağ olun. Mən əminəm ki, bu konfrans Azərbaycan ilə təmsil etdiyiniz təşkilatlar və ölkələr arasındakı münasibətlərin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərəcəkdir. Bu tədbir sizə ölkəmizdə real vəziyyətlə tanış olmaq və burada baş verən prosesləri qiymətləndirmək imkanını yaradacaqdır. Mənə verilən məlumata görə, konfransın mövzularından biri də siyasi məhbuslar, demokratik inkişaf və s. məsələlərdir. Bu çox vacibdir. Mənim xatirimdədir ki, Avropa Şurasına qoşulduğumuz ilk vaxtlardan biz belə universal meyarların formalaşmasının tərəfdarı olmuşuq.

Bu meyarlar bir və ya bir neçə ölkəyə yox, hər bir ölkəyə şamil edilməlidir. Bütün meyarlarda ölkələrin regional vəziyyəti nəzərə alınmalı, bu və ya digər ölkənin inteqrasiyasında, demokratiya prosesində vaxt amili əsasında müqayisəli şəkildə müəyyən edilməlidir. Bizim mövqeyimiz hər zaman belə olubdur və belə də qalır. Əgər beynəlxalq ictimaiyyət, xüsusən də Avropa təşkilatları, insan hüquqları ilə məşğul olan qurumlar və QHT-lər hamımız üçün qiymətləndirmə meyarlarına aid tövsiyələri işləyib formalaşdırsalar, onda əməkdaşlıq üçün bu cür müzakirələrin praktik nəticələri daha səmərəli olardı. Bu gün Azərbaycanın siyasi islahatlarına, iqtisadi inkişafına, demokratikləşmə prosesinə regional əməkdaşlıq, qonşuluq və üzləşdiyimiz təhdidlər kontekstindən kənarda baxıla bilməz. Müzakirə olunan meyarlar regionun bütün ölkələrinə tətbiq edilərsə, onda Azər-

baycanın göstəriciləri və ölkəmizin inkişafı ilə bağlı daha aydın və əsaslandırılmış təəssürat yaranardı.

Biz vəziyyəti yaxşılaşdırmaq üçün beynəlxalq təşkilatlar, QHT-lər və dostlarımızla birgə işləyirik. Qeyd etdiyim kimi, ölkəmizdə davamlı inkişafa yalnız demokratik proses zəmin yarada bilər. Misal üçün, Azərbaycan neft ölkəsi kimi tanınır. Bu hər zaman belə olub. İndi isə biz bu baxımdan beynəlxalq səviyyədə vacib bir ölkəyə çevrilmişik. Əgər biz Dövlət Neft Fondunun idarə edilməsində ən demokratik və şəffaf qaydaları tətbiq etməsəydik, bu gün enerji layihələrimizdən əldə etdiyimiz bütün vəsaitlər düzgün xərclənməzdi. İlk vaxtdan Dövlət Neft Fondu elə bir formada təsis edilib ki, bu gün həmin qurum beynəlxalq mükafatlara layiq görülür. Ötən il BMT Dövlət Neft Fondunu Yüksək şəffaflıq mükafatı ilə təltif etmişdir. Bu məsələ ilə məşğul olan bütün beynəlxalq təşkilatlar da bu göstəricini yüksək dəyərləndirirlər. Ola bilsin ki, bu, sırf enerji məsələsi və iqtisadi məsələ kimi görünsün, lakin bizim demokratik prosesə qəti inamımız olmasaydı, hazırkı vəziyyət başqa cür olardı. Mən bu haqda ona görə danışıram ki, enerji sektoru iqtisadiyyatımızın aparıcı sahəsidir. Hazırda qeyri-neft sektorunda və regional əməkdaşlığın şaxələndirilməsi sahəsində iş aparmağımıza baxmayaraq, enerji amili gələcək illər ərzində də Azərbaycanın iqtisadi inkişafını, o cümlədən, regional əməkdaşlığı şərtləndirəcəkdir. Bir neçə il bundan əvvəl başladığımız layihələr bu gün geniş beynəlxalq əməkdaşlığa, regionnal tərəfdaşlığa, əvvəlcə mövcud olmamış yeni dəhlizlərin meydana gəlməsinə imkan yaradır. Həmin dəhlizlər Azərbaycanı Qara dəniz və Aralıq dənizi ilə birləşdirir və Baltik dənizinə çıxış imkanlarını təmin edir. Hazırda Qara dəniz və Xəzər dənizi arasında regional əməkdaşlıq keçən əsrin 90-cı illərinin əvvəllərində başladığımız layihələr sayəsində kifayət qədər gözəçarpan olmuşdur. Bu gün isə biz həmin layihələrə nəqliyyat, humanitar və Avropa təşkilatları ilə sıx əməkdaşlıq komponentlərini də əlavə edirik. Hazırda Avropa

İttifaqının sərhədləri artıq Qara dəniz sahillərinə çıxır. Bir neçə gün bundan əvvəl mən NATO-nun Rumıniyada keçirilən zirvə görüşündə iştirak etdim.

Bu tədbir regiona göstərilən etimadın artırılması və əməkdaşlığın səviyyəsinin qaldırılmasının vacibliyini bir daha nümayiş etdirdi. Bu sadəcə, bəyanatlar şəklində olmamalıdır. Biz burada istehsalçı və istehlakçının, eləcə də tranzit ölkələrin qarşılıqlı maraqları əsasında böyük iqtisadi və siyasi tərəfdaşlığın əsaslarını formalaşdırırıq. Bu işlər olduqca dostluq şəraitində yerinə yetirilir.

Layihələr, xarici siyasət, iqtisadi və enerji sahəsində təşəbbüslərimiz əməkdaşlıq, dostluq və tərəfdaşlığın, qarşılıqlı maraqların möhkəmləndirilməsinə yönəldilibdir. Bu gün siz insan hüquqları məsələsini müzakirə edirsiniz. Bu, fundamental və ümumbəşəri dəyərdir və sərhəd tanımır. Bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüz və etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımız insan hüquqlarının kobud şəkildə pozulmasından əziyyət çəkməkdədirlər. Artıq 15 ildən çoxdur ki, torpaqlarımız işğal altındadır. Bütün işğal olunmuş ərazilərdə infrastruktur dağıdılıbdır. Bir neçə il bundan əvvəl regiona səfər etmiş ATƏT-in faktaraşdırıcı missiyası öz hesabatında bütün infrastrukturun, tarixi və dini abidələrin, zavodların, yaşayış evlərinin Ermənistanın silahlı qüvvələri tərəfindən yerlə yeksan olunduğunu qeyd etmişdir. Nəinki Dağlıq Qarabağ, həm də onun inzibati hüdudlarından kənarda yerləşən və ermənilərin heç vaxt yaşamadıqları yeddi inzibati rayon da işğal altındadır. Bu münaqişədən əziyyət çəkmiş bir milyondan artıq azərbaycanlı yurd-yuvalarına qayıtmasını gözləyir. Əhalinin mühüm bir hissəsini təşkil edən bu insanların hüquqları uzun illər ərzində pozulub və bərpa olunmayıbdır. Əfsuslar olsun ki, bu günə qədər aparılmış danışıqlar problemin həlli ilə bağlı hər hansı bir nəticə verməyibdir. Danışıqlar prosesi ilə biz bəzən razıyıq, bəzən isə yox.

Əlbəttə ki, biz bu məsələni hər zaman beynəlxalq təşkilatlar çərçivəsində qaldırırıq. Beynəlxalq birliyin bu məsələyə daha fəal cəlb olunmasını gözləyirik. Bizim güclü siyasi dəstəyimiz var. BMT-nin Təhlükəsizlik Şurası XX əsrin 90-cı illərində erməni qoşunlarının torpaqlarımızdan dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Torpaqlarımızın işğal olunması və bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə salınması 2005-ci ildə Avropa Şurasının sənədində qeyd olunmuşdur. Bu yaxınlarda BMT-nin Baş Məclisi qətnamə qəbul etmişdir və orada açıq şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması tələb edilir. Bu günlərdə NATO sammitində qətnamə qəbul olunmuşdur. Aydın şəkildə göstərilir ki, NATO-nun üzvü olan dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, bundan əlavə, göstərilir ki, bu münaqişə yalnız ərazi bütövlüyü prinsipi nəzərə alınmaqla həll olunmalıdır və oluna bilər. Bütün bunlar beynəlxalq birliyin çox əhəmiyyətli, müsbət bəyanatlarıdır. Amma reallıqda heç nə baş vermir.

Təcavüzkar Ermənistanın rəhbərliyi tərəfindən dəstəklənən Dağlıq Qarabağdakı separatizm torpaqlarımızın işğalı ilə nəticələnmişdir. Mən bir daha qeyd etmək istərdim ki, bu, insan haqlarının kütləvi şəkildə pozulmasının göstəricisidir. Bu tamamilə qeyri-demokratik, XXI əsrdə tamamilə qəbulolunmaz bir davranışdır. Ermənistanda prezident seçkilərindən sonra baş verən hadisələr həmin ölkənin rəhbərliyinin əsl mahiyyətinin, daha geniş şəkildə təcavüzkar separatist siyasətinin nəticəsidir. Əgər bu münaqişə olmasaydı, Ermənistan inkişaf edə bilərdi. Onlar bu münaqişədən heç nə əldə etməmişlər. İşğal altında olan ərazilərdə həyat yoxdur, necə deyərlər, ölü şəhərlərdir. Azərbaycan əhalisinin əziyyət çəkdiyi təcavüzkar siyasət dəstək qazana bilməz. Münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməlidir. İşğal olunmuş ərazilər azad edildikdən sonra qaçqın-köçkün soydaşlarımız oraya qayıtmalıdır-

lar. Bu gün Dağlıq Qarabağda bir nəfər də azərbaycanlı yoxdur. Hamısı bu ərazidən qovulmuşdur, orada yalnız ermənilər yaşayır. Bu ərazidən çıxarılan azərbaycanlılar oraya qayıtmalıdır və orada yaşayacaq insanlar yüksək səviyyədə özünüidarəyə malik olmalıdırlar. Bu, Azərbaycanın, beynəlxalq birliyin təklif etdiyidir, münaqişənin həll edilməsi üçün yeganə ədalətli yoldur. Bu, problemin həll olunması üçün demokratik yoldur. Bu, düşmənçiliyə son qoyacaq, bölgəmizə sülh gətirəcək və regionumuzda gedən prosesləri daha da proqnozlaşdırılabilinən edəcəkdir. Bizim üçün bu, ən böyük, bir nömrəli problemdir. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və ərazi bütövlüyümüzün bərpa edilməsi üçün bütün səylərimizi cəmləşdiririk. Bu, siyasi, diplomatik təşəbbüsləri, iqtisadi üstünlüyü, Qafqaz regionunda qüvvələrin tarazlığının dəyişdirilməsini, müdafiə potensialımızın gücləndirilməsini və Azərbaycanın ərazi bütövlüyü kimi mühüm beynəlxalq hüquq normasına əsaslanaraq, beynəlxalq təşkilatlarla işin aparılmasını nəzərdə tutur.

Konfransın insan hüquqları mövzusunu nəzərə alaraq, əminəm ki, bu məsələ də müzakirə ediləcəkdir. Beləliklə, mövcud vəziyyət, o cümlədən münaqişənin nəticələri haqqında daha geniş məlumat əldə olunacaqdır.

Mən sizi bir daha ölkəmizdə salamlamaq istəyirəm. Verdiyiniz dəstəyə və Azərbaycanı Avropa təşkilatlarına, habelə özümüzə dost hesab etdiyimiz ölkələrə daha yaxın etmək məqsədi ilə apardığınız fəaliyyətə görə minnətdaram. Azərbaycan qanunun aliliyini, iqtisadi azadlıqları, sosial ədaləti təmin edən və regional, beynəlxalq səviyyədə mövqeyə malik olan, vətəndaşlarının fəxr etdiyi demokratik ölkə kimi inkişaf etməlidir. Siz gənc nəsli xatırlatdınız. Əlbəttə ki, dövlətimiz gəncdir. Gənclərə verdiyimiz dəstək və diqqət çox vacibdir. Azərbaycanlıların yeni nəsli təhsil alır və ünsiyyətə açıqdır. Onlar beynəlxalq ictimaiyyətə inteqrasiya etməkdədirlər. Hökumət isə onları dəstəkləmək üçün əlindən gələni edir. Çünki onlar bizim gələcəyimizdir. Mil-

lətimiz əsrlər boyu dövlətçilikdən məhrum olmuşdur. Baxmayaraq ki, bizim zəngin mədəniyyətimiz, adət-ənənələrimiz və tariximiz var. Biz gənc dövlətik. Bu gün biz dövlətçiliyi, müstəqilliyi möhkəmləndiririk, onu dönməz edirik. Çünki keçmişdə müstəqilliyi bir neçə dəfə itirmişik. Biz və gələcək nəsil müstəqilliyimizi əbədi etmək üçün bundan sonra da çalışmalıyıq. Zənnimcə, regionda güclü ölkə kimi inkişafımız hamımızın xeyrinədir. Çox sağ olun.

## TÜRKMƏNİSTANIN MÜDAFİƏ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Türkmənistanın Müdafiə naziri Ağagəldi Mamedgəldiyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkmənistan arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlıq üçün çox yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovla görüşlərini xatırlatdı, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından bu görüşlərin əhəmiyyətini vurğuladı. O, xalqlarımızın daim dostluq və əməkdaşlıq şəraitində yaşadıqlarını, müstəqilliyimizin hazırkı inkişaf mərhələsində ənənəvi qardaşlıq münasibətlərinin daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Dövlət başçısı ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə xidmət etdiyini vurğuladı.*

*Türkmənistanın Müdafiə naziri Ağagəldi Mamedgəldiyev prezident Qurbanqulu Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. O, rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanda keçirdikləri görüşləri barədə prezident İlham Əliyevə məlumat verdi. Qonaq Türkmənistan və Azərbaycanın müdafiə nazirlikləri arasında əməkdaşlığın*

*əlaqələrimizin daha da genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından faydalı olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Türkmənistan prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət!

Danimarkanın milli bayramı– Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Danimarka arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Danimarka xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 aprel 2008-ci il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ**
**PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Evakuasiya günü münasibətilə Sizə və bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Suriya münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin və əməkdaşlığımızın genişlənməsi daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 aprel 2008-ci il*

## TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ CƏMİL ÇİÇƏK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Türkiyə Baş nazirinin müavini, Dövlət naziri Cəmil Çiçəyi qəbul etmişdir.*

*Cəmil Çiçək Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. İkitərəfli münasibətlərin daha da genişlənməsində qarşılıqlı səfərlərin mühüm əhəmiyyət daşıdığı bildirildi və indiki səfərin də əlaqələrin inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Prezident İlham Əliyev Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında bp şirkətinin icraçı vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.*

*Endryu İnqlis Azərbaycanda əməliyyat işlərinin uğurla həyata keçirildiyini, xüsusilə də ötən qışın sərt keçməsinə baxmayaraq, «Şahdəniz» yatağında hasilatın fasiləsiz davam etdirildiyini və bununla da Azərbaycan əhalisinin qaza olan tələbatının tam şəkildə ödənildiyini məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev qışda Azərbaycanda qeyri-adi hava şəraiti olmasına baxmayaraq, «Şahdəniz» yatağında heç bir problemin yaranmadığını, əksinə, işin öhdəsindən uğurla gəlindiyini və əhalinin mavi yanacaqla təmin edildiyini vurğuladı.*

*Görüşdə bp ilə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, görülən və perspektivdə nəzərdə tutulan işlərlə bağlı fikir mübadiləsi aparıldı, iş birliyinin bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminlik ifadə olundu.*

## NAZİRLƏR KABİNETİNİN 2008-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ

*Prezident sarayı*

*14 aprel 2008-ci il*

Bu gün biz Nazirlər Kabinetinin iclasında 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarını müzakirə edəcəyik. 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün uğurlu başlamışdır. Bildiyiniz kimi, son dörd il ərzində, 2004–2007-ci illərdə ölkə iqtisadiyyatı 96 faiz artmışdır. Demək olar ki, biz iqtisadi potensialımızı iki dəfə artıra bilmişik və bu güclü iqtisadi zəmində, əlbəttə ki, yüksək sürəti saxlamaq, bu iqtisadi inkişafı davam etdirmək asan məsələ deyildir. Bütün bu amilləri nəzərə alaraq, böyük məmnunluq hissi ilə deyə bilərəm ki, bu ilin birinci rübündə iqtisadi inkişaf çox güclü olmuşdur, ümumi daxili məhsul təxminən 14 faiz artmışdır. Bununla bərabər, sənaye istehsalı da təxminən eyni sürətlə artmışdır. Ölkədə bütün sosial-iqtisadi proqramlar uğurla icra olunur və beləliklə, Azərbaycan daha da ciddi inkişafa nail ola bilmişdir.

Bu müddət ərzində dövlət büdcəsində nəzərdə tutulmuş bütün layihələr, proqramlar, infrastruktur layihələri, sosial xarakterli proqramlar icra olunmuşdur. Bütün bu amilləri nəzərə alaraq, deyə bilərik ki, şübhəsiz, 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün, ümumi inkişafımız üçün uğurlu il olacaq və Azərbaycan 2008-ci ildə qarşıya qoyduğu bütün vəzifələri uğurla yerinə yetirəcəkdir.

Biz bu il həm əsaslı vəsait qoyuluşu, həm də sosial proqramların icrası baxımından keyfiyyətcə yeni səviyyəyə qalxırıq. Azərbaycanın büdcəsi ildən-ilə artır, 2008-ci ilin icmal büdcəsi 12 milyard dollar səviyyəsindədir. Bu, 2003-cü illə müqayisədə on dəfə çoxdur. Ancaq onu da bilirik ki, iqtisadi imkanlarımız artdıqca, əlbəttə, biz istəyirik ölkənin qarşısında duran və insanları narahat edən məsələləri daha da sürətlə həll edək. Bu məqsədlə bir müddət bundan əvvəl hökumətə göstəriş verilmişdir ki, büdcəyə əlavələr edilsin, dürüstləşmə aparılsın. Artıq dürüstləşmənin ilkin layihəsi hazırdır, müzakirə olunub və yaxın zamanlarda Milli Məclisə göndəriləcəkdir.

Biz istəyirik ki, bu əlavələr, əlavə vəsait Azərbaycanın qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsinə yönəldilsin. Büdcə artımı, əlbəttə, ölkənin gücünü, ölkənin potensialını göstərir. Adambaşına düşən büdcə xərclərinə görə Azərbaycan bütün MDB məkanında qabaqcıl yerlərdədir və bütövlükdə dünya miqyasında çox yüksək yer tutur. Biz öz valyuta ehtiyatlarımızı artırırıq. Bu günə olan məlumata görə, Azərbaycanın valyuta ehtiyatları 9 milyard dollar həcmindədir. Ölkəmizdə uğurlu neft strategiyasının icrası nəticəsində bu il böyük artım gözlənilir. Bu bizə əlavə güc verir, əlavə əminlik verir. Bu bizə imkan verir ki, ölkəmizin müstəqil siyasətini daha da inamla irəliyə aparaq və Azərbaycan xalqının milli maraqlarını müdafiə edək.

Sosial proqramların həlli, bütün dövrlərdə olduğu kimi, bu gün də diqqət mərkəzindədir. Əlbəttə, sosial məsələlərin həlli ilk növbədə, ölkənin iqtisadi imkanlarına bağlıdır. Bizim 5–10 il bundan əvvəlki iqtisadi imkanlarımız geniş sosial proqramların həlli üçün yetərli deyildi. Bu gün isə iqtisadi artım nəticəsində, ölkədə gedən əsaslı iqtisadi və siyasi islahatlar nəticəsində, liberal siyasət nəticəsində bizim sosial proqramlarımızın icrası üçün də yaxşı imkanlar var. İldən-ilə maaşlar, pensiyalar artırılır. Bu il yanvarın 1-dən minimum əməkhaqqı və minimum pensiya növbəti dəfə

artırılmış, 50 manatdan 60 manata çatdırılmışdır. Biz planlaşdırırıq ki, bu il ərzində həm minimum əməkhaqqının, həm də minimum pensiyanın məbləğini bir dəfə də artıraq. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların sosial müdafiəsi daha da gücləndirilməlidir və bunu etmək üçün konkret təkliflər, proqramlar var və ən əsası maddi imkanlarımız da buna şərait yaradır.

Ünvanlı sosial yardım layihəsi uğurla icra edilir, 400 minə qədər insan bu proqramla əhatə olunubdur. Deyə bilərəm ki, bu, ölkəmiz üçün nisbətən yenilikdir. Bu onu göstərir ki, dövlətin, hökumətin ən başlıca vəzifəsi, ən ümdə prioriteti insanların yaşayış səviyyəsinin yüksəldilməsidir. Əgər belə olmasaydı, əlbəttə, sosial proqramlara böyük diqqət göstərilməzdi. Sosial proqramların icrası nəticəsində Azərbaycan xalqı daha da yaxşı yaşayacaqdır. Biz bunu ilbəil artan iqtisadi göstəricilərdə, eyni zamanda, əhalinin pul gəlirlərində də görürük. Bu ilin ilk üç ayında əhalinin pul gəlirləri 33 faiz artmışdır. Eyni zamanda, inflyasiya 16 faiz artmışdır. İnflyasiyanın artımı bizi çox düşündürür, narahat edir və biz əməli-praktik tədbirlər nəticəsində inflyasiyanı məqbul sayıla biləcək çərçivələrdə saxlamağa çalışmalıyıq.

Ancaq onu da bilirik ki, bütün dünyada çox sürətlə bahalaşma gedir. Avropada, MDB məkanında – bütün ölkələrdə, Asiyada, başqa qitələrdə xüsusilə ərzaq məhsullarının bahalaşması bu il və keçən ilin əvvəlində özünü daha da qabarıq şəkildə büruzə vermişdir. Bunun müxtəlif obyektiv səbəbləri var və əlbəttə, bu bahalaşma meyilləri Azərbaycandan da yan keçməmişdir.

Biz çalışmalıyıq ki, həm iqtisadi, həm də inzibati tədbirlər nəticəsində bahalaşmanın qarşısını maksimum dərəcədə alaq. Eyni zamanda, ildən-ilə və ildə iki dəfə qaldırılan maaşlar və pensiyalar sosial müdafiə üçün çox vacib bir vasitədir. Biz bunu etməklə insanların sosial müdafiəsini gücləndiririk, onların yaşayış səviyyəsini qaldırırıq.

Əgər əhalinin pul gəlirlərini və inflyasiya səviyyəsini götürsək görərik ki, real gəlirlər birinci rübdə 17 faiz artmışdır. Əminəm ki, bu da dünyada çox nadir hallarda rast gəlinən bir göstəricidir. Bir sözlə, həm iqtisadi islahatlar, həm də sosial proqramların icrası davam etdiriləcəkdir. Əslində biz Nazirlər Kabinetinin ənənəvi toplantılarında məhz ölkənin sosial-iqtisadi yekunlarını müzakirə edirik. Çünki bunlar ölkənin iqtisadiyyatı və ümumiyyətlə, inkişafı üçün başlıca məsələlərdir.

Bildiyiniz kimi, bizim diqqət mərkəzimizdə olan başqa ciddi məsələ iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafıdır. Bu məsələ ilə biz çox ciddi məşğuluq və uğurlar göz qabağındadır. Məsələn, yaradılan yüz minlərlə yeni iş yerləri. Deyə bilərəm ki, mənə verilən son məlumata görə, Azərbaycanda son beş ilə yaxın müddətdə 668 min yeni iş yerləri açılmışdır ki, onlardan da 478 mini daimi iş yerləridir və bu proses davam edir. İşsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı salınması, həmişə olduğu kimi, prioritet məsələlər olaraq qalır və deyə bilərəm ki, biz bu sahədə böyük irəliləyişə nail ola bilmişik. Ancaq gələcək fəaliyyətimizdə elə etməliyik ki, qarşıda duran vəzifələri tam şəkildə icra edək.

Beləliklə, qeyri-neft sektoru həm ölkə iqtisadiyyatının şaxələndirilməsi, həm sosial məsələlərin həlli, həm də regionların inkişafı üçün ən başlıca rol oynayan sahədir. Çünki yeni iş yerlərinin tam əksəriyyəti bölgələrdə yaradılıbdır. Bu, bölgələrin inkişafına çox böyük dəstəkdir, köməkdir. Eyni zamanda, bölgələrdə dövlət investisiya proqramı çərçivəsində həyata keçirilən nəhəng infrastruktur layihələri də qeyri-neft sektorunun və bütövlükdə sahibkarlığın inkişafına çox böyük dəstəkdir. Əgər bu böyük infrastruktur layihələri olmasaydı, əminəm ki, regional inkişaf proqramının icrasında biz çətinliklərlə üzləşə bilərdik. Həm yeni yollar, elektrik stansiyaları, qaz xətləri və həm də sosial infrastrukturun yaradılması, xəstəxanaların, məktəblərin tikilməsi, rayonları-

mızın, şəhərlərimizin abadlaşması – bütün bunlar sahibkarlığa da böyük dəstək verir. Nəzərə alsaq ki, sahibkarlıqla məşğul olan təbəqəyə dövlət tərəfindən çox böyük dəstək var – həm mənəvi, həm də maddi – bütün bu amillər birlikdə imkan verib ki, biz qısa müddət ərzində, demək olar, işsizliyin böyük hissəsini artıq aradan qaldırmışıq. İndi sirr deyil ki, Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən tikintidə işləmək üçün xaricdən işçi qüvvəsi daxil olur.

Yəqin xatırlayırsınız, mən təxminən bir il, bəlkə bundan da əvvəl bu məsələyə toxunaraq demişdim ki, biz gələcəkdə miqrasiya məsələlərinə ciddi fikir verməliyik. Çünki mən görürdüm ki, bu vaxt gələcək. Azərbaycanda aparılan islahatlar, icra olunan layihələr, bütövlükdə bizim iqtisadi inkişafımız, neft satışından əldə ediləcək gəlirlərimiz artıq göstərirdi ki, bu vaxt gələcək və vaxtında biz Dövlət Miqrasiya Xidmətini yaratdıq. İndi elə etməliyik ki, Azərbaycana işləməyə gələn xarici işçi qüvvəsi yerli vətəndaşların iş yerlərini almasınlar, onlara rəqabət yaratmasınlar. Eyni zamanda, Azərbaycanda özlərini bizim adət-ənənələrimizə uyğun şəkildə aparsınlar, qanunlara uyğun şəkildə aparsınlar. Dövlət bu sahədə siyasətini çox ciddi tənzimləməlidir.

Biz görürük ki, gələcəkdə bizi nələr gözləyir. Azərbaycan zəngin ölkəyə, inkişaf etmiş ölkəyə çevrilməlidir. Biz bu vəzifəni qarşımıza qoymuşuq və belə olan halda, gələcəkdə Azərbaycana miqrantların gəlişi daha da böyük, kütləvi xarakter ala bilər. Biz buna hazır olmalıyıq və elə etməliyik ki, Azərbaycan xalqının maraqları tam şəkildə təmin olunsun. Yəni onu demək istəyirəm ki, indi işləmək istəyən insanlar, onların böyük əksəriyyəti iş tapa bilərlər. Vaxtilə Azərbaycanın bölgələrindən başqa ölkələrə gedən insanlar artıq ya öz yaşadıqları rayonlarda işləyirlər, yaxud da Bakıya gəlirlər. Bu da müsbət göstəricidir.

Yəni bizim inkişafımız, ölkəmizin uğurlu inkişafı təkcə iqtisadi göstəricilərlə ölçülmür. Biz bunu gündəlik həyatımızda görürük, abadlaşan şəhərlərdə görürük, inkişaf edən

ölkəmizdə görürük. Biz bu yüksək templəri saxlamalıyıq. Halbuki, bu, asan məsələ deyil. Mən qeyd etdiyim kimi, iqtisadiyyatımız dörd il ərzində iki dəfə böyüyüb və bu yüksək tempi də saxlamaq həm çətindir, həm də gələcəkdə bəlkə də buna ehtiyac olmayacaqdır. Biz əsas məsələləri operativ şəkildə, çox məhdud bir zaman çərçivəsində həll etməliyik: infrastruktur, iqtisadi potensialın möhkəmləndirilməsi, işsizliyin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin aşağı salınması, sosial infrastrukturun yeniləşməsi və yaradılması. Beləliklə, bundan sonra Azərbaycanın inkişafı ildə 20–30 faiz artan iqtisadiyyatla ölçülməyəcəkdir. Biz inkişaf etmiş ölkələr kimi, öz iqtisadiyyatımızı təvazökar rəqəmlərlə inkişaf etdirəcəyik. Amma o faizlərin həm keyfiyyəti, həm də təsir qüvvəsi daha da güclü olacaqdır.

Yəni biz inkişaf etmiş ölkələrin təcrübəsini daha da ciddi öyrənməliyik və bunu edirik. O cümlədən, bu məqsədlə biz beynəlxalq təşkilatlarla əməkdaşlığımızı gücləndiririk. Həm siyasi, həm iqtisadi sahələrdə ki, Azərbaycan dünyada mövcud olan müsbət və bizim üçün uyğun olan təcrübəni tətbiq etsin, ən qabaqcıl və uğurlu təcrübə Azərbaycanda tam şəkildə bərqərar olsun. Belə olan halda, ölkəmizin uğurlu gələcəyi enerji resurslarından asılı olmayacaqdır. Əslində, bizim indiki məqsədlərimizdən biri də odur. Halbuki, hələ uzun illər ərzində Azərbaycan iqtisadiyyatının aparıcı hissəsini enerji sektoru təşkil edəcəkdir.

Biz elə etməliyik ki, Azərbaycanın iqtisadiyyatı daha çox qeyri-neft sahəsindən asılı olsun. Ona görə növbəti illərdə qeyri-neft sektorunun inkişafına diqqət göstərilməlidir və Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranmalıdır. Artıq biz bunu görürük. İqtisadiyyatımızın böyük əksəriyyəti, 80 faizdən çoxu özəl sektorda formalaşır. Biz, əlbəttə, neft-qaz sahəsində əldə edilmiş uğurlarla öyünə bilərik. Çünki bu sahədə aparılan işlər həm ölkəmizin inkişafı üçün, həm beynəlxalq nüfuzun artması, həm də bütövlükdə Azərbaycanın bu səviyyəyə çatması üçün başlıca rol oynamışdır.

Düzdür, əsas neft-qaz layihələri icra olunmuşdur. Biz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyasını uğurla davam etdiririk və qarşıya qoyduğumuz bütün vəzifələri, bütün layihələri vaxtlı-vaxtında uğurla icra etmişik. Elə təəssürat yarana bilər ki, biz bu sahədə artıq hər şeyi etmişik. Ancaq birincisi, həyat yerində durmur, ikincisi, yeni çağırışlar, yeni layihələr, yeni dünyamiqyaslı təşəbbüslər artıq müzakirə mövzusudur. Azərbaycan bu işlərdə həm iştirakçıdır, həm də təşəbbüskardır. Bizə aid olan layihələrdə biz təşəbbüskarıq. Azərbaycanın neft-qaz resurslarına aid layihələrdə, əlbəttə, təşəbbüs bizim tərəfimizdən olmuşdur. Biz digər, enerji mənbəyimizə əsaslanmayan, amma bölgə üçün vacib olan layihələrə iştirakçı kimi qoşulmağa hazırıq. Yəni deyə bilərəm ki, bu sahə keçən əsrin 90-cı illərinin əvvəllərindəki vəziyyətlə müqayisədə bu gün dünyanın gündəliyində daha da ciddi yer tutur. Biz 90-cı illərin ortalarında neft strategiyamızı icra etməyə başlayanda vəziyyət bir cür idi, indi isə tam başqadır. Deyə bilərəm ki, hansı dövr daha məsuliyyətlidir, yaxud da daha çətindir.

Şübhə yoxdur ki, XX əsrin 90-cı illərinin əvvəllərində və ortalarında Heydər Əliyev tərəfindən atılan cəsarətli və uzaqgörən addımlar Azərbaycanın inkişaf yoluna qədəm qoyması demək idi. Azərbaycanın dünya iqtisadiyyatına, dünya birliyinə inteqrasiyası demək idi. Azərbaycanın bugünkü uğurlarının başlanması demək idi. O çətin, ağır şəraitdə – bütün yerlərdən, xaricdən təzyiqlər vardı, həm də daxili vəziyyət tam sabit deyildi – xalqımızın və ölkəmizin yaşaması üçün bu layihələr vacib idi, həyati əhəmiyyət kəsb edirdi.

Bu gün isə Azərbaycan xeyli güclənibdir. Azərbaycan tam şəkildə müstəqil siyasət aparır və bölgədə öz güclü mövqelərini möhkəmləndirir. Biz dünya birliyində özümüzə layiq yerimizi tuta bilmişik. İndi müttəfiqlərimizin sayı, əlbəttə ki, 90-cı illərin əvvəlləri ilə müqayisədə daha da çoxdur. Bu illər ərzində biz özümüzü etibarlı tərəfdaş kimi təqdim edə bilmişik. Ancaq neft-qaz sahəsində gedən proseslər – bəzi

hallarda rəqabət, bəzi hallarda qarşıdurma və müxtəlif güc mərkəzlərinin toqquşması – bizim bölgəmizdə də baş verir.

Bəlkə də ilk növbədə, bizim bölgəmizdə, çünki Xəzər dənizi dünya enerji bazarı üçün yeni mənbədir. Bu mənbə çox zəngindir və burada olan karbohidrogen ehtiyatları gələcəkdə Avropanın və demək olar ki, dünyanın enerji təhlükəsizliyi üçün çox vacib rol oynayacaqdır. Artıq bunu hamı etiraf edir. Buna görə bölgənin önəmi və bölgədə yerləşən ölkələrin neft siyasəti dünya üçün çox əhəmiyyətlidir.

Biz bu imkanlardan istifadə etməliyik. İlk növbədə, öz milli maraqlarımızı maksimum dərəcədə müdafiə etməli və qorumalıyıq. Bizə sərf edən, Azərbaycan xalqının milli maraqlarına cavab verən layihələrdə iştirak etməliyik. Nəzərə alsaq ki, artıq bizim həm hasilat, həm ixrac, həm də tranzit baxımından çox gözəl imkanlarımız var. Əslində, bu imkanları özümüz yaratmışıq, bunu bizim əvəzimizə heç kim etməyibdir. Biz bu sahədə düşünülmüş və düzgün siyasətimizi davam etdirəcəyik.

Mən isə bununla bərabər, onu da deməliyəm, bizə elə gəlməməlidir ki, bu sahədə bütün işlər başa çatıb və artıq bununla kifayətlənə bilərik. Həm bölgədə gedən geosiyasi proseslər, enerji amilinin xarici siyasətdə daha da qabarıq şəkildə müzakirə olunması, həm də bizim öz layihələrimiz, Azərbaycanın neft-qaz sahəsinin inkişafı üçün lazım olan layihələr bunun əksini göstərir. Bizim indi gözəl təcrübəmiz var. Xarici şirkətlərlə çox işgüzar şəraitdə, qarşılıqlı maraqlar əsasında uzun illərdir çalışırıq. Eyni zamanda, artıq bizim maliyyə imkanlarımız var. Bu maliyyə imkanlarından istifadə etməliyik və Azərbaycanda bütün neft-qaz sənayesini müasirləşdirməliyik. Mən bu barədə müvafiq göstərişlər vermişəm. Bu gün bu barədə bir daha deyəcəyəm. Amma onu da demək istəyirəm ki, neft-qaz sahəsində geniş yeni proqram hazırlanmalıdır. Uzun illər bundan sonra da bu sahə Azərbaycan iqtisadiyyatı üçün böyük uğurlar gətirəcəkdir.

Bizim toplantılarımız, bayaq qeyd etdiyim kimi, sosial-iqtisadi yekunlara həsr olunur. Ancaq bununla bərabər, ölkənin daxili siyasəti, iqtisadi uğurlar ayrı kontekstdə, yəni xarici siyasətlə uzlaşmadan həm müzakirə oluna bilməz, həm də biz istədiyimizə nail ola bilməyəcəyik. Xarici siyasət daxili siyasətin nəticəsidir. Biz nə qədər güclü olsaq, mövqelərimiz nə qədər möhkəm olsa, xarici siyasətimiz də bir o qədər uğurlu olacaqdır. Bu sahədə aparılan işlər qənaətbəxşdir. Biz yeni müttəfiqlər qazanmışıq. Azərbaycanın xarici əlaqələri xeyli genişlənibdir. 50-dən çox ölkədə səfirliklər açılıbdır. Bu, əlbəttə, ikitərəfli əlaqələrin inkişafına böyük təkan verir. Beynəlxalq təşkilatlarla qarşılıqlı, şüurlu münasibətlər var. Bir sözlə, bu sahədə əldə etdiyimiz nailiyyətlər ölkəmizi daha da gücləndirir və Azərbaycan haqqında həqiqətlər dünya birliyinə olduğu kimi çatdırılır. Bu bizim üçün çox lazımdır və vacibdir. Çünki dünya erməni lobbi təşkilatları bizə qarşı mütəmadi qaydada mübarizə aparırlar. Azərbaycanı ləkələmək üçün, Azərbaycanı qeyri-demokratik ölkə kimi təqdim etmək üçün və Azərbaycanın beynəlxalq mövqelərini zəiflətmək üçün. Biz bunu bilirik.

Bizim haqqımızda xarici mətbuatda gedən yazıların böyük əksəriyyəti erməni müəllifləri tərəfindən bəzi hallarda başqa adlarla yazılır. Yaxud da erməni lobbi təşkilatları tərəfindən maliyyələşdirilir. Biz bunu bilirik ki, lobbi fəaliyyəti inkişaf etmiş ölkələrdə çox geniş yayılıbdır. Erməni lobbisinin də böyük iqtisadi imkanları var. Onlar bu iqtisadi imkanlardan istifadə edib həm siyasətçiləri öz tərəflərinə çəkirlər, həm də mətbuat orqanlarında özlərinə sərf edən yazıları dərc etdirirlər. Bir sözlə, əksər ölkələrdən fərqli olaraq, dünyada bizə, Azərbaycana qarşı düşmənçilik mövqeyində dayanan strukturlar mütəmadi qaydada fəaliyyət göstərir.

Bunların qabağına biz öz gücümüzü qoymalıyıq. Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq. Azərbaycanın uğurlu inkişafını təmin etməliyik. Ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə çalışmalıyıq və biz

bunu edirik. Deyə bilərəm ki, xarici siyasətdə bu məsələdən başqa, bizim ciddi problemlərimiz yoxdur.

Əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bu sahədə diplomatik və siyasi addımlar çox uğurlu olubdur. Bu yaxınlarda BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı aparılan müzakirələr bir daha onu göstəribdir. Baxmayaraq ki, Minsk qrupunun həmsədrləri, dünyanın aparıcı ölkələri, üç ölkə – nüvə ölkələri, BMT Təhlükəsilzik Şurasının üç daimi üzvü bu qətnamənin əleyhinə səs veribdir. Buna baxmayaraq, Azərbaycan böyük üstünlüklə bu qətnamənin qəbul olunmasına nail ola bilibdir. Bu nəyi göstərir? Bu bizim gücümüzü göstərir. Bu ilk növbədə, dünyada haqq-ədalətin olmasını göstərir. Halbuki, bəzi hallarda bu sahədə şübhələr də var.

Digər tərəfdən, onu göstərir ki, dünya ictimaiyyəti Azərbaycanın haqlı olduğunu bir daha sənədləşdirib, bir daha təsdiq edibdir. Bir də onu göstərir ki, Azərbaycanın müttəfiqləri artır. Əgər bizim xeyrimizə qətnaməyə səs verən ölkələrin coğrafiyasına baxsaq görərik ki, bütün bölgələrdən, qitələrdən ölkələr var. Əlbəttə ki, biz siyasi və diplomatik səylərimizi davam etdirəcəyik.

Bu yaxınlarda NATO-nun zirvə görüşündə bütün NATO üzvləri tərəfindən qəbul edilmiş qətnamə Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq edir, dəstəkləyir və göstərir ki, dondurulmuş bütün münaqişələr ərazi bütövlüyü prinsipini nəzərə almaq şərtilə həll olunmalıdır.

BMT, NATO, Avropa Şurası, Avropa Birliyi, İslam Konfransı Təşkilatı, GUAM – bütün beynəlxalq aləm bizim tərəfimizdədir. Belə olan halda, danışıqlarda bizdən hansısa güzəştlərin gözlənilməsi qeyri-ciddi yanaşmanın təzahürüdür. Mən bunu bir dəfə demişəm, bir də demək istəyirəm ki, baxmayaraq, heç bir nəticə yoxdur, danışıqlarda uzun illər iştirakımız artıq bizim tərəfimizdən verilən böyük güzəştdir. Azərbaycan öz ərazi bütövlüyünü heç kimə güzəştə getmə-

yəcəkdir. Bunu hamı bilir. Beynəlxalq ictimaiyyət də bilir və bu məsələ ilə bilavasitə məşğul olan, vasitəçilik missiyasını icra etməyə çalışan Minsk qrupu və onların həmsədrləri də bilir.

Biz bu mövqedən geri çəkilməyəcəyik. Biz öz diplomatik, siyasi fəaliyyətimizi davam etdirəcəyik. Ermənistana qarşı öz əsaslı təbliğatımızı davam etdirəcək, onların işğalçı siyasətinin mahiyyətini ifşa edəcəyik. Mən bir daha bizim nümayəndələrə göstəriş verirəm ki, bütün beynəlxalq təşkilarlarda öz fəallıqlarını davam etdirsinlər. Ermənistan dövlətinin işğalçı mahiyyətini fəaliyyət göstərdikləri təşkilatlarda həmişə vurğulasınlar. Bu işğalçı siyasət Ermənistanın özünü ağır vəziyyətə qoymuşdur. Ölkənin inkişaf perspektivləri qeyri-müəyyəndir. Ölkədə gedən qarşıdurma səngiməк bilmir. Bu da təbiidir. Çünki işğalçı siyasət, ədalətsiz yanaşma və orta əsrlərə xas olan siyasət heç vaxt uğur gətirə bilməz. Azərbaycan isə atəşkəs müddəti ərzində böyük yol keçibdir. Həm demokratik yol – Azərbaycanda demokratiya sürətlə inkişaf edir – həm iqtisadi inkişaf yolu, həm müasirlik yolu, həm də intibah yolu. Budur bizim yolumuz və ölkə qarşısında bütün yollar açıqdır. Sadəcə, bundan sonra da ölkəmiz üçün lazım olan bütün sahələrdə daha da fəal olmalıyıq, iqtisadiyyatı gücləndirməliyik, xarici siyasətdə fəal olmalıyıq, sosial məsələlərin həlli, insanların rifah halının yaxşılaşması üçün daha da ciddi addımlar atmalıyıq. Beləliklə, Azərbaycan qarşıya qoyduğu bütün məqsədlərə nail olacaqdır. Eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bizim xeyrimizə həllinə nail olacaqdır.

Bir də demək istəyirəm ki, biz bu gün sosial-iqtisadi inkişafın yekunlarını müzakirə edəcəyik.

*2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda İqtisadi İnkişaf naziri Heydər Babayev, Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov, Müdafiə Sənayesi naziri Yavər Camalov, Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov çıxış etdilər.*

# YEKUN NITQI

Beləliklə, birinci rübün yekunları deməyə əsas verir ki, bütövlükdə 2008-ci il Azərbaycan iqtisadiyyatı üçün uğurlu il olacaqdır. Əlbəttə, bizi düşündürən əsas məsələlərdən biri – artıq bu gün bu barədə qeyd olundu – inflyasiyanın artmasıdır. Onun təbii səbəbləri vardır, bunu hamı bilir. Dünyada gedən bahalaşma, əsasən neftin qiymətinin artması ilə əlaqələndirilir, eyni zamanda, dolların məzənnəsinin aşağı düşməsi də buna öz təsirini göstərir.

Azərbaycana gəldikdə isə, bununla bərabər, bizim çox sürətli iqtisadi inkişafımız, artan maliyyə imkanlarımız, dövlət xərclərimiz şübhəsiz ki, qiymətlərin bahalaşmasına öz təsirini göstərir. Makroiqtisadi vəziyyət hər bir iqtisadiyyat üçün, hər bir ölkə üçün başlıca əhəmiyyət daşıyır. Biz çalışmalıyıq ki, makroiqtisadi vəziyyət sabit olaraq qalsın, inflyasiyanın çərçivələri imkan versin ki, ölkə sürətlə inkişaf etsin və əhalinin sosial rifahına təsiri olmasın. Bunun müxtəlif yolları var. İlk növbədə, bu, sosial məsələlərin və sosial proqramların davam etdirilməsidir.

Mən qeyd etmişəm və bir daha demək istəyirəm ki, bu il yenə də minimum əməkhaqqı və minimum pensiyanın məbləği artırılacaqdır. Ünvanlı sosial yardım proqramı davam etdiriləcəkdir. Bununla bərabər, bahalaşmanı şərtləndirən subyektiv amillər də aradan qaldırılmalıdır. Biz bu barədə dəfələrlə danışmışıq. Süni bahalaşmaya təkan verən qeyri-sağlam rəqabət elementləri tamamilə aradan qaldırılmalıdır. Amma biz onu da görürük ki, həm idxal edilən mallar bahalaşıb, həm də Azərbaycanda istehsal olunan mallar, xüsusilə ərzaq məhsulları bahalaşıbdır. Burada çox ciddi işlər aparılmalıdır və əminəm ki, biz bu sahədə tənzimləmə mexanizmlərini tam şəkildə tətbiq edə biləcəyik.

Eyni zamanda, bütün dünya üçün xas olan inflyasiya bizi öz layihələrimizdən çəkindirməməlidir. Biz dövlət xərcləri-

mizi artıracağıq, ölkə iqtisadiyyatı üçün lazım olan bütün infrastruktur layihələrini davam etdirəcəyik. İnfrastruktur layihələrinin icra olunması özəl sektorun inkişafına öz müsbət töhfəsini verəcəkdir.

Bildiyiniz kimi, dövlət investisiya xərcləri son illər ərzində bir neçə dəfə artmışdır. Bu yaxınlarda büdcəyə olunacaq əlavələr nəticəsində, mən hesab edirəm ki, dövlət investisiya xərcləri daha da artmalıdır. Bizim neft satışından əldə etdiyimiz gəlirlər artır. Əlbəttə, bu gəlirlər çox şəffaf şəkildə Neft Fondunda cəmləşir. Bu həm bizim maliyyə sabitliyimiz üçün lazımdır, həm də bu vəsaiti gələcək nəsillərə əmanət kimi saxlamalıyıq. Ancaq bununla bərabər, ölkə qarşısında duran təcili, təxirəsalınmaz tədbirlərin görülməsi üçün, əlbəttə ki, bu imkanlardan istifadə etməliyik.

Hesab edirəm ki, əsas istiqamətlər sosial sahəyə aid olmalıdır. Biz ilk növbədə, sosial müdafiəni gücləndirməliyik və büdcəyə ediləcək əlavələr ən əvvəl sosial məsələlərin həllinə yönəldilməlidir. Digər tərəfdən, infrastruktur layihələrinin icrası üçün əlavə vəsaitlər ayrılmalıdır. Bu yaxınlarda təqdim olunan müxtəlif layihələr, infrastrukturla bağlı olan layihələr bunu tələb edir. Biz bunu etməyə də, gələn ilə saxlaya da bilərik. Amma biz sadəcə olaraq, vaxt itirəcəyik. Mən hesab edirəm ki, indi dürüstləşmə aparmaqla, büdcəyə əlavə vəsait daxil olmaqla biz vacib olan infrastruktur layihələrini daha da qısa müddət ərzində icra edə bilərik.

Biz qısa müddət ərzində Azərbaycanda infrastruktur sahəsində çox böyük işlər görmüşük: çəkilən yollar, tikilən elektrik stansiyaları. Elektrik enerjisi sahəsində əvvəllər yaşanan böhranları, demək olar ki, tamamilə aradan qaldırmışıq. Baxmayaraq ki, bu qış çox sərt keçibdir və bütün bölgə ölkələrində sərt hava şəraiti energetika sahəsinə mənfi təsir göstərmişdir. Biz bilirik ki, bəzi hallarda ölkələr öz müqavilə öhdəliklərini icra edə bilməmişlər. Bizdən daha çox həcmdə qaz hasil və ixrac edən ölkələr qaz ixracatını dayandırmışdır. Çünki daxili tələbat artmışdır. Ancaq biz

nəinki bunu etməmişik, eyni zamanda, daxili tələbatımızı da ödəmişik, xarici öhdəliklərimizi də icra etmişik. Bu nəyin hesabına mümkün olubdur? Onun hesabına ki, biz qısa müddət ərzində infrastruktur layihələrinə çox böyük vəsait qoymuşuq.

Azərbaycanda bir neçə elektrik stansiyası tikilmişdir. Yardımçı stansiyalar tikilib, elektrik xətləri çəkilib, transformatorlar quraşdırılıb və demək olar ki, energetika sahəsində vəziyyət xeyli sağlamlaşdırılıbdır. Növbəti layihələr icra olunandan sonra Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevriləcəkdir. Biz artıq bunu görürük.

Yeraltı qaz anbarının genişlənməsi bizə əlavə imkanlar yaratdı. İndi Azərbaycanda qaz hasilatı artır. Hələ ki, biz öz ixrac imkanlarımızı tam şəkildə işə salmamışıq. Bunun müxtəlif səbəbləri var, onlar bizdən asılı deyil. İstehlakçı ölkələr öz təkliflərini daha da aydın şəkildə verməli, öz istədiklərini ifadə etməlidirlər. Amma biz gərək əlavə qazdan istifadə edək. İlk növbədə, qazlaşdırma prosesi gedir və gedəcəkdir. Digər tərəfdən, qaz anbarının genişlənməsi imkan verir ki, orada daha da çox qaz saxlansın.

Bu məsələlər bir-biri ilə bağlıdır. Bir də demək istəyirəm ki, biz vaxt itirməməliyik. Ona görə 2008-ci ilin büdcəsinə əlavələr sosial məsələlərin həlli ilə bərabər, infrastruktur layihələrinə də yönəldilməlidir. Yəqin ki, ən böyük hissə məhz o sahəyə yönəldiləcəkdir.

Bununla bərabər, mən hesab edirəm ki, biz müdafiə potensialımızı daha da gücləndirməliyik. Düzdür, bu sahədə son illər ərzində böyük uğurlara nail ola bilmişik. Son dörd-beş il ərzində bizim hərbi və müdafiə xərclərimiz 150 milyon dollardan 1 milyard 300 milyon dollara qalxmışdır. Əlbəttə ki, bu, ümumi büdcə artımının təzahürüdür.

Bəzi hallarda vəziyyətlə yaxından tanış olmayan, yaxud da qərəzli mövqedə dayanan beynəlxalq qurumlar buna görə bizi tənqid etməyə çalışırlar ki, Azərbaycanda silahlanma prosesi gedir və hərbi xərclər artır. Onlar bilməlidirlər ki,

Azərbaycanın dövlət büdcəsi son dörd il ərzində 10 dəfə artıbdır. Əlavə artımlar nəticəsində daha da çox artacaqdır və hərbi xərclərin çoxalması ümumi kontekstdən çıxarılmamalıdır. Nəzərə alaq ki, biz müharibə şəraitindəyik. Baxmayaraq ki, 1 milyard 300 milyon dollar çox böyük məbləğdir, mən hesab edirəm və əminəm ki, biz bunu daha da artırmalıyıq. İndi hesablamalar gedir. Hesab edirəm ki, builki müdafiə xərcləri 2 milyard dollara yaxın olmalıdır. Biz bu sahəyə diqqətimizi bundan sonra da yönəldəcəyik və Azərbaycanın artıq çox güclü müdafiə potensialı var. Bu, bölgədə ən böyük potensialdır və biz bunu artırmalıyıq. Beləliklə, əsasən üç istiqamət üzrə artımlar edilməlidir. İnfrastruktur deyəndə, burada, əlbəttə ki, müxtəlif sahələr nəzərdə tutulur – nəqliyyat, energetika, neft-qaz sahəsi, turizm sahəsi, ekologiya layihələri. Yəni müxtəlif infrastruktur layihələri.

Bu gün Fövqəladə Hallar və Müdafiə Sənayesi nazirləri gördükləri işlər haqqında məlumat verdilər. Bu iki nazirlik iki il əvvəl yaradılmış və iki il ərzində çox böyük işlər görülmüşdür. Demək olar ki, bizdə artıq müdafiə sənayesi yaranıbdr. Biz bu sahəyə əlavə vəsaitin ayrılması ilə çox güclü müdafiə sənayesi yaradacağıq və o, Azərbaycan ordusunun güclənməsinə öz təkanını verəcəkdir. Çünki burada qeyd olundu ki, bəzi hallarda hərbi sahədə yeni texnologiyaların əldə olunması problemlərlə üzləşir. Biz elə etməliyik ki, ən qabaqcıl texnologiyaları Azərbaycana gətirək və müdafiə məqsədləri üçün lazım olan texnikanı, sursatları və bütün avadanlığı özümüz istehsal edək.

Eyni zamanda, Fövqəladə Hallar Nazirliyinin yaranması və iki il ərzində fəaliyyəti artıq bu sahədə də çox güclü maddi-texniki potensialın yaranmasına gətirib çıxarıbdır. Bu sahə artıq maddi-texniki cəhətdən təmin olunur, əlavə vəsait ayrılır və yeni texnika, yeni avadanlıq alınacaqdır.

Bütövlükdə infrastrukturun və maddi-texniki bazanın möhkəmlənməsi sahəsində son illər ərzində çox böyük işlərimiz olubdur. Bunlar davam etdirilməlidir və əminəm ki,

ölkəmizin hərtərəfli inkişafında bunun çox böyük rolu olacaqdır.

Bu gün biz enerji təhlükəsizliyi haqqında danışmışıq və deyə bilərəm ki, Azərbaycan bu sahədə başqa ölkələrdən xeyli fərqlənir. Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin etmişik və başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edirik. Bizim enerji layihələrimiz, neft-qaz layihələrimiz yalnız əməkdaşlığın, regional inkişafın dərinləşməsinə yönəldilibdir. Biz neft-qaz amilindən başqa məqsədlər üçün istifadə etmirik. Bundan siyasi dividentlər almaq üçün istifadə etmirik. Həm Avropa ölkələri ilə, həm qonşu ölkələrlə bu sahədə əməkdaşlığımız çox səmimidir, qarşılıqlı maraqlar əsasında qurulubdur. Eyni zamanda, lazım gələndə, Azərbaycan öz kömək əlini uzadır və bu, düzgün siyasətdir. Bir daha demək istəyirəm ki, biz enerji imkanlarımızdan dostluğun, əməkdaşlığın möhkəmlənməsi üçün istifadə edirik. Əlbəttə ki, öz iqtisadi maraqlarımız birinci yerdədir və bu maraqları da lazımi səviyyədə müdafiə edirik və qoruyuruq.

Bununla bərabər, biz bu gün bu barədə danışmadıq, amma bütövlükdə bu, diqqət mərkəzindədir. Xüsusilə indiki şəraitdə biz ərzaq təhlükəsizliyi məsələlərinə də böyük diqqət göstərməliyik.

Bu məsələ dünyada çox ciddiləşir. Biz bunu görürük, bilirik və bütün hazırlıq işlərimizi görməliyik. Dünyada ərzaq məhsullarının qiyməti kəskin şəkildə artır. Bəzi yerlərdə – Afrikada, Asiyada bu, artıq çox ciddi xarakter alır və aclıq təhlükəsi yaranır. Azərbaycan – bu həmişə belə olub – Sovet İttifaqı zamanında vahid xalq təsərrüfatı kompleksinin olduğu vaxtda da özünü qida məhsulları ilə təmin etmirdi və bunlar kənardan gətirilirdi. Bu gün də deyə bilmərəm ki, biz tam şəkildə özümüzü təmin edirik. Bunun tarixi səbəbləri var və obyektiv səbəblər də mövcuddur. Amma çalışmalıyıq ki, bizim üçün strateji olan ərzaq məhsullarını maksimum dərəcədə Azərbaycanda yetişdirək. Bildiyiniz kimi, bu məqsədlə

əməli-praktik işlər görülür. Fermerlərə əlavə vəsait ayrılır və bu vəsaitin hesabına əkin sahələri xeyli genişləndirilmişdir, taxıl istehsalı artır. Ancaq hələ ki, bizi tam şəkildə qane edə bilmir. Bu barədə biz dəfələrlə müzakirə aparmışıq və hökumət praktik addımların atılması üçün indi əməli işlər görür. Əminəm, indi nəzərdə tutduğumuz bütün proqramlar imkan verəcək ki, biz ərzaq təhlükəsizliyi baxımından da özümüzü tam şəkildə sığortalayaq.

Yenə də qeyri-neft sektorunun inkişafına, sahibkarlığın inkişafına qayıdıram. Biz indi görürük ki, Azərbaycanda müxtəlif rayonlarda emal müəssisələri yaradılır. Kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan müəssisələr, hazır məhsul istehsal edən müəssisələr yaradılır. Düzdür, bu hələ bizim bazarı tam təmin edə bilmir. Baxmayaraq ki, bəzi və bir sıra yeni yaradılmış müəssisələr öz məhsullarını artıq ixrac edirlər. Amma biz əgər o proqrama başlamasaydıq, əgər dörd il bundan əvvəl regional inkişaf proqramına başlamasaydıq, əminəm ki, bunların heç biri mümkün olmazdı. Biz proqramın icrası ilə, kreditlərin verilməsi ilə, sahibkarlara dövlət dəstəyi ilə bu sahədə böyük canlanma yarada bilmişik. Amma bütün bu tədbirlərə baxmayaraq, hələ ki, bu bizi qane edə bilməz. Baxmayaraq ki, hər il biz 100 milyon dollar həcmində güzəştli kreditlər veririk. Yeddi faizlə kreditlər veririk, indi yeddi faizlə kredit götürmək heç bir yerdə mümkün deyildir. Veririk ki, yeni istehsallar yaransın. Ancaq hələ ki, bunu təmin edə bilməmişik. Ona görə növbəti illərdə ərzaq təhlükəsizliyi bizim üçün prioritet əhəmiyyət daşıyır. Biz vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatında əsaslı islahatlar aparmışıq. Demək olar ki, ən cəsarətli və radikal islahatlar aparmışıq və əslində kənd təsərrüfatı istehsalı tam şəkildə özəl sektorun sahəsində formalaşıbdır. Bu sahədə həm istehsalda, həm də satışda bütün mexanizmlər bazar iqtisadiyyatı əsasında qurulubdur. Azərbaycanın istehlak bazarı bütövlükdə bazar iqtisadiyyatı prinsipləri ilə işləyir və artıq nə dövlət, nə hökumət bu işlərə

müdaxilə etmir. Sadəcə olaraq, dəstək vermək üçün əməli-praktik işlər görür. Amma biz görürük ki, bu, indiki şəraitdə kifayət deyildir. Bazar iqtisadiyyatı prinsipləri ölkələri ərzaq çatışmazlığından qoruya bilmir. Ona görə biz əlavə tədbirlər görməliyik ki, daxildə kənd təsərrüfatı istehsalını artıraq, özümüzü qoruyaq və tam şəkildə əsas ərzaq məhsulları ilə təmin edək. Hələ ki, biz bunu görmürük. Baxmayaraq ki, həm «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıb, həm böyük həcmdə texnika gətirilir, kreditlər verilir, islahatlar aparılır, kənd təsərrüfatı istehsalı sahəsində artım bizi qane edə bilməz. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Əgər lazım olarsa, əlavə güzəştlər verilməlidir, əlavə vəsait ayrılmalıdır. Həm yanacaq almaq üçün, həm də gübrə ilə təmin etmək üçün. Biz bu barədə danışmışıq – Azərbaycanda gübrə istehsalı zavodları tikilməlidir. Əgər özəl sektor bunu edə bilmirsə və etmək istəmirsə, bəlkə dövlət tərəfindən hansısa tədbirlər görülməlidir.

Bizim indi maddi imkanlarımız var və bu sahəyə diqqət daha da güclü olmalıdır, dotasiyalar verilməlidir. İndi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatına dotasiya verilir. Biz də bunu edirik – yanacaq almaq üçün ayrılan vəsait, ucuz enerji daşıyıcıları. Azərbaycanda satılan qaz dünya qiymətindən 8–10 dəfə ucuzdur. Dizel yanacağı, benzin olduqca ucuzdur. Elektrik enerjisinin qiyməti dünya qiymətindən bir neçə dəfə ucuzdur. Bütün bunlar dotasiyalardır. Bütün bunların qiymətlərini biz ona görə aşağı səviyyədə saxlayırıq ki, həm ölkə əhalisi, həm də sənaye və kənd təsərrüfatı bundan bəhrələnsin. Biz 17 ildir ki, bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Amma bazar iqtisadiyyatının bütün prinsiplərini Azərbaycanda tətbiq etməmişik və düz də etmişik. Onları biz etsəydik, Azərbaycanda çox ciddi və xoşagəlməz proseslər başlaya bilərdi. Ümumiyyətlə, bunun ölkə iqtisadiyyatına, sənayenin inkişafına çox mənfi təsiri ola bilərdi. Ona görə biz ölkəmizin hərtərəfli inkişafını təmin etmək üçün güzəştlər edirik. Xüsusilə enerji daşıyıcılarının qiymətini tənzimləyirik

və bundan sonra da tənzimləyəcəyik. Bir sözlə, ərzaq təhlükəsizliyi məsələlərinə diqqət daha da çox olmalıdır və konkret tədbirlər planı hazırlanmalıdır.

Yenə qayıdıram enerji sahəsinə, mən giriş sözümdə qeyd etdim ki, biz bu sahədə də müxtəlif proqramlar hazırlayıb icra etməliyik. Bu barədə artıq danışılıbdır. Azərbaycanda böyük neft kimyası kompleksinin tikintisinə ehtiyac var. Eyni zamanda, neft-qaz sahəsində yeni layihələrin həyata keçirilməsinə böyük ehtiyac var. Biz bu sahəni tam şəkildə yeniləşdirməli, müasirləşdirməliyik ki, bundan sonra uzun illər, onilliklər ərzində Azərbaycanın iqtisadiyyatına dəstək olsun.

Qazlaşdırma prosesi daha da sürətlə getməlidir. Biz, demək olar, ölkədə 80 faiz qazlaşdırmanı təmin edə bilmişik. Amma bunu artırmalı, 90 faizə qaldırmalıyıq. Maksimum dərəcədə qazlaşdırma prosesi getməlidir. Çünki bu həm sosial məsələdir, həm də iqtisadi məsələdir. Bu yaxınlarda Beyləqan rayonuna təbii qazın verilməsi bərpa olunacaqdır. Uzun illər Beyləqan rayonu qazdan məhrum idi. İndi biz əvvəllər qazlaşdırılmayan bütün rayonlara qaz xətləri çəkirik və demək olar ki, son rayonlardan biri də Beyləqandır. Ondan sonra Füzuli və Ağdam rayonlarına qaz çəkilişi təmin olunmalıdır.

Qeyri-neft sektorunun inkişafı üçün birinci rübdə çox mühüm hadisələr olmuşdur. İki böyük sənaye müəssisəsinin – Gəncədə alüminium və polad komplekslərinin təməli qoyulubdur. Bir milyard dollar həcmində investisiya qoyulacaq və özəl sektor tərəfindən icra olunacaq bu layihələrin başa çatması ilə Azərbaycanda yeni sənaye sahələri yaradılacaqdır. Biz bütövlükdə iqtisadiyyatın sənayeləşməsinə ciddi fikir veririk. Bu sahədə həm özəl sektor tərəfindən, həm dövlət dəstəyi ilə – Dövlət İnvestisiya Şirkəti tərəfindən nəzərdə tutulan layihələr öz müsbət rolunu oynayacaqdır. Qeyri-neft sektorunun inkişafı üçün gələcəkdə nə lazımdırsa, biz onu edəcəyik. Güzəştli kreditlər davam etdiriləcəkdir. Bu

vaxta qədər verilən güzəştli kreditlər artıq bir neçə ildən sonra qaytarılmağa başlayacaq və bunun nəticəsində bizdə təxminən 300–500 milyon dollar həcmində daimi vəsait olacaqdır. Biz bir neçə ildir ki, güzəştli kreditləri veririk, amma onları hələ ki, geri götürmürük. Çünki onlar 5, yaxud da ki, 7 il müddətinə verilir və bu kreditlərin verilməsi maliyyə məqsədləri daşımır. Biz bunu ona görə vermirik ki, dövlət pul qazansın. Ona görə veririk ki, iş görülsün. Ancaq bir neçə ildən sonra – indi bunu yəqin ki, hesablayacaqlar – bu kreditlər tam şəkildə qayıdandan sonra hər il dövlət büdcəsindən əlavə vəsaitin ayrılmasına ehtiyac qalmayacaqdır. Bu böyük məbləğ, 300–500 milyon dollar hər il yeni sənaye sahələrinin yaradılmasına, biznes şəraitinin yaxşılaşmasına kömək göstərəcəkdir.

Bununla bərabər, iqtisadiyyatda və əlbəttə ki, qeyri-neft sektorunda liberallaşma siyasəti davam etdirilməlidir. Biz bizneslə məşğul olmaq üçün şəraiti yaxşılaşdırmalıyıq. Bunu edirik, bu barədə deyilibdir. Həm «bir pəncərə» sistemi tətbiq olunub, həm başqa tədbirlər görülür ki, Azərbaycanda bu sahədə işlər yaxşı getsin. Belə fikirlər də var ki, böyük neft-qaz yataqlarımız var, artıq bütün kəmərlər də işə düşüb və biz böyük valyuta axını gözləyirik, ölkəmizə milyardlarla dollar vəsait daxil olacaq, biz rahat yaşayacağıq. Mən bu fikirləri bölüşmürəm. Əminəm ki, ölkənin uğurlu inkişafı iqtisadiyyatın şaxələndirilməsi ilə bağlıdır. Ölkəmizdə liberal iqtisadiyyatın bütün prinsiplərinin möhkəmlənməsi ilə bağlıdır, siyasi islahatlarla, demokratikləşmə prosesləri ilə bağlıdır. Çünki bunlar olmasa, bizim uğurlarımız yarımçıq olar. Əgər ciddi ictimai nəzarət olmasa, əgər Azərbaycanda ciddi siyasi demokratik təsisatlar yaranmasa, bizim uğurlarımız uzunmüddətli olmayacaqdır. Ona görə biz ölkəmizi hərtərəfli inkişaf etdiririk, müasirləşdiririk. Kiminsə xoşuna gəlmək üçün yox, özümüz üçün. Biz öz dövlətçiliyimizi özümüz yaradırıq. Özümüz müstəqil Azərbaycanımızı gücləndiririk və bu sahədə görülən işlərə və xüsusilə başqa, bizimlə

eyni vəziyyətdə olan, 1991-ci ildə müstəqillik qazanmış ölkələrin təcrübəsinə baxaraq, müqayisə edərək görürük ki, biz düz yoldayıq. Azərbaycanda sabitlik var, inkişaf var, sosial məsələlər öz həllini tapır, ölkə dünya miqyasında çox müsbət imicə malikdir. Bizim bütün sahələrdəki layihələrimiz icra olunur və elə etməliyik ki, bu müsbət meyillər güclənsin və davam etdirilsin.

Növbəti aylarda dövlət investisiya xərcləri nəticəsində bir neçə sahədə çox böyük işlər görüləcəkdir. Yollar tikilir, bütün istiqamətlərdə bu proses çox sürətlə gedir və daha da sürətlə getməlidir. Su xətləri, qaz şəbəkələri, meliorasiya, ekologiya ilə bağlı məsələlər öz həllini tapmalıdır. Bu gün Ekologiya və Təbii Sərvətlər naziri bu sahədə görülən işlər haqqında danışdı. Əlbəttə, böyük problemlər var. Xüsusilə Bakıda, Abşeron yarımadasında biz çox böyük işlər görməliyik – həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də bu çirklənmənin əsas səbəbkarı olan neft sənayesi tərəfindən. Yəni biz bu vəziyyətdən çıxmalıyıq. Çünki Sovet İttifaqı zamanında, ümumiyyətlə, ekoloji məsələlərə diqqət göstərilmirdi. Ancaq plan var idi, tələbat var idi – nəyin bahasına olursa-olsun, neft-qaz hasil edilməliydi. Ekoloji vəziyyətə isə fikir verilmirdi. Bu həqiqətdir. Müstəqilliyimizin ilk illərində pulumuz yox idi ki, bu məsələlərə vəsait qoyaq. Xarici təşkilatlar da bu məsələdə çox passiv idilər və beynəlxalq maliyyə qurumlarına dəfələrlə etdiyimiz müraciətlər cavabsız qalmışdı. O vaxt xarici firmalar, yaxud da qurumlar vəsaiti ya gəlir gətirən sahələrə qoyurdular, ya da ki, onu banklardan götürürdülər. Neft, qaz – bu idi onları maraqlandıran. Bu da təbiidir. Ekoloji vəziyyət isə bizim dərdimizdir, bizim problemimizdir. Amma indi ki, maliyyə imkanlarımız var, ilk növbədə, bu sahəyə böyük investisiyalar qoymalıyıq. Bilirsiniz ki, bir müddət bundan əvvəl xüsusi proqram qəbul edilmişdir. Mən hesab edirəm ki, qısa müddət ərzində Abşeron yarımadasında ekoloji vəziyyət sağlamlaşdırılmalıdır. Hüseynqulu Bağırov dedi ki, bəzi

reytinq təşkilatları Azərbaycanı, Bakını bu məsələdə ədalətsiz tənqid etməyə çalışırlar. Bu həqiqətdir, bununla biz başqa sahələrdə də üzləşirik. Reytinq təşkilatları sifarişlərlə işləyirlər. Onlar kimi tərifləmək, kimi tənqid etmək barədə bir, yaxud da ki, bir neçə mərkəzdən sifariş alırlar. Onlar da verilən sifarişlər əsasında fəaliyyət göstərirlər. Ona görə təəccüblü deyil ki, Azərbaycan bir çox hallarda bu cür «beynəlxalq reytinq tərtib edən» təşkilatlar tərəfindən tənqid olunur. Bu, təzyiq mexanizmidir, bizə təzyiq etmək cəhdləridir.

Halbuki, artıq hamı başa düşməlidir ki, bu dövr keçibdir. Bizə təzyiq etmək mümkün deyil. İradəmizdən kənarda bizi hansısa məsələyə məcbur etmək, bizi nəyəsə sövq etmək mümkün deyil. Biz müstəqil dövlətik, güclü dövlətik. Azərbaycan dövləti xalqın iradəsinə əsaslanır. Xalqın iradəsi ilə fəaliyyət göstərir və heç kim bizi heç nəyə məcbur edə bilməz. Artıq görürəm ki, bir çoxları bunu başa düşüblər. O qüvvələr ki, başa düşməyiblər, ümid edirəm onlar da başa düşəcəklər.

Ancaq ekoloji məsələlərlə bağlı biz, əlbəttə ki, böyük proqramlar icra etməliyik. Dövlət Neft Şirkətinə göstəriş verilib və onlar indi işə başlayıblar və proqram hazırlayırlar. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və bütün aidiyyəti strukturlara da göstəriş verirəm ki, ekoloji məsələlərə çox diqqətlə yanaşsınlar. Biz indi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə içməli su probleminin həlli ilə də məşğuluq. Bu görülən işlər, təmizləyici qurğuların quraşdırılması nəticəsində təxminən yarım milyon insan keyfiyyətli su ilə təmin olunacaqdır. Bu insanlar kanaldan, arxdan su içirlər, keyfiyyətsiz su içirlər. Ekologiya həm ölkə üçün, həm də insanların sağlamlığı üçün lazımdır.

Mən bir də demək istəyirəm ki, bu məsələyə çox böyük diqqət göstərirəm. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi ilə bərabər, bu bizim üçün prioritet sahədir və buna diqqət artmalıdır. Ümumiyyətlə, bütün sahələr prioritetdir. Məgər təhsil prioritet deyil, səhiyyə prioritet deyil, müdafiə poten-

sialı prioritet deyil, kənd təsərrüfatı prioritet deyil? Bütün sahələr prioritetdir. Çox sevindirici haldır ki, bütün sahələr üzrə bizim proqramlarımız, icra mexanizmlərimiz, maliyyə resurslarımız var və biz fəaliyyətimizi sistemli şəkildə aparırıq. Azərbaycanın qısamüddətli, uzunmüddətli inkişaf perspektivləri və layihələri əsasında. Qısamüddətli proqramlar da uzunmüddətli proqramların tərkib hissəsidir.

Biz gələn ildən regional inkişaf proqramının ikinci mərhələsinə başlayacağıq. Bu, strateji bir layihədir. Ölkə qarşısında duran bütün problemlərin aradan qaldırılması üçün vasitədir. Sosial məsələlər, iqtisadi islahatlar, siyasi islahatlar və bütün başqa sahələrdə görülən işlər bizi ruhlandırır. Əlbəttə ki, problemlər də var. Mən o fikirdən uzağam ki, bütün qəbul edilmiş proqramlar lazımi səviyyədə icra olunur. Yox, belə deyil. Qüsurlar da var, çatışmayan cəhətlər, yubanmalar da var, bəzi hallarda işlər keyfiyyətsiz görülür və bir müddətdən sonra biz o işləri yenidən görməli oluruq. Bu var və bu da təbiidir. Biz böyük quruculuq işləri ilə məşğuluq. Ölkəmizi faktiki olaraq yenidən yaradırıq. Bu vaxta qədər, sovet dövründə onilliklər ərzində yaradılmış infrastrukturu yeniləşdiririk, əvəzləyirik, yenisini yaradırıq. Görürük ki, o dövrdən qalan sənaye, yaxud da ki, infrastruktur layihələri artıq bizi qane etmir. Biz qısa tarixi dövr ərzində faktiki olaraq yeni sənaye, yeni infrastruktur, yeni sosial infrastruktur yaradırıq. Bu, asan məsələ deyil. Ancaq biz bunu uğurla edirik. Bütün çatışmazlıqlara və qüsurlara baxmayaraq, gördüyümüz işlər təqdirəlayiqdir. Lakin bu bizi arxayın etməməlidir. Biz əldə edilmiş nəticələrlə kifayətlənməməliyik. Qabağa baxmalıyıq, irəliyə baxmalıyıq, elə etməliyik ki, ölkəmiz inkişaf etsin, insanlarımız daha da yaxşı yaşasınlar. Bax bu, növbəti aylar və illər üçün mənim hökumətə göstərişimdir. Mən əminəm ki, ikinci rüb də, ondan sonrakı rüblər də bizim üçün uğurlu olacaq, qarşıda duran bütün vəzifələr icra ediləcəkdir. Bu işlərdə sizə uğurlar arzulayıram, sağ olun.

**ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ**

Zati-müqəddəsləri!

Tacqoyma gününüz münasibətilə Sizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Vatikan arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq, insanlar arasında qarşılıqlı anlaşma, həmrəylik və humanizm ideallarının təntənəsi naminə bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali missiyanızda uğurlar, həmməzhəblərinizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2008-ci il*

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CAKAYA KİKVETEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Birləşmə günü münasibətilə Sizə və bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan–Tanzaniya əlaqələrinin inkişafı xalqlarımız arasında dostluq və əməkdaşlığa xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2008-ci il*

## NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

Ülyahəzrət!

Ölkənizin milli bayramı– Kraliça günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–Niderland münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, dostluq və əməkdaşlığımız, çoxşaxəli əlaqələrimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2008-ci il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB TABO MBEKİYƏ**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı– Azadlıq günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq istiqamətində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2008-ci il*

## UKRAYNANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ STEPAN VOLKAVETSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Prezident sarayında Ukraynanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Stepan Volkavetskini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Stepan Volkavetski Ukraynaya və səfirliyin fəaliyyətinə göstərdiyi diqqətə görə Azərbaycan hökumətinə, şəxsən dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, son illər Azərbaycanla Ukrayna arasında ikitərəfli münasibətlərin səviyyəsinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, siyasi və humanitar sahələrdə uğurla inkişaf etdiyini söylədi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə dinamik surətdə inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı səfirin ölkəmizdə diplomatik fəaliyyəti dövründə əlaqələrin inkişaf etdirilməsi işinə töhfə verdiyini qeyd etdi və münasibətlərimizin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirdi.*

## «AZADLIQ» RADİOSUNUN PREZİDENTİ CEFRİ GEDMİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Prezident sarayında «Azadlıq» radiosunun prezidenti Cefri Gedmini qəbul etmişdir.*

*Cefri Gedmin bildirdi ki, Azərbaycana səfərinin əsas məqsədi ölkəmizdə gedən proseslərlə yaxından tanış olmaqdan ibarətdir. Qonaq Azərbaycana səfərinin ilk saatlarından ölkəmizdə dinamizmin və inkişafın şahidi olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmizdə bütün sahələrdə çox sürətli inkişaf var və bu iqtisadi inkişaf prosesləri Azərbaycanın bütün bölgələrini əhatə edir. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Cefri Gedminin Azərbaycana səfəri ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaqdır.*

## ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ ÜZRƏ MÜŞAVİRİ DANİEL FEYTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında ABŞ Müdafiə nazirinin Avropa və NATO siyasəti üzrə müşaviri Daniel Feytanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də uğurla inkişaf etdiyini vurğuladı və əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminliyini bildirdi. Azərbaycana ikinci dəfə səfər etdiyini bildirən Daniel Feyta ötən illər ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu dedi. O, Bakıda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verərək əmin olduğunu bildirdi ki, ABŞ-la Azərbaycan arasında müdafiə sahəsindəki əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.*

## TÜRKİYƏNİN «SABANÇI HOLDİNQ» ŞİRKƏTİNİN RƏHBƏRLƏRİNDƏN BİRİ VƏ MÜŞAHİDƏ ŞURASININ ÜZVÜ ÖMƏR SABANÇI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Prezident sarayında Türkiyənin «Sabançı Holdinq» şirkətinin rəhbərlərindən biri və Müşahidə Şurasının üzvü Ömər Sabançını qəbul etmişdir.*

*Azərbaycana ilk dəfə səfərə gəldiyini deyən Ömər Sabançı vurğuladı ki, prezident İlham Əliyev tərəfindən qəbul olunması dövlət başçısının iş adamlarına və özəl sektora göstərdiyi böyük diqqətin təzahürüdür. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf proseslərini prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyini vurğulayan qonaq bildirdi ki, Türkiyənin iş adamları Azərbaycan prezidentinin bu sahədə uğurlu fəaliyyətini diqqətlə izləyirlər.*

*Prezident İlham Əliyev dünyanın aparıcı enerji şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətini vurğuladı və dövlətimizin qeyri-neft sektoruna da böyük əhəmiyyət verdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan və Türkiyənin iş adamlarının səmərəli əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini söylədi.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ, «YEDİNAYA ROSSİYA» PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

«Yedinaya Rossiya» Partiyasının sədri seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Müasir Rusiyanın tarixindəki bu mühüm hadisə göstərir ki, rusiyalılar Sizin yeritdiyiniz xəttə – dövlətçiliyin və demokratiyanın, iqtisadiyyatın və sosial sahənin möhkəmlənməsinə və hərtərəfli inkişaf etdirilməsinə, dünya birliyində Rusiyanın rolunun və nüfuzunun möhkəmlənməsinə yönəlmiş xəttə yüksək etimad göstərir və onu fəal surətdə dəstəkləyirlər.

Əminəm ki, Rusiya cəmiyyətini həqiqətən sıx birləşdirən qüvvə olan partiyanın sədri seçilməyiniz Rusiyanın inkişafı naminə bütün siyasi qüvvələrin daha sıx birləşməsinə kömək edəcəkdir.

«Yeni Azərbaycan» və «Yedinaya Rossiya» partiyalarını sıx əməkdaşlıq telləri birləşdirir. İnanıram ki, bu xeyirxah ənənələr xalqlarımızın və ölkələrimizin mənafeləri naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə və «Yedinaya Rossiya» Partiyasinin bütün üzvlərinə böyük uğurlar və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2008-ci il*

## İTALİYANIN AZADLIQ XALQ PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ

Hörmətli cənab sədr!

Ölkənizdə keçirilmiş növbədənkənar parlament seçkilərində başçılıq etdiyiniz koalisiyanın qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–İtaliya əməkdaşlığının inkişafı yolunda əldə etdiyimiz nailiyyətlər məmnunluq doğurur. Əminəm ki, dost ölkələrimiz arasındakı əlaqələrin gündən-günə genişlənməsi, beynəlxalq qurumlar çərçivəsində birgə səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2008-ci il*

## PREZİDENTİN İCRA APARATININ RƏHBƏRİ RAMİZ MEHDİYEVƏ «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*17 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevə dövlət qulluğunda və dövlət quruculuğu işlərində xidmətlərinə görə təltif olunduğu «İstiqlal» ordenini təqdim etmişdir.*

**İ l h a m  Ə l i y e v**: Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik etmək, Sizə cansağlığı, uzun ömür arzulamaq istəyirəm. Siz uzun illərdir ki, dövlət qulluğunda fəaliyyət göstərirsiniz. 1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işləmisiniz. Ulu öndərimiz müstəqil Azərbaycanın rəhbəri kimi fəaliyyətə başlayandan sonra onun məsul vəzifəyə ilk təyin etdiyi şəxslərdən biri də Siz olmusunuz. O vaxtdan bu günə qədər – 15 il ərzində dövlət qulluğunda, Azərbaycanın dövlət quruculuğunda çox fəal iştirak etmisiniz və bu fəaliyyətinizi indi də davam etdirirsiniz. İctimai fəaliyyətiniz çox genişdir, elmi fəaliyyətiniz çox genişdir. Sizin çoxlu elmi əsərləriniz var. Fəlsəfi xarakter daşıyan, Azərbaycanın dövlət quruculuğu ilə, Azərbaycanın keçdiyi yolla və ölkəmizin hərtərəfli inkişafı ilə bağlı çox geniş nəzəri baxışlarınız var, əsərləriniz var.

Mən Sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm. Prezidentin İcra Aparatının rəhbəri kimi, Siz ölkəmiz üçün çox vacib funksiyanı icra edirsiniz. Bütün bu amilləri nəzərə alaraq, dövlət qulluğunda, dövlət quruculuğu prosesində fəal işlərinizə görə mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı, yüksək ordeni – «İstiqlal» ordeni ilə təltif etmişəm

və istəyirəm ki, bu yubiley gününüzdə həmin mükafatı Sizə təqdim edim.

Sizi bir daha təbrik edirəm.

**Ramiz Mehdiyev** (*İcra Aparatının rəhbəri*): Çox sağ olun, cənab Prezident. Mən dediyiniz fikirlərlə bağlı və ümumiyyətlə, Sizə öz təşəkkürümü bildirirəm. Mən çox xoşbəxt insanlardan biriyəm. O mənada ki, birincisi, mən möhtərəm prezident Heydər Əliyev ilə uzun illər çalışmışam və mənim bütün fəaliyyətimdə, ümumiyyətlə, həyatımda Heydər Əliyevin rolu çox böyük olubdur. Demək olar ki, Heydər Əliyevin dövlətçilik təfəkkürü, dövlətçilik məktəbi, ümumiyyətlə, prinsipləri, onun dünyaya baxışı – bütün bunlar mənim üçün böyük bir məktəb olubdur.

Mən bu illər Heydər Əliyevin rəhbərliyi altında çalışmışam və bacardığımı etmişəm. Çalışmışam ki, onun etimadını doğruldum. Heydər Əliyev həqiqətən də çox böyük şəxsiyyətdir. O təkcə Azərbaycan üçün yox, MDB məkanında, ola bilsin, dünyada nadir şəxslərdən, bugünkü dünya siyasətinə öz töhfəsini vermiş insanlardan biridir.

Heydər Əliyev Azərbaycanı dərin və ağır böhrandan xilas etdi. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan çox ağır vəziyyətdə idi, təsəvvür etmək olmazdı ki, Azərbaycan yenidən dirçəlib müstəqil bir dövlət kimi, özünün yerini dünyada tutacaqdır. Lakin Heydər Əliyev hakimiyyətə gəldi və onun dünyaya baxışları, ümumiyyətlə, Azərbaycanın xüsusiyyətlərini dərindən bilməsi və görkəmli dövlət xadimi, siyasətçi kimi böyük istedadı, demək olar ki, Azərbaycanı bütün bu böhranlardan çıxartdı, xilas etdi və müstəqil Azərbaycan dövlətini yaratmağa imkan verdi.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur. Bu, sözün əsl mənasında belədir. Bu təkcə mənim fikrim deyil, təkcə Azərbaycan xalqının ona olan münasibəti, Azərbaycan xalqının fikri deyil. Xarici dövlətlərin tanınmış, nüfuzlu nümayəndələri Azərbaycana gələndə, artıq 1998-ci ildən başlayaraq, fərdi söhbətlərdə, görüşlərdə, rəsmi

danışıqlarda bu fikirləri bizə çatdırırdılar ki, Azərbaycan müstəqil dövlət kimi qurulubdur. Onlar həqiqətən də proseslərin çox ağır getdiyi və insanların çox ağır vəziyyətdə yaşadığı başqa ölkələrlə respublikamızı müqayisə edirdilər.

Heydər Əliyev Azərbaycanı böhrandan çıxartdı, dövləti qurdu. Cənab Prezident, lakin mən onu da demək istəyirəm ki, Siz Azərbaycanı xilas etdiniz. O mənada xilas etdiniz ki, Heydər Əliyevin ağır bir vəziyyətində Siz xalq tərəfindən Azərbaycana prezident seçildiniz. Düşünmək olardı ki, Allah eləməsin, proseslər başqa cür getsəydi, Azərbaycanı nələr gözləyə bilərdi. Mən bunların hamısının şahidiyəm. Bütün bunların hamısını öz gözümlə görmüşəm, hiss etmişəm və qəlbən yaşamışam. Siz Azərbaycanı 2003-cü ildən başlayaraq nəinki xilas etdiniz, həm də elə bir səviyyəyə gətirib çıxartdınız ki, bu gün Azərbaycan müstəqil dövlət kimi dünyada tanınmış, beynəlxalq təşkilatlarda müstəqil sözünü deyən, öz açıq mövqeyini bildirən bir dövlətdir. Bu gün beynəlxalq təşkilatlar, böyük dövlətlər Azərbaycanla hesablaşırlar, o mənada ki, həqiqətən də Azərbaycan müstəqil siyasət aparır, öz mövqeyini qoruyur, xalqın maraqlarını qoruyur.

Sizin beynəlxalq təşkilatların rəhbərləri, ayrı-ayrı dövlətlərin başçıları, nüfuzlu şəxsləri ilə apardığınız söhbətlərin əsasını xalqın və Azərbaycanın maraqları təşkil edir. Sizin bütün söhbətləriniz bu maraqlar üzərində qurulubdur.

Bütün bu söhbətlərdə Siz çox böyük iradə ilə, böyük bacarıqla və deyə bilərəm ki, çox hallarda kəskin mövqedən Azərbaycanın maraqlarını qoruyur, xarici dövlətlərə, beynəlxalq təşkilatlara Azərbaycanın maraqlarını bildirirsiniz. Bu gün deyə bilərəm ki, artıq həmin ölkələrin nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri Azərbaycanı müstəqil bir dövlət kimi tanıyır, sayır və onun fikrini qəbul edirlər. Deyə bilərəm ki, bu, Azərbaycan üçün böyük nailiyyətdir. Azərbaycan balaca dövlətdir. Azərbaycanın ətrafında çox böyük dövlətlər var və onların əhatəsində Sizin xarici

siyasətiniz bu gün öz bəhrəsini verir və bu, xalqın güzəranında artıq özünü göstərir.

Azərbaycan sosial-iqtisadi inkişaf baxımından, ümumiyyətlə, bu gün Avropa tipli dövlətə çevrilir. Xarici dövlətlərin nümayəndələri bizə bildirirlər ki, artıq Azərbaycanı tanımaq olmur. Çünki Azərbaycanda inkişaf o qədər sürətlə gedir ki, dörd il əvvəl burada olanlar bu gün Azərbaycanı tanımırlar. Bu, hər cəhətdən – həm iqtisadi cəhətdən, həm də şəhərlərimizin, rayonlarımızın simasının dəyişilməsində, gözəlləşməsində və ümumiyyətlə, insanların yaşayışında, hətta xarici görünüşündə artıq özünü büruzə verir. Cənab Prezident, bütün bunlar hamısı Sizin nailiyyətlərinizdir, çox gərgin fəaliyyətinizin nəticəsidir. Birincisi, Sizin silahdaşınız kimi, mən Azərbaycan naminə bu böyük işlərin, göstərdiyiniz səylərin şahidiyəm, ikincisi də, çox xoşbəxtəm ki, Sizinlə birlikdə çalışıram, köməkçiniz kimi mənə göstərdiyiniz etimadı doğrulduram.

Xoşbəxtəm o mənada ki, mənə ilk dəfə Qırmızı Əmək Bayrağı ordenini möhtərəm, rəhmətlik Heydər Əliyev təqdim etmişdir. Bu gün də xoşbəxtəm ki, Azərbaycanın yüksək ordenini onun oğlu, Azərbaycanın sevimli prezidenti İlham Əliyev mənə təqdim edir. Buna görə dərin təşəkkürümü bildirirəm və Sizi əmin etmək istəyirəm ki, mənə göstərdiyiniz etimadı bundan sonra da Azərbaycanın maraqları çərçivəsində tələbkarlıqla, ciddiliklə və təvazökarlıqla doğruldacağam. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Dediyiniz sözlərə görə təşəkkür edirəm. Yadımdadır, mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində demişdim ki, Azərbaycanın indiyə qədərki və bundan sonrakı uğurları Heydər Əliyevin siyasəti ilə bağlıdır. Heydər Əliyevin yaxın silahdaşı kimi, siz bu gün öz ürək sözlərinizi dediniz. Bizim bütün uğurlarımızın təməlində məhz o siyasət dayanır və bu gün hamımızın borcudur ki, bu siyasəti daha da gücləndirək, onu yeni formalarla zənginləşdirək və Azərbaycan xalqının xoşbəxt gələcəyini əbədi, dönməz edək. Bütün bunları etmək üçün hər cür imkan-

larımız var. Heydər Əliyev siyasəti yaşayır, onun siyasi xətti yaşayır, möhkəmlənir. Azərbaycanda böyük quruculuq işləri aparılır, iqtisadi inkişaf, xarici siyasətdəki uğurlarımız, beynəlxalq mövqelərimizin möhkəmlənməsi – bütün bunlar reallıqdır.

Azərbaycan 1993-cü ildə düşdüyü o ağır, çətin vəziyyətdən Heydər Əliyevin iradəsi ilə, ona inanan, onu dəstəkləyən insanların fəaliyyəti ilə şərəflə çıxa bilmişdir. Siz qeyd etdiyiniz kimi, əlbəttə, 2003-cü ildə vəziyyət başqa cür də ola bilərdi. Lakin Azərbaycan xalqı bir daha öz sözünü dedi, Heydər Əliyev siyasətinə sadiqliyini, öz müdrikliyini bir daha göstərdi və onun xəttinin davam etdirilməsinə səs verdi.

2003-cü ildə mənə göstərilən etimad daha çox ümumi siyasi xəttə verilən qiymət idi. Bu gün isə artıq biz növbəti prezident seçkiləri ərəfəsindəyik. Qürur hissi ilə deyə bilərəm ki, bu illər ərzində Azərbaycanın möhkəmlənməsi, ölkəmizin inkişafı, xalqın rifah halının yaxşılaşması üçün biz hamımız çox böyük işlər görmüşük. Mən Heydər Əliyevə yaxın olan və onu ürəkdən sevən, öz işləri ilə ona sadiqliyini göstərən bütün insanların fəaliyyətini, onların şəxsi keyfiyyətlərini, iradəsini və Heydər Əliyev xəttinə sadiqliyini çox yüksək qiymətləndirirəm. Düzdür, bu illər ərzində, son dörd-beş il ərzində bizi məyus edən məqamlar da olmuşdur. Biz xəyanəti də, qeyri-səmimi münasibəti də görmüşük. Özlərini bizə yaxın təqdim etməyə çalışan və uzun illər ərzində öz iç üzünü gizlədən insanlar bizə arxadan zərbə vurmağa çalışmışlar. Bu məyusluq, əlbəttə ki, bizə təsir etdi, yəni mənəvi cəhətdən təsir etdi. Ancaq bizim iradəmizə təsir edə bilmədi. Biz bu illərdə, eyni zamanda, sıralarımızı qeyri-səmimi, xəyanətkar insanlardan, öz şəxsi maraqlarını və yaxud da başqa ölkələrin bəzi siyasi dairələrinin maraqlarını Azərbaycanın milli maraqlarından üstün tutmuş insanlardan təmizlədik. Belə adamlara bizim aramızda yer yoxdur. Bu gün bizim sıralarımızda, sözün əsl mənasında, bütün mübarizələrdə sınaqdan çıxmış, özünü sübut etmiş insanlar – fədakar insanlar, səda-

qətli insanlar, Heydər Əliyev xəttinə sadiq olan insanlar cəmləşibdir və bu bizim gücümüzdür. Bizim gücümüz xalqın göstərdiyi etimaddadır və eyni zamanda, bizim birliyimizdədir. Biz vahid amal uğrunda birləşmişik, ideya uğrunda birləşmişik. Azərbaycanın xoşbəxt gələcəyi uğrunda birləşmişik və əminəm ki, bundan sonra da bizim fəaliyyətimiz uğurlu olacaq və Azərbaycan xalqına yeni uğurlar gətirəcəkdir.

Mən bu fürsətdən istifadə edib, bu gözəl yubiley münasibətilə bir daha Sizi təbrik etmək istəyirəm. Bütün silahdaşlarımıza, uzun illər bizimlə bərabər olan insanlara, Yeni Azərbaycan Partiyasının fəallarına öz xoş arzularımı bildirmək istəyirəm. Bir daha demək istəyirəm ki, bizim gücümüz birliyimizdədir, xalqla olan birliyimizdədir və bizim siyasətimiz xalqın maraqlarına cavab verir.

Ramiz müəllim, mən sizə bundan sonra da uzun-uzun illər cansağlığı arzulayıram, fəal işlər arzulayıram. Siz çox fəal insansınız. Çünki gecə-gündüz işləyirsiniz, çox enerjilisiniz. Mən arzu edirəm ki, gələcəkdə də, uzun-uzun illər ərzində də belə qalasınız və biz birlikdə bundan sonra da çox böyük işlər görək.

**Ramiz Mehdiyev:** Çox sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FÜZULİ, BEYLƏQAN VƏ BİLƏSUVAR RAYONLARINA SƏFƏRİ

*Füzuli*

*18 aprel 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Füzuli, Beyləqan və Biləsuvar rayonlarında səfərdə olmuşdur.*

*Dövlət başçısı həmin gün bölgələrdə Şəhidlər xiyabanını və ulu öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidələri ziyarət etmiş, bir neçə müəssisənin açılışında və bir neçəsinin təməlqoyma mərasimində iştirak etmişdir.*

## Şəhidlərin xatirəsinə ucaldılmış abidəni ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Füzuli rayonu ərazisində erməni işğalçılarına qarşı döyüşlərdə şəhid olmuş qəhrəman oğulların xatirəsinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Bildirildi ki, abidənin ətrafında əsaslı yenidənqurma işləri aparılmışdır.*

*Dövlətimizin başçısı igid Vətən övladlarının xatirəsini ehtiramla yad etdi, abidənin önünə gül dəstəsi qoydu.*

## Su Elektrik Stansiyasının təməlqoyma mərasimi

*Prezident İlham Əliyev aprelin 18-də Füzuli rayonunda Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevin tapşırığı əsasında tikiləcək stansiyanın gücü 50 meqavat olacaqdır. Füzuli və Beyləqan rayonlarına elektrik enerjisi xeyli uzaqdan verilir. Bu isə təc-*

*hizatın etibarlılığını aşağı salır, itkilərə səbəb olur. Bu baxımdan yeni stansiyanın tikilməsinin əhəmiyyəti böyükdür.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin sədri Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, burada hər birinin gücü 10 meqavat olan 4 ədəd və hər biri 5 meqavatlıq 2 ədəd turbin quraşdırılacaqdır. Layihədə 110 kilovoltluq elektrikötürmə xəttinin tikintisi də nəzərdə tutulmuşdur. Böyük Haramı və Xələc yardımçı stansiyalarını birləşdirən xəttin yenidən qurulması ilə stansiya vahid enerji sisteminə qoşulacaqdır.*

*«Azenko» stansiyanı xeyli tez, 2–2,5 il ərzində tikib istifadəyə verməyi nəzərdə tutur. O, işə salındıqdan sonra 120 nəfər daimi iş yeri ilə təmin olunacaqdır. Dövlətimizin başçısının tövsiyəsi ilə inşaat işlərinə yerli sakinlər də cəlb edilir.*

*Prezident İlham Əliyev tikinti sahəsinə, layihə sxemlərinə baxdı.*

*Tikintinin aparılacağı yerdəki lövhənin üzərinə* «Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev Füzuli Su Elektrik Stansiyasının təməlini qoymuşdur. 18 aprel 2008-ci il» *sözləri yazılmışdı.*

*Dövlətimizin başçısı stansiyanın təməlinə gilizi qoydu və beton qarışığı tökdü.*

## Tibb mərkəzinin təməlqoyma mərasimində

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Füzuli rayonunda Tibb mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına məlumat verdi ki, mərkəz 2 hektarlıq sahədə yerləşəcəkdir. Üç korpusdan ibarət mərkəzdə qəbul otağı, stasionar şöbə, rentgen kabineti, laboratoriya, inzibati şöbə, əməliyyat bloku, reanimasiya və doğum şöbələri olacaqdır. Yeni tibb ocağında ətraf bölgələrdən gələnlərə də tibbi xidmət göstəriləcəkdir. Tibb mərkəzində yardımçı otaqlar, mətbəx, yeməkxana, daimi elektrik enerjisi təchizatı olacaq, qazan-*

*xana, camaşırxana tikiləcəkdir. Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikiləcək səhiyyə ocağı ən müasir tibb avadanlığı ilə təchiz ediləcəkdir.*

*Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığı tökdü.*

## Quruçay üzərində yeni körpünün açılışı

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Horadiz–Füzuli magistralını Zobucuq ərazisində yeni salınmış qəsəbələrlə birləşdirən 15 kilometrlik avtomobil yolunun və Quruçay üzərində tikilmiş körpünün açılışında iştirak etmişdir.*

*Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov, «Azəraqrartikinti» Açıq Səhmdar Cəmiyyətinin sədri Ağalar Vəliyev dövlətimizin başçısına məlumat verərək bildirdilər ki, körpünün uzunluğu 24,1 metr, eni 9 metrdir. Yeni yolun çəkilməsi zamanı 27 ədəd dəmir-beton suötürücü bəndlər quraşdırılmışdır.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi. Ətrafdakı beş qəsəbədə 375 ev tikmiş «Azəraqrartikinti» magistral yoldan bu qəsəbələrə 3,2 kilometrlik yollar da çəkmişdir. Yeni yol və körpü Dövlət Neft Fondunun vəsaiti hesabına salınmışdır.*

*Dövlətimizin başçısı sonra avtomobilin sükanı arxasına keçərək, Zobucuq qəsəbəsində 27 nömrəli orta məktəbin binasının açılış mərasiminə yola düşdü.*

## Füzuli rayonunun Zobucuq qəsəbəsində orta məktəb binasının açılışı

*Aprelin 18-də Azərbaycan prezidenti İlham Əliyev Dövlət Neft Fondunun vəsaiti hesabına Füzuli rayonunda məcburi köçkünlər üçün salınmış Zobucuq qəsəbəsində olmuşdur.*

*Burada dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Dövlətqaçqınkomun sədri Əli Həsənov yeni qəsəbə barədə prezidentə məlumat verərək bildirdi ki, burada yaşayış üçün bütün infrastruktur yaradılmışdır.*

*Prezident İlham Əliyev həmin ərazinin tikintidən əvvəlki, inşaat işlərinin gedişini və hazırkı vəziyyətini əks etdirən fotostendə baxdı, burada BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin başçısı Vilyam Tol ilə ayaqüstü görüşdü.*

*Zobucuq adlanan ərazidə beş qəsəbə salınmışdır. Hər qəsəbədə 200 ev vardır. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik burada 2,25 min hektar sahəni minalardan tamamilə təmizləmişdir.*

*Sonra qəsəbədəki 27 nömrəli orta məktəbə gələn prezident İlham Əliyevi muğam üçlüyünün ifasında Bəhram Nəsibovun «Qarabağ» mahnısı ilə qarşıladılar.*

*İkimərtəbəli məktəb binasında 15 sinif otağı vardır. Burada «Qalaqayın» qəsəbəsindən köçürülmüş ailələrdən olan 360 şagird təhsil alır. Məktəbdə «Qan yaddaşı», «Milli Qəhrəmanlar», habelə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya həsr olunmuş xüsusi guşələr vardır.*

*Dövlətimizin başçısı idman zalında gənc idmançıların nümunəvi çıxışlarını izlədi, kompyuter otağı ilə tanış oldu, tikinti zamanı aşkar edilmiş və 5 min il yaşı olan tapıntılara baxdı, məktəbin eyvanından qəsəbəni seyr etdi.*

*Sonra Prezident İlham Əliyev məktəbin açılışına toplaşmış rayon ictimaiyyətinin nümayəndələri qarşısında nitq söylədi.*

## Zobucuq qəsəbəsində orta məktəb binasının açılış mərasimində nitq

Əziz bacılar və qardaşlar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gözəl gündə yeni qəsəbələrin istifadəyə verilməsi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Qısa müddət ərzində bu ərazidə minlərlə ev tikilib, minlərlə soydaşımız öz doğma torpaqlarına qayıtmışdır. Bildiyiniz kimi, qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının icrası çox uğurla gedir. 2004-cü ildə proqram qəbul olunanda bizim o vaxt nəzərdə tutduğumuz bütün vəzifələr indi həyatda öz əksini tapıb və o vaxtdan bu günə qədər görülən işlər də göz qabağındadır. Yeni binalarda, yeni qəsəbələrdə  biz bunları görürük. Mən xatırlayıram, 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim və söz vermişdim ki, növbəti beş ildə Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Mən çox şadam ki, biz bu məqsədə dörd il ərzində nail ola bilmişik. Bu gün artıq Azərbaycanda çadır şəhərciyi yoxdur. Əvvəllər o ağır, çətin vəziyyətdə yaşayan soydaşlarımız indi yeni evlərə köçürülür, yeni binalarda yaşayırlar. Bu qəsəbələrdə bütün infrastruktur yaradılmışdır. Gözəl evlər, yeni salınmış yollar, su xətləri, elektrik enerjisi, məktəb, tibb məntəqələri – yəni yaxşı yaşamaq üçün bütün imkanlar var. Bu illər ərzində on minlərlə soydaşımız yeni evlərə köçürülmüşdür. Bu siyasət 2000-ci illərin əvvəllərində ulu öndər Heydər Əliyev tərəfindən başlanmışdır. O vaxt qərar qəbul edilmişdi ki, çadır şəhərciklərinin bir hissəsi ləğv olunsun və orada yaşayan soydaşlarımız yeni evlərə köçürülsünlər. Birinci belə qəsəbə 2003-cü ildə Biləsuvar rayonunda salınmışdır. Ondan sonra, qeyd etdiyim kimi, 2004-cü ildə Dövlət Proqramı qəbul olunmuş, bu yaxınlarda, bir neçə ay əvvəl proqrama yeni əlavələr edilmişdir. 2004-cü ildə qəbul edilmiş proqramın icrası və bu əlavələr nəticəsində 330 min məcburi köçkün gözəl şəraitlə təmin olunacaqdır. İndiyə qədər 70 mindən çox insan yeni evlərə köçürülmüşdür və bu proses davam edir.

Əlbəttə, biz çalışırdıq ki, ilk növbədə, ən ağır vəziyyətdə çadır şəhərciklərində yaşayan soydaşlarımızı yeni evlərlə təmin edək. İkinci mərhələdə isə başqa yerlərdə – hərbi hissələrin ərazilərində, «fin» evlərində, yük vaqonlarında,

yataqxanalarda yaşayanlar təmin olunacaqlar. Yəni bu, dövlət siyasətidir və göz qabağındadır.

Yeni salınan qəsəbələr, çəkilən yollar, yaradılan infrastruktur Azərbaycan xalqının xidmətindədir. Biz bu siyasətə sadiqik və onu bundan sonra da davam etdirəcəyik. Çünki bizim üçün, ölkəmiz üçün sosial məsələlər, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan insanların sosial vəziyyətinin yaxşılaşdırılması birinci dərəcəli məsələdir.

Xüsusilə biz işğaldan əziyyət çəkən, ermənilər tərəfindən etnik təmizləmə siyasətinin qurbanları olan insanların bütün problemlərini həll etməliyik. Kompleks şəkildə həll etməliyik və biz bunu edirik. Yeni qəsəbələrin salınması yeni ərazilərin canlanması deməkdir. Bu Zobucuq deyilən ərazidə əvvəllər yaşayış məntəqələri olmamışdır. İndi isə böyük bir ərazi canlanıb, insanlar burada yaşayır və yaşayacaqlar.

Beləliklə, Azərbaycanda infrastruktur layihələri icra olunur, insanların yaşaması üçün lazım olan bütün tədbirlər görülür. Əminəm ki, burada da insanlar yaxşı yaşayacaq, xoşbəxt yaşayacaq, yaradacaqlar, uşaqlar bu gözəl məktəbdə oxuyacaqlar. Bizim soydaşlarımız, məcburi köçkünlərimiz daha da yaxşı şəraitdə yaşamalıdırlar. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bütün dövrlərdə bu məsələlər diqqət mərkəzində idi. Sadəcə olaraq, bizim maddi imkanlarımız məhdud idi. Keçən əsrin 90-cı illərinin ortalarında, təbii ki, Azərbaycanın iqtisadi vəziyyəti indiki kimi deyildi. Bu gün isə Azərbaycan iqtisadi cəhətdən güclənibdir. Biz bunu, ilk növbədə, abadlaşan şəhərlərdə görürük, bu qəsəbələrin tikintisinə yüz milyonlarla dollar vəsait xərclənməsində görürük. Bu gün bu evlərin tikilməsində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və hazırda uğurla davam etdirilən neft strategiyamızın bəhrəsini görürük.

Azərbaycan nefti ölkəmizin milli sərvətidir və bu sərvət Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasında mühüm rol oynayır. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Heydər Əliyev çox böyük və cəsarətli addım atmışdır.

O şəraitdə bu, asan məsələ deyildi. Hətta yadınızdadır, bundan sonra ona qarşı təzyiqlər başlandı, sui-qəsd cəhdləri oldu. Bütün bunları biz yaxşı xatırlayırıq. Amma o illərdə atılan addımlar bu gün Azərbaycanı yeni inkişaf səviyyəsinə gətirib çıxarıb və salınan bütün qəsəbələr, minlərlə, on minlərlə yeni evlər hamısı Neft Fondunun hesabına tikilmişdir.

Azərbaycan Dövlət Neft Fondunun ilk vəsaitləri məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına sərf olunmuşdur və bir daha onu göstərir ki, bu bizim üçün prioritet məsələdir. Baxmayaraq ki, 2000-ci ilin əvvəllərində ölkə qarşısında kifayət qədər böyük problemlər dururdu, ancaq ilk vəsaitlər məhz insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına sərf olunmuşdur. O vaxt da, bu gün də həm infrastruktur layihələri, həm sosial məsələlərin həlli, həm də yolların salınması, elektrik stansiyalarının tikintisi məsələləri bizim qarşımızda durmuşdur. Birinci növbədə sosial məsələlərə diqqət yetirilmiş və Dövlət Neft Fondunun hesabından artıq yüz milyonlarla dollar vəsait xərclənmişdir. İndiyə qədər bu məqsədlər üçün bütün mənbələrdən – dövlət büdcəsindən, Dövlət Neft Şirkətinin və Dövlət Neft Fondunun hesabından 900 milyon dollardan çox vəsait xərclənmişdir. Növbəti illərdə biz bunu daha da artıracağıq. 2007-ci ilin sentyabrında Dövlət Proqramına edilmiş əlavələr daha 500 milyon manat vəsait tələb edir və bu vəsait dövlət büdcəsində var. Bizim maliyyə imkanlarımız var və növbəti üç-dörd il ərzində, demək olar ki, məcburi köçkünlərin hətta ciddi sosial problemlərini də həll etmiş olacağıq.

Bir daha demək istəyirəm ki, Azərbaycanın təbii sərvətləri Azərbaycan xalqının xidmətindədir. Biz bu sərvətlərdən çox səmərəli, çox şəffaf şəkildə istifadə edirik. Azərbaycanın Dövlət Neft Fondu dünya miqyasında böyük reytinqə malikdir və keçən il Birləşmiş Millətlər Təşkilatı tərəfindən şəffaflıq məsələlərinə görə yüksək mükafatla təltif edilmişdir. Azərbaycanın bütün nefti, qazı, təbii ehtiyatları xalqa xidmət etməlidir, neftdən əldə olunan gəlirlər şəffaf şəkildə

və ədalətli bölünməlidir və bölünür. Əgər belə olmasaydı, Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 16 faizə enməzdi. Biz neft-qazla zəngin olan başqa ölkələrin təcrübəsini bilirik və görürük ki, neft heç də hər zaman xoşbəxtlik gətirmir. Bəzi hallarda yoxsulluq daha da artır, təbəqələşmə prosesi gedir, varlılar daha da varlanır, kasıblar isə daha da kasıblaşır. Azərbaycanda isə biz bunun tam əksini görürük. Görürük ki, neft, bizim təbii ehtiyatlarımız bütün insanların həyatına öz müsbət təsirini göstərir.

Bu gün Füzuli rayonunda olarkən Horadiz şəhərində ulu öndər Heydər Əliyev muzeyinin açılışında iştirak etdim. Bildiyiniz kimi, Horadiz qəsəbəsinə şəhər statusu verilibdir. Rayonun abadlaşmasına vəsait ayrılmışdır və bu vəsaitdən istifadə edilməklə abadlıq-quruculuq işləri aparılıbdır. Növbəti illərdə daha çox işlər görülməlidir və rayonun inkişafı üçün əlavə müvafiq vəsaitlər ayrılacaqdır. Bütövlükdə Füzuli rayonunun sosial-iqtisadi inkişafı üçün lazımi və ciddi tədbirlər görülür. Tədbirlər planı hazırlanır. Bu gün müasir tibb mərkəzinin təməli qoyulacaqdır və gələcəkdə burada sakinlərə ən yüksək tibbi xidmət göstəriləcəkdir. Eyni zamanda, su elektrik stansiyasının təməli qoyulacaqdır. Bu stansiya həm əhalini təmin edəcək – baxmayaraq ki, artıq elektrik enerjisi ilə problemlər, demək olar ki, həll olunub – həm də gələcəkdə işğaldan azad olunacaq bölgələrə elektrik enerjisi verəcəkdir.

Mənim göstərişimlə Horadizə qaz xətti çəkilməlidir və bu işlər artıq başlanmışdır. Ümid edirəm ki, ilin sonuna qədər qaz təchizatı da bərpa olunacaqdır. Biz bütün bölgələri təbii qazla təchiz edirik. Elə etməliyik ki, hər bir bölgədə təbii qaz olsun. Düzdür, bu çox böyük maliyyə vəsaiti tələb edir və onu da bilməliyik ki, həmin kəmərlərin çəkilişinə qoyulan vəsait heç vaxt geri qayıtmayacaqdır. Bəlkə də, 20–30 ildən sonra özünü iqtisadi cəhətdən doğruldacaqdır. Amma məqsəd bu deyil, məqsəd ondan ibarətdir ki, insanların sosial vəziyyəti daha da yaxşılaşsın, bütün lazımi infrastrukturla

təmin olunsunlar. Elektrik enerjisi, qaz, içməli su təchizatı– bu məsələlər diqqət mərkəzindədir. Biz hər rayonda, hər bölgədə bunu edirik. İlk növbədə, işğaldan azad olunan bölgələrdə bunu daha da böyük dərəcədə etməliyik.

Sizin hamınız yaxşı bilirsiniz ki, 1993-cü ildə Füzuli rayonunun işğal altına düşməsi böyük faciə idi. Ondan sonra Azərbaycan ordusu rayonun bir hissəsini işğalçılardan azad edib və bu gün həmin ərazilərdə həyat davam edir. Rayon əhalisinin əksəriyyəti artıq burada məskunlaşmışdır. Yeni salınan qəsəbələrdə əvvəllər başqa rayonlarda, çadır şəhərciklərində ağır vəziyyətdə yaşamış 20 min insan məskunlaşmışdır.

Mən əminəm ki, biz bütün rayonları işğalçılardan azad edəndən sonra hər yerdə böyük quruculuq-abadlıq işləri gedəcək, bütün infrastruktur bərpa olunacaq, evlər, məktəblər tikiləcəkdir. Biz bunu edəcəyik. Bu gün Füzuli rayonunun işğaldan azad edilmiş ərazilərində gedən proseslər deməyə əsas verir ki, biz buna daha da geniş miqyasda nail olacağıq. Bu gün səhər mən təmas xəttində əsgərlərlə, zabitlərlə görüşdüm. Bilirsiniz ki, mənim cəbhə bölgələrinə səfərlərim mütəmadi xarakter daşıyır və hər dəfə əsgərlərlə görüşürəm. Bu gün bir daha gördüm ki, bizim ordumuz qarşıda duran bütün vəzifələri yerinə yetirməyə hazırdır və buna qadirdir. Ordu potensialımız, ildən-ilə artan hərbi xərclərimiz bizi məqsədə yaxınlaşdırır. Bu gün Azərbaycan ordusu həm peşəkarlıq, həm də ki, maddi-texniki bazası baxımından bölgədə ən güclü ordudur.

Azərbaycanın hərbi xərcləri ildən-ilə artır. Son dörd ildə 10 dəfə artıbdır. İndi hökumət büdcəyə əlavələr təklifini Milli Məclisə göndərəcək və hesab edirəm ki, bizim hərbi xərclərimiz 2 milyard dollara yaxın olmalıdır. Bizim ən böyük problemimiz Dağlıq Qarabağın və ətraf bölgələrin işğal altında qalmasıdır. Başqa sosial, iqtisadi xarakter daşıyan problemlər də var. Amma görürsünüz ki, onlar hər yerdə, hər bir bölgədə həll olunur, ən ağır problemlər öz həllini tapır.

Ancaq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli hələ ki, təkcə bizim fəaliyyətimizdən asılı deyildir. Biz hələ ki, danışıqlar prosesindəyik, çalışırıq məsələni sülh yolu ilə həll edək. Həm beynəlxalq təşkilatlar, həm də Ermənistan tərəfi qeyd edir ki, onlar məsələni sülh yolu ilə həll etmək istəyirlər. Ancaq ermənilər bu torpaqları sülh yolu ilə işğal etməyiblər. Onlar bu torpaqları xarici dəstəklə, hərbi yolla işğal ediblər. İndi isə deyirlər ki, gəlin sülh yolu ilə danışaq. Biz 14 ildir, atəşkəs rejimi yaranandan danışıqlar prosesindəyik. Lakin 14 ildir ki, heç bir nəticə yoxdur. Danışıqlar zamanı hansısa irəliləyiş ola bilər və biz bunu bilirik, görürük. Amma bu o demək deyil ki, məsələ həll olunubdur. Biz nə vaxta qədər bu danışıqlarda iştirak edəcəyik? Nə vaxta qədər bu ədalətsizliklə barışacağıq? Biz danışıqlar prosesində ona görə iştirak edirik ki, ümidimiz var, məsələ sülh yolu ilə, ədalətli şəkildə həll ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Biz danışıqları bu çərçivələrdə aparırıq. Amma hamı onu da bilməlidir ki, bu danışıqlar əbədi aparıla bilməz. Atəşkəsdən sonra 14 ildir danışıqlar aparılır və hər bir xalqın, hər bir ölkənin səbrinin həddi var. Biz öz sülh siyasətimizi nümayiş etdirərək hələ ki, danışıqlarda iştirak edirik. Amma qarşı tərəf də və bütün beynəlxalq vasitəçilər də bilməlidirlər ki, bu heç də həmişə belə olmayacaqdır.

Biz həm danışıqlarda iştirak edirik, həm də öz işimizi görürük. Ölkəmizi gücləndiririk, iqtisadi məsələləri həll edirik və ordumuzu gücləndiririk. Ordu xərcləri ölkənin büdcə xərcləri içərisində birinci yerdədir və müharibə şəraitində yaşayan ölkə üçün bu belə də olmalıdır.

Biz hesab edirik ki, növbəti aylarda bu məsələyə aydınlıq gətirilməlidir: biz haradayıq, danışıqlar prosesinin perspektivləri var, yoxsa yox, Ermənistan tərəfi özünü bundan sonra da qeyri-səmimi aparacaq, yoxsa konstruktiv yola düşəcəkdir? Mən ümid etmək istəyirəm ki, beynəlxalq vasitəçilər və

Ermənistan tərəfi başa düşəcəklər ki, bu siyasətin, yəni işğalçı siyasətin gələcəyi yoxdur.

Məsələ beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunmalıdır. Məsələ hüquqi müstəvidə həll edilməlidir. Azərbaycanın haqlı olduğu bütün dünya tərəfindən tanınır. Bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi müdafiə edir və dəstəkləyir.

Son müddət ərzində Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində səsvermədə beynəlxalq aləm, dünya ictimaiyyəti bizim haqlı olduğumuzu bir daha sübut etdi və Azərbaycan tərəfindən irəli sürülmüş qətnamə böyük üstünlüklə dəstəkləndi, qəbul edildi. Baxmayaraq ki, dünyanın aparıcı ölkələri və bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədr ölkələri bunun əleyhinə çıxmış, bizim əleyhimizə səs vermişlər. Halbuki, vasitəçilər kimi, onlar ən azı, bitərəf qalmalı idilər. Buna baxmayaraq, Azərbaycanın haqlı olması, bizim artan nüfuzumuz, ölkələrlə beynəlxalq təşkilatlarda və ikitərəfli müstəvidə apardığımız danışıqlar, diplomatik səylər, siyasi uğurlarımız bu qələbəni şərtləndirən amillərdən olmuşdur.

Bütün başqa beynəlxalq təşkilatlar da bizim ərazi bütövlüyümüzü tanıyır. Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, Avropa Şurası, NATO, İslam Konfransı Təşkilatı, GUAM – mən dəfələrlə bu təşkilatların adlarını sadalamışam. Bütün ölkələr bizim ərazi bütövlüyümüzü tanıyır. Amma məsələ həll olunmur. Hamı bilir ki, biz haqlıyıq, amma Ermənistan tərəfi buna məhəl qoymur. Ermənistan tərəfi beynəlxalq hüquq normalarını tanımır, işğalçılıq siyasətini bu gün də davam etdirir. Onlar həmsədrlər tərəfindən təklif edilmiş varianta guya öz razılıqlarını verirlər, amma eyni zamanda, Laçında qanunsuz məskunlaşdırma siyasəti aparırlar. Amma danışıqlar masasındakı təkliflərdə işğal olunmuş bütün torpaqların azad edilməsi nəzərdə tutulur. Əgər birbaşa sülh sazişi bağlanarsa, beş rayonun dərhal azad olunması və müəyyən qısa müddət ərzində Laçın və Kəlbəcər rayonla-

rının bütövlükdə Azərbaycana qaytarılması nəzərdə tutulur. Əgər onlar danışıqlarda səmimidirlərsə, necə ola bilər ki, Laçın rayonunun inkişafı üçün beynəlxalq konfrans çağırırlar, oraya xaricdən erməniləri çağırırlar, Laçının adını dəyişirlər? Yəni, bu onu göstərir ki, ermənilərin siyasəti qeyri-səmimidir və onlar beynəlxalq ictimaiyyəti aldatmaqda davam edirlər.

Əfsuslar olsun ki, bu məsələlərlə məşğul olan, vasitəçilik missiyasını öz üzərinə götürən tərəflər sanki bu yalana inanmaqda davam etmək istəyirlər. Onlar dünyanın aparıcı ölkələridir və mən əminəm ki, bölgədə gedən proseslər haqqında kifayət qədər məlumatları var. Onlar çoxdan bilməli idilər və əminəm, daxilən bilirlər ki, Ermənistan özünü qeyri-səmimi aparır, danışıqlar prosesini uzadır, həlledici mərhələlərdə müxtəlif bəhanələrlə danışıqlardan geri çəkilir. Ancaq bunlara göz yumurlar. Nə üçün? Bu, ciddi məsələdir. Bu suala bəlkə də bir müddət bundan əvvəl Ermənistanda baş vermiş hadisələr və beynəlxalq ictimaiyyətin onlara biganə qalması aydınlıq gətirə bilər. Necə ola bilər ki, dünyada guya demokratiyanı müdafiə edən, dünyada demokratiyanı zorla tətbiq etmək istəyən, özünü demokratiyanın rəmzi sayan ölkələr Ermənistanda dinc əhaliyə qarşı amansız qəddarlığa göz yumurlar? Halbuki, orada onlarca dinc insan öldürülmüşdür.

Azərbaycan nümayəndə heyətinin təkidi və siyasəti sayəsində artıq Avropa Şurası da etiraf etməyə məcbur olmuşdur ki, orada 8-9 nəfər yox, ən azı, 28 insan kriminal rejim tərəfindən öldürülmüşdür. Necə ola bilər ki, buna göz yumulur? Heç bir xarici mətbuatda bu barədə bir şey deyilmir? Heç bir xarici televiziyada bir şey deyilmir? Başqa yerdə kiçik bir hadisə baş verən kimi, hay-haray qalxır ki, burada demokratiya yoxdur. Biz buna nə qədər dözməliyik? İkili standartlara nə qədər dözməliyik?

Azərbaycan bölgənin ən demokratik ölkəsidir. Bizdə xalqla iqtidar arasında birlik var, cəmiyyət parçalanmayıbdır. Bizdə ictimai fikir vahiddir. Amma Azərbaycanda bir

balaca, hətta təxribat xarakterli hadisə baş verən kimi, aləm bir-birinə dəyir. Özünü demokratik adlandıran ölkələr ortalığa düşür, onların səfirləri yersiz bəyanatlar verirlər. Daxili işlərimizə müdaxilə edir, bizi tənqid eləməyə çalışırlar. Dərhal xarici mətbuatda silsilə yazılar gedir ki, Azərbaycanda demokratiya boğulur, azad söz boğulur və söz azadlığı yoxdur. Ermənistanda isə bütün siyasi fəaliyyət dayandırılmışdır, fövqəladə vəziyyət elan olunmuşdur. Onlarca dinc insan güllə ilə, qumbara ilə öldürülmüşdür, adamların üstünə maşın sürmüşlər. İndiki rejimin yüzlərlə siyasi rəqibi həbs olunmuşdur. Prezidentliyə namizəd ev dustağı edilmişdir. Bütün internet bağlanmışdır. Bütün televiziya kanalları – yəni dövlət siyasətini əks etdirməyən – bağlanmış, qəzetlərin fəaliyyəti dondurulmuş, siyasi fəaliyyət dayanmışdır. Fövqəladə rejim şəraitində parlament sərbəst toplaşmaq azadlığını məhdudlaşdıran qanun qəbul etmişdir. Necə ola bilər ki, buna heç bir reaksiya yoxdur, amma Azərbaycanda balaca bir hadisə baş verən kimi, bizi tənqid etməyə çalışırlar? Biz nə vaxta qədər bununla barışmalıyıq? Bu nəyi göstərir? Birincisi, onu göstərir ki, bölgəyə ayrıseçkiliklə yanaşma davam edir. Biz bunu rədd edirik, bununla barışmırıq və ədalətsiz iradları heç vaxt qəbul etməyəcəyik və etmirik də. İkincisi, bu onu göstərir ki, dünya ermənilərinin mövqeləri kifayət qədər güclüdür. Əgər belə olmasaydı, mən əminəm ki, Ermənistanda baş vermiş antidemokratik, totalitar və kriminal hərəkətlərə reaksiya tam başqa cür olardı.

Biz nəticə çıxarmalıyıq. Əlbəttə ki, biz bütün Cənubi Qafqaz ölkələrində baş verən hadisələri yaxından izləyirik, görürük, təhlil edirik. Etiraf etməliyik ki, əfsuslar olsun, müxtəlif səbəblər üzündən Azərbaycana olan münasibət ədalətsizdir. Bunun müxtəlif amilləri var, tarixi amillər də var. Hamımız bunu yaxşı bilirik. Eyni zamanda, Azərbaycanın müstəqil siyasəti, heç kimin əlində oyuncaq olmaq istəməməsi, bizim siyasətimizin ancaq xalqın iradəsinə söykənməsi də bunda axırıncı rol oynamır.

İndi bölgədə təsir uğrunda mübarizə gedir. Biz isə heç bir təsirin altına düşən deyilik. Biz özümüz bilirik necə yaşamalıyıq, özümüz bilirik ki, ölkəmizi necə qurmalıyıq. Ağır vəziyyətdə yaşayanda kimsə gəlib bizə kömək edib? Erməni işğalçıları bu bölgələri zəbt edəndə kimsə gəlib onları dayandırıb? Onlar dinc insanlara divan tutanda, Xocalı soyqırımını törədəndə bizi kimsə müdafiə edib? İndi isə gəlsin bizə məsləhət versin?! Bizə heç kimin məsləhəti lazım deyil, özümüz bilirik ki, necə yaşamaq lazımdır. Biz öz dövlətimizi özümüz qurmuşuq. Ulu öndər Heydər Əliyev, demək olar ki, dağılmış Azərbaycanı öz zəhməti, öz siyasəti ilə bərpa etdi, ərazi bütövlüyünü müdafiə etdi, parçalanmadan qorudu və ən ağır, çətin iqtisadi böhrandan çıxartdı. Bu gün Azərbaycan iqtisadi artım baxımından dünyada sürətlə inkişaf edən ölkəyə çevrilibdir. Budur bizim reallıqlarımız. Bunu biz etmişik, siz etmisiniz, Azərbaycan xalqı edibdir. Azərbaycan xalqı bilir gələcəkdə necə yaşayacaq, hansı siyasəti aparacaq və qarşısına hansı məqsədləri qoyacaqdır.

Mən sadəcə olaraq, bunu ürək ağrısı ilə deyirəm ki, əlbəttə, hər bir sahədə – həm beynəlxalq münasibətlərdə, həm də məişət zəminində insanlar ədalətsizliklə üzləşəndə çox üzülürlər, məyus olurlar. Ədalətsizlik ən böyük bəladır və biz onu görəndə bir daha əmin oluruq ki, xoşbəxt gələcəyimiz öz əlimizdədir. Biz güclü olmalıyıq, güclü dövlət yaratmalıyıq. Güclü iqtisadiyyat, güclü ordu, güclü infrastruktur, insanların sosial məsələlərinin həlli – bütün bu məsələlər ölkəni irəliyə aparır.

Əziz dostlar, mən bir daha demək istəyirəm ki, bütün təzyiqlərə, bəyanatlara baxmayaraq, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində prinsipial mövqeyimizdən geri çəkilməyəcəyik. İndi bizi kompromislərə getməyə çağırırlar. Biz nədə kompromisə getməliyik? Dağlıq Qarabağa müstəqillikmi verməliyik?! Bizdən bunumu tələb edirlər?! Yaxud da, dünyanın siyasətçiləri bəyan edirlər ki, bu vəziyyətə görə Ermənistan və Azərbaycan hər ikisi

günahkardır. Bizim günahımız nədir? Sizin günahınız nədir? Ermənilər sizi torpağınızdan qovublar. Bizim günahımız budurmu ki, torpağımız işğal altındadır və dünya məsələlərini həll edən ölkələr müxtəlif bölgələrdə bunları asanlıqla həll edirlər, amma nə üçünsə bu məsələni həll etmirlər? Bizim günahımız budur?! Artıq biz elə səviyyədəyik ki, bu ədalətsizliyə və bizə qarşı edilən təzyiqlərə dözməyəcəyik. Əgər əvvəllər bizə irad tutanlara bağlı qapılar arxasında sözlərimizi demişiksə, bu gün biz bunu açıq bəyan edirik və bəyan edəcəyik.

Bir daha demək istəyirəm ki, bizi prinsipial mövqeyimizdən heç kim çəkindirə bilməz. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bunun başqa yolu yoxdur. Mən əminəm ki, o vaxt gələcək və biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Əziz dostlar, mən sizin hamınızı bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl qəsəbələrdə, doğma Füzuli torpağında xoşbəxt yaşayın. Uşaqlar yaxşı oxusunlar, yaxşı şəraitimiz olsun. Mən bunu arzulayıram və əminəm ki, Rayon İcra Hakimiyyəti, Dövlətqaçqınkom və Azərbaycan hökuməti sizin yaxşı yaşamağınız üçün əlindən gələni edəcəkdir.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV TƏMAS XƏTTİNDƏ «N» HƏRBİ HİSSƏSİNDƏ OLMUŞDUR

*18 aprel 2008-ci il*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 18-də Füzuli rayonunun ərazisində təmas xəttində «N» hərbi hissəsində olmuş, əsgər və zabitlərlə görüşmüşdür.*

*Ali Baş Komandan səngərləri gəzdi, əsgərlərin hərbi hazırlıq vəziyyətini yoxladı.*

*Sonra Ali Baş Komandan hərbi xidmətdə fərqlənən bir qrup əsgəri orden və medallarla təltif etdi, onları qiymətli hədiyyələrlə mükafatlandırdı.*

*Daha sonra prezident İlham Əliyev əsgərlərlə çay süfrəsi arxasında söhbət etdi:*

– Mən sizi mükafatlarla təltif etdim, sizi təbrik edirəm. Siz düşmənlə üz-üzə, ön mövqedə yaxşı xidmət edirsiniz. Azərbaycanın ərazi bütövlüyü uğrunda öz xidmətlərinizi göstərirsiniz. Azərbaycan ordusu son illər ərzində həm peşəkarlıq, həm də maddi-texniki bazasının möhkəmlənməsi baxımından çox güclənmişdir. Biz bundan sonra da ordu quruculuğuna böyük diqqət göstərəcəyik, hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçılardan azad edək. Vaxtilə Füzulu rayonunun işğal altına düşməsi nəticəsində bütün əhali rayonu tərk etməyə məcbur olmuşdur. Ancaq XX əsrin 90-cı illərinin əvvəllərində yaşanan o böhran artıq ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişindən sonra, onun səyləri nəticəsində həll olunandan sonra müharibədə də dönüş yaranmışdı və bizim ordumuz 1993-cü ilin sonunda Füzuli rayonunun böyük bir hissəsini işğalçılar-

dan azad etmişdir. O cümlədən bu bölgəni, Horadiz qəsəbəsini – indi biz Horadizə şəhər statusu vermişik. Bunun nəticəsində əhalinin əksəriyyəti bu gün rayonda məskunlaşmışdır. Yeni qəsəbələr salınır, yeni evlər tikilir. Yəni bu onu göstərir ki, Azərbaycan Ordusu öz doğma torpaqlarını işğalçılardan azad etməyə qadirdir və biz 1993-cü ilin sonunda bunu etmişik. Amma ondan sonra atəşkəs sazişi bağlandı və müharibənin birinci mərhələsi başa çatdı. Lakin müharibə qurtarmayıbdır. Biz müharibə şəraitində yaşayırıq və belə olan halda, ilk növbədə, ordu potensialımızı gücləndirməliyik. Bizim dövlət xərclərimizdə hərbi xərclər birinci yerdədir və bütün başqa sahələrə ayırdığımız xərcləri xeyli üstələyir. Ölkəmiz qarşısında böyük işlər dayanır – iqtisadi, sosial məsələlər, insanların həyat səviyyəsinin yaxşılaşdırılması, qaçqınların və məcburi köçkünlərin yeni qəsəbələrə köçürülməsi – bütün bunları biz edirik.

Ancaq ən başlıca vəzifə bizim hərbi potensialımızı, ordu potensialımızı, müdafiə potensialımızı gücləndirməkdir. Bəli, bu, böyük vəsait, böyük maddi imkanlar tələb edir. Amma biz bunu edirik. Bu yaxınlarda Ermənistan tərəfi bəyan etmişdir ki, Azərbaycan neft pullarını silah alınmasına xərcləyir, silahlanma aparır. Birincisi, biz öz pulumuzu xərcləyirik. Burada həm neftdən, həm də qeyri-neft sektorunun inkişafından əldə olunan gəlirlər var. Ermənistandan fərqli olaraq, biz son dörd il ərzində dövlət xərclərimizi on dəfə artırmışıq, müdafiə xərclərimizi on dəfə artırmışıq və bu yaxınlarda yenə də onları artıracağıq. İkincisi, Ermənistan rəhbərliyi getsin öz qəpik-quruşunu saysın. Hər halda, Ermənistandan fərqli olaraq, biz heç kimin forpostu deyilik. Biz öz vəsaitimizi xərcləyirik və haraya, necə xərcləyirik, bu bizim öz işimizdir. Biz müstəqil dövlətik, Ermənistandan fərqli olaraq, sərhədlərimizi də xarici sərhəd qoşunları yox, öz əsgərlərimiz qoruyur. Onlardan fərqli olaraq bizim iqtisadi və sənaye potensialımız da öz əlimizdədir. Ermənistandan fərqli olaraq, biz dünyanı gəzib-dolaşmırıq ki, kimsə

bizə kömək etsin. İki ölkə arasında prinsipial fərq bundan ibarətdir.

Atəşkəs sazişi bağlanandan sonra ölkəmizi demokratik əsaslarla inkişaf etdirmişik, iqtisadiyyatımızı gücləndirmişik, sosial məsələləri həll etmişik, ordumuzu gücləndirmişik. Onlar isə bu müddət ərzində yenidən yarımmüstəmləkə vəziyyətinə düşmüşlər. Bir də demək istəyirəm ki, bizim nəyi haraya xərcləyəcəyimizin heç kimə aidiyyəti yoxdur. İlk növbədə, torpaqlarımızı xarici dəstək hesabına, qeyri-ədalətli döyüşdə zəbt edən qüvvələrə bunun heç bir aidiyyəti yoxdur. Biz ordumuzu gücləndiririk, gücləndirəcəyik, bunun üçün nə lazımdırsa edəcəyik və torpaqlarımızın azad olunması uğrunda bütün tədbirləri görəcəyik. Bunu etmək üçün həm siyasi, həm xalqla iqtidar arasında birlik lazımdır, həm iqtisadi inkişaf, həm də ordu potensialı lazımdır. Azərbaycanda bu gün bunların hamısı var. Peşəkar ordu yaradılır və peşəkar hərbçilər yetişdirilir.

Siz birinci sıradasınız, ön mövqelərdəsiniz, düşmənlə üzüzəsiniz. İlk növbədə doğma Vətənimizin təhlükəsizliyi, ərazi bütövlüyümüzün bərpası məsələləridir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə alırlar və belə də olmalıdır. Arzu edirəm ki, bundan sonra da siz xidmətdə belə fərqlənəsiniz, böyük dövlət mükafatlarına layiq olasınız və Vətən uğrunda fəal xidmətlər göstərəsiniz.

Bu il biz ordumuzun yaranmasının 90-cı ildönümünü qeyd edəcəyik. Mən göstəriş vermişəm ki, bu yubiley Azərbaycanda çox geniş qeyd olunsun və əlbəttə ki, bu tədbirlər içərisində əsas hadisə hərbi parad olacaqdır. Bu barədə mən bir müddət bundan əvvəl Müdafiə Nazirliyinə göstəriş vermişəm və onlar indi hazırlıq işləri aparırlar. Uzun illərdir ki, Azərbaycanda hərbi paradlar keçirilmir. Düzdür, hər il biz Milli Ordumuzun yaranma günü ərəfəsində Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərbçilərlə görüşürük və bu günü, tarixi günümüzü qeyd edirik və o tədbirlər zamanı son illər ərzində aldığımız hərbi texnikanın bir hissəsi – hərbi təyya-

rələr, vertolyotlar nümayiş etdirilir. Siz də yəqin ki, televiziya ilə bunları görmüsünüz. Ancaq mən hesab edirəm ki, bu dəfə biz ölkəmizin ən böyük meydanında – Azadlıq meydanında hərbi parad keçirəcəyik. Həm öz qüdrətimizi, hərbi gücümüzü göstərək, həm də bütün Azərbaycan xalqı bunu görsün, bizim dostlarımız buna sevinsin, düşmənlərimiz də başa düşsünlər ki, Azərbaycan bölgədə ən güclü orduya malik olan ölkədir. Burada bütün cəhətlərdən – həm peşəkarlıq baxımından, həm də texnika baxımından ən güclü hərbi potensial bizdədir, ən güclü ordu bizdədir. Mən əminəm ki, paradın keçirilməsi və ümumiyyətlə, Azərbaycanda, Azərbaycan cəmiyyətində orduya, hərbçilərə, əsgərlərə, zabitlərə qayğının, hörmətin artması sayəsində biz həm vətənpərvərlik ruhunda tərbiyə olunan gənclərimizi düzgün yola yönəltmiş oluruq, həm də ki, bütövlükdə ölkəmizi gücləndiririk. Hər bir ölkənin uğurlu, hərtərəfli inkişafı üçün onun ordu potensialı başlıca rol oynayır. Elə ölkə yoxdur ki, inkişaf etmiş ölkə sayılsın, ancaq zəif ordusu olsun. Mümkün deyil. Eyni zamanda, kasıb ölkədə heç vaxt güclü ordu ola bilməz. Bax, ona görə biz öz iqtisadi gücümüzü artırırıq – iqtisadi islahatlar, böyük quruculuq-abadlıq işləri, sosial məsələlərin həlli, insanların rifah halının yaxşılaşması. Eyni zamanda, bundan daha da vacib olan ordu quruculuğu məsələlərinə diqqət göstəririk və göstərəcəyik. Siz bilirsiniz ki, mən dəfələrlə bu məsələlərlə bağlı müşavirələr keçirmişəm, hərbçilərlə görüşmüşəm, bütün ön mövqelərdə olmuşam – Tərtər istiqamətində, Ağdam istiqamətində, bu gün də Füzuli rayonunun ərazisində. Mən özüm şəxsən bütün bu işlərə nəzarət edirəm və tam qətiyyətlə deyə bilərəm ki, bu gün Azərbaycan Ordusu öz doğma torpaqlarını hərbi yolla azad etməyə qadirdir. Biz sadəcə, hələ ki, məsələnin sülh yolu ilə həll olunmasına ümid edirik. Düzdür, ümidlər getdikcə azalır, ancaq hələ ki, tam azalmayıbdır. Bununla bərabər, baxmayaraq ki, bu vaxta qədər çox böyük hərbi potensial yaratmışıq, ancaq onu daha da gücləndirməliyik.

Bu yaxınlarda mən Nazirlər Kabinetinin iclasında hökumət qarşısında vəzifə qoymuşam ki, builki dövlət büdcəsinə əlavələr edilsin və hərbi xərclər 1 milyard 300 milyon dollardan təxminən 2 milyard dollara qaldırılsın. Bu isə Ermənistanın bütün dövlət xərclərinə bərabərdir. Mən bu vəzifəni bir neçə il bundan əvvəl qarşıya qoymuşam və demişəm ki, Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün dövlət büdcəsinə bərabər olmalıdır. Bu gün biz bunu təmin edirik.

Sizə isə mən bundan sonra da Vətən uğrunda xidmətdə uğurlar arzulayıram. Şərəfli işdir, həm əsgərlər və gizirlər, həm də zabitlər üçün bundan şərəfli iş ola bilməz. Bir daha demək istəyirəm ki, arzu edirəm, siz bundan daha böyük mükafatlara layiq olasınız və gələcəkdə hansı sahələrdə çalışmağınızdan asılı olmayaraq öz işinizlə Azərbaycanın inkişafına töhfənizi verəsiniz.

Sağ olun.

## HORADİZ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ İLƏ TANIŞLIQ

*Horadiz*

*18 aprel 2008-ci il*

*Həmin gün Horadiz şəhərinə gələn dövlətimizin başçısı Heydər Əliyev muzeyində oldu.*

*Burada rayon ictimaiyyətinin nümayəndələri prezidenti səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi, eksponatlarla tanış oldu. Muzeydə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə, hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə Füzuli rayonuna səfərlərinə dair fotoşəkillər, dahi şəxsiyyətə həsr olunmuş kitablar toplanmışdır.*

*Dövlətimizin başçısı muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə söhbət etdi.*

**Horadiz sakini:** Bizim sevincimizin həddi-hüdudu yoxdur. Çünki ulu öndərimizin layiqli davamçısı rayonumuza gəlmişdir. Arzu edirəm ki, bu gəlişiniz uğurlu və bərəkətli olsun. Dünənki yağış, bugünkü günəş bütün bu uğurdan xəbər verir. Hazırda yaşadığımız bu ərazi 1994-cü ildə ulu öndərimizin səyi nəticəsində düşmən tapdağından azad olunmuşdur. Biz çox sevinirik ki, Siz bu yerləri abadlaşdırır, inkişaf etdirir və gülüstana döndərirsiniz. Sizin sərəncamınızla yeni qəsəbələr salındı, çadır şəhərcikləri ləğv olundu və biz abad qəsəbələrə köçdük. Rahat, geniş, işıqlı otaqlarda yaşamaq, yurdumuzun gözəl, təmiz havasını udmaq, suyunu içmək hamımızın arzusu idi. İnanırıq ki, bizim ən böyük arzumuz da gerçəkləşəcək, yəni işğal altında olan bütün tor-

paqlarımız Sizin hərtərəfli, məqsədyönlü fəaliyyətiniz nəticəsində düşmən tapdağından azad olunacaqdır.

Mən hamımızın əzizi, bütün xalqımızın dərin məhəbbətini və hörmətini qazanmış Mehriban xanımın da hərtərəfli fəaliyyətini qeyd etmək istəyirəm. Biz onunla, Sizinlə fəxr edirik ki, xalqımızı həqiqətən işıqlı gələcəyə aparırsınız. Qarşıdan prezident seçkiləri gəlir. Mən rayonumuzun bütün ziyalıları adından əminliklə və qətiyyətlə bildirirəm ki, füzulililər artıq öz seçimini ediblər. Siz bizim daimi və əbədi prezidentimizsiniz. Füzulililər Sizə inanırlar, Sizinlədirlər və Sizi həmişə dəstəkləyirlər. Siz bu sevgini, bu məhəbbəti öz səmimiyyətinizlə, işgüzarlığınızla və daim xalqın içində olmağınızla qazanmısınız. Ulu Tanrı köməyiniz olsun.

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm sizə. Mən gəlmişəm ki, sizinlə görüşüm, sizə öz hörmət və məhəbbətimi ifadə edim, sizi dəstəkləyim. Siz ağır vəziyyətdə yaşamış insanlarsınız. Qeyd etdiyiniz kimi, bu ərazi işğal altında idi. Ermənilər bu bölgəni də işğal etmişdilər. Ondan sonra bizim ordumuz Horadiz qəsəbəsini işğalçılardan azad etdi. Bu qəsəbəyə olunan yardımlar bundan sonra da davam etdiriləcəkdir. Horadizə şəhər statusu verilibdir. Horadizin inkişafı üçün, bütövlükdə işğaldan azad olunmuş ərazilərin inkişafı üçün vəsait ayrılmışdır və yenə də ayrılacaqdır. Bütün çadır şəhərcikləri ləğv edilib və onların əvəzində yeni gözəl qəsəbələr tikilibdir. Bu onu göstərir ki, bizim imkanlarımız var. Bütün ərazilər işğaldan azad olunandan sonra biz həmin yerləri cənnətə çevirəcəyik. Biz bütün dağıdılmış rayonları bərpa edəcəyik, yüksək səviyyədə evlər, məktəblər, xəstəxanalar tikiləcəkdir. Yeni istifadəyə verilmiş qəsəbələrin timsalında görürük ki, nəyi biz edəcəyik. Mən şadam ki, burada işlər çox yaxşı gedir, abadlıq, inkişaf var. Daha da sürətlə getməlidir və Füzuli rayonunun inkişafına xüsusi diqqət göstərilməlidir. Siz düşmənlə üz-üzə yaşayırsınız. Sizin kəndlərinizin bir hissəsi təmas xəttinə lap yaxınlıqda yerləşir. Yəni burada yaşamaq böyük cəsarət tələb edir, böyük fəda-

karlıq, vətənpərvərlik tələb edir. Bütün bu təhlükələrə baxmayaraq, siz burada öz doğma torpaqlarınızda yaşayır, yaradır, bu yerləri abadlaşdırır, uşaqları böyüdürsünüz, Azərbaycanı inkişaf etdirirsiniz. Ona görə siz böyük hörmətə layiq insanlarsınız. Bütün Azərbaycan ictimaiyyəti bunu bilməlidir və bilir.

Mən buraya çoxdan gəlmək istəyirdim, ancaq eyni zamanda, istəyirdim ki, buraya gələndə yaxşı, xoş tədbirlərdə iştirak edək. Bu gün belə tədbirlər baş verəcək – qəsəbələrin açılışıdır, sosial obyektlərin təməlqoymasıdır. Həm Tibb mərkəzinin, həm də elektrik stansiyasının təməlinin qoyulması bu bölgənin abadlaşmasına böyük dəstək olacaqdır.

Sizə cansağlığı, uğurlar arzulayıram. Bilin ki, mən bundan sonra da rayonun inkişafına öz köməyimi göstərəcəyəm.

## Heydər Əliyev parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Horadiz şəhərindəki Heydər Əliyev parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına 3 hektar sahəsi olan parkda görülmüş yenidənqurma işləri barədə məlumat verildi. Erməni işğalından azad olunduqdan sonra bərpa edilmiş Horadiz şəhərinin yaraşıqlı guşəsi olan park yaşıllığı ilə diqqəti cəlb edir. Burada quraşdırılmış fəvvarə parkın görkəmini daha da gözəlləşdirir.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına rayonda sosial-iqtisadi inkişafla bağlı görülən işlər barədə də məlumat verildi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYLƏQAN RAYONUNDA

*Beyləqan*

*18 aprel 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Füzuli və Horadiz şəhərinə səfərini başa çatdırdıqdan sonra Beyləqan rayonuna gəlmişdir.*

*Beyləqan şəhərinin mərkəzindəki Heydər Əliyev adına parkda rayon sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar. Beş hektara yaxın sahəsi olan parkda müxtəlif növ dekorativ bitkilər, çoxlu gül kolları əkilmiş, fəvvarə, uşaq karuselləri, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Burada sakinlərin istirahəti üçün hər cür şərait, o cümlədən əyləncə mərkəzi yaradılmışdır.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

### Heydər Əliyev muzeyinin açılışında

*Aprelin 18-də Beyləqan şəhərində Heydər Əliyev muzeyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev ulu öndərin adını daşıyan parkda yerləşən muzeyin rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısına məlumat verildi ki, 200 kvadratmetrdən çox sahəsi olan muzeyin salonlarında Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü və müstəqil Azərbaycanın prezidenti olduğu illəri əks etdirən fotoşəkillər vardır.*

*Heydər Əliyev beş dəfə – 1971, 1976, 1980, 1993 və 1994-cü illərdə Beyləqanda səfərdə olmuşdur.*

*Muzeydə həmin səfərlərlə bağlı eksponatlar ayrıca guşədə toplanmışdır.*

*Dövlətimizin başçısı muzeylə yaxından tanış oldu, Xatirə kitabına ürək sözlərini yazdı.*

## Beyləqan rayonuna təbii qazın verilməsi bərpa olunmuşdur

*Uzun illər davam edən fasilədən sonra, aprelin 18-də Beyləqan rayonuna təbii qazın verilməsi bərpa olunmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*«Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov rayona təbii qazın verilməsi ilə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, rayonun qaz təchizatı 1990-cı ildən dayandırılmışdı. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində rayona 3,2 kilometr uzunluğunda qaz xətti çəkilmişdir. İlkin mərhələdə 500 ailə mavi yanacaqla təmin olunmuş, bütün mənzillərə sayğaclar qoyulmuşdur. Qarşıdakı illərdə rayonun «Şəfəq» və RTS qəsəbələrinə qaz veriləcəkdir.*

*Prezident İlham Əliyev rayona qazın verilməsini bildirən məşəli alovlandırdı, bu əlamətdar hadisə münasibətilə keçirilən mərasimdə nitq söylədi.*

## Beyləqana təbii qazın verilməsinin bərpa edilməsi mərasimində nitq

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Beyləqan rayonunun həyatında çox gözəl, əlamətdar bir gündür. Uzun fasilədən sonra rayona təbii qazın verilməsi

bərpa olunubdur. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. 20 ilə yaxındır ki, Beyləqana təbii qazın verilməsi dayandırılmışdı. Əlbəttə, hamımız yaxşı bilirik ki, təbii qazın olmaması insanlara əlavə problemlər yaradır. Həm sosial məsələlərin həllinə, həm də iqtisadi inkişafa, sənaye sahəsindəki uğurlara böyük problemlər yaradır.

«Azəriqaz» bu qaz xəttinin çəkilişi üçün çox fəal işlədi və böyük işlər gördü. Son illər ərzində bütövlükdə ölkəmizin hər bir yerinə təbii qazın verilməsi bərpa olunur və hətta tarixdə heç vaxt qazlaşdırılmayan bölgələrə də qaz xətləri çəkilir. Biz bunu ona görə edirik ki, Azərbaycanda bütün bölgələrin inkişafı daha da sürətlə getsin, insanların sosial problemləri həll olunsun, onları narahat edən məsələlər tezliklə öz həllini tapsın. Bu gün Beyləqanda 500 abonentə qazın verilməsi bərpa olunubdur. Bu sadəcə olaraq, başlanğıcdır, birinci mərhələdir. Ondan sonrakı mərhələlərdə daha 500 abonentə qaz veriləcəkdir. Gələcəkdə Azərbaycanda qaz hasilatı artdıqca və şəbəkə yarandıqca, əlbəttə, biz çalışacağıq ki, bütün əhalini təbii qazla təmin edək.

Bu gün Azərbaycanda qazlaşdırma bütövlükdə yüksək səviyyədədir. Ölkəmizin 80 faizi qazla təmin olunub.

Çalışmalıyıq ki, bu rəqəmi artıraq və bunu etmək üçün imkanlarımız var. Azərbaycan indi böyük həcmdə qaz hasil edən ölkəyə çevrilibdir. Bütün bu uğurların səbəbkarı ulu öndər Heydər Əliyevdir. Məhz onun fəaliyyəti nəticəsində, o cümlədən onun təşəbbüsü ilə icra olunan Azərbaycanın yeni neft strategiyası sayəsində biz bütün bu uğurlara nail ola bilmişik. 1994-cü ildə birinci neft müqaviləsi imzalanmışdır, 1996-cı ildə isə «Şahdəniz» qaz yatağının istismarı üzrə böyük müqavilə bağlanmışdır. Əgər o vaxt bu cəsarətli və müdrik addımlar atılmasaydı, bu gün Azərbaycanın nəinki enerji sahəsində, bütövlükdə, inkişafını təsəvvür etmək çətin olardı.

Siz yaxşı bilirsiniz ki, indi dünyada enerji amili gündəliyin birinci sıralarındadır. Ölkələrin müstəqilliyi, inkişafı və təhlükəsizliyi daha çox enerji daşıyıcılarının olması ilə bağlıdır. Azərbaycan qədim neft ölkəsidir və bizim çox zəngin neft-qaz

yataqlarımız vardır. Ancaq onları işə salmaq, investisiyalar gətirmək, neft, qaz kəmərləri çəkmək böyük müdriklik, böyük siyasət tələb edirdi. Ulu öndər Heydər Əliyevin bütün bu sahədəki addımları Azərbaycanın inkişafına, müstəqilliyimizin möhkəmlənməsinə yönəldilmişdi.

Bu gün biz özümüzü enerji resursları ilə təmin edirik. İndi Azərbaycan enerji təhlükəsizliyi baxımından dünya üçün, Avropa üçün əvəzolunmaz ölkəyə çevrilmişdir və bu, təbii ki, bizə əlavə imkanlar yaradır. Biz bu amillərdən çox böyük səriştə ilə istifadə edirik və öz müstəqilliyimizi gücləndiririk. İlk növbədə, ölkəmizin enerjiyə olan tələbatı, demək olar ki, tam şəkildə ödənilir. Əvvəllər elektrik enerjisinin verilməsində olan fasilələr bu gün, demək olar ki, yoxdur. Hətta ən sərt keçən qış mövsümündə də bu baxımdan vəziyyət qənaətbəxş idi. Nəzərə alsaq ki, Azərbaycanda son illər ərzində bir neçə elektrik stansiyası tikilmişdir və növbəti illərdə əlavə stansiyalar tikiləcək, qaz xətləri çəkilir, qazpaylayıcı şəbəkə yaradılır – bu deməyə əsas verir ki, Azərbaycan həm öz tələbatını maksimum dərəcədə ödəyəcək, həm də qonşu ölkələr, Avropa ölkələri üçün etibarlı tərəfdaşa çevriləcəkdir. Bu bizə həm iqtisadi dividend gətirir, həm də siyasi çəkimizi artırır.

Azərbaycan artıq dünyada böyük hörmətə malik olan bir ölkədir. Bizim xarici siyasətimiz çox açıqdır, səmimidir və Azərbaycan xalqının milli maraqlarına əsaslanır. Biz iqtisadi inkişafa nail ola bilmişik. Son dörd il ərzində iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkəyik. Bunun nəticəsində Azərbaycanda çoxsaylı proqramlar icra olunur və insanları narahat edən məsələlər aradan qaldırılır. Bax, bu gün biz görürük ki, uzun illər, 20 ilə yaxın müddətdə qazsız qalan Beyləqan əhalisi indi təbii qazla təmin olunur.

Biz enerji sektorundakı uğurlarla, əlbəttə ki, fəxr edə bilərik. Amma bizim əsas vəzifəmiz Azərbaycanın hərtərəfli inkişaf etdirilməsidir. Biz indi elə mərhələdəyik ki, ölkəmizdə quruculuq-abadlıq işləri dünya səviyyəsində aparılmalıdır. Yaradılan bütün infrastruktur, yeni müəssisələr,

fabriklər dünya səviyyəsində olmalıdır. Bunu etmək üçün bizdə imkanlar var. Büdcəmiz, dövlət investisiya xərcləri ildən-ilə artır. Son dörd il ərzində biz dövlət xərclərimizi 10 dəfə artıra bilmişik və bu yaxınlarda yenə də bu məsələyə baxılacaqdır, əlavə xərclər nəzərdə tutulmuşdur.

Bildiyiniz kimi, dörd ildən artıqdır regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Proqram, demək olar ki, 98 faiz yerinə yetirilib və qalan məsələlər ilin sonuna qədər tam həll ediləcəkdir. Ancaq bu illər ərzində proqrama daxil edilən məsələlər də kifayət qədərdir. Əvvəllər nəzərdə tutulmamış böyük infrastruktur layihələri, elektrik stansiyaları, qaz xətləri, su kəmərləri, yollar, fabriklər, zavodlar – bütün bunlar Azərbaycanı inkişaf etdirən amillərdir.

Bu yaxınlarda Nazirlər Kabinetinin birinci rübün yekunlarına həsr edilmiş iclasında bütün iqtisadi göstəricilər bir daha səsləndi. Xüsusilə sevindirici hal odur ki, bölgələrdə iş yerləri açılır, infrastruktur layihələri həyata keçirilir və Azərbaycanın bölgələri inkişaf edir. Bizim məqsədimiz ondan ibarətdir ki, hər bir qəsəbə, kənd, hər bir rayon mərkəzi inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar, məktəblər, xəstəxanalar tikilsin, bütün sosial infrastruktur yeniləşsin, yeni yollar çəkilsin. İnsanların yaxşı yaşaması üçün bütün lazımi tədbirlər görülməlidir. Əlbəttə ki, bunu etmək üçün bizim iqtisadi potensialımız daha da güclənməlidir. Biz qısa müddət ərzində buna nail ola bilmişik. Bir daha demək istəyirəm, heç bir başqa ölkədə bunu görmək mümkün deyil – dövlət xərcləri 10 dəfə artsın, 600 mindən çox iş yeri açılsın, yoxsulluğun səviyyəsi bu qədər aşağı düşsün və ölkədə böyük quruculuq işləri aparılsın. Onu da demək istəyirəm ki, bütün bunları biz özümüz etmişik. Azərbaycan xalqı öz iradəsini, öz istedadını nümayiş etdirərək buna nail ola bilmişdir.

Biz müstəqil ölkəyik, müstəqil siyasət aparırıq. Həm xarici siyasətdə, həm daxili siyasətdə, iqtisadi siyasətdə, enerji sahəsindəki siyasətimizdə bizim xəttimiz açıqdır, aydındır və Azərbaycan xalqının maraqlarının tam şəkildə təmin olun-

masına yönəldilibdir. Eyni zamanda, bizə dost olan ölkələrlə də səmərəli işləyirik və son illər ərzində daha da çox müttəfiqlər qazanmışıq. Azərbaycan dünyada böyük hörmətlə qarşılanır. Beynəlxalq təşkilatlarda bizim imkanlarımız artır, yerləşdiyimiz bölgədə imkanlarımız genişlənir, nüfuzumuz artır və Azərbaycan artıq bölgənin lideri adını qazana bilmişdir. Biz növbəti illərdə bütün bu uğurları daha da möhkəmləndirməliyik. Növbəti illər üçün də açıq-aydın proqramlarımız var. Necə ki, 2004-cü ilin fevral ayında regional inkişaf proqramını qəbul etdik və demək olar ki, onu 5 il keçmədən icra etdik. Eyni qaydada 2009–2013-cü illər üzrə Dövlət Proqramı hazırlanır. Bu proqram yenə də bütün ölkəni əhatə edəcək, bütün bölgələrdə çatışmayan cəhətlərin aradan qaldırılması üçün praktik tədbirlər nəzərdə tutulacaqdır. Proqramda hər bir rayonun, hər bir qəsəbənin və hər bir kəndin problemləri öz əksini tapacaqdır. Onlar həm proqramda göstəriləcək, həm də icra mexanizmi və maliyyə mənbələri müəyyən ediləcəkdir. Bizim proqramlar konkretdir, onlar təbliğat naminə qəbul olunmur, şüarlardan kənardır. Biz konkret proqramlar icra edirik və bundan sonra da edəcəyik.

Azərbaycanın bütün bölgələrinin inkişafı bizim üçün ən vacib məsələdir. Kənd təsərrüfatının inkişafı – mən bu yaxınlarda bu barədə bir daha fikirlərimi söyləmişəm – ərzaq təhlükəsizliyi bütün ölkələr üçün indi bir nömrəli problemdir. Dünyada ərzaq məhsullarının qiyməti 40–50 faiz, bəzi hallarda 100 faiz artmışdır. Bunun səbəbləri var. İlk növbədə, neftin qiymətinin bahalaşması, dolların məzənnəsinin aşağı düşməsi, demək olar ki, bütün ölkələrdə bahalaşmaya səbəb olubdur. O cümlədən Azərbaycanda da bunu hiss edirik, görürük və bu bizi çox narahat edir. Düzdür, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar özü hər şeyi tənzimləyir. İstehlakla istehsal arasında tarazlıq, təbii ki, mövcuddur. Eyni zamanda, təkliflə tələbat arasında da tarazlıq var. Yəni bazar iqtisadiyyatı prinsipləri bunu tənzimləyir. Amma yoxsul təbəqə, kasıblar da var. Hələ ki, yoxsulluğu tam aradan götürə

bilməmişik. Bahalaşma kasıbların həyat səviyyəsinə çox ciddi və mənfi təsir göstərir. Ona görə hökumətə göstəriş verilmişdir ki, qısa müddət ərzində konkret tədbirlər planı hazırlanıb təqdim edilsin. Biz bu məsələ ilə ciddi məşğul olmalıyıq.

Yenə də deyirəm ki, bahalaşma artıq bütün dünya üçün bir problemdir. Amma bu bizi arxayınlaşdırmamalıdır. Yəni biz öz problemlərimizi həll etməliyik. Elə etməliyik ki, insanların həyat səviyyəsi ildən-ilə yaxşılaşsın. Biz maaşları, pensiyaları artırırıq. İlin əvvəlindən minimum əməkhaqqını 60 manata qaldırmışıq, bu yaxınlarda, gələcəkdə də artıracağıq. Hər il pensiyalar və əməkhaqqı iki dəfə artırılır. Hələ ki, minimum əməkhaqqı və pensiya bizi təmin edə bilməz. Ancaq inkişaf da göz qabağındadır, bunlar bir neçə dəfə artmışdır.

Əziz dostlar, bir sözlə, bölgələrin inkişafı, sahibkarlığın, qeyri-neft sektorunun inkişafı, yeni zavodların, fabriklərin tikilməsi – bu, Azərbaycanı inkişaf etdirən əsas amillərdir. Bunun üçün dövlət öz tərəfindən lazımi tədbirləri görür – infrastruktur layihələri, kreditlər və sahibkarlara dəstək. Yerlərdə isə, əlbəttə, qəbul edilmiş bütün qərarlar icra olunmalıdır, təşəbbüskarlıq göstərilməlidir. Mövcud olan problemləri yerlərdə insanlar daha yaxşı bilir, onların həlli yollarını daha yaxşı araşdırırlar və biz də verilən təkliflər əsasında öz siyasətimizi davam etdirəcəyik.

Bu gözəl gündə mən sizin hamınızı bir daha ürəkdən salamlamaq, təbrik etmək istəyirəm. Bu gün yanan bu məşəl inkişafın simvoludur. Gələcəkdə görüləcək işlər və bizim bütün planlarımızın həyata keçməsi nəticəsində güclü Azərbaycan dövləti yaranacaq, insanlar rifah içində yaşayacaqlar, sosial məsələlər öz həllini tapacaq və ölkəmiz güclənəcək, müasir dövlətə çevriləcəkdir. Bu yolda, bu işlərdə sizə uğurlar arzulayıram. Sizə bir daha öz dərin hörmət və məhəbbətimi bildirmək istəyirəm. Sağ olun.

## «CTS Aqro» MMC-nin pambıqtəmizləmə zavodu ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də «CTS Aqro» Məhdud Məsuliyyətli Cəmiyyətinin Beyləqandakı pambıqtəmizləmə zavodu ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «CTS Aqro» MMC-nin 4 zavodundan biri olan və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində yaradılmış bu müəssisə 2006-cı ildən fəaliyyət göstərir. Zavodda 180 daimi, 250 mövsümi işçi çalışır. Orta aylıq əməkhaqqı 220–270 manatdır.*

*İstehsal olunan məhsullar Türkiyə, Rusiya və Gürcüstana ixrac edilir, eləcə də daxili bazarlara çıxarılır. Zavod əsasən Beyləqan və İmişli rayonlarından tədarük olunan xammalla işləyir. Ötən il 8971 ton pambıq tədarük olunmuşdur.*

*«CTS Aqro»nun Beyləqan, Ağcabədi, Saatlı və Əli Bayramlıda fəaliyyət göstərən dörd zavodunda, habelə altı rayondakı pambıq qəbulu məntəqələrində 5000-dək daimi işçi çalışır. Zavodların illik istehsal gücü isə 25–30 min tondur.*

*Bu il Saatlıda istehsal gücü ildə 3000 ton olacaq əyirici fabrikin işə salınacağı gözlənilir.*

*Prezident İlham Əliyev zavodun fəaliyyətini yüksək qiymətləndirdi.*

## Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə mənzillərin verilməsi

*Aprelin 18-də Beyləqan rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilmiş 24 mənzilli bina istifadəyə verilmişdir.*

*Sakinlər bu münasibətlə buraya gələn Azərbaycan prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı mənzillərin orderlərini sahiblərinə təqdim edərək, onları təbrik etdi.*

**S a l e h Ş ı x ə l i y e v**: Cənab Ali Baş Komandan, Sizə cansağlığı, uzun ömür diləyirik. Bizə 24 mənzilli bina hədiyyə etdiyinizə, şəhid ailələrini və Qarabağ müharibəsi əlillərini sevindirdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Biz beyləqanlılar qarşıdakı seçkilərlə bağlı öz seçimimizi etmişik. Cənab Ali Baş Komandan, bizim əbədi prezidentimiz Sizsiniz. Biz Sizinləyik. Cənab Prezident, bizə avtomobil, mənzillər verilməsi, pulsuz müalicə – bunlar hamısı Sizin sayənizdədir. Allah Sizə ömür versin, cansağlığı versin.

Cənab Prezident, biz – Qarabağ müharibəsi əlilləri, şəhid ailələri Sizin, Ali Baş Komandanın əmrini gözləyirik. Biz həmin günü silaha sarılıb, Qarabağda işğal altında olan torpaqlarımızı ermənilərdən azad etməyə hazırıq.

Cənab Prezident, o gün olsun, Sizinlə birlikdə bayrağımızı Şuşaya sancaq və belə mənzillərin açarlarını, orderlərini Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə orada təqdim edəsiniz. Çox sağ olun.

Cənab Prezident, gözəl, möhtəşəm binada bizim mənzilimizə baş çəkməyinizi xahiş edirəm.

**İ l h a m Ə l i y e v**: Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Siz buna layiqsiniz. Siz müharibədə yaxınlarınızı itirmisiniz, sağlamlığınızı itirmisiniz və siz bu qayğıya layiqsiniz. Azərbaycan dövləti, Azərbaycan hökuməti əlindən gələni etməlidir ki, sizin sosial vəziyyətiniz daha da yaxşı olsun. İndi ölkəmizin müxtəlif bölgələrində Qarabağ əlilləri və şəhid ailələri üçün yeni, gözəl binalar tikilir, mənzillər verilir və bu, artıq geniş vüsət alıbdır. Hələ ki, bu mənzilləri gözləyən insanların sayı kifayət qədər çoxdur. Ancaq biz maksimum çalışırıq ki, qısa müddət ərzində bütün ehtiyacı olanları belə gözəl mənzillərlə təmin edək.

Azərbaycan dövlətinin sosial siyasəti çox məqsədyönlüdür. Biz bütün yerlərdə, xüsusilə cəbhə bölgəsinə yaxın olan rayonlarda sosial məsələlərin həllinə çox böyük diqqət göstəririk. Artıq qeyd olundu, uzun fasilədən, təxminən 20

ildən sonra Beyləqana təbii qazın verilməsi bərpa edilibdir. Bu da sosial siyasətin təzahürüdür, dövlət siyasətinin nəticəsidir. Dövlət Vətən uğrunda öz sağlamlığını, öz həyatını itirmiş insanlara, onların yaxınlarına xüsusi qayğı göstərməlidir. Mən əminəm ki, biz gələcək illərdə buna nail olacağıq və daha böyük işlər görüləcəkdir.

Bu gözəl evdə isə mən arzu edirəm ki, sizin xoş günləriniz olsun. Siz burada rahat, xoşbəxt yaşayasınız və bu vaxta qədər olduğu kimi, bundan sonra da öz fəaliyyətinizlə, öz əməyinizlə doğma ölkəmizin inkişafına töhfə verəsiniz. Bir daha sizi təbrik edirəm.

***

*Sonra dövlətimizin başçısı mənzillərə baş çəkdi, şəraitlə tanış oldu. Məlumat verildi ki, Beyləqanda bu kateqoriyadan olan insanlar üçün ilk dəfə inşa olunmuş binada 6 birotaqlı, 15 ikiotaqlı və 3 üçotaqlı mənzil vardır. Mənzillərin 7-si şəhid ailələrinə, 17-si Qarabağ müharibəsi əlillərinə verilmişdir. Ümumi sahəsi 1200 kvadratmetr olan binaya qaz, elektrik və su xətləri çəkilmiş, bütün mənzillər telefonlaşdırılmışdır. Azərbaycan prezidentinin adından hər bir ailəyə televizor və soyuducu hədiyyə olunmuşdur.*

*Prezident İlham Əliyev yaradılan şəraiti yüksək qiymətləndirdi, mənzil sahibləri ilə söhbət etdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİLƏSUVAR RAYONUNDA

*Biləsuvar rayonu*

*18 aprel 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də Beyləqandan Biləsuvar rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün salınmış qəsəbəyə gələrək, buradakı Heydər Əliyev parkını ziyarət etdi, ulu öndərin büstü önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 2004-cü ildə salınmış parkın sahəsi 2 hektardır. Bu il parkda əsaslı təmir işləri aparılmış, əhalinin istirahəti üçün hər cür şərait yaradılmış, fəvvarə quraşdırılmışdır. Burada 3000-ə yaxın ağac və bəzək kolları əkilmişdir.*

## Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün salınmış yeni qəsəbə ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra Biləsuvarda Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün salınmış yeni qəsəbə ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün salınmış beş qəsəbədə 1858 ailə məskunlaşmışdır. Müasir standartlara uyğun qəsəbələrin hamısı lazımi infrastrukturla təmin edilmişdir. Qəsəbələrdə ümumilikdə 1800 yerlik 5 məktəb, 250 yerlik 5 uşaq bağçası, 5 inzibati bina, 5 poçt şöbəsi, 5 kənd həkim ambulatoriyası, 5 klub-idman mərkəzi, 1 baytarlıq məntəqəsi, 2 yan-*

*ğınsöndürmə deposu vardır. 110 kilovoltluq yardımçı elektrik stansiyası tikilmişdir.*

*Prezident İlham Əliyev qəsəbədəki İsgəndər Tahirov adına 7 nömrəli Mehdili kənd orta məktəbinin həyətində uşaqların nümunəvi idman çıxışlarına baxdı.*

*Məcburi köçkünlər doğma yurdlarından didərgin düşsələr də, adət-ənənələrini qoruyub yaşadırlar. Cəbrayıllıların el sənəti nümunələrinin nümayişi də bu baxımdan maraq doğurdu. Böyük Mərcanlı kənd uşaq incəsənət məktəbi şagirdlərinin çıxışı xoş təsir bağışladı.*

*Daha sonra ikimərtəbəli məktəb binası ilə tanış olan prezidentə məlumat verildi ki, 360 yerlik təhsil ocağında hazırda 264 şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 40 müəllim məşğul olur.*

*Məktəbin foyesindəki lövhələrdə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotoşəkillər, habelə Cəbrayıl rayonundan olan şəhidlərin şəkilləri vurulmuşdur.*

*Dövlətimizin başçısı məktəbin idman zalında qoyulmuş fotostendlərə də baxdı. Burada ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin müxtəlif vaxtlarda məcburi köçkünlərlə görüşləri zamanı çəkilən şəkillər var. Cəbrayıl rayonunun işğaldan əvvəlki vəziyyətini, məcburi köçkünlərin çadır şəhərciklərindəki çətin həyat şəraitini və yeni salınan qəsəbələri əks etdirən fotostendlər də maraq doğurdu.*

*Daha sonra prezident İlham Əliyev Cəbrayıl rayonunun tarixini əks etdirən muzey eksponatlarına baxdı. Burada müxtəlif vaxtlara aid geyimlər, qılınclar, kəmərlər və məişət əşyaları toplanmışdır.*

**Kamilxan Rüstəmov** (*məcburi köçkün*): O vaxt Siz bizimlə görüşə gələndə axırıncı çıxış edən mən oldum. Üzümü Sizə çevirib dedim: Biz cəbrayıllılar Sizə səs verəcəyik!. İlk xeyir-duanı biz verdik. Yenə də qabaqdan seçkilər gəlir. Mən Sizi əmin edirəm, bütün Cəbrayıl camaatı Sizi dəstəkləyir. Ulu öndərə Allah min rəhmət eləsin! Siz də ver-

diyiniz vədə əməl etdiniz. Bir dənə də çadır düşərgəsi qalmadı.

Çadırdan çıxıb belə qəşəng evdə yaşayırıq. Biz necə hökumətimizə sadiq olmaya bilərik? Biz Sizə sadiq adamlarıq, Sizinlə sıx birlikdəyik. 1968-ci ildə mən pambıqçı işləyirdim. Onda qış aylarında bu xalını toxumuşam. Bilirəm, çox ölkə gəzmisiniz, çox xalılar-xalçalar görmüsünüz. Mən zəhmətimin bəhrəsi olan bu kiçik hədiyyəni Sizə təqdim edirəm.

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

***

*Dövlətimizin başçısı rayonun mədəniyyət işçilərinin ifasında milli oyuna tamaşa etdi.*

*Məktəblə tanışlıq zamanı dövlətimizin başçısı ingilis dili dərsində oldu. Şagirdlər onu böyük sevinclə qarşıladılar, dövlətimizin başçısına həsr olunmuş şeir söylədilər.*

*Prezident İlham Əliyev şagirdlərlə söhbət edərək dedi ki, məcburi köçkünlər üçün birinci qəsəbə də və sonuncu qəsəbə də Biləsuvarda tikilmişdir. 4 il ərzində bütün çadır şəhərcikləri ləğv edilmişdir. Siz çadır şəhərciyində doğulmusunuz. Ağır, çətin şəraitdə yaşamısınız. Ancaq indi o çadır şəhərcikləri yoxdur. Yeni evlər var, məktəblər var, bütün şərait var. Burada gərək yaxşı oxuyasınız, gələcəkdə yaxşı mütəxəssislər olasınız, doğma ölkənizə dayaq olasınız və Cəbrayıl rayonu işğaldan azad olunandan sonra öz rayonunuzun inkişafında fəal iştirak edəsiniz. Sizə uğurlar arzulayıram, sağ olun.*

*Məktəbdə kompyuter otağı da var, buradakı kompyuterlərin hamısı internetə qoşulubdur. Tarix, Azərbaycan dili və ədəbiyyatı, hərbi və digər fənn otaqları, zəngin kitabxana var. Məktəb bütün lazımi avadanlıq və istilik sistemi ilə təchiz olunmuşdur.*

*Daha sonra prezident İlham Əliyev məktəbin həyatində məcburi köçkünlərlə görüşərək söhbət etdi. Dövlətimizin başçısı dedi:* Azərbaycanın iqtisadi potensialı artdıqca, əhalinin, o cümlədən qaçqınların və məcburi köçkünlərin yaşa-

yışı daha da yaxşılaşır, sosial problemlərin həlli üçün mühüm işlər görülür. Burada gözəl şərait var. Gözəl binalar, məktəblər, tibb məntəqələri, uşaq bağçaları tikilmişdir. Elektrik enerjisi, su təchizatı var, yollar çəkilibdir. Mən göstəriş verəcəyəm ki, bura qaz xətti çəkilməsi məsələsinə də baxsınlar. Burada bütün şərait var.

**Qəsəbə sakini:** Bütün bunlar Sizin əməyinizin bəhrəsidir. Çox-çox təşəkkür edirik.

**İlham Əliyev:** Əminəm ki, burada yaxşı yaşayacaqsınız.

**Qəsəbə sakini:** Biz Cəbrayıl camaatı həmişə Sizi dəstəkləyirik, həmişə Sizinlə birlikdəyik. Üzümüzə gələn seçkilərdə də Sizin alternativiniz yoxdur. Bizim bir prezidentimiz var, ona da səs verəcəyik. Bu şəraitə, bu binalara, bu məktəbə görə çox sağ olun. Ümumiyyətlə, respublikamızın həyatında gürdüyünüz qlobal işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Sağ olun, beş il bundan əvvəl mən birinci qəsəbənin açılışına gəlmişdim. Ulu öndər Heydər Əliyevin göstərişi ilə o vaxt Neft Fondundan ilk vəsait qəsəbənin tikilməsinə xərclənmişdi. 2003-cü ilin oktyabr ayında mən onun açılışını etdim. O vaxt mən dedim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Siz çadırlarda çox, 15 il ağır, çətin şəraitdə yaşamısınız. Amma indi çadır şəhərcikləri yoxdur, hamısını yığışdırmışıq. Onların əvəzinə gözəl binalar tikilib, qəsəbələr, demək olar ki, şəhərlər tikilibdir. İnsanlar burada müvəqqəti, torpaqlarımız azad olunana qədər yaşayacaqlar. O gün də uzaqda deyil, biz öz fəaliyyətimizlə o günü yaxınlaşdırırıq.

**Qəsəbə sakini:** Cənab Prezident, Sizin fəaliyyətinizə böyük ümidimiz var.

**İlham Əliyev:** Haqq-ədalət bərpa edilməlidir. Beynəlxalq hüquq normaları bərpa olunmalıdır. Ədalətsizlik aradan qaldırılmalıdır. Bunu biz özümüz etməliyik və edəcəyik.

**Q ə s ə b ə s a k i n i:** Yoldaş İlham Əliyev, Siz prezident seçiləndən bir çox nailiyyətlər əldə etmisiniz. Amma ən başlıcası çadır şəhərciklərinin ləğv olunmasıdır. Cəbrayıl sakinlərinin bu qəsəbədə yerləşdirilməsi Sizin müvəffəqiyyətlərinizdən ən birincisidir. Bu qəsəbənin sakinləri adından Sizə öz minnətdarlığımızı bildiririk. Çadır şəhərciklərində çox çətin vəziyyətdə yaşamışıq. Bizim balalarımız dizi üstə quru yerdə oturub yazı yazıblar. Amma Sizin sayənizdə bu cür məktəb, belə bir gözəl şəhərcik tikildi. Biz Sizinlə, Mehriban Əliyeva ilə fəxr edirik. İşinizin nəticəsini görəndə hamımız ürəkdən qürur duyuruq. Siz Azərbaycanın quruculuğunda iki tərəfdən iştirak edirsiniz. Sizin bu zəhmətinizə görə bütün cəbrayıllılar dərindən minnətdarlıqlarını bildirirlər. Siz əvəzedilməzsiniz. Arzu edirik ki, gələn görüşləri Cəbrayıl rayonunda keçirək və orada Sizə öz təşəkkürümüzü bildirək.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**Q ə s ə b ə s a k i n i** (*ağbirçək*)**:** Xoş gəlmisiniz, gələn ayaqlarınız var olsun! O gün olsun ki, bu qəsəbəni, məsələn, kimsəsizlərə, əlacsızlara verək, biz öz rayonumuza gedək. Mən istəyirəm ki, dünya durduqca yaşayasınız. Sizin işiniz göz qabağındadır. Kiçik Heydər Əliyev də Sizin yolunuzu davam etdirsin.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun, biz mütləq Cəbrayılda da belə gözəl binalar tikəcəyik. Son müddət ərzində salınan qəsəbələrin timsalında biz görürük ki, Azərbaycan dövləti hər şeyə qadirdir. Cəmi dörd il ərzində 56 qəsəbə tikilibdir. Demək olar ki, 56 böyük kənd, yəni bir neçə şəhər tikilibdir. Biz işğaldan azad olunacaq bütün torpaqlara qayıdandan sonra orada da belə gözəl məktəblər, binalar tikəcəyik, yollar, işıq, su, qaz – hər şey olacaqdır. Bilirsiniz ki, indi o torpaqlarda hər şey dağıdılıb, erməni qəsbkarları hər şeyi dağıdıblar. Orada bir dənə də salamat bina qalmayıbdır. Biz hər şeyi yenidən yaratmalıyıq və bunu edəcəyik. Bizim indi buna gücümüz çatır və işğal olunmuş bütün əraziləri bərpa edəcəyik. Son illər ərzində həm Biləsuvarda, Füzulidə, Ağ-

damda, həm də başqa yerlərdə nə qədər böyük işlər görülübdür. Amma növbəti illərdə Dövlət Proqramına ediləcək əlavələr hesabına 300 mindən artıq köçkün soydaşımız yaxşı şəraitlə təmin ediləcək və biz bu ağır sosial problemin, demək olar ki, həllinə nail olacağıq.

Sosial problem həll ediləcək, amma əsas problem hələ ki qalır. Amma biz onu da həll edəcəyik və ondan sonra, xalanın dediyi kimi, bu binalar veriləcək – kim istəyər, gəlib yaşayar. Onsuz da, Azərbaycan əhalisinin sayı artır. Hazır evlərdir, hər şey var, gözəl infrastruktur var, hazır şəhərcikdir. Hələliksə burada xoşbəxt yaşayın və bilin ki, mən həmişə sizinləyəm. Mən bu vəzifəyə sizə xidmət etmək üçün gəlmişəm. Sağ olun.

***

*Azərbaycan prezidenti İlham Əliyevin regiona səfəri həmin gün başa çatmışdır.*

## QEYDLƏR

**1. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min $km^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 5.

**2. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiyanın prezidenti olmuşdur. – 5

**3. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17 milyon $km^2$, əhalisi 143,5 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 11 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. –6,8–30,66,69,93,108,204,221,225,315.

**4. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı pre-

zidentdir. Paytaxtı Vaşinqton şəhəridir. –7,31,65,119,204, 221,225,275.

**5. Braunbək Sem** (d.1956) – hüquqşünas. ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü, 1996-cı ildən senator, Xarici Əlaqələr Komitəsinin üzvü. – 7.

**6. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 8–30,32,88.

**7. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan

Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 8–30,60,69,95,168,173,247,248.

**8. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 8,30,38,39,61, 197,219,227.

**9. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elm-

lər Akademiyasının üzvüdür. – 8,30,38,39,61,197,219,227, 279–284.

**10. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 8,30,39,61,219,227.

**11. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 9–10,28–30,225,277.

**12. Moskva Dövlət Universiteti**, M. V. L o m o n o s o v a d ı n a M o s k v a D ö v l ə t U n i v e r s i t e t i – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 rəsədxana, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyat var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. 2009-cu ildə Bakıda filialı açılmışdır. – 11–27,29.

**13. Sadovniçi Viktor Antonoviç** (d.1939) – informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. – 11–27.

**14. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriy-

yəçilik işlərinə xüsusi diqqət yetirir. – 11–27,39,40,50–56,57, 64,67,83,89,90,153,187–197,208–209,288,289,306,322.

**15. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 11–27.

**16. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 11,83,95,288.

**17. Mixail Lomonosov** (1711–1765) – ilk rus təbiətşünas alimi, fiziki kimyanın banilərindən biri, şair, müasir rus ədəbi dilinin banisi, rəssam, tarixçi, ensiklopedist. Lomono-

sovun coğrafiya və geologiya elmlərinin inkişafında böyük rolu olmuşdur. Atmosferdə şaquli hava axınlarını öyrənmiş, bir çox faydalı qazıntıların əmələ gəlməsinin düzgün izahını vermişdir. «İqtisadi coğrafiya» və «iqtisadi landşaft xəritələri» terminlərini elmə ilk dəfə Lomonosov gətirmişdir. V.Q.Belinski onu «rus ədəbiyyatının böyük Pyotru» adlandırmışdır. – 11.

**18. SSRİ,** Sovet Sosialist Respublikaları İttifaqı – 1922–91-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 15,36,200, 211.

**19. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq

məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli

Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu Fəxri adlara layiq görülmüşdür. – 18,37,59,64,87,89,97,98,99,111,136,152, 209,216,279,280,281,282,283,284,289,290,292,298,305,308,309, 314,319,321.

**20. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton-Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 23,223.

**21. Moskva Beynəlxalq Əlaqələr İnstitutu (Universiteti) –** Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomatlar, tədqiqatçılar, jurnalistlər, siyasi və ictimai xadimlər hazırlayır. – 25.

**22. Qırğızıstan,** Qırğızıstan Respublikası – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 28–30.

**23. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 28–30.

**24. Dmitri Medvedev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 28–30,66.

**25. Mikayıl Müşfiq,** İsmayılzadə Mikayıl Mirzə Əbdülqadir oğlu (1908–1939) – şair. Poeziyasının əsas qayəsi müasirlik, xəlqilik, humanizm olmuşdur. Onun lirikası forma etibarı ilə novatorluğun ən yaxşı nümunələrindəndir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 29.

**26. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 km$^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 30.

**27. Böyük Vətən müharibəsi**, bax: İkinci dünya müharibəsi.

**28. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 30,60.

**29. ABŞ Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 31, 65.

**30. Stiven Mənn –** Amerika diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin köməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 31,65.

**31. Çingiz Aytmatov,** Ç i n g i z T o r e k u l o v i ç (d.1928–2008) – görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976–1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusu olmuşdur, Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 32.

**32. Qana,** Q a n a  P e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min km$^2$, əhalisi 16,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akradır. – 33.

**33. Con Kofi Aqiyekum Kufuor** (d.1938) – 2001–2007-ci illərdə Qananın prezidenti, 2007–2008-ci illərdə Afrika İttifaqının sədri olmuşdur. – 33.

**34. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 34,139–151.

**35. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 34,139–151.

**36. Kuba,** K u b a  R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının sədridir. – 35.

**37. Raul Kastro Rus** ( d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008-ci ildən Kuba Respublikası Dövlət Şurasının sədri və Kuba Silahlı Qüvvələrinin Baş komandanıdır. – 35.

**38. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən

Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 36–38,206.

**39. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 36–38.

**40. Liditsa –** Çexiyanın paytaxtı Praqanın 16 km şimal-qərbində şaxtaçı qəsəbəsi. İkinci dünya müharibəsində (1939–45) alman-faşist işğalçıları qəsəbəni yandırıb yerlə yeksan etmişdilər (1942,10 iyun). 15 yaşından yuxarı bütün kişilər güllələnmiş, qadınlar və uşaqlar həbs düşərgələrinə göndərilmiş, «L» adı ilə başlanan sözlər Çexoslovakiyanın siyahısından silinmişdir. – 36.

**41. Oradur** (Oradur-syur-Qlan) – 1944-cü ildə Fransada alman - faşist işğalçıları tərəfindən sakinlərilə birlikdə yerlə yeksan edilmişdi. Müharibədən sonra qəsəbə bərpa edilmədi. Qəsəbənin xarabalıqları gələcək nəsillər üçün nümunə olaraq qorunub saxlanılır. – 36.

**42. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 38,197.

**43. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 39–61,88,108.

**44. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının prezidenti. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 39–47,50–56,57–60.

**45. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 42,43, 45,53,105,108,109,113,119,123,144,190,191,202,203,204,210, 216,221,224,236,237,238, 256,293,294,298,299,315–317.

**46. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı

(10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 50,255,295.

**47. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 53,146,193,201,229,230.

**48. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 53,131,137,142,143,144,146,147,150,151, 201,203,229,230,233.

**49. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan

marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 59,192.

**50. Varşava** – Rolşa Respublikasının paytaxtı. Ölkənin siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. Varşava ərazisindəki ilk yaşayış məskənləri X əsrə aiddir. 1413-cü ildən Mazoviya knyazlığının, 1596-cı ildən isə Rolşanın paytaxtıdır. – 39–56.

**51. Krakov** – Polşanın cənubunda, Visla çayının yuxarı axınında şəhər və liman. Krakov şəhər voyevodalığının inzibati mərkəzi. Əhalisi 713 min nəfər.

Şəhər VIII–X əsrlərdə salınmış, XI–XVI əsrlərdə Polşa dövlətinin paytaxtı olmuşdur. – 47,59,52,53.

**52. Donald Tusk** (d.1957) – Polşa və Avropa siyasi xadimi. 2007–2014-cü illərdə Polşa Respublikasının Baş naziri, 2014-cü ildən Avropa İttifaqının sədridir. – 48.

**53. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 49,233.

**54. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il

tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 52.

**55. Varşava üsyanı** (1943) **–** Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı. Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdülər, 6 min adam isə yanğınlar zamanı tələf oldu. Faşistlər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. – 52.

**56. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşul-

muşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. –53,130,150,200,201,219–227,236,237,275,295.

**57. Qdansk** – Polşada şəhər. Qdansk körfəzi sahilindədir. Ölkənin mühüm portu, əsas iqtisadi və mədəniyyət mərkəzlərindəndir. – 57–60.

**58. Odessa–Brodı–Qdansk** – Odessa, Brodı və Qdansk şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması da nəzərdə tutulurdu. – 58,59.

**59. «Həmrəylik»** («Solidarnost»)– özünü müstəqil idarə edən həmkarlar ittifaqı – Keçən əsrin 80-ci illərinin avqust–sentyabr aylarında Qdansk tərsanələrində yaradılmış Polşa həmkarlar ittifaqının birliyi 1989-cu ilin aprelindən rəsmi surətdə fəaliyyətə başlamışdır. Bu birlik antitotalitar, antikommunist yönümlü kütləvi ictimai hərəkat idi. Birlik ən müxtəlif siyasi qüvvələri – katolik mühafizəkarları, sağçı liberalları, ultrasolçu sosialistləri və anarxistləri birləşdirdi. 1989–90-cı illərdə dinc yolla PXR-da PBFP rejiminə qalib gəldi. Hal-hazırda Polşa Respublikasında müstəqil həmkarlar ittifaqıdır. «Həmrəyliy»in yaradıcısı Lex Valensadır. – 60.

**60. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 62,147,218,236.

**61. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 62.

**62. Arif Babayev,** Arif İmran oğlu (d.1938) – xanəndə, Xalq artisti, professor. Milli konservatoriyanın müğam kafedrasının müdiri. O, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaratmışdır. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 63–64.

**63. Gəncə** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil.

Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 67–81,87,93,160,264.

**64. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 67,153.

**65. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1 milyard 219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 69,175.

**66. Daşkəsən** (1956-cı ilədək Dəstəfur rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1019 $km^2$, əhalisi 33,7 min nəfərdir. – 68,73.

**67. Azərbaycan İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici

investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 75,264.

**68. Davos İqtisadi forumu,** D ü n y a İ q t i s a d i f o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu forumda iştirak etmişdir. – 75, 154,168.

**69. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 79,108,204,221.

**70. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Mərakeş sahilindəki Seuta və Melilya şəhər rayonları İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 79,233.

**71. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 79.

**72. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 780,6 min $km^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 79,108,147, 225,244, 257,275,315.

**73. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 79,309.

**74. «Kapital Bank»** – Azərbaycan əmanət bankının varisi. 140 ildən çoxdur ki, fəaliyyət göstərir. «Kapital Bank» Azərbaycanda ən böyük xidmət şəbəkəsinə malik maliyyə qurumudur. Universal bank olan «Kapital Bank» hazırda 2 milyondan çox fiziki və 22 mindən artıq hüquqi şəxsə xidmət göstərir. – 80.

**75. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (**ARDNŞ**)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 80,267, 286,287,291.

**76. Naftalan** – Azərbaycan Respublikasında şəhər (1967-ci ildən). Naftalanın salındığı tarix məlum deyildir. «Naftalan»

sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan neftin müalicə əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub müxtəlif yerlərə aparmış və satmışlar. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Dünyada yeganə müalicə nefti Naxtalanda çıxarılır.

Naftalan balneoloji kurort kimi, 1935-ci ildən fəaliyyət göstərir. Kurortda sümük-əzələ, periferi damar xəstəlikləri, dəri xəstəlikləri, ginekoloji xəstəliklər müalicə olunur. – 82–88.

**77. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2,43 min $km^2$, əhalisi 179,1 min nəfərdir. – 87.

**78. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir İkinci dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. – 87.

**79. Göygöl** (1938-ci ilə qədər Nərimanov, 2008-ci ilə qədər Xanlar rayonu) – Azərbaycan ərazisində inzibati ra-

yon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1030 $km^2$, əhalisi 60,9 min nəfərdir. – 87.

**80. Samux** – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə yaradılmışdır. Sahəsi 1450 $km^2$, əhalisi 56,3 min nəfərdir. – 89–96.

**81. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1656,8 $km^2$, əhalisi 183,5 min nəfərdir. – 90.

**82. Valeh Ələsgərov,** V a l e h F e y r u z o ğ l u (d.1946) – Əməkdar mühəndis, Milli Məclisin deputatı. 1992-ci ildən «Azərneft» Dövlət Konserninin vitse-prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, şirkətin prezidentinin müşaviri olmuş, 1995–2005-ci illərdə ARDNŞ-in Xarici Sərmayələr İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədr müavinidir. Milli Məclisin Təbii ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi komitəsinin sədri, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin rəhbəri, Azərbaycan–Rusiya ikitərəfli parlamentlərarası komitəsinin həmsədridir. – 92.

**83. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 93,171,220,315.

**84. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 93,210.

**85. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 113–118,295.

**86. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan turklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdır. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14.354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeritdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Ma-

halın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. –115.

**87. Basarkeçər** – İrəvan xanlığının Göyçə mahalında (1969-cu ildən Vardenis rayonu) azərbaycanlıların yaşadığı inzibati ərazi. XIX əsrin birinci yarısında kəndə İrandan ermənilər köçürülmüşdür. 1918-ci ildə burada yaşayan azərbaycanlılar ermənilər tərəfindən qovulmuş, lakin keçən əsrin 20-ci illərində yenidən geri qayıtmışlar. Burada 27 azərbaycanlı, 6 qarışıq kənd olmuşdur. 1989-cu ildə yenidən azərbaycanlılar deportasiya edilmişlər. – 115.

**88. Mətyu Brayzə** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 119, 221.

**89. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu

ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 119,147, 204,221.

**90. NATO Parlament Assambleyası** (NATO PA) – 1955-ci ildə yaradılmışdır. NATO PA Şimali Atlantika İttifaqının konsultativ parlamentlərarası təşkilatı ilə birgə fəaliyyət göstərir. NATO PA Şimali Atlantika İttifaqının bütün üzv - dövlətlərinin qanunverici orqanları, NATO və onun üzv-ölkələrinin parlamentləri arasında əməkdaşlıq əlaqələri yaradır.

NATO PA-da NATO-nun 28 üzv-dövlətinin 257 nümayəndəsi var. Assambleyanın rəhbər orqanı Daimi Komitetdir. Onun tərkibinə hər bir nümayəndə heyətinin rəhbəri daxildir.

«Soyuq müharibə»yə son qoyulduqdan sonra Assambleya Mərkəzi və Şərqi Avropa, həmçinin başqa ölkələrlə əlaqə yaratmağa çalışır. Hazırda Assambleyanın prezidenti Almaniyadan Karl A. Lamersdir. Mənzil-qərargahı Brüsseldədir. – 120.

**91. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 121,240–241.

**92. Rəşid Meredov** (d.1960) – Türkmənistan siyasi və dövlət xadimi. 2001-ci ildən Türkmənistan Xarici İşlər naziri və Nazirlər Soveti sədrinin birinci müavinidir. – 121.

**93. Qurbanqulu Berdiməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının prezidentidir. – 121,240.

**94. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 122,126.

**95. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 124,147,172.

**96. Karlos Papulias** (d.1929) – yunan siyasətçisi, 2005-ci ildən Yunanıstanın prezidentidir. – 124.

97. **Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 123 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dakkadır. – 125.

**98. İacuddin Əhməd** (d.1931) – Banqladeş siyasi və dövlət xadimi. 2002–2009-cu illərdə Banqladeş prezidenti. – 125.

**99. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999–2015-ci ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 126.

**100. İrlandiya,** İ r l a n d i y a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 3,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublindir. – 127.

**101. Meri Makalis** (d.1951) – İrlandiya siyasi xadimi. 1997-ci ildən İrlandiya prezidenti. 2004-cü ildə yenidən opponentlərsiz prezident seçilmişdir. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 127.

**102. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 134–138,269.

**103. Namibiya,** N a m i b i y a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 824,3 min km$^2$, əhalisi 1,7 milyon nəfərdir. İnzibati ərazisi 13 regiona bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Vindhuk şəhəridir. – 128.

**104. Hifikepun Pohamba** (d.1935) **–** Namibiya siyasi xadimi. 2005-ci ildən Namibiyanın prezidentidir. – 128.

**105. Tunis,** T u n i s  R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km$^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 129.

**106. Zeynulabidin ben Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis prezidenti olmuşdur. – 129.

**107. Robert Simmons** – NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi. – 130.

**108. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderland siyasi xadimi. – 130,223,224,225.

**109. Buxarest** – Rumıniya Respublikasının paytaxtı (1861-ci ildən). Ölkənin cənubunda, Aşağı Dunay ovalığında, Dimbovitsa çayı sahilindədir. Tarixi-memarlıq abidələri, müxtəlif üslubları əks etdirən eklektik tikililəri ilə zəngindir. Şəhər XIV əsrdən məlumdur. Əhalisi 2 milyon nəfərdir. – 130,200,21–227,236.

**110. 8 Mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 132.

**111. Roma katolik kilsəsi –** Roma Papasının rəhbərlik etdiyi dünyanın ən böyük xristian kilsəsi. Dünya katolik kilsəsi – bir Latın mərasim kilsəsindən və iyirmi iki Şərqi katolik kilsədən ibarətdir. Bu kilsələrin hamısı Roma Papasına tabedir. Kilsə keşişlərini həvariyinlərin varisləri kimi, Roma Papasını isə müqəddəs Pyotrun varisi kimi tanıyırlar. 1054-cü

ildə İstanbul patriarxı və Roma Papasının nümayəndələri arasında ayrılma baş verdi. Bundan sonra birinci kilsə Pravoslav kilsəsi, yaxud Şərqi pravoslav kilsəsi, ikinci isə Katolik kilsəsi adlanır. – 134–138.

**112. Tarçizio Bertone** (d.1934) – İtaliya kardinalı, Müqəddəs taxt-tacın Dövlət katibi (2006–2013), Roma katolik kilsəsinin kamerlenqi (2007–2014). 2013-cü ildə Roma Papası XIV Benediktin taxt-tacdan əl çəkməsi ilə əlaqədar Tarçizio Bertone 2013-cü ildə kardinal-kamerlinq olduğu üçün Vatikan dövlətinin başçısı və Müqəddəs taxt-tacın qoruyucusu elan edildi.– 134–138.

**113. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma Papası olmuşdur. – 134,269.

**114. II İohann Pavel,** dünyəvi adı K a r o l V o y t ı l a (1920–2005) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri ilk qeyri-italyan mənşəli (polyak) Roma Papası. Sülhün möhkəmləndirilməsində və beynəlxalq gərginliyin zəifləndirilməsində böyük xidmətləri var. II İohann Pavel 1978-ci ildə Roma Papası seçilmiş və 2005-ci ilə qədər Roma Papası olmuşdur. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 136,138.

**115. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 138.

**116. Klaudio Qucerotti** (d.1955) – katolik kilsəsinin arxiyepiskopu, diplomat. 2001–2011-ci illərdə Vatikanın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. –138.

**117. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir.–145,159,192.

**118. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 146.

**119. Kosovo problemi** – XX əsrin 80-ci illərindən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cüm-

lədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 147,148,200.

**120. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 152–153,187–197.

**121. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki

ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 152,288.

**122. Sabir**, Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə (1862–1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 152,153.

**123. Qız qalası** – Azərbaycanda tarixi-memarlıq abidəsi. (İçərişəhərdə). Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 153.

**124. «MİR»** – dövlətlərarası teleradio şirkəti. 1993-cü ildə MDB dövlət başçılarının qərarı ilə yaradılmışdır. Əsasən tamaşaçılara və dinləyicilərə MDB ölkələri və xalqları haqqında ətraflı məlumat verir. – 156.

**125. «Boeinq»** – Amerika korporasiyası. Dünyanın ən böyük aviasiya, kosmos və hərbi texnika istehsalçılarından biri. Bu korporasiyanın tərkibinə bir sıra nəhəng korporasiyalar

daxildir. Korporasiyanın əsası 1916-cı ildə mühəndis Corc Konrod Vestervelt tərəfindən qoyulmuşdur. Mənzil-qərargahı Çikaqodadır (İllinoys ştatı, ABŞ).

Kompaniya genişhəcmli mülki və hərbi aviasiya texnikasının, həmçinin ən böyük aerobusların istehsalçısıdır. Bundan əlavə, «Boeinq» hərb üçün geniş masştablı aviasiya-kosmos texnikası istehsal edir. Genişhəcmli kosmos proqramlarını həyata keçirir. Dünyanın 67 ölkəsində «Boeinq» zavodu var. Dünyanın 100 ölkəsinin 5200 tədarükçüsü ilə əməkdaşlıq edir. – 160.

**126. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1539 km$^2$, əhalisi 218,2 min nəfərdir. – 160.

**127. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 km$^2$, əhalisi 123,4 min nəfərdir. – 160.

**128. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min km$^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdiril-

di və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 160.

**129. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 167.

**130. «Qoldman Saks»** – Dünyada ən böyük investisiya banklarından biri. Maliyyə konqlomeratıdır. Maliyyəçilər arasında «The firm» kimi tanınır. İnvestisiya bankinqi, qiymətli kağızların satışı, investisiya meneceri və s. maliyyə xidmətləri ilə məşğuldur. Bankın əsası 1889-cu ildə qoyulmuşdur. Mənzil-qərargahı Nyu-Yorkdadır. – 168.

**131. Anar,** Rzayev Anar Rəsul oğlu (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali Sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komitəsinin sədri, 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 169–170.

**132. Vladimir Qurgenidze** (d.1970) – Gürcüstanın dövlət xadimi. 2007–2008-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. – 171.

**133. Kostas Karamanlis** (d.1956) – Yunanıstanın siyasi xadimi. 2004–2009-cu illərdə Yunanıstanın Baş naziri olmuşdur. – 172.

**134. Sergey Lebedev** (d.1948) – Rusiya dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidməti direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 173.

**135. Hu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 175.

**136. Seneqal,** S e n e q a l  R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 196,2 min $km^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 176.

**137. Abdulay Vad** (d.1926) – 2000-ci ildən Seneqal prezidenti. Abdulay Vad Afrika Birləşmiş Ştatları yaratmaq ideyasının tərəfdarıdır. – 176.

**138. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə  Ə r ə b i s t a n ı  K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 mil-

yon km$^2$, əhalisi 31 milyon nəfərdir. Paytaxtı ər-Riyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 177.

**139. Əl-Vahid bin Təlal bin Əbdüləziz Al Saud** (d.1955) – Səudiyyə Ərəbistanı kral ailəsinin üzvü, kral Salmanın qardaşı oğlu, sahibkar, beynəlxalq investor. O öz varidatına investisiya layihələri və aksiyaları almaqla sahib olmuşdur. 2007-ci ildə onun ümumi kapitalı 21,5 milyard dollar idi. Baxmayaraq ki, kral ailəsinin üzvüdür, o həmişə siyasətdən uzaq olmuşdur. O, krallığın böyük holdinq kompaniyalarının, beynəlxalq korporasiyaların və investisiyaların yaradıcısıdır. – 177.

**140. Azərbaycan Ədəbiyyatı Muzeyi,** Azərbaycan Respublikası MEA Nizami adına Azərbaycan Dövlət Ədəbiyyatı Muzeyi – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1919–20-ci illər Azərbaycan

ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 179.

**141. Natəvan,** X u r ş u d b a n u (1832–1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. Natəvan həm də istedadlı rəssam olmuşdur. – 179.

**142. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 180–181,187–197.

**143. Patrisiya Kaas** (d.1966) – fransız estrada müğənnisi və aktrisası. Stilistik musiqinin, pop-musiqi və cazın qarışığından yaranan mahnılar müğənnisi.– 182–183.

**144. Monika Belluççi** (d.1964) – məşhur İtaliya aktrisası və fotomodeli. – 182–183.

**145. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmiryolu İdarəsinin rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 184.

**146. Mixail Komissar** (d.1953) – «İnterfaks»da Direktorlar Şurasının sədri və informasiya agentliyinin direktorudur. –185.

**147. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 190,203,204,205, 214,217,235, 255,288,295.

**148. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 190, 237,255,293,295.

**149. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 192.

**150. Milli park** (Bakı bulvarı) – Bakı şəhərində Xəzər dənizinin sahilində bulvar. Əsası 1909-cu ildə məşhur mühəndis, Bakı şəhər Dumasının üzvü Məmməd Həsən Hacınskinin xüsusi səyi nəticəsində qoyulmuşdur. 1998-ci ildən rəsmi olaraq Milli park adlanır. O zaman tender ilə seçilən layihənin müəllifləri mühəndis Kazimir Skureviç və memar Adolf Eyxler olmuşdur. İki il müddətində buraya münbit torpaq və dünyanın müxtəlif yerlərindən bitki növləri gətirilib əkilmişdir.– 194,208,209.

**151. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 25,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 200,223.

**152. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 üzvü daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 205,237,255.

**153. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 200.

**154. Vanuatu**, V a n u a t u  R e s p u b l i k a s ı – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 12190 km$^2$, əhalisi 189,6 min nəfərdir. İnzibati ərazisi 6 əyalətə bölünür. Paytaxtı Port-Viladır. – 205.

**155. Anqola,** A n q o l a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km$^2$, əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 205.

**156. Atəşkəs rejimi –** 1994-cü il mayın 8-də Bişkekdə Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı, may ayının 12-də qüvvəyə mindi. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 205.

**157. 31 mart azərbaycanlıların soyqırımı,** 1918-ci il soyqırımı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 210–212.

**158. Osmanlı imperiyası,** Osmanlı imperatorluğu – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlı sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV–XVI əsrlərdə bəzi Asiya, Avropa və Afrika ölkələrini fəth edib dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsindəki məğlubiyyətdən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 210.

**159. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 210.

**160. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə etməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 214,235,287,291,321.

**161. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi-Şərqi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min $km^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 219–227,236.

**162. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. Hazırda Ukraynanın Odessa vilayətinin qubernatorudur. – 220.

**163. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 221.

**164. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 222.

**165. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının prezidenti olmuşdur. Peşəsi həkim travmotoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. – 222.

**166. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Respublikasının prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 223.

**167. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat 2006-cı ildən Birləşmiş Millətlər Təşkilatının Baş katibidir. Baş katib olmamışdan əvvəl Koreya Respublikasında Xarici İşlər və Xarici Ticarət nazirliklərində işləmişdir. – 223.

**168. Joze Manuel Barrozu** (d.1959) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004-2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 223.

**169. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 223.

**170. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 225.

**171. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nin üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyənin prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 225.

**172. «Şahdəniz» –**Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 225.

**173. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 226.

**174. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 229,233,295,296.

**175. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 232.

**176. Ağagəldi Mamedgəldiyev** (d.1946) – Türkmənistan hərbi xadimi, ordu generalı. 2003–2009-cu illərdə Türkmənistanda Müdafiə naziri olmuşdur. – 240–241.

**177. Danimarka,** D a n i m a r k a K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,2 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı folketinqdir. Paytaxtı Kopenhagendir. – 242.

**178. II Marqret** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 242.

**179. Suriya,** S u r i y a Ə r ə b R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 243.

**180. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriyanın prezidenti. – 243.

**181. Cəmil Çiçək** (d.1946) **–** hüquqşünas. 2011-2014-cü illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. – 244.

**182. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri. 2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin prezidenti seçilmişdir. – 244.

**183.** ***bp***, «B r i t i ş h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 245.

**184. Endryu İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru, kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 245.

**185. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 255.

**186. Heydər Babayev,** H e y d ə r A y d ı n o ğ l u (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 256.

**187. Yavər Camalov** (d.1949) – mühəndis. Azneft İstehsalat Birliyinin Baş direktoru olmuşdur. Hazırda Müdafiə Sənayesi naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 256.

**188. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u S e y i d o ğ l u (d.1955) – iqtisadçı. 2000-ci ildə Azərbaycan Respub-

likası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 256–266.

**189. Beyləqan** (1989-cu ilə qədər Jdanov) – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. Sahəsi 1131,1 km$^2$, əhalisi 81,7 min nəfərdir. – 264,285,308–317.

**190. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 123,3 min nəfərdir. Füzuli şəhəri və bir çox kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 264,285–304.

**191. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 188,4 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 264, 303.

**192. Tanzaniya,** Birləşmiş Tanzaniya Respublikası – Şərqi Afrikada dövlət. Sahəsi 945,1 km$^2$, əhalisi 29 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dodomadır. – 270.

**193. Cakayya Kikvet** (d.1950) – Tanzaniya dövlət xadimi. 2005-ci ildən Tanzaniya prezidenti, 2008-ci ildən Afrika İttifaqının sədridir. – 270.

**194. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdamdır. –271.

**195. II Beatriks** (d.1938) – 1980-ci ildən Niderlandın kraliçası. – 271.

**196. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 48 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 272.

**197. Tabo Mbeki** (d.1942) – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. –272.

**198. «Azadlıq» radiostansiyası** – Şərqi Avropanın və başqa regionların bəzi ölkələrində verilişlər aparan ABŞ-ın dövlət radiostansiyası. – 274.

**199. «Sabançı Holdinq»** – Türkiyədə böyük özəl maliyyə-sənaye konqlomeratı, nüfuzlu Sabançı ailəsinə mənsubdur. Əsası 1967-ci ildə qoyulmuşdur. Qərargahı İstanbuldadır. «Sabançı Holdinq»in 2013-cü ildə aktivləri 98,3 milyard dollar, gəliri 1 milyard dollar olmuşdur. Kompaniyada 57,4 min nəfər çalışır. Əsas işi bank işi, sığorta, təkrar istehsal, sement, avtobus, kağız, informasiya texnologiyası, telekommunikasıyadır. – 276.

**200. Ömər Sabançı** (d.1959) – «Sabançı Holdinq»in rəhbərlərindən biri olmuşdur. 2009-cu ildən «Densa Holdinq»i yaradaraq «Sabançı Holdinq»dən ayrılmışdır. Bu şirkət inşaat, plastik avadanlıq, hava daşınmaları ilə məşğuldur. – 276.

**201. «Yedinaya Rossiya»,** Ü m u m r u s i y a  S i y a s i  P a r t i y a s ı – Rusiyada sağ mərkəzçi sosial-mühafizəkar partiya, Rusiyanın ən böyük partiyası. 2003-cü il seçkilərinə görə partiya Rusiya Dövlət Dumasında parlament çoxluğu, 2007-ci il seçkilərinə görə isə Konstitusiya çoxluğu əldə etmişdir. 2010-cu ildə hökumətin beş üzvü, ölkənin 83 subyektinin 75-nin rəhbəri «Yedinaya Rossiya»nın nümayəndəsi olmuşdur. – 277.

**202. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006 və 2008–2011-ci illərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri olmuşdur. – 278.

**203. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 290.

**204. Rövnəq Abdullayev,** R ö v n ə q  İ b r a h i m  o ğ l u (1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 286.

**205. «Azenko»** – Azərbaycanda tikinti şirkəti. 2006-cı ildən fəaliyyətə başlamışdır. «Azenko» Holdinqin tərkibinə beş tikinti şirkəti daxildir. Yarandığı vaxtdan «Azenko» otel binalarının, hündürmərtəbəli evlərin, biznes mərkəzlərinin tikinti işləri ilə məşğul olur. – 286.

**206. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 287,288.

**207. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 288.

**208. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmiş Horadiz altı ay sonra Azərbaycan ordusu tərəfindən azad edilmişdir. – 292,305–307.

**209. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 45,8 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 318–323.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Rövnəq** – 286
**Abutalıbov Hacıbala** – 8,30,39,61,219,227
**Aqramunt Pedro** – 233
**Al Saud əl-Valid** – 177
**Aleksandr Ata** – 138
**Anar** – 169–170
**Ansola Xose** – 218
**Aytmatov Çingiz** – 32
**Babayev Arif** – 63–64
**Babayev Heydər** – 256
**Bağırov Hüseynqulu** – 256,266
**Bakiyev Kurmanbek** – 28–30
**Barrozu Joze** – 223
**Batırşin Radik** – 156
**Beatriks** – 271
**Belluççi Monika** – 182–183
**Ben Əli Zeynulabidin** – 129
**XVI Benedikt** – 134,269
**Berdiməhəmmədov Qurbanqulu** – 121,240
**Berluskoni Silvio** – 278
**Bertone Tarçizio** – 134–138
**Besesku Trayan** – 226
**Bitti Riççi** – 155
**Boriseviç Boqdan** – 49
**Braunbək Sem** – 7
**Brayzə Mətyu** – 119,221
**Buş Corc** – 225
**Camalov Yavər** – 256
**Çiçək Cəmil** – 244
**Çunvan Szya** – 216–217

**Denisov Andrey** – 8
**Desteksi Alen** – 233–234
**Espinos Antonio** – 186
**Əhməd İacuddin** – 125
**Əl-Əsəd Bəşşar** – 243
**Ələsgərov Valeh** – 92
**Əliyev Heydər** – 18,37,59,64,87,89,97,98,99, 111,136,152,209,216,279, 280,281,282,283,284,289,290, 292,298,305,308,309,314,319, 321
**Əliyev Ülfət** – 12
**Əliyeva Leyla** – 11–27
**Əliyeva Mehriban** – 11–27,39,40,50–56,57,64,67, 83,89,90,153,187–197,208–209,288,289,306,322
**Ərdoğan Rəcəb Tayyib** – 244
**Əsədov Oqtay** – 38,197
**Əsgərov Mirzə** – 26
**Fasye Bernar** – 221
**Feldhof Ulrix** – 207
**Feyta Daniel** – 275
**Fornas Bernard** – 182–183
**Gedmin Cefri** – 274
**Georgiu Nihay** – 219
**Gəncəvi Nizami** – 67,153
**Gül Abdullah** – 225
**Hacıyev Vilyam** – 94
**Həsənov Əli** – 287,288
**Holtzman Mark** – 154
**Hüseynov İbrahim** – 106
**Hüseynov Akif** – 115,116,117
**Hu Szintao** – 175
**İxiilov Semyon** – 138
**İnqlis Endryu** – 245
**II İohann Pavel** – 136,138

**İsmayılova Esmiral** – 109
**Kaas Patrisiya** – 182–183
**Kaçinski Lex** – 39–47,50–56,57–60
**Kaçinski Mariya** – 39,40,50–56,57
**Kanerva İlkka** – 62
**Karamanlis Kostas** – 172
**Kaspirşik Anji** – 221
**Kastro Raul** – 35
**Kərzai Həmid** – 223
**Kikvet Cakayya** – 270
**Klaus Vatslav** – 5
**Komissar Mixail** – 185
**Kufuor Con** – 33
**Qrononu Nikolas** – 123
**Qucerotti Klaudio** – 138
**Qurgenidze Vladimir** – 171
**Qureyşi Cavid** – 122
**Lebedev Sergey** – 173
**Lennon Joze** – 120
**Lintner Eduard** – 232
**Lomonosov Mixail** – 13
**Makalis Meri** – 127
**Mbeki Tado** – 272
**Mamedgəldiyev Ağagəldi** – 240–241
**II Marqret** – 242
**Mehdiyev Ramiz** – 8,30,38,39,61,197,219,227, 279–284
**Meredov Rəşid** – 121
**Medvedev Dmitri** – 28–30
**Merzlyakov Yuri** – 221
**Məlikov Əlixan** – 309
**Məmmədov Qərib** – 90,92
**Məmmədov Ziya** – 184
**Merzlyakov Yuri** – 221
**Mənn Stiven** – 31,65
**Mikayıl Müşfiq** – 29

**Morel Pyer** –131
**Müşərrəf Pərviz** – 126
**Natəvan** – 179
**Novikov Sergey** – 174
**Nəsibov Bəhram** – 288
**Orucov Emin** – 113
**Pan Gi Mun** – 223
**Papulias Karolos** – 124
**Paşazadə Hacı Allahşükür** – 138
**Pirverdiyev Etibar** – 286
**Pırvanov Georgi** – 34,139–151
**Pohamba Nifikepunye** – 128
**Proniçev Vladimir** – 6
**Putin Vladimir** – 9–10,28–30,225,277
**Rasizadə Artur** – 8,30,38,39,61,197,219,227
**Saakaşvili Mixeil** – 220
**Sabançı Ömər** – 276
**Sabir Mirzə Ələkbər** – 152,153
**Sadovniçi Viktor** – 11–27
**Seyidov Arif** – 117
**Sxeffer Yaap** – 130,223,224,225
**Simmons Robert** – 130
**Süleymanova Gültəkin** – 84
**Şərifov Abid** – 139
**Talıbova Aidə** – 82
**Tol Vilyam** – 288
**Tusk Donald** – 48
**Vad Abdulay** – 176
**Vil Pol** – 232
**Zabarovski Roman** – 57
**Zatlers Valdis** – 222

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron (*yarımada*)** | – 266 |
| **Ağcabədi** | – 315 |
| **Ağdam** | – 264,303 |
| **Almaniya** | – 79 |
| **Amerika Birləşmiş Ştatları** | – 7,31,65,119,204,221,225,275 |
| **Anqola** | – 205 |
| **Aralıq dənizi** | – 104,235 |
| **Asiya** | – 25,145,160,248 |
| **Avrasiya** | – 119 |
| **Avropa** | – 25,58,59,60,108,137,144, 145,146,160,164,193,222, 224,228,229,230,234,238, 248, 253 |
| **Bakı** | – 5,23,24,25,30,33,34,35,50, 61,93,124,125,126,127,128, 129,132,159,160,162,163,165, 167,170,175,176,178,187,206, 208,209,212,213,216,218,242, 243,266,267,269,270,271, 272,275 |
| **Balkan (*yarımada*)** | – 147 |
| **Baltik dənizi** | – 46,58,59,235 |
| **Banqladeş** | – 125 |
| **Basarkeçər** | – 115 |
| **Belçika** | – 232,233 |
| **Beyləqan** | – 264,285,308–317 |
| **Biləsuvar** | – 318–323 |
| **Bolqarıstan** | – 34,139–151 |
| **Böyük Mərcanlı** | – 319 |
| **Buxarest** | – 130,200,219–227,236 |

**Cəbrayıl** – 318–323
**Cənubi Afrika Respublikası** – 272
**Cənubi Qafqaz** – 110,130,297
**Çexiya** – 5
**Çin** – 69,175
**Dağlıq Qarabağ** –42,43,45,53,105,108,109,113, 119,123,144,190,191,202, 203,204,210,216,221,224, 236,237,238,256,293,294, 298,299,315–317
**Danimarka** – 242
**Daşkəsən** – 68,73
**Davos** – 75,154,168
**Əfqanıstan** – 200,223
**Əli Bayramlı** – 315
**Finlandiya** – 62
**Fransa** – 79,108,204,221
**Füzuli** – 285–304
**Gəncə** – 67–81,87,93,160,264
**Göyçə** – 115
**Göygöl** – 87
**Gürcüstan** – 51,93,171,220,315
**Hacıkənd** – 87
**Horadiz** – 292,305–307
**Xankəndi** – 36–38
**Xanlar** – 97–118
**Xatın** – 36
**Xəzər dənizi** – 13,46,59,104,144,145,146, 159,224,235
**Xocalı** – 36–38,206
**İran** – 93,210
**İrlandiya** – 127
**İspaniya** – 79,233
**İtaliya** – 108,278
**Kəlbəcər** – 113–118,295
**Kosovo** – 147,148,200

**Krakov** – 47,50,52,53
**Kuba** – 35
**Qafqaz** – 13,206
**Qana** – 33
**Qara dəniz** – 46,104,144,145,146,224, 235,236
**Qazaxıstan** – 30
**Qdansk** – 57–60
**Qırğızıstan** – 28–30
**Laçın** – 295
**Latviya** – 222
**Lənkəran** – 160
**Liditsa** – 36
**Meksika** – 69
**Mingəçevir** – 87
**Misir** – 69
**Moskva** – 8–30,32,88
**Naftalan** – 82–88
**Naxçıvan** – 160
**Naxçıvan MR** – 167
**Namibiya** – 128
**Niderland** – 271
**Oradur** – 36
**Orta Asiya** – 130,131
**Pakistan** – 122,126
**Polşa** – 39–61,88,108
**Rumıniya** – 219–227,236
**Rusiya** – 6,8–30,66,69,93,108,204, 221,225,315
**Saatlı** – 315
**Samux** – 89–96
**Seneqal** – 176
**Səudiyyə Ərəbistanı** – 177
**Suriya** – 243
**Şəki** – 87
**Şəmkir** – 90

**Tanzaniya** – 270
**Tərtər** – 303
**Tunis** – 129
**Türkiyə** – 79,108,147,225,244,257,275,315
**Türkmənistan** – 121,240–241
**Ukrayna** – 51
**Vanuatu** – 205
**Varşava** – 42
**Vatikan** – 134–138,269
**Vilnüs** – 50
**Yaponiya** – 223
**Yerevan** – 206
**Yunanıstan** – 124,147,172
**Zəngəzur** – 210
**Zobucuq** – 287–299
**Yeni Zod** (*kənd)* – 210

# MÜNDƏRİCAT

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*20 fevral 2008-ci il* ........................................................................ *5*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA
FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN
BİRİNCİ MÜAVİNİ – SƏRHƏD XİDMƏTİNİN RƏİSİ,
GENERAL VLADİMİR PRONİÇEVİ QƏBUL ETMİŞDİR

*20 fevral 2008-ci il* ........................................................................ *6*

ABŞ SENATORU SEM BRAUNBƏKİN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 fevral 2008-ci il* ........................................................................ *7*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
MOSKVAYA SƏFƏRİ

*20 fevral 2008-ci il* ........................................................................ *8*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASININ
PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞÜ

*21 fevral 2008-ci il* ........................................................................ *9*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVƏ M.V.LOMONOSOV ADINA
MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ
PROFESSORU ADININ VERİLMƏSİ MƏRASİMİ

*21 fevral 2008-ci il* ...................................................................... *11*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNDƏ NİTQİ

*21 fevral 2008-ci il ........................................................................ 13*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISI

*22 fevral 2008-ci il ........................................................................ 28*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 fevral 2008-ci il ........................................................................ 31*

MƏŞHUR YAZIÇI ÇİNGİZ AYTMATOVLA GÖRÜŞ

*25 fevral 2008-ci il ........................................................................ 32*

QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CON KOFİ AQİYEKUM KUFUORA

*25 fevral 2008-ci il ........................................................................ 33*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA

*25 fevral 2008-ci il ........................................................................ 34*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

*25 fevral 2008-ci il ........................................................................ 35*

XOCALI FACİƏSİ QURBANLARININ ANIM MƏRASİMİ

*25 fevral 2008-ci il ........................................................................ 36*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
POLŞAYA RƏSMİ SƏFƏRİ

*26 fevral 2008-ci il ........................................................................ 39*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏ-
TƏK GÖRÜŞÜ

*26 fevral 2008-ci il ........................................................................ 41*

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ
GÖRÜŞÜ

*26 fevral 2008-ci il ........................................................................ 42*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BƏYA-
NATLARLA ÇIXIŞLARI

*26 fevral 2008-ci il ........................................................................ 43*

POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK İLƏ GÖRÜŞ

*26 fevral 2008-ci il ........................................................................ 48*

POLŞA SENATININ MARŞALI BOQDAN BORU-
SEVİÇ İLƏ GÖRÜŞ

*26 fevral 2008-ci il ........................................................................ 49*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*26 fevral 2008-ci il ........................................................................* 50

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
POLŞA RESPUBLİKASININ «XİDMƏTLƏRƏ
GÖRƏ» BÖYÜK XAÇ ORDENİ İLƏ TƏLTİF
EDİLMİŞDİR

*26 fevral 2008-ci il ........................................................................ 54*

QDANSK ŞƏHƏRİNƏ YOLASALMA MƏRASİMİ

*27 fevral 2008-ci il* ........................................................................ *57*

QDANSK NEFT LİMANI İLƏ TANIŞLIQ

*27 fevral 2008-ci il* ........................................................................ *58*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ İLKKA KANERVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2008-ci il* ........................................................................ *62*

XALQ ARTİSTİ ARİF BABAYEV İLƏ GÖRÜŞ

*29 fevral 2008-ci il* ........................................................................ *63*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNN İLƏ GÖRÜŞ

*1 mart 2008-ci il*............................................................................ *65*

ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*3 mart 2008-ci il*.............................................................................*66*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*3 mart 2008-ci il* ...........................................................................*67*

«DAŞKƏSƏN FİLİZSAFLAŞDIRMA» ASC-nin GƏNCƏ POLAD KOMPLEKSİNİN VƏ DETAL ALÜMİNİUM ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*3 mart 2008-ci il* ............................................................................ *68*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAFTALAN ŞƏHƏRİNDƏ

*3 mart 2008-ci il*............................................................................ *82*

SAMUX RAYONUNDA HEYDƏR ƏLİYEV MUZEYİ
İLƏ TANIŞLIQ

*3 mart 2008-ci il* ........................................................................... *89*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
XANLAR ŞƏHƏRİNDƏ

*4 mart 2008-ci il*........................................................................... *97*

ERMƏNİSTANDAN DİDƏRGİN DÜŞMÜŞ ZOD
KƏNDİNİN QAÇQINLARI VƏ KƏLBƏCƏRDƏN
OLAN MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞ

*4 mart 2008-ci il*........................................................................... *113*

ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏ-
LƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRU-
PUNUN HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*5 mart 2008-ci il*........................................................................... *119*

NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ
JOZE LELLON İLƏ GÖRÜŞ

*5 mart 2008-ci il*........................................................................... *120*

TÜRKMƏNİSTAN NAZİRLƏR KABİNETİ SƏDRİ-
NİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD
MEREDOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2008-ci il*........................................................................... *121*

PAKİSTANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ CAVİD
QUREYŞİ İLƏ GÖRÜŞ

*6 mart 2008-ci il*........................................................................... *122*

«İNTERNATİONAL CRİSİS GROUP»UN DİREKTOR
MÜAVİNİ NİKOLAS QRONONU İLƏ GÖRÜŞ

*6 mart 2008-ci il*........................................................................... *123*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULİASA

*7 mart 2008-ci il......................................................................................... 124*

BANQLADEŞ XALQ RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN
ƏHMƏDƏ

*7 mart 2008-ci il..........................................................................................125*

PAKİSTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ
MÜŞƏRRƏFƏ

*7 mart 2008-ci il..........................................................................................126*

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
XANIM MERİ MAKALİSƏ

*7 mart 2008-ci il..........................................................................................127*

NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HİFİKEPUNYE
POHAMBAYA

*7 mart 2008-ci il......................................................................................... 128*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ

*7 mart 2008-ci il..........................................................................................129*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA
ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT
SİMMONSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*7 mart 2008-ci il......................................................................................... 130*

AVROPA İTTİFAQININ ORTA ASİYA ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ PYER MORELİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 mart 2008-ci il......................................................................................... 131*

8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*7 mart 2008-ci il*........................................................................................ *132*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ, KARDİNAL TARÇİZİO BERTONENİ QƏBUL ETMİŞDİR

*7 mart 2008-ci il*........................................................................................ *134*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*10 mart 2008-ci il*...................................................................................... *139*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*10 mart 2008-ci il*...................................................................................... *140*

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*10 mart 2008-ci il*...................................................................................... *141*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BOLQARISTAN PREZIDENTI GEORGI PIRVANOVUN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*10 mart 2008-ci il*...................................................................................... *143*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*10 mart 2008-ci il*...................................................................................... *149*

İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ ƏTRAF ƏRAZİLƏRDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*11 mart 2008-ci il* .......... *152*

«ABN AMRO»nun VİTSE-PREZİDENTİ MARK HOLTZMAN İLƏ GÖRÜŞ

*11 mart 2008-ci il* .......... *154*

BEYNƏLXALQ TENNİS FEDERASİYASININ PREZİDENTİ FRANÇESKO RİÇÇİ BİTTİ VƏ RUSİYA TENNİS FEDERASİYASININ PREZİDENTİ ŞAMİL TARPİŞEV İLƏ GÖRÜŞ

*11 mart 2008-ci il* .......... *155*

«MİR» TELEVİZİYA KANALININ RƏHBƏRİ RADİK BATIRŞİN İLƏ GÖRÜŞ

*11 mart 2008-ci il* .......... *156*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ AVTOMOBİL YOLLARI ŞƏBƏKƏSİNİN İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*12 mart 2008-ci il* .......... *157*

YEKUN NİTQİ .......... *165*

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN SƏDRİ ANARA

*13 mart 2008-ci il* .......... *169*

GÜRCÜSTANIN BAŞ NAZİRİ VLADİMİR QURGENİDZE İLƏ GÖRÜŞ

*13 mart 2008-ci il* .......... *171*

YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 mart 2008-ci il*.............................................................................. *172*

MDB-nin İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*17 mart 2008-ci il*.............................................................................. *173*

BEYNƏLXALQ UNİVERSAL DÖYÜŞ FEDERASİYA-SININ PREZİDENTİ SERGEY NOVİKOV İLƏ GÖRÜŞ

*17 mart 2008-ci il*.............................................................................. *174*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*18 mart 2008-ci il*.............................................................................. *175*

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA

*18 mart 2008-ci il*.............................................................................. *176*

SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ ƏL-VALİD BİN TƏLAL BİN ƏBDÜLƏZİZ AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 mart 2008-ci il*.............................................................................. *177*

SABİR BAĞINDA VƏ NİZAMİ MEYDANINDA GÖRÜLMÜŞ ƏSASLI TƏMİR İŞLƏRİ İLƏ TANIŞLIQ

*18 mart 2008-ci il*.............................................................................. *178*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*19 mart 2008-ci il*..............................................................................*180*

MƏŞHUR FRANSALI MÜĞƏNNİ PATRİSİYA
KAASIN KONSERTİNDƏ

*19 mart 2008-ci il*........................................................................ *182*

NEFTÇİLƏR PROSPEKTİNDƏ ƏSASLI TƏMİR
EDİLMİŞ YERALTI PİYADA KEÇİDİ İLƏ
TANIŞLIQ

*19 mart 2008-ci il*........................................................................ *184*

«İNTERFAKS» BEYNƏLXALQ İNFORMASİYA
QRUPUNUN DİREKTORLAR ŞURASININ SƏDRİ
MİXAİL KOMİSSAR İLƏ GÖRÜŞ

*19 mart 2008-ci il*........................................................................ *185*

ÜMUMDÜNYA KARATE FEDERASİYASININ
PREZİDENTİ ANTONİO ESPİNOS İLƏ GÖRÜŞ

*20 mart 2008-ci il*........................................................................ *186*

BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ
ÜMUMXALQ ŞƏNLİYİNDƏ

*20 mart 2008-ci il*........................................................................ *187*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
«İNTERFAKS» AGENTLİYİNƏ MÜSAHİBƏSİ

*20 mart 2008-ci il*........................................................................*198*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
BEYNƏLXALQ KANOE FEDERASİYASININ PRE-
ZİDENTİ ULRİX FELDHOFU QƏBUL ETMİŞDİR

*29 mart 2008-ci il*........................................................................ *207*

DÖVLƏT FİLARMONİYASININ YERLƏŞDİYİ
BAĞDA VƏ DƏNİZKƏNARI MİLLİ PARKDA BƏRPA
VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*29 mart 2008-ci il*........................................................................ *208*

31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*29 mart 2008-ci il ........................................................................ 210*

BEYNƏLXALQ ANTİKORRUPSİYA ORQANLARI ASSOSİASİYASI İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*31 mart 2008-ci il ........................................................................ 213*

ATƏT-in BAKI OFİSİNİN BAŞÇISI XOSE LUİS HERRERO ANSOLA İLƏ GÖRÜŞ

*1 aprel 2008-ci il ........................................................................ 218*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA SƏFƏRİ

*2 aprel 2008-ci il ........................................................................ 219*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*2 aprel 2008-ci il ........................................................................ 220*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*2 aprel 2008-ci il ........................................................................ 221*

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*3 aprel 2008-ci il ........................................................................ 222*

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ (ISAF) TÖHFƏ VERƏN QEYRİ-NATO ÖLKƏLƏRİNİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ƏFQANISTANA DAİR BİRGƏ İCLASI

*3 aprel 2008-ci il ........................................................................ 223*

AVROATLANTİK TƏRƏFDAŞLIQ ŞURASINDA DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ NATO BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞ

*3 aprel 2008-ci il* ........................................................................ *224*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ BİR SIRA ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI İLƏ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

*3 aprel 2008-ci il* ........................................................................ *225*

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*3 aprel 2008-ci il* ........................................................................ *226*

«AZƏRBAYCANDA SİYASİ HÜQUQLARIN QORUNMASI – YENİ MEYARLAR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN XARİCİ ÖLKƏLƏRDƏN OLAN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*7 aprel 2008-ci il* ........................................................................ *228*

TÜRKMƏNİSTANIN MÜDAFİƏ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 aprel 2008-ci il* ........................................................................ *240*

DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*8 aprel 2008-ci il* ........................................................................ *242*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ

*8 aprel 2008-ci il* ........................................................................ *243*

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ CƏMİL ÇİÇƏK İLƏ GÖRÜŞ

*11 aprel 2008-ci il* ...................................................................... *244*

*bp* ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ
ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*11 aprel 2008-ci il* .......................................................................... *245*

NAZİRLƏR KABİNETİNİN 2008-ci İLİN BİRİNCİ
RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA
GİRİŞ NİTQİ

*14 aprel 2008-ci il* .......................................................................... *246*

YEKUN NITQI ................................................................................ *257*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

*15 aprel 2008-ci il* ..........................................................................*269*

TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CAKAYA
KİKVETEYƏ

*15 aprel 2008-ci il* ..........................................................................*270*

NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT
BEATRİKSƏ

*15 aprel 2008-ci il* ..........................................................................*271*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ

*15 aprel 2008-ci il* ..........................................................................*272*

UKRAYNANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ
SƏLAHİYYƏTLİ SƏFİRİ STEPAN VOLKAVETSKİ
İLƏ GÖRÜŞ

*15 aprel 2008-ci il* .......................................................................... *273*

«AZADLIQ» RADİOSUNUN PREZİDENTİ CEFRİ
GEDMİN İLƏ GÖRÜŞ

*15 aprel 2008-ci il* .......................................................................... *274*

ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ ÜZRƏ MÜŞAVİRİ DANİEL FEYTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 aprel 2008-ci il ........................................................................ 275*

TÜRKİYƏNİN «SABANÇI HOLDİNQ» ŞİRKƏTİNİN RƏHBƏRLƏRİNDƏN BİRİ VƏ MÜŞAHİDƏ ŞURASININ ÜZVÜ ÖMƏR SABANÇI İLƏ GÖRÜŞ

*17 aprel 2008-ci il ........................................................................ 276*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ, «YEDİNAYA ROSSİYA» PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*17 aprel 2008-ci il ........................................................................ 277*

İTALİYANIN AZADLIQ XALQ PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ

*17 aprel 2008-ci il ........................................................................ 278*

PREZİDENTİN İCRA APARATININ RƏHBƏRİ RAMİZ MEHDİYEVƏ «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*17 aprel 2008-ci il ........................................................................ 279*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FÜZULİ, BEYLƏQAN VƏ BİLƏSUVAR RAYONLARINA SƏFƏRİ

*18 aprel 2008-ci il ........................................................................ 285*

ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV TƏMAS XƏTTİNDƏ «N» HƏRBİ HİSSƏSİNDƏ OLMUŞDUR

*18 aprel 2008-ci il ........................................................................ 300*

HORADİZ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MUZEYİ
İLƏ TANIŞLIQ

*18 aprel 2008-ci il* ........................................................................ *305*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV BEYLƏQAN RAYONUNDA

*18 aprel 2008-ci il* ........................................................................ *308*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
BİLƏSUVAR RAYONUNDA

*18 aprel 2008-ci il* ........................................................................ *318*

QEYDLƏR ........................................................................ *324*

*Şəxsi adlar göstəricisi*........................................................................ *371*

*Coğrafi adlar göstəricisi*........................................................................*375*

| | |
|---|---|
| **Texniki redaktor** | *Zoya Nəcəfova* |
| **Yığım üzrə operator** | *İlhamə Kərimova* |
| **Kompyuter tərtibatı** | *Məhəbbət Orucov* |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5.
Uçot vərəqi 26,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.